

Bizi əsirlikdən QURTARIN
RELEASE US FROM CAPTIVITY



# BİZİ ƏSİRLİKDƏN QURTARIN

# RELEASE US FROM CAPTIVITY

# ƏSİR-GİROV GÖTÜRÜLMÜŞ AZƏRBAYCAN VƏTƏNDAŞLARININ ERMƏNİSTAN VƏ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏ SAXLANILDIĞI MƏNTƏQƏLƏR

# THE POINTS WHERE AZERBAIJANI CITIZENS WHO WERE TAKEN PRISONERS AND HOSTAGES WERE KEPT IN ARMENIA AND OCCUPIED TERRITORIES.




- Abovyan şəh.
- Ararat
- Araçadzor k. (Ağdərə)
- Artik k.
- Ağdam
- Ağdam, Şahbulaq k.
- Ağdərə, Vəng k.
- Aşağı Veysəlli k. (Füzuli)
- Berd rayonu
- Vaquas k. (Ağdərə)
- Vardenis
- Vəng k. (Ağdərə)
- Qafan
- Qırmızı Bazar k.
- Daroqert k. (Eçmiadzin)
- Daşbulaq k. (Əsgəran),
- Drambon k. (Ağdərə)
- Dəhraz k.
- Edilli (Hadrut)
- Erebuni şəh. (Ermənistan)
- Erebuni rayonu (hospital)
- Zəngilan
- İcevan
- Yerevan
- Yerevan (DTK)
- Yerevan (həbsxanası)
- Yerevan (hərbi polis)
- Keçəldağ k. (Şuşa)
- Kirovakan
- Kuropatkino k. (Xocavənd)
- Kəlbəcər
- Kəlbəcər, Daşbulaq k.
- Kərkicahan k. (Xankəndi)
- Leninakan
- Ləmbəli k. (Noyemberyan)
- Madagiz k. (Ağdərə)
- Malxələfli k. (Laçın)
- Meğri
- Muşkapat k. (Xocavənd)
- Mısmına k. (Xocavənd)
- Məlikcanlı k. (Xocavənd)
- Noyemberyan
- Oktemberyan
- Paravakar k. (Berd r/n)
- Pircamal k. (Əsgəran)
- Razdan,
- Sisian
- Spitak
- Spitak (2-ci kolon)
- Spitak (türmə № 8)
- Spitak (həbsxanası),
- Stepanavan
- Tuğ k. (Füzuli)
- Füzuli
- Füzuli, Çartaz k.
- Xanadzax,
- Xankəndi
- Xankəndi (alay),
- Xankəndi (batalyonda)
- Xankəndi (baş qərargah)
- Xankəndi (kəşfiyyat rotası)
- Xankəndi (məktəb binası)
- Xankəndi (uşaq bağçası)
- Xankəndi (hospital)
- Xankəndi (həbsxanası)
- Xankəndi MS izolyatoru
- Xankəndi polis idarəsi
- Xankəndi, "Çor" alayı
- Xanlıq k. (Qubadlı)
- Xocavənd
- Xocalı
- Çaytumas k. (Qubadlı)
- Çartaz k. (Xocavənd)
- Şuşa
- Şuşa (avtobaza)
- Şuşa (alayda)
- Şuşa (polis idarəsi)
- Şuşa (sanatoriyası)
- Şuşa (türmə)
- Şuşa, Xələfli k.
- Spitak
- Hadrut
- Horadiz
- Cermuk şəh.
- Gorus
- Qarabağlı k.
- Əsgəran
- Əsgəran (qərargah)

Esmira Orucova Esmira Orujova

# Bizi əsirlikdən qurtarın

# Release us from captivity

Bakı-2006

Redaktor:
**MAHİR CAVADOV**

Tərtibçi:
**ESMİRA ORUCOVA**

Editor:
**MAHIR JAVADOV**

Compiler:
**ESMIRA ORUJOVA**

Bizi əsirlikdən qurtarın.
Bakı-Qismət-2006, 680 səh.
ISBN 9952-8058-3-7

Release us from captivity.
Baku-Gismet-2006, 680 pages
ISBN 9952-8058-3-7

Kitabda Ermənistanın işğalçılıq siyasəti nəticəsində əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarının işğal altında olan ərazilərdə və Ermənistanda saxlandıqlarını, əzab və işgəncələrə məruz qaldıqlarını təsdiqləyən şahid ifadələri, habelə beynəlxalq təşkilatların və qarşı tərəfin nümayəndələrinin tərtib etdikləri sənədlər əsasında toplanmış faktlar oxucuya təqdim olunur.

The book presents to the reader facts collected on the basis of witness evidences that prove keeping Azerbaijani citizens who were captivated and taken as hostages in the occupied territories and in Armenia, put these citizens to torture and tyranny as the result of occupation policy of Armenia, as well as on the basis of documents compiled by international organizations and representatives of the opposite side.

© Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası.

## TƏRİTİBÇİDƏN

Qədim bakılı nəslindənəm. Bakıda doğulub, burada boya-başa çatmışam. Heyf ki, Qarabağı görmək mənə qismət olmayıb. Azərbaycanın bu dilbər, cənnət guşəsi haqda təsəvvürüm şəkil və tablolardan, televiziya süjetlərindən, bir də qarabağlı xanımların göz yaşları, həsrət dolu xatirələrindən formalaşıb.

2004-cü ildə, Şuşanın işğalı günü ilə bağlı qadınların Qarabağ forumunda çıxışımı "Ulu Tanrı millətimə Araz boyda dərdi azmış kimi, əbədi Qarabağ, qaçqın, köçkün, əsir, girov dərdi də verdi" sözləri ilə başlayan zaman ziyalılığına və xanımlığına hörmət bəslədiyim ali məktəb müəllimi sözümü kəsib, mənə irad tutdu. O, torpaqlar qayıdarsa, Qarabağ dərdinin də sağalacağını dedi.

Ancaq yox! Məncə Qarabağ geri qaytarılsa belə, qərinələr, əsrlər keçsə də əsir, girov, itkin dərdi xalqımın qan yaddaşından silinməyəcək, amansız düşmənin alçaqlıq və naqisliklərini gözləri ilə görmüş, əzab və işgəncələrini vücudlarında hiss etmiş bu ahılların, xanım analarımızın, igid oğullarımızın, qız-gəlinlərimizin, körpə balalarımızın dərdi ovunmayacaq heç vaxt…

26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni-rus silahlı birləşmələrinin işğalına məruz qalanda Bakı məktəblərindən birində müəllim işləyirdim.

## FROM THE COMPILER

I come of old Baku stock. I was born and grew up in Baku. To my regret, I was not fated to see Garabagh. I have got a notion about this splendid, heavenly corner of Azerbaijan from photos, pictures, TV programs and the memories of women from Garabagh, full of tears and anguish.

At the Women's Garabagh Forum which was held in 2004 in commemoration of the day when Shusha was seized I began my speech with the words: "As if not having such a big problem like the Araz issue? the Most High gave our nation eternal Garabagh problem and the great grieves of refugees, settlers, prisoners and hostages". At that moment a very intellectual lady and respected university teacher interrupted my speech and corrected me. She stressed that we would forget our grieves and sorrows provided we got our lands back.

But no! I think even if we get Garabagh back, the sufferings of prisoners, hostages and missing people won't be erased from our nation's memory, the pains and anguish of old men, mothers, brave sons, daughters and children who have become the eye-witnesses of meanness and base-ness of the merciless enemy and have been physically tortured with never abate, even centuries later…

On the 26th of February, 1992 the day when Khojali was occupied by the Armenian and Russian military troops, I

Xocalıdan gətirilmiş yaralıların evimizin ətrafındakı xəstəxanalarda yerləşdirildiyini eşidən vaxtdan günüm onların yanında keçirdi. İşdən gələn kimi oğlumu da götürüb xəstəxanalara gedir, saatlarla onların söhbətlərinə qulaq asır, dərdlərinə şərik çıxmağa çalışırdım. Çoxunun ailə üzvlərinin ermənilər tərəfindən əsir götürüldüyünü eşidəndə təəccüb məni bürüyürdü: 20-ci yüzillikdə, kosmos, texnika əsrində insanlar milli zəmində bir-birini qırır, əsir, girov götürür, zülm və işgəncələr verərək öldürür. Özü də bütün bunlar haqdan, ədalətdən bar-bar bağıran dünyanın gözü qarşısında baş verir.

Şagirdim Ələkbərov Fuadın anası - Qarayev adına uşaq xəstəxanasında baş tibb bacısı işləyən Səlimə xanım mənə bir neçə yaralı, qarlı meşələrdə şaxtadan don vurmuş uşaqları, qolu erməni gülləsindən qanqrena olduğu üçün kəsilmiş 8-9 yaşlı oğlanı göstərib, göz yaşlarından boğula-boğula onların valideynlərinin ermənilər tərəfindən girov götürüldüyünü bildirmişdi. Məktəbin pioner otağını boşaldıb, Xocalı yaralılarına yardım etmək üçün qərargah yaratdım. Yuxarı sinif şagirdlərindən növbələr düzəldib, onlara yardım göstərsək də, lakin onlara ən böyük dərd olan erməni əsirliyində qalmış əzizlərinin niskilini bir anlıq da olsa unutdura bilmirdik. O vaxtdan bəri əsir və girov götürülmüş soydaşlarımızın dərdi ürəyimdə qövr edib, mənə rahatlıq vermirdi.

worked as a teacher in one of the schools in Baku. Since I had learned about the wounded from Khojali being placed in the hospitals near our house, I began to visit them regu-larly and spent plenty of time there. After work I went to the hospital with my son, listened to the patients and talked with them for hours trying to share their grieves. I was astonished to hear that the majority of them had the members of their families being taken prisoners by Armenians: in the 20th century, the century of space and techniques, people killed each other, take prisoners and hostages, subject others to tortures and then murder them. And all this happens before the very eyes of the world community earnestly calling to truth and justice.

The head nurse of the children's hospital named after Garayev and the mother of my student Alakbarov Fuad - Salima khanum showed me several wounded children who had frozen in the snow forest, the boy of 8-9 years old whose arm was amputated because of the gangrene caused by the Armenian bullet, and sobbing her heart out she told me that their parents had been taken hostages by Armenians. I emptied the pioneer room at the school and set up the headquar-ters in order to help the wounded from Khojali. We gathered all the students in the higher forms together and helped these people in shifts but we could not alleviate and forget their sufferings, help to free their relatives being taken prisoners by Armenians. Since that

2004-cü ildə Əsir və itkin düşmüş, girov götürülümüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi Qrupunun hazırladığı "Erməni terroru" albom-kitabını türk dilinə (ixtisasım şərqşünas-türkoloqdur) tərcümə etmək üçün dəvət olundum. Kitabda ermənilər tərəfindən əsir və girov götürülmüş şəxslər haqqında məlumatları gördükdə illərdən bəri məni narahat edən hisslər yenidən baş qaldırdı. İşçi Qrupunun arxivində olan əsir və girov götürülmüş, itkin düşmüş şəxslərə dair sənədlər üzərində tədqiqat işi aparmağı qərara aldım. Məqsədim şahid ifadələri nəticəsində əldə olunmuş materiallar əsasında yığcam məlumatlar toplamaq, müxtəlif dillərə tərcümə etdirib, beynəlxalq ictimaiyyətə, dünyanın aparıcı dövlətlərinə, uydurma erməni soyqırımını dəstəkləyən və müzakirəyə çıxaran parlamentlərə çatdırmaq olub. Şahid materiallarına istinadən milliyyətcə azərbaycanlı, mehseti türkü, ləzgi, talış, tat, tatar, rus və ukraynalı olan 753 nəfər Azərbaycan vətəndaşının erməni əsir və girovluğunda saxlanıldığını əks etdirən “Bizi əsirlikdən qurtarın” kitabı rəhbəri olduğum “Həsrət yolu” ictimai birliyinin bu istiqamətdə həyata keçirdiyi ilk addımdır.

Mənə bu işdə böyük köməklik göstərdiyinə görə Əsir və İtkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Eldar Mahmudova dərin minnətdarlığımı bildirirəm.

Xalqımızın bu ağır dərdinə şərik

time poign-ant thoughts about our prisoners and hostages have never left my mind and tormented me.

In 2004 I was invited to translate book-album "The Armenian terror" published by he Working Group of State Committee on Prisoners, Hostages and Missing People into Turkish language (my speciality is orientalist-turkologist). While reading this book and acquainting myself with the information about the people being taken prisoners and hostages by Armenians, all those feelings and emotions tormenting me for many years shattered my peace and quiet again. I have decided to carry out a research making use of the materials on prisoners and hostages available in the archives of the Working Group. My purpose was to collect concise information alluding to the materials obtained from the testimonies of witnesses, translate it into different languages, re-port the results to the world community, the leading countries of the world, the parliaments sup-porting and discussing imagine Armenian genocide. Referring to the statements of witnesses I have collected the documents reflecting the fact that 753 Azerbaijan citi-zens of Azerbaijani, Mehseti Turk, Lezghi, Talish, Tat, Tatar, Russian and Ukrainian nationality are still kept in the Armenian captivity in the book “Release us from captivity” and it’s the first step realized in this direction as a leader of public society “The way of sorrow”.

I would like to express my gratitude to chairman of the State Committee on Priso-

çıxmaq, son həmvətənimizin taleyi məlum olanadək axtarışları davam etdirmək məramı ilə yaradılmış "Həsrət yolu" Əsir və Girovlara Kömək İctimai Birliyi adından yer üzünün vicdanlı sülhsevər insanlarına, ictimaii birliklərə hegemon dövlətlərin müvafiq qurumlarına, Avropa təşkilatlarına müraciət edir, erməni vəhşiliyin qurbanlarına çevrilmiş bu insanların əsirlikdən xilas olması üçün səy göstərməyə dəvət edirəm.

ners, Hostages and Missing Persons Eldar Mahmudov the provided help in this work.

I call to share grieves of our people and continue to search till the destiny of country men will be know on behalf of The way of sorrow" Help Public Societies for Prisoners and Hostages, I appeal to the peace-loving people, to the public socicties of definite structure of leading states and Europe organization, I invite to do our best and Release these men who were victims of Armenian brutality.

## ÖN SÖZ

Əslində bu kitabı əsir və girov götürülmüş, itkin düşmüşlər barədə natamam ömürlərin bioqrafik bilgi toplusu da adlandırmaq olar.

Xalqımızın həyatında və taleyindəki çoxsaylı tragik-dramatik məqamlara müstəqil fikir və düşüncə tərzi, XXI yüzilliyin yaxın və uzaq tarixə verəcəyi qiymət prizmasından yanaşdıqda vaxtilə müsbət müstəvidə təqdir etdiyimiz və ya mənfi çalar verib lənətlədiymiz bir çox fakt və olayların yeni təhlilə və təshihə möhtac olduğunu görərik.

Təəssüf hissilə qeyd etməliyik ki, müəyyən zaman kəsiyində Azərbaycanın tarixini yazanlar və taleyini müəyyənləşdirənlər, onu ikiyə bölənlər yadlar və yağılar olublar. Yadlar və yağılar təkcə bu millətin dilinə "genosid", "repressiya", "deportasiya", "terror" sözünü gətirməyib, həm də xalqımıza bu sözlərin məzmunundakı faciəni yaşadıblar. Nəticədə paralel olaraq mənəviyyat və əxlaqda, dildə və dində diskriminasiya, ərazilərdə itki, sərhəd dirəklərində isə içəriyə doğru sıxılma baş verib.

Adətən təbii fəlakətlərdən, üsyanlardan, müharibələrdən sonra önə çəkilən, yadda qalan və qabardılan soyuqqanlı riyazi rəqəmlər - statistika olub. Milli-mənəvi dəyərlərə zərbə və zədələrin statistik qeydiyyatını aparmaq isə bəzən yada belə düşməyib. Harmoniyanın xaosla, sabitliyin hərc-

## FOREWORD

In fact, the book may be called the biographical collection about incomplete lives of the persons who were captivated, taken as hostages or missed.

By approaching the independent mode of thinking about much tragedian-dramatic moments in the life and fate of our people from the point of view of XXI century to estimate near and distant future, we can see that a number of facts and events appreciated positively or condemned by us in their time, also need new analysis and correction.

We should note with regret that the persons who wrote about the history of Azerbaijan and determined its fate, who divided the country into two foreigners and enemies. Those enemy persons did not only brought the words "genocide", "repression", "deportation" and "terror" to the native language, but also made our people to live the tragedy in the context of these words. Consequently, there appeared discrimination in memorality and ethics, in language and religion, territory losses and embarrassment on borders.

Usually, indifferent mathematical figures remembered and over-emphasized after natural calamities, rebels and wars were statistics. Sometimes even, no one thought about conducting statistical registration of harms made

mərcliklə, zəkanın emosiya və hisslə əvəzləndiyi məqam və məkanlarda bu, bəlkə də mümkün deyil. Lakin zaman ötdükcə itən və unudulan, gərəksiz və əhəmiyyətsiz görünən duyğular və ehtiraslar ağılın, düşüncənin mühakiməsinə verilir, milli ruha və kökə qayıdışın vacibliyi üzə çıxır, yaddaşdan silinənlərin və yaddaşda qalanların fəryadı tarixin ən dərin qatlarından belə eşidilməyə başlayır. Necə ki, ərazidən şəhidə, şəhiddən əsir və girova uzanan yaddaş itkilərimizi bu günki müstəqilliyin və sabitliyin işığında yenidən dəyərləndirir və ağrı-acısını yaşayırıq.

Biz əsir, girov və itkin bioqrayiyalarını ilk dəfə 1905-ci ildə, ikinci dəfə 1918, üçüncə dəfə 1920, dördüncü dəfə 1947-1953-cü illərdə yazmalıydıq. Bəlkə də 1905-ci ildə biz bunu etmiş olsaydıq, həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdıra bilsəydik, onda ikinci, üçüncü, dördüncü....faciələrimiz də baş verməzdi. Lakin ermənilər uydurma soyqırımı əllərində bayraq etdiyi halda, biz başımıza gətirilənlərin fərqinə varmadan tariximizə biganəlik göstərdik. Bunu edə bilməməyimizdəndir ki, beşinci dəfəki faciələrimizin qurbanlarının bioqrafiyalarından başlamalı oluruq.

Bolşevik-erməni təəssübkeşliyi, qadağalar və yasaqlar şəhidlərin və şahidlərin ağrılarından yazmağa imkan vermədi. Ona görə də keçmiş əsrdən yeni əsrə əsir bioqrafiyaları, girov-itkin tərcümeyi halları ilə qədəm qoyduq. Vurulmuş zərbələr və zədələr, yeridilən genosid siyasəti təhlildən və təbliğ-

against national-moral values. Maybe, that was not possible in moments and places where harmony was substituted by chaos, stability by disorder, and intelligence by emotions and feelings. But time passed, wisdom and thought began to judge feelings and emotions that were lost or forgotten and seemed unimportant, returning to national spirit and root was given importance and scream of those who were stricken out of memories or remembered was heard even from the deepest layers of history. As, it values memory losses that began from territory, then, it led to being martyr and in its turn it led to be captivated and taken as a hostage, in the light of today's independence and stability and we live fatigue of these.

We were to write the initial biographies of the persons who were captivated, lost or taken as hostages for the first time in 1905, second time in 1918, third time in 1920, fourth time in 1947-1953. If we did that in 1905 and presented this truth to the people, then our second, third, fourth ….tragedies wouldn't happen. But while Armenians tried proved their false genocide, we showed indifference to our history without knowing what is going around us. It is for the fact that we could not do this, therefore we have to begin with the biographies of the victims for our fifth tragedy.

Bolshevik-Armenian bias, bans and prohibitions prevented us to write about fatigue of martyrs and witnesses. Therefore we left the past century for the new century with the biographies of the per-

dən kənarda qaldığından, əsirlərin, girov və itkinlərin təkcə statistikası deyil, erməni vəhşiliklərinin məzmunu və coğrafiyası da dəyişməyə və genişlənməyə başladı. Tarixin dərslərindən ibrət götürmədiymizdən növbəti dəfələrdə daha böyük fəsad və itkilərlə üzləşdik.

Fikrimizcə, işğal altda olan ərazilərdəki və Ermənistandakı həbs düşərgələrində fiziki işgəncələrə, mənəvi-psixoloji streslərə məruz qalmış soydaşlarımızın ağrılı-acılı ömür yolunu araşdırmaq, təkcə əsir və girovların tapdalanmış haqlarını müdafiəyə deyil, eyni zamanda erməni vəhşiliklərini, onların mənfur xislətini bəşəriyyətə çatdırmağa xidmət edir.

İntellekt düşüncə və mütərəqqi bəşəriyyətin “əsir”, “girov” və “itkin” anlayışlarının arxaikləşməsi, insan hüquq və azadlıqlarının bərqərar olması istiqamətində ciddi, ardıcıl və fasiləsiz iş apardığı müasir qloballaşma və demokratikləşmə dövründə erməni vandalizmi hələ də öz çirkin niyyətlərindən əl çəkmir. Ermənistanın Azərbaycana təcavüzü, faşist qəsbkarlarından geri qalmayan, hətta onları üstələyən erməni cəlladlaranın qanlı cinayətləri, 4 mindən çox həmvətənimizin itkin düşməsi, 753 nəfərin hələ də əsarətdə saxlanması, işgəncələrə düçar olması faktlarının mövcudluğu hamını və hər kəsi tarixin acı həqiqətlərindən nəticə çıxarmağa səsləməlidir.

Bu kitabdan doğan təəssürat onu deməyə əsas verir ki, erməni vandalizmi Qafqazda qafqazlılar üçün daim bö-

sons who were captivated and taken as hostages. As the harms and shocks stricken to us, the genocide policy put forward were left out of analysis and propaganda, not only the statistic of the persons who were captivated and taken as hostages, but also the contexts and geography of Armenian savagery changed and widened. As the history was not lesson for us, we faced with more difficulties and losses in following times.

In our opinion, investigation of painful lives of country-men who were exposed to physical harms and moral-spiritual stresses in the occupied territories and prisons of Armenia serves not only to protection of trampled rights of the persons who were captivated and taken as hostages, but also to informing the people about the unpleasant trait of Armenian savagery.

In modern globalization and democracy period where intellectual sense and advanced mankind conducts incessant and regular work in the field of making the concepts of "the persons who were captivated and taken as hostages" and restoration of human rights and freedoms, Armenian vandalism does not still leave its unpleasant intends. The facts of invasion of Azerbaijan by Armenia, bloody crimes of Armenian hangmen who don't leave behind fascist invaders, more than 4000 countrymen were driven out of their lands, keeping 753 persons still under occupation should call everybody to make conclusions from painful truth of the history.

yüməkdə olan bir çiban kimi bu gün də fəsadlar törətməkdədir. Bu çiban deşilmədikcə, çirkabı axıb getməyincə Qafqaz xalqlarına (o cümlədən ermənilərə) dinclik olmayacaqdır. Dünyanın müasir tərəqqi və sivilizasiya mərhələsində isə bu, təkcə Qafqazın bəlası sayılmamalı, bütün bəşəriyyət və hər bir vicdanlı bəşər övladı üçün utanc yerinə çevrilməlidir.

Bu mənada, erməni vəhşiliklərini faktlı, sənədli və predmetli şəkildə açıb göstərən belə kitabların nəşrinə və yayılmasına böyük ehtiyac vardır. Bu iş ilk növbədə vətəndaş yanğısı, milli şüur, obyektivlik və dəqiqlik tələb edir. Belə bir qədirşünaslıq və xeyirxahlıq işinin başında xalqın, millətin və dövlətin dünəninin, bu gününün və sabahının təhlükəsizliyinin təminatçısı vəzifəsini şərəflə yerinə yetirən Milli Təhlükəsizlik Nazirliyinin dayanması bizdə ikiqat qürur doğurur.

**Cəlal Qasımov,**
*filologiya elmləri doktoru*

After reading the book, the view is that Armenian vandalism is stable boil for Caucasians in Caucasus and it make problems. Before the boil still exists and separatist bacterium is not abolished, illusion on "Great Armenia from sea to sea" is not abandoned people of Caucasus will not live in peace. In the stage of development of civilization the problem is not will be considered as disaster of Caucasus, it must become a shy for all honest minded humanity.

In this point of view the need is to publish and distribute such books that shows facts of Armenian savageries. This kind of work first of all needs the patriotism of citizens, their national conscious, objectivity and accuracy. This kind of appreciation and well-wishing by National Security Ministry that serves with the honor for the people, nation and state in the past, for today and for the future makes us proud.

**Jalal Gasimov**
*Doctor on Philology*

Bu kitabda haqqında bəhs edilən əsir və girov götürülmüş Azərbayjan vətəndaşlarından:

**21 nəfəri** 16 yaşınadək,
**596 nəfəri** 17 yaşından 35 yaşınadək,
**103 nəfəri** 36 yaşından 60 yaşınadək
**33 nəfəri** 61 yaşından yuxarıdır.

575 nəfəri hərbçi, 178 nəfəri mülki şəxs olan əsir-girovların:
**18 nəfəri** uşaq,
**46 nəfəri** isə qadınlardır.

It's written about Azerbaijani citizens who were taken prisoners and hostages in the book:

**21 persons** are about 16 years old
**596 persons** are from 17 to 35 years old
**103 persons** are from 36 to 60 years old
**33 persons** are above 60 years old

575 persons are military men, 178 persons of prisoners and hostages are civilians,
**18 persons** of them are children,
**46 persons** of them are women.



**Abbasov Ayaz Əkbər oğlu**

1963-cü ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. Ermənilərin Qarabağa hücumları başlayan gündən doğma torpaqların müdafiəsinə qalxıb. 17 fevral 1992-ci ildə Milli Ordunun əsgərləri ilə birlikdə Xocavənd rayonunun Qaradağlı kəndinə köməyə gəlib. Kənd işğal olunan gün Abbasov Ayaz 17 nəfərlə əsir götürülüb, Xankəndi şəhərinə aparılıb. Həbsxanada ermənilər onlara dəhşətli işgəncələr veriblər

Erməni əsirliyindən qayıtmış Xocavənd rayonu Qaradağlı kənd sakini, Bakı şəhəri, Səbail rayonu Nemanzadə küçəsi ev 17-də yaşayan Hüseynov İlqar Qardaşxan oğlunun dediyinə görə, işğal olunmuş Malıbəyli kəndində ermənilər onları dizə qədər su doldurulmuş zirzəmidə saxladıqları zaman Abbasov Ayaz orada olub. Sonradan ermənilər Füzulini 4 əsirlə birlikdə harasa, naməlum istiqamətə aparıblar.

Bu faktı Erməni əsirliyindən azad olunmuş Qax rayonu Zəyəm kənd sakini Nadirov Bayram Cahangir oğlu da təsdiq edib.

**Abbasov Ayaz Akbar oglu**

Abbasov Ayaz Akbar oglu was born in Aghdam town of Azerbaijan Republic in 1963. When Armenians began to attack Garabagh he defended native lands. On the 17th of February, 1992 soldiers of National Army came to Garadaghli village of Khojavand district. During the occupation of the same village Abbasov Ayaz with 17 men was taken prisoner and sent to Khankandi. Armenians put them to tortures at the prison.

According to the words of Huseynov Ilgar Gardashkhan oglu who returned from Armenian captivity and lived in Garadaghli village of Khojavand district (now he lives in Baku, Sabail district, Nemanzade Street, 17), Armenians kept them in a cellar full of water till knee in occupied Malibeyli village. Abbasov Ayaz was with them. Then Armenians took him with 4 prisoners to unknown direction.

That fact was confirmed by Nadirov Bayram Jahangir oglu who released from Armenian captivity and lived in Zayam village of Gakh district.



**Abbasov Ədalət Vilayət oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olub. 11 noyabr 1992-ci ildə Daşkəsən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb.

**Abbasov Adalat Vilayet oglu**

Abbasov Adalat Vilayet oglu was born in Hoshbulag village of Dashkasan district of Azerbaijan Republic in 1970. On the 11th of November, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Dashka-

15 noyabr 1992-ci ildə Çıldıran kəndi uğ-0runda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Həmin dövrdə könüllü olaraq orduda tibb bacısı vəzifəsində xidmət etmiş Daşkəsən rayon sakini Rzayeva Şəlalə Nəriman qızının verdiyi məlumata görə, 1993-cü ilin fevral ayında hərbi hissə müdafiə mövqeyində duran zaman radioəlaqə vasitəsilə efirə çıxan şəxs Daşkəsən rayonu Xoşbulaq kənd sakini Abbasov Ədalət olduğunu, ermənilərin onu Əsgəranda saxladıqlarını, azad etmək üçün 300.000 rus rublu və ya 10 ton benzin istədiklərini deyib və bu məlumatı onun valideynlərinə çatdırmağı xahiş edib. Sonradan əlaqə kəsilib və bir daha ondan soraq tutmaq mümkün olmayıb.

san district. On the 15th of November, 1992 during the fight for Childiran village Adalat was taken prisoner by Armenians.

According to the information of Rzayeva Shalala Nariman gizi who voluntarily served as a nurse at the army and lived in Dashkasan village, when she controlled the defense point of military unit a person connected by radio communication and informed that Abbasov Adalat from Hoshbulag village of Dashkasan district was kept in Asgaran in February of 1993. Armenians demanded 300.000 Russian rubles or 10 tones of petrol to release him and he asked to Inform about that to his parents. Later the connection was interrupted and then it was impossible to connect with him again.

### Abbasov Hikmət Əliheydər oğlu



1968-ci ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Prişib qəsəbəsində anadan olub. 1992-ci il may ayının 15-də könüllü olaraq Suraxanı Rayon Hərbi Komissarlığına müraciət edib və Ağdam cəbhəsinə göndəlilib. 16 avqust 1992-ci ildə Ağdam rayonunun Yenikənd yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Bacısı-Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, ev 93, mənzil 37-də yaşayan Abdullayeva Rəfiqə Əliheydər qızı ərizəsində qardaşı Abbasov Hikmətin Yenikənd yüksəkliyi uğrunda döyüşdə itkin düşdüyünü yazıb. Bu məlumatı ona Hikmətin döyüş yoldaşı və qonşusu Etibar Sərdar oğlu verib.

Ağstafa rayonu Dağ-Kəsəmən kənd sakini Muradov Alik Fuad oğlunun bildirdiyinə görə, Abbasov Hikmət Xankəndi şəhərində saxlanılıb.

### Abbasov Hikmet Aliheydar oglu

Abbasov Hikmet Aliheydar oglu was born in Prishib settlement of Jalilabad district of Azerbaijan Republic in 1968. On the 15th of May, 1992 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Surakhani district and was sent to Aghdam. On the 16th of August, 1992 during the fight for Yenikand height of Aghdam district he was taken prisoner.

His sister Abdullayeva Rafiga Aliheydar gizi (now she lives in Baku, Garachujhur settlement, 93, app.37) wrote a statement that her brother Abbasov Hikmet was missed during the fight for Yenikand height. That information was given by Hikmet's front-line comrade and his neighbour Etibar Sardar oglu.

According to the information of Muradov Alik Fuad oglu who lived in Dag-Kesemen village of Aghstafa district, Abbasov Hikmet was kept in Khankandi town.



**Abbasov**
**Natiq**
**Xanbala oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Xızı rayonunun Altıağac kəndində anadan olub. Abbasov Natiq 1994-cü ildə Xızı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağcabədi rayonunun Muğanlı kəndindəki hərbi hissədə qulluq edib. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Xındırıstan kəndində gedən döyüşdə əsir götürülüb.

Atası-Abbasov Xanbala Heydər oğlu Natiqin axtarışı ilə məşğul olan zaman onun 27 aprel 1994-cü ildə saat 10-11 radələrində Ağdam rayonunun Xındırıstan istiqamətində gedən döyüş zamanı əsir götürüldüyünü öyrənib.

Balakən şəhəri Nərimanov küçəsi, ev 39-da yaşayan Əliyev Nəsrəddin Hücran oğlu izahatında yazıb ki, bacısı oğlu Vasovlar Mehman Sultanhəmid oğlu, Abbasov Natiq Xanbala oğlu və bir neçə hərbçi ilə aprel ayının 26-dan 27-nə keçən gecə, Qərvənd kəndi ermənilər tərəfindən işğal olunan zaman Baş Qərvənd kəndində əsir götürülüblər.

Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunda məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun yazdığı izahata görə, erməni dilini bildiyi üçün dövlət tərəfindən bir müddət əsir və girovların dəyişdirilməsi işinə cəlb olunub. Qarşı tərəfin nümayəndəsi Abo ona «ZİL-131» markalı avtomaşında Abbasov Natiq də daxil olmaqla hərbçilərin əsir götürüldüyünü və Dağlıq Qarabağda saxlandığını deyib.

**Abbasov**
**Natig**
**Khanbala oglu**

Abbasov Natig Khanbala oglu was born in Altiagach village of Khizi district of Azerbaijan Republic in 1974. In 1994 Natig was called up for military service by the Military Registration and Enlistment Office of Khizi district and served in military unit in Muganli village of Aghjabedi district. On the 27th of Aprel, 1994 during the fight for Khindirstan village of Aghdam district Abbasov Natig was taken prisoner.

When his father Abbasov Khanbala Heydar oglu searched for his son, he found out that on the 27th of April, 1994 Natig was missed at 10-11 o'clock during the fight in direction of Khindirstan.

Aliyev Nasreddin Hujran oglu (he lives in Balakan town, Narimanov Street, app.39A) wrote a statement that during the night from 26th to 27th of April, his sister's son Vasovlar Mehman Sultanahmed oglu, Abbasov Natig Khanbala oglu with some other military men went to Bash Garvand village through Garvand village which occupied by Armenians and they were taken prisoners.

According to a statemnt of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Beylagan district), he knew Armenian and that's why he was enlisted by the state to work with change of prisoners and hostages for a time. The representative of opposite side Abo said him that Abbasov Natig and other military men by car «ZIL-131» were taken hostages and kept in Upper Garabagh.



**Abbasov Qurbanəli Abbasqulu oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qəsil kəndində anadan olub. 1991-ci ildə hərbi xidmətə çağırılıb. Lənkəran qarnizonunun tərkibində Ağdam uğrunda döyüşlərdə tank heyətinin üzvü kimi iştirak edib. Ağdam rayonu ermənilər tərəfindən işğal olunan zaman əsir götürülüb.

Atası-Abbasov Abbasqulu Abbas oğlu ərizəsində göstərib ki, oğlunun axtarışı ilə məşğul olarkən döyüş yoldaşları ona Ağdam rayonu işğal olunan gün Qurbanəlinin tanka tərəf getdiyini gördüklərini deyiblər. Erməni girovluğundan azad edilmiş Ağdamın Qiyaslı kəndindən olan qoca bir kişi Qurbanəlinin əsir götürüldüyünü, işğal olunmuş Xankəndi şəhərində ermənin evində saxlandığını bildirib.

Bakı şəhəri, H.Əliyev küçəsi, ev 1, mənzil 43-də yaşayan, ehtiyatda olan zabit Əliyev Ağalar Xasay oğlunun verdiyi məlumata görə, o, Ağdam özünümüdafiə batalyonunun komandiri vəzifəsində xidmət edərkən əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Aleksandr Ağasaryandan 72 nəfər azərbaycanlı əsir və girovun siyahısını alıb. Həmin siyahıda Abbasov Qurbanəlinin də adı olub.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşan Tağıyev Məmməd Qaçay oğlu izahatında Abbasov Qurbanəlinin Şuşa həbsxanasında saxlandığını göstərib.

**Abbasov Gurbanali Abbasgulu oglu**

Abbasov Gurbanali Abbasgulu oglu was born in Gasil village of Aghdam district of Azerbaijan Republic in 1974. He was called up for military service in 1991. Abbasov Gurbanali took part in fights for Aghdam as a member of tank crew allotted to Lankaran garrison. During occupation of Aghdam he was taken prisoner by Armenians.

It was shown in a statement of his father Abbasov Abbasgulu Abbas oglu while searcheg for his son, his front-line comrades said that during occupation of Aghdam, Gurbanali went to the tank. An old man who lived in Giyasli village of Aghdam district and returned from Armenian captivity informed that Gurbanali was taken prisoner and kept in a house of an Armenian in Khankandi.

According to the information of officer in the reserve Aliyev Agalar Khasay oglu (he lives in Baku, H.Aliyev Street, 1 app.43), when he served as a commander of self-defense battalion he was engaged in change of prisoners and hostages and got a list of 72 Azerbaijani prisoners and hostages from the representative of opposite side Alexander Agasaryan. There was the name of Abbasov Gurbanali in that list.

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners and hostages, it was shown that Abbasov Gurbanali was kept in Shusha prison.



**Abbasov Rafael Sultan oğlu**

1968-ci ildə anadan olub. Hərbi hissədə zirehli döyüş maşınının sürücü-mexaniki vəzifəsində xidmət edib. 8 may 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğalı zamanı əsir götürülüb.

Döyüşçülər sursat qurtarana qədər vuruşublar. Rafael ayağından yaralanıb. O, rabitə əlaqəsi yaradıb, milli qəhrəman Albert Aqarunovdan kömək istəyib. Albert komandiri olduğu tankın heyət üzvləri ilə birlikdə ona köməyə getdiyi zaman ermənilər tərəfindən öldürülüb. Ağır yaralı vəziyyətdə köməksiz qalan Rafael ermənilər tərəfindən əsir götürülüb.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin 1993-cü ildə verdiyi məlumatda Abbasov Rafaelin sağ olduğu bildirilir. Ermənilər onu əvvəlcə Yerevan şəhər həbsxanasında saxlayıb, sonradan Sovetaşan qəsəbəsinə göndəriblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22; tel: 48-67-93) əldə etdiyi azərbaycanlı hərbi əsir və girovların siyahısında Abbasov Rafaelin də adı olub və Yerevan şəhər həbsxanasında saxlandığı göstərilib.

Bakı şəhəri, Yasamal rayonu «Qızıl-Şərq» hərbi şəhərciyi, ev 98, mənzil 19-da yaşayan keçmiş əsir Cabbarov Əli Telman oğlunun atası-Cabbarov Telman İdris oğlu ərizəsində göstərib ki, Tbilisi şəhərində Qagik adlı ermənidən aldığı azərbaycanlı əsir və girovların siyahısında Abbasov Rafaelin də adı olub və onun Yerevan şəhər həbsxanasında saxlandıqdan sonra Sovetaşan qəsəbəsinə göndərildiyi bildirilib.

**Abbasov Rafael Sultan oglu**

Abbasov Rafael Sultan oglu was born in 1968. He served as a driver-mechanich of heavy carrier in military unit. On the 8th of May, 1992 during occupation of Shusha Abbasov Rafael was taken prisoner.

Soldiers fought till the bullets were over. Rafael was wounded in leg. He connected and asked for the help from national hero Albert Agarunov by radio communication. Albert was the commander and with members of tank crew went to help. Armenians killed him. Abbasov Rafael was taken prisoner by them.

According to the information of Helsinki Civil Assembly from 1993 Abbasov Rafael was alive. At the beginning Rafael was kept in Yerevan prison then he was sent to Sovetashan settlement.

While Huseynov Akif Saleh who lived in Asrik-Jirdakhan village of Tovuz district Huseynov Akif Saleh oglu searching for his sister Huseynova Tamara Saleh gizi, he got a list of prisoners of war and hostages from Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit str. 35, app.22, phone: 48-67-93) in Tbilisi and there was the name of Abbasov Rafael in that list. It was shown that he was kept in Yerevan prison.

It was shown in a statement of father of former prisoner of war Jabbarov Ali Telman oglu-Jabbarov Telman Idris oglu (now he lives in Baku, Yasamal district, «Gizil Sherq» military town 98, app.19 ) met Armenian whose name was Gagik in Tbilisi and saw Abbasov Rafael's name in that list. It was shown Rafael was kept in Yerevan prison and then he was sent to Sovetashan settlement.



**Abbasov
Rasim
Abbas oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Şəmkir rayonunun Keçili kəndində anadan olub. 1992-ci ildə Şəmkir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib. 30 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndində gedən döyüşdə əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Beynəlxalq Qırmızı Xaç Komitəsi əməkdaşlarının 1993-cü ildə Tbilisi şəhərində təşkil etdikləri erməni nümayəndələri ilə görüş zamanı əldə etdiyi Dağlıq Qarabağda əsir və girov düşmüş Azərbaycan vətəndaşlarının siyahısında Abbasov Rasim Abbas oğlunun da adı olub. Onun Ermənistanda saxlandığı göstərilib.

**Abbasov
Rasim
Abbas oglu**

Abbasov Rasim Abbas oglu was born in Kechili village of Shamkir district of Azerbaijan Republic in 1973. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shamkir district. Abbasov Rasim took part in fights for Aghdara district allotted to Internal Forces of Ministry of Internal Affairs. On the 30th of July, 1992 during the fight for Aterk village of Aghdara district he was taken prisoner.

During the meeting organized by the officials of ICRC in Tbilisi in 1993, Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan of Tovuz district met Armenian representatives and got a list of Azerbaijani prisoners and hostages in Upper Garabagh. There was the name of Abbasov Rasim Abbas oglu. In the list it was shown that he was kept in Armenia.



**Abbasov
Vaqif
Əli oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Həsənqala kəndində anadan olub. 1992-ci ilin sentyabr ayında Xaçmaz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq Zəngilan rayonuna göndərilib. Həmin rayonun Qazançı kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

**Abbasov
Vagif
Ali oglu**

Abbasov Vagif Ali oglu was born in Hasangala village of Khachmaz district of Azerbaijan Republic in 1972. In September of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Khachmaz district and sent to Zangilan district. During the fight for Gazanchi village of same district Abbasov Vagif was taken pris-

Atası-Abbasov Əli Həmzət oğlu ərizəsində yazıb ki, Rusiyadan ona zəng vuraraq oğlunun sağ olduğunu və Ermənistanın Gorus rayonunun Qarabağlı kəndində saxlandığını deyiblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlu erməni girovluğunda olan bacısı Hüseynova Tamara Saleh qızının axtarışı ilə məşğul olan zaman Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən (Yerevan tel:63-60-70) qarşı tərəfdə saxlanılan 43 azərbaycanlı hərbi əsirin siyahısını alıb. Həmin siyahıda Abbasov Vaqif Əli oğlunun da adı olub. Onun Ermənistan Respublikası Gorus rayonunun Qarabağlı kəndində saxlandığı göstərilib.

oner by Armenians.

His father Abbasov Ali Hamzat oglu wrote a statement that somebody called him from Russia and said that his son was alive and kept in Garabaghli village of Gorus district of Armenia.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, Armenian Gagik gave him a list of 43 Azerbaijani prisoners of war kept by the opposite side. There was Abbasov Vagif's name in that list. It was shown that he was kept in Garabaghli village of Gorus district.



**Abbasov Vəliyəddin Umudvar oğlu**

1963-cü ildə Azərbaycan Respublikası Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı dəstələri tərəfindən işğal olunan zaman Abbasovlar ailəsi əsir götürülərək Əsgəran rayonuna aparılıb. Sonradan Abbasov Vəliyəddindən başqa öldürülmüş ailə üzvlərinin meyidləri qaytarılıb.

Vəliyəddinin qardaşı-Abbasov Çingiz Umudvar oğlunun yazdığı izahata görə, onlar Xocalını tərk edən zaman meşədə ermənilər tərəfindən mühasirəyə alınıblar. Həmin vaxt Vəliyəddin qaçmağa cəhd göstərib, girov göturulərək Naxçivanik yaxınlığındakı Dəhraz kəndinə aparılıb.

Əsirlikdə olan Qarayev Usubəlinin atası-girovluqdan qayıtdıqdan sonra Naftalan şəhərində yerləşən «Şirvan» sanatoriyasında məskunlaşmış Qarayev Süleyman Salman oğlu izahatında yazıb ki, ermənilər oğlu və Vəliyəddin də daxil olmaqla 13 nə-

**Abbasov Valiyaddin Umudvar oglu**

Abbasov Valiyaddin Umudvar oglu was born in Khojali town of Azerbaijan Republic. On the 26th of February, 1993, during occupation of Khojali by Armenian armed forces the Abbasovs were taken prisoners and sent to Asgaran district. Later the corpses of all the members of their family except Abbasov Vilayaddin were returned.

According to a statement of Valiyaddin's brother Abbasov Chingiz Umudvar oglu, when they left Khojali they were surrounded in the forest by Armenians. At the same time he tried to run away but was caught by Armenians and sent to Dahraz village near Nakhchivanik.

The father of Garayev Usubali (he was in captivity) – Garayev Suleyman Salman oglu who returned from captivity (now he lives in «Shirvan» sanatorium in Naftalan town) wrote a statement that Armenians took 13 young men including his son and Valiyaddin

fər gənci naməlum istiqamətə aparıblar. Qarayev Süleyman azad olunandan sonra Ağdam taborunun komandiri Allahverdi Bağırov (sonradan şəhid olub) ona, həmin 13 gəncin Xankəndi Rayon Polis Şöbəsinin zirzəmisində saxlandıqlarını, bir həftə sonra isə həmin idarənin rəisi Armen İsaqulov tərəfindən Yerevan şəhərinə göndərildiklərini bildirib.

Erməni girovluğundan qayıtmış Xocalı sakini, hazırda «Günəşli» sanatoriyasında məskunlaşmış Abdullayeva Sənəm Həsən qızının izahatına görə, o, Abbasov Vəliyəddini Əsgəran rayonunun Pircamal kəndində yerləşən maldarlıq fermasında görüb.

to unkown direction. When Garayev Suleyman was released, the commander of battalion Allahverdi Bagirov (then he died) informed that 13 young men were kept in cellar of Police Department of Khankandi district. A week later the head of department Armen Isagulov sent them to Yerevan city.

According to a statement of Abdullyeva Sanam Hasan gizi who lived in Khojali and released from Armenian captivity (now she lives in «Guneshli» sanatorium), she saw him at stock-breeding farm in Pirjamal village of Asgaran district.

**Abbasov Vidadi Muxtar oğlu**



1963-cü ildə Azərbaycan Respublikası Ağsu rayonunun Bəyimli kəndində anadan olub. 1993-cü ilin oktyabr ayında Bakı şəhəri Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonunun Qərvənd kəndində yerləşən hərbi hissədə qulluq edib.

28 dekabr 1993-cü ildə Abbasov Vidadinin qulluq etdiyi hərbi hissənin V taborunun 49 nəfərdən ibarət şəxsi heyəti dumana düşərək yolu azıb və ermənilər tərəfindən əsir götürülüb.

Salyan rayonu Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlu itkin düşmüş qardaşı-Atamoğlanov Əbülfəti axtararkən Gürcüstan ərazisində Ermənistanın Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqo adlı erməni ilə görüşüb. Qaqo ona qardaşı da daxil olmaqla erməni əsirliyində olan 14 nəfər azərbaycanlının siyahısını verib. Həmin siyahıda Abbasov Vidadinin

**Abbasov Vidadi Mukhtar oglu**

Abbasov Vidadi Mukhtar oglu was born in Bayimli village of Aghsu district of Azerbaijan Republic in 1963. In October of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Nizami district of Baku. Abbasov Vidadi served in a military unit in Garvand village of Aghdam district.

On the 28th of December, 1993 because of fog Vidadi's battalion №5 consisted of 49 men lost the way and theythey were taken prisones by Armenians.

Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengi village of Salyan district searched for his missed brother ****

There he met Armenian whose name was Gago who lived in Lembeli village of Noyembryan district of Armenia. Gago gave him a list of 14 Azerbaijanis being in Armenian captivity. There was the name of Abbasov Vidadi in that list. According to

də adı olub. Qaqonun məlumatına görə, əsirləri əvvəlcə Ermənistanın Kirovakan şəhərində saxlayıb, sonradan Yerevan Dövlət Təhlükəsizlik Komitəsinin istintaq təcridxanasına köçürüblər. Erməni tərəfi faktı inkar edir.

Gago's information at the beginning prisoners were kept in Kirovakan city of Armenia and then they were moved into investigatory isolation of Committee of State Security of Yerevan. Armenian side denied that all fact.



**Abdullayev Seymur Abdulla oğlu**

1975-ci ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda anadan olub. 6 yanvar 1994-cü ildə Biləsuvar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonu uğrunda döyüşlərdə iştirak edib. 26 aprel 1994-cü ildə Ağdam rayonunun Nəmirli kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Biləsuvar şəhəri Axund Molla Hüseyn küçəsi, ev 25-də yaşayan Abdullayev Sahib Abdulla oğlunun verdiyi məlumata görə, döyüş yoldaşları ona Seymurun həmyerlisi Gözəlov Azər Xanış oğlu ilə birlikdə Nəmirli kəndi uğrunda döyüşdə yaralanaraq əsir götürüldüyünü bildiriblər.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Əsgəran rayonu Şuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun dediyinə görə, qarşı tərəfin nümayəndəsi Albert Voskanyanla görüşdüyü zaman ondan Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş, Abdullayev Seymur da daxil olmaqla Dağlıq Qarabağda saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısını əldə edib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş «Napoleon» ləqəbli Ar-

**Abdullayev Seymur Abdulla oglu**

Abdullayev Seymur Abdulla oglu was born in Bilasuvar district of Azerbaijan Republic in 1975. On the 6th of January, 1994, he was called up for military service by the Military Registration and Enlistment Office of Bilasuvar district. Seymur took part in fights for Aghdam district. On the 26th of April, 1994 wounded Seymur was taken prisoner by Armenians in fight for Nemirli village of Aghdam district.

According to his brother's information Abdullayev Sahib Abdulla oglu (he lives in Bilasuvar town, Akhund Molla Huseyn Street, 25), his front-line comrades informed that during the fight for Nemirli village, his brother with villager Gozelov Azer Khanish oglu was wounded and taken prisoner.

According to the words of Abdullayev Tofig Ismayil oglu who lived in Shushen village of Asgaran village (at present he lives in sanatorium «Zugulba» in Baku, Buzovna Settlement) and engaged in change of prisoners and hostages, during the meeting with the representative of Armenian side Albert Voskanyan, he got a list of 37 Azerbaijani prisoners of war who kept in Garabagh hidden from ICRC. There was the name of Abdullayev Seymur in that list Tofig. Armenians wanted to change them for a killer of journalist Salatin Asgarova – Arkadi Ayriyan whose nick name was «Napoleon».

kadi Ayriyanla dəyişmək istəyiblər. Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb. Seymurun sonrakı taleyi məlum olmayıb.

The change didn't realize because Ayriyan died and that's why the further Seymur's life was unknown.



**Abdullayev Anur Arif oğlu**

1975-ci ildə Bakı şəhərində anadan olub. 1993-cü ilin avqust ayında Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 25 yanvar 1994-cü ildə Füzuli cəbhəsinə göndərilib. 1 fevral 1994-cü ildə Füzuli rayonunun Horadiz kəndi uğrunda döyüşdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Salyan şəhər sakini Rzayev Xaqani Məhərrəm oğlunun dediyinə görə o, Abdullayev Anurla birlikdə eyni hərbi hissədə xidmət edib. 1 fevral 1994-cü ildə Füzuli rayonunun Horadiz kəndi uğrunda döyüşdə onun ermənilər tərəfindən vurulduğunu və döyüş meydanında qaldığını görüb.

Atası-Abdullayev Arif Hüseyn oğlu izahatında yazıb ki, Füzuli rayonunda ermənilər tərəfindən əsir götürülmüş, qayıtdıqdan sonra həbs cəzasına məhkum olunmuş Aslanov Azər Salman oğlu 15 may 2001-ci ildə Anurun onunla birlikdə Şuşa həbsxanasında saxlandığını deyib.

**Abdullayev Anur Arif oglu**

Abdullayev Anur Arif oglu was born in Baku in 1975. In August of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabunchu district of Baku. On the 25th of January, 1994 Abdullayev Anur was sent to Fuzuli front. On the 1st of February, 1994 during the fight for Horadiz village of Fuzuli district he was taken prisoner.

According to the words of Rzayev Khagani Maharram oglu who lived in Salyan town and returned from Armenian captivity, he served with Anur in the same military unit. On the 1st of February, 1994 during the fight for Horadiz village of Fuzuli district, he saw that Armenians fired upon Anur and stayed at the battle field.

His father Abdullayev Arif Huseyn oglu wrote a statement that his son was taken prisoner by Armenians in Fuzuli and when Aslanov Azer Salman oglu returned (later he is sentenced to the prison), he said that he was kept with Anur in Shusha prison on the 15th of May, 2001.



**Abdullayev Çingiz Məmməd oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Astara rayonunun Rudakənar kəndində anadan olub. 7 yanvar 1994-cü ildə Astara Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və bir müddət Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib, sonradan Ağdam rayonuna göndərilib. 26 aprel 1994-cü ildə Tərtər rayonunun İsmayılbəyli kəndi uğrunda döyüşdə əsir götürülüb.

Atası-Astara rayonu Rudakənar kənd sakini Abdullayev Məhəmməd Əsəd oğlu izahatında yazıb ki, oğlunun axtarışı zamanı erməni tərəfi onu Moskva şəhərinə dəvət edib. Ermənilər ona Çingizin Ermənistanın Amasiya rayonunda yerləşən xüsusi rejimli həbsxanada saxlandığını bildiriblər. Məhəmməddən oğlunu azad etmək üçün 25.000 ABŞ dolları tələb ediblər. Atası həmin məbləği tapa bilmədiyi üçün Çingizi azad etmək mümkün olmayıb.

**Abdullayev Chingiz Mammad oglu**

Abdullayev Chingiz Mammad oglu was born in Rudakanar village of Astara district of Azerbaijan Republic in 1975. On the 7th of January, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Astara district, took part in fights for Fuzuli district and then he was sent to Aghdam district. On the 26th of April, 1994 during the fight for Ismayilbeyli village of Terter district Chingiz was taken prisoner.

According to a statement of his father Abdullayev Mahammad Asad oglu who lived in Rudakanar village of Astara district, during the search for his son Armenian side invited him to Moscow. Armenians informed that Chingiz was kept in a prison of special regime in Amasiya district of Armenia. They demanded 25.000 USA dollars for his release. His father couldn't find money and that's why they didn't release Chingiz.



**Abdullayev Cuma Abdulla oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Balakən rayonunun İtitala kəndində anadan olub. 13 oktyabr 1992-ci ildə hərbi xidmətə çağırılıb. Ağdam rayonunda gedən döyüşlərdə iştirak edib. 26 fevral 1993-cü ildə Ağdam rayonunun Xramort kəndi uğrunda döyüşdə əsir götürülüb.

**Abdullayev Juma Abdulla oglu**

Abdullayev Juma Abdulla oglu was born in Ititala village of Balakan district of Azerbaijan Republic in 1974. On the 13th of October, 1992 he was called for military service. Juma took part in fights for Aghdam district. On the 26th of February, 1993 during the fight for Khramort village of Aghdam district he was taken prisoner.

Atası-Balakən rayonu İtitala kənd sakini Abdullayev Abdulla Oruc oğlu Cumanın axtarışı ilə məşğul olan zaman onun xidmət etdiyi hərbi hissədən Cumanın 26 fevral 1993-cü ildə 63 nəfər döyüş yoldaşı ilə ermənilər tərəfindən əsir götürülüb, Əsgəranda saxlandığını öyrənib.

His father-Abdullayev Abdulla Oruj oglu who lived in Ititala village of Balakan district and engaged in search for Juma found out from the military unit where he served that Juma with 63 front-line comrades was taken prisoner by Armenians and kept in Asgaran on the 26th of February, 1993.

**Abdullayev Ələmdar Allahverdi oğlu**



1972-ci ildə Azərbaycan Respublikası Ağdərə rayonunun Sırxavənd kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 28 dekabr 1993-cü ildə Ağdam rayonunun Mərzili kəndi istiqamətində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Ağdərə rayonu Sırxavənd kənd sakini, Mingəçevir şəhəri, AZ QRES qəsəbəsi, 3 saylı qaçqın şəhərciyində məskunlaşmış Abdullayev Namizəd Allahverdi oğlunun verdiyi məlumata görə, radiodanışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Vazgen adlı şəxs Ələmdarın əsir götürüldüyünü və işğal olunmuş Şuşa şəhərində bir nəfər erməni qadının evində saxlandığını deyib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, əsir və girovların dəyişdirilməsində iştirak etmiş Tağıyev Məmməd Qaçay oğlu izahatında erməni tərəfinin nümayəndəsi Abonun ona Ələmdarın əsir götürüldüyü və Şuşa şəhərində şəxsi evdə saxlandığı barədə bildirdiyini yazıb.

**Abdullayev Alamdar Allahverdi oglu**

Abdullayev Alamdar Allahverdi oglu was born in Sirkhavand village of Aghdara district of Azerbaijan Republic in 1972. He took part in fights for Garabagh. On the 28th of December, 1993, during the fight for Merzili village of Aghdam district Abdullayev Alamdar was taken prisoner by Armenians.

According to the information of his brother Abdullayev Namized Allahverdi oglu who lived in Sirkhavand village of Aghdara district (now he lives in Mingechevir city, AZ GREZ settlement, refugees' town №3), during radio communication with representative of opposite side whose name was Vazgen, it was known that Abdullayev Alamdar was taken prisoner and kept in a house of Armenian woman in occupied Shusha.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district and took part in change of prisoners and hostages wrote a statment that Armenian representative Abo informed that Alamdar was taken prisoner and kept in a private house in Shusha.



## Abdullayev Etibar Əyyub oğlu

1974-cü ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Yuxarı-Ayrım kəndində anadan olub. 1991-ci ilin may ayında Kəlbəcər Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Moskva şəhərinə göndərilib. Həmin ilin sentyabr ayında hərbi hissəni tərk edib, doğma torpaqlarını müdafiə etmək üçün Vətənə qayıdıb. Zaur Rzayevin komandir olduğu taborun tərkibində Laçın və Kəlbəcər rayonları uğrunda döyüşlərdə iştirak edib. 5 aprel 1993-cü ildə Kəlbəcər rayonu ərazisində yerləşən Murovdağ yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən mühasirəyə alınaraq əsir götürülüb.

Bu məlumatı onun atası-Kəlbəcər rayonu Yuxarı-Ayrım kənd sakini, Xanlar rayonundakı Təmir Tikinti İdarəsinin binasında məskunlaşmış Abdullayev Əyyub Əsgər oğlu Etibarın axtarışı zamanı əldə edib.

Döyüş yoldaşı-Kəlbəcər rayonu Çaykənd kənd sakini, Gəncə şəhərindəki Azərbaycan Pedaqoji Universitetinin 2 saylı yataqxanasında məskunlaşmış Atayev Famil Yunis oğlu ərizəsində yazıb ki, Murovdağın ətəyində yerləşən Meydançay adlanan ərazidə döyüş zamanı Etibarın yaralandığının, yaralı vəziyyətdə döyüşçülərə kömək etdiyinin, ermənilər tərəfindən mühasirəyə alınaraq əsir götürüldüyünün şahidi olub.

Əsir düşmüş baş leytenant Əhmədov Ramiz Əkrəm oğlunun qardaşı-İsmayıllı rayonu Talıstan kənd sakini Əhmədov Əflatun Əkrəm oğlu izahatında Murovdağın Meydançay deyilən ərazisində gedən döyüşdə ermənilərin əsir götürdükləri əslən Kəlbəcər rayonundan olan döyüşçülərin arasında Abdullayev Etibarın da olduğunu qeyd edib. Ermənilər Etibarı Dağlıq Qarabağda saxlayıblar.

## Abdullayev Etibar Eyyub oglu

Abdullayev Etibar Eyyub oglu was born in Yukhari-Ayrim village of Kelbajar district of Azerbaijan Republic in 1974. In May of 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Kelbajar district and sent to Moscow city. When Armenians began to attack Garabagh in September of 1991, he left the military unit and returned Motherland to defend native land. Etibar took part in fights for Lachin and Kelbajar district allotted to Zaur Rzayev's battalion. On the 5th of April, 1993 during the fight for Murovdag height in Kelbajar district, Armenians surrounded him and took as a prisoner.

That information was given by his father Abdullayev Eyyub Asgar oglu who lived in Yukhari-Ayrim village of Kelbajar district (at present he lives in the building of Repair Constructive Department in Khanlar district) when he searched for Etibar.

His front-line comrade Atayev Famil Yunis oglu who lived in Chaykand village of Kelbajar district (now he lives in the hostel № 2 of ATU in Ganja), wrote a statement that during the fight in place called Meydanchay in front of Murovdag, Etibar was wounded. Wounded Etibar helped others but Armenians surrounded them and took as prisoner.

The brother of prisoner senior lieutenant Ahmadov Ramiz Akram oglu–Ahmadov Aflatun Akram oglu who lived in Talistan village of Ismayilli district wrote a statement and noted that there was Abdullayev Etibar from Kelbajar district among fighters who was taken prisoners by Armenians during the fight in place called Meydanchay of Murovdag. Etibar was kept in Upper Garabagh by Armenians.



**Abdullayev Fəxrəddin Saday oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Alekseyevka kəndində anadan olub. 16 oktyabr 1993-cü ildə Xaçmaz Rayon Hərbi Komissarlığı tərəfindən səfərbər edilib və Ağdamın müdafiəsinə göndərilib. 12 aprel 1994-cü ildə Ağdamın Mərzili kəndi uğrunda döyüşdə əsir götürülüb.

Anası-Xaçmaz rayonu Alekseyevka kənd sakini Abdullayeva Əzizə Müstəcəb qızının verdiyi məlumata görə, oğlunun axtarışı zamanı onun Ağdam rayonunun Mərzili kəndi yaxınlığında əsir götürülüb, Şuşa şəhərində saxlandığını öyrənib.

Qardaşı-Xaçmaz rayonu Alekseyevka kənd sakini Abdullayev Elşad Saday oğlu ərizəsində yazıb ki, Fəxrəddinin döyüş yoldaşları son döyüşdə onun itkin düşdüyünü bildiriblər. Ağdaş rayonunun Ləki kəndindən olan hərbi hissənin rabitəçisi (adını unudub) ermənilərlə radiorabitə yaradaraq Fəxrəddinin Şuşa şəhərində əsir saxlandığını öyrənib. Sonradan ermənilərlə bir daha əlaqə yaratmaq mümkün olmayıb.

**Abdullayev Fakhraddin Saday oglu**

Abdullayev Fakhraddin Saday oglu was born in Alekseyevka village of Khachmaz district of Azerbaijan Republic in 1972. On the 16th of October, 1993 he was mobilized by the Military Registration and Enlistment Office of Khachmaz district and then he was sent to fight for Aghdam district. On the 12th of April, 1994 during the fight for Merzilli village of Aghdam Fakhraddin was taken prisoner.

His mother Abdullayeva Aziza Mustajab gizi who lived in Alekseyevka, searched for Fakhraddin and found out that during the fight for Merzilli village of Aghdam, her son was taken prisoner and kept in Shusha town.

His brother Abdullayev Elshad Saday oglu who lived in Alekseyevka village of Khachmaz district wrote a statement that he found out from Fakhraddin's front-line comrades, he was missed at last fight. A signaler (he forgot his name) from a military unit in Laki village of Aghdash district connected with Armenians by radio communication and informed that Fakhraddin was kept as a prisoner in Shusha town. Later he tried again to connect with Armenians but it was impossible.



**Abdullayev İbrahim Mehdi oğlu**

1924-cü illdə Azərbaycan Respublikası Laçın rayonunun Seyidlər kəndində anadan olub. 18 may 1992-ci ildə Laçın rayonu ermənilər tərəfindən işğal olunan zaman girov götürülüb.

Kəlbəcər rayonu Çovdar

**Abdullayev Ibrahim Mehdi oglu**

Abdullayev Ibrahim Mehdi oglu was born in Seyidler village of Lachin of Azerbaijan Republic in 1974. On the 18th of May, 1992 during occupation of Lachin district he was taken hostage by Armenians.

According to the informa-

kənd sakini, erməni girovluğundan qayıtdıqdan sonra Yevlax şəhərində məskunlaşmış Murtuzov Tapdıq Murtuz oğlunun verdiyi məlumata görə, Xankəndindəki uşaq bağçasında saxlanılan zaman Laçın rayon sakini Abdullayev İbrahimi orada görüb.

Oğlu-Laçın rayonu Seyidlər kənd sakini, Sumqayıt şəhəri H. Z. Tağıyev qəsəbəsi, Kosmonavtlar küçəsi 11, mənzil 10-da məskunlaşmış Abdullayev Mehdi İbrahim oğlunun yazdığı izahatdan məlum olub ki, 18 may 1992-ci ildə atası Abdullayev İbrahim Laçın şəhərinin girərəcəyində Pircahan kənd sakini Hüsüyev Vüsalla dayanaraq yanan evləri seyr edib. Bu zaman Kəlbəcər istiqamətindən gələn «Jiquli» markalı maşın onlara yaxınlaşıb. Vüsal maşındakıların erməni olduğunu bildikdə qaçıb, İbrahim Abdullayev isə girov götürülüb, Xankəndi şəhərinə aparılıb. Mehdi Kəlbəcər rayonundan olan, hazırda Yevlax şəhərində məskunlaşmış Tapdıq adlı bir şəxsə atasının şəklini göstərdikdə, onu tanıyıb. İbrahim kişinin erməni əsirliyində vəfat etdiyini söyləyib.

tion of Murtuzov Tapdig Murtuz oglu who lived in Chovdar village of Kelbajar district and returned from Armenian captivity (now he lives in Yevlakh), when he was kept in Khankandi kindergarten, he saw Abdullayev Ibrahim from Lachin district there.

It was known from a statement of his son Abdullayev Mehdi Ibrahim oglu who lived in Seyidler village of Lachin district (now he lives in Sumgayit town, Z.Tagiyev settlement, Kosmonavt Street, 11, app.10), on the 18th of May, 1992, his father Abdullayev Mehdi Ibrahim oglu with Husuyev Vusal who lived in Pirjahan village observed burned houses in the enterance of Lachin. At that moment a car «Jiquli» came up to them from Kelbajar. When Vusal understood that they were Armenians, he ran away but Ibrahim Abdullayev was taken hostage and sent to Khankandi. Mehdi who lived in Kelbajar district (now he lives in Yevlakh town) showed his picture to Tapdig and he recognized him. He said that Ibrahim kishi died at Armenian captivity.

**Abdullayev İlham Bayram oğlu**



1973-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun Mirəşelli kəndində anadan olub. 10-dekabr 1992-ci ildə Zəngilan rayonunun Qazançı kəndində gedən döyüşdə əsir götürülüb.

Hacıqabul rayonunun Udulu kəndində yaşayan, erməni əsirliyindən qaçmış Baxşəliyev Əlixan Ataxan oğlunun verdiyi məlumata görə, döyüş yoldaşları M. Məhyəddinov, B. Tağıyev və Abdullayev İlhamla birlikdə Qazançı kəndi-

**Abdullayev Ilham Bayram oglu**

Abdullayev Ilham Bayram oglu was born in Miresheli village of Aghdam district of Azerbaijan Republic in 1973. On the 10th of December, 1992 during the fight for Gazanchi village of Zangilan district he was taken prisoner.

According to the information of Bakhshaliyev Alikhan Atakhan oglu (he lives in Udulu village of Hajigabul district) Ilham with frontline comrades M.Mehiyaddinov and B.Tagiyev fought and defended Gazanchilar village

nin müdafiəsində son güllələri qurtarana kimi döyüşüblər. İlham yaralanıb, döyüş meydanında qalıb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi ev, 35, mənzil 22; tel: 48-67-93) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Abdullayev İlhamın da adı olub, onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

till the bullets were over. Ilham was wounded and stayed at the battle field.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Chirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners of war and hostages from Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-93); there was the name of Abdullayev Ilham in the list. It was shown that he was kept in Upper Garabagh.



## Abdullayev Ramin Həbib oğlu

1956-cı ildə Ermənistan Respublikası Sisyan rayonunun Urut kəndində anadan olub. Məlum hadisələrə görə Azərbaycana köçüb. 1991-ci ilin noyabr ayında könüllü olaraq cəbhəyə gedib. Xocavənd rayonu uğrunda döyüşlərdə iştirak edib. 26 yanvar 1992-ci ildə Şuşa rayonunun Daşaltı kəndində əsir götürülüb.

Həyat yoldaşı-Abdullayeva Elianoranın verdiyi məlumata görə, R. Abdullayev 27 yanvar 1992-ci ildə Daşaltı kəndində gedən döyüşdə əsir götürülüb.

Ağstafa rayonu Dağ-Kəsəmən kənd sakini Muradov Alik Fuad oğlu izahatında yazıb ki, əsir və girovların dəyişdirilməsi ilə məşğul olarkən erməni tərəfinin nümayəndələri Aşot Makaryan və Samvel Meqralyandan aldığı azərbaycanlı əsir və girovların siyahısinda Abdullayev Ramin Həbib oğlunun da adı olub onun Əsgəran şəhərində saxlandığı göstərilib.

## Abdullayev Ramin Habib oglu

Abdullayev Ramin Habib oglu was born in Urut village of Sisiyan district of the Republic of Armenia in 1956. Because of known events he moved into Azerbaijan. In November of 1991 he voluntarily went to the front and took part in fights for Khojavand district. On the 26th of January, 1992 during Dashalti village of Shusha district he was taken prisoner.

According to the information of his wife Abdullayeva Elianora, during the fight in Dashalti village he was taken prisoner by Armenians on the 27th of January, 1992.

Muradov Alik Fuad oglu who lived in Dagh-Kesemen village of Agstafa district wrote a statement that when he was engaged in change of prisoners and hostages, Armenian representatives Ashot Makaryan and Samvel Megralyan gave him a list of Azerbaijani prisoners of war and hostages, there was the name of Abdullayev Ramin Habib oglu in the list. It was shown that he was kept in Asgaran town.



**Abdullayev Rövşən Sabir oğlu**

1964-cü ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. 24 iyul 1993-cü ildə Ağdam rayonu ermənilər tərəfindən işğal olunan zaman əsir götürülüb.

Erməni əsirliyindən qayıtdıqdan sonra Bakı şəhəri, Əhmədli qəsəbəsi, Gəncə prospekti 15, mənzil 803-də məskunlaşmış Ağdam rayonunun Sarıcallı kənd sakini Əliyev Xəqani Vəliyəddin oğlunun bildirdiyinə görə, əsirlikdə Nurəddin adlı bir nəfər ona Sabirin oğlu Rövşənlə birlikdə tutulub gətirildiyini söyləyib.

Bakı şəhəri, Tusi küçəsi 43, mənzil 11-də yaşayan Məmmədov Cahangir Əbdüləli oğlu qohumu Rəhimov İlqarın 1993-cü ilin iyul ayında tanışı Adullayev Rövşənin idarə etdiyi «Qaz-24» markalı maşında Ağdama getdiyini və bir daha geri dönmədiyini bildirib.

Girov götürülmüş Rəhimov İlqarın dayısı - Bakı şəhəri, Mehmandarov küçəsi 100, mənzil 42-də yaşayan Məmmədov Şəmsi Həsən oğlunun dediyinə görə, Ağdam rayonu işğal olunan zaman bacısı oğlu Abdullayev Rövşənin idarə etdiyi maşında ora gedib. Əsirlikdən qayıtmış ağdamlı qadın bildirib ki, göy rəngli «Qaz-24» markalı bir maşının Ağcabədi-Ağdam istiqamətində hərəkət etdiyini görüb, yaralı Nurəddin adlı şəxs onu buraya Sabirin oğlu Rövşənin gətirdiyini deyib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin məlumatında Abdullayev Rövşən Sabir oğlunun ermənilər tərəfindən girov götürüldüyü təsdiqlənib.

**Abdullayev Rovshan Sabir oglu**

Abdullayev Rovshan Sabir oglu was born in Aghdam town of Azerbaijan Republic in 1964. On the 24th of July, 1993 during occupation of Aghdam by Armenians he was taken prisoner.

According to the information of Aliyev Khagani Valiyaddin oglu who lived in Sarijali village of Aghdam district and released from Armenian captivity (now he lives in Baku, Ahmedli settlement, Ganja Avenue 15, app.803), a man whose name was Nureddin told him he was taken prisoner with Sabir's son Rovshan.

The relative of Mammadov Jahangir Abdulali oglu (he lives in Baku, Tusi Street 43, app.11) Rahimov Ilgar's familiar saw Abdullayev Rovshan going by car «GAZ-24» to Aghdam and did not return in July, 1993 any more.

The uncle of prisoner Rahimov Ilgar (he lives in Baku, Mehmandarov Street 100, app.42) Mammadov Shamsi Hasan oglu said that during occupation of Aghdam by Armenians, his sister's son with Abdullayev Rovshan went there by car. A woman from Aghdam who returned from Armenian captivity said a blue car «GAZ-24» went to Agjabedi-Aghdam and a wounded man whose name was Nureddin said that he had brought Rovshan Sabir oglu there.

According to the information of Azerbaijan National Committee of Helsenki Civil Assembly, it was confirmed that Abdullayev Rovshan Sabir oglu was taken prisoner by Armenians.



**Abdulov Samir Qadir oğlu**

1974-ci ildə Bakı şəhərində anadan olub. 12 yanvar 1993-cü ildə Yasamal rayonunun Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Ağdərə rayonuna göndərilib. 20 yanvar 1993-cü ildə Ağdərə rayonunun Drambon kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb, Ermənistanın Leninakan rayonunda saxlanılıb.

Bu məlumatı Samirin Bakı şəhəri, H.Sultanov küçəsi 21-də yaşayan valideynləri Abdulova Dilbər Hidayət qızı və Abdulov Qadir Əbdül oğlu verib. Anasının dediyinə görə, ermənilər onların evinə zəng vuraraq Samirin Ermənistanın Kirovakan rayonunda saxlandığını bildiriblər.

**Abdulov Samir Gadir oglu**

Abdulov Samir Gadir oglu was born in Baku in 1974. On the 12th of January, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Yasamal district and then he was sent to Aghdara district. On the 20th of January, 1993 during the fight for Drambon village of Aghdara district Samir was taken prisoner by Armenians. Then he was kept in Leninakan district of Armenia.

That information was given by Samir's parents: mother Abdulova Dilbar Hidayet gizi and father Abdulov Gadir Abdul oglu who lived in H.Sultanov Street, 21. According to the words of his mother, Samir was kept in Kirovokan district of Armenia.



**Abdurəhmanov Yasin Şakir oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Ağdaş rayonunun Qaracan-Şıxlar kəndində anadan olub. 16 noyabr 1991-ci ildə Ağdaş Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Gəncə şəhərində yerləşən polis taboruna göndərilib. Həmin taborun tərkibində 19 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Ağdaş rayonunun Qaracan-Şıxlar kənd sakini Abdurəhmanov Şa-

**Abdurahmanov Yasin Shakir oglu**

Abdurahmanov Yasin Shakir oglu was born in Garajan-Shikhlar village of Agdash district of Azerbaijan Republic in 1972. On the 16th of November, 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Aghdash district and was sent to police battalion in Ganja. Yasin was sent to fight for Aterk village of Agdara district allotted to the same battalion. On the 19th of July, 1992 during the fight in Aterk village he was taken prisoner by Armenians.

According to the words of his father

kir Qoca oğlunun dediyinə görə, Yasinin axtarışı zamanı oğlunun son döyüşdə 41 hərbçi ilə birlikdə ermənilərin mühasirəsində qaldığını öyrənib. 1992-ci ilin iyul ayında həmin 41 nəfərdən biri olan Şəmkir rayonu Kor Təhnəli kənd sakini Arzu adlı şəxs Gəncədə yaşayan bibisinə zəng vuraraq Yasinlə birlikdə 30 hərbçi ilə erməni əsirliyində saxlandığını, azad olunmaq üçün 30 milyon rus rublu tələb olunduğunu deyib.

Atasının dediyinə görə, əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Gürcüstan Respublikasının Marneuli rayonu Sadaxlı kənd sakini Qurban adlı şəxs Arzunu ermənilərdən pulla alaraq qızı ilə evləndirib. 1996-cı ildə Qurban ona qarşı tərəfdə saxlanılan azərbaycanlı əsirlərin siyahısını göstərib. O, Yasini gah Seyran adlı əsirlə, gah da pula dəyişdirəcəyinə söz verib. Lakin nədənsə dəyişmə baş tutmayıb. Yasinin sonrakı taleyi haqqında başqa məlumat öyrənmək mümkün olmayıb.

Abdurahmanov Shakir Goja oglu who lived in Garajan-Shikhlar village of Agdash district, while searching for Yasin he found out that together with 41 military men, they were surrounded by Armenians. In July of 1992 one of those 41 men Arzu who lived in Kor Tehneli village of Shamkir district called his father's sister in Ganja and said that he with 30 military men was kept in captivity. Armenians demanded 30 millions of Russian rubles to release them and Yasin was with him in captivity.

According to his father's words, Gurban was engaged in change of prisoners and hostages and lived in Sadakhli village of Marneuli district of Georgian Republic bought Arzu for money and he was married with his daughter. In 1996 Gurban showed him a list of Azerbaijan; prisoners kept by Armenians. There was the name of his son in that list. He promised to change Yasin for a prisoner whose name was Seyran or for money. But the change didn't realize for that reason. Then he couldn't get any information concerning the further life of his son.



**Abışov Mobil Mövsüm oğlu**

1968-ci ildə anadan olub. 26 fevral 1992-ci ildə Xocalı faciəsi günü girov götürülüb.

Naftalan şəhərindəki «Qarabağ» sanatoriyasında məskunlaşmış həmyerliləri Abışov İlqar Niyaz oğlu və Abışov İntizam Niyaz oğlunun dediklərinə görə, Xocalı işğalı günü ermənilər onları Əsgəran Rayon Polis Şöbəsinə aparıb işgəncələr verən zaman Abışov Mobil Mövsüm oğlu da orada olub. Sonradan onlar azad olunduqları üçün Mobili bir daha görməyiblər.

Naftalan şəhərində məskunlaşmış Xo-

**Abishov Mobil Movsum oglu**

Abishov Mobil Movsum oglu was born in 1968. On the 26th of February, 1992 during occupation of Khojali town of by Armenian armed forces Mobil was taken hostage.

According to the words of his villagers Abishov Ilgar Niyaz oglu and Abishov Intizam Niyaz oglu, (they live in sanatorium «Garabagh» in Naftalan town), during occupation of Khojali town Armenians took them to Police Department of Asgaran district. When they put prisoners to tortures, Abishov Mobil Movsum oglu was with them. Then they were released and didn't see

calı şəhər sakini Əzizov Ramin İbrahim oğlunun verdiyi məlumata görə, Xocalı faciəsi zamanı ermənilər onları 13 nəfər yerli sakinlə Naxçıvanik kəndində tutub, Əsgəran Rayon Polis Şöbəsinə gətiriblər. Orada bir gün Abışov Mobil Mövsüm oğlu ilə eyni kamerada saxlanılıb. Səhəri gün başqa kameraya keçirildiyi üçün Mobili bir daha görməyib.

Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki «Sülh» pioner düşərgəsində məskunlaşmış Xocalı şəhər sakini Məmmədova Gülövşə Bəxtiyar qızı ərizəsində yazıb ki, ermənilər onları girov götürüb Əsgəran Rayon Polis Şöbəsinin zirzəmisində saxlayanda Abışov Mobil də orada olub. O, 2 gün sonra oğlu ilə azad olunub və bir daha Mobili görməyib.

Movsum any more.

According to the information of Azizov Ramin Ibrahim oglu who lived in Khojali (now he lives in Naftalan town), during occupation of Khojali town by Armenians 13 inhabitants were caught together in Nakhchivanik village and sent to Asgaran Police Department. They have been kept with Abishov Mobil Movsum oglu in the same cell for a day there. The next morning he was moved into another cell and didn't see Mobil any more.

Mammadova Gulovsha Bakhtiyar gizi who lived in Khojali town (now she lives in «Sulh» pioneer camp in Baku, Mardakan settlement) wrote a statement that Armenians took them as hostages. When they were kept in the cellar of Asgeran Police Department, Abishov Mobil was with them. After 2 days she with her son was released and didn't see Mobil any more.

## Abışov Yusif Rafiq oğlu



1974-cü ildə Azərbaycan Respublikası İmişli rayonunun Yalavac kəndində anadan olub. 5 yanvar 1974-cü ildə İmişli Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 1 yanvar 1994-cü ildə Füzuli rayonunun Şükürbəyli kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Aslanov Azər Salman oğlu izahatında yazıb ki, 1994-cü ildə Şuşa həbsxanasında Abışov Yusif də onunla birlikdə olub. Sonradan ermənilər Azərin yerini dəyişdikləri üçün Yusifin taleyi haqqında heç bir məlumat əldə edə bilməyib.

## Abishov Yusif Rafig oglu

Abishov Yusif Rafig oglu was born in Yalavaj village of Imishli district of Azerbaijan Republic in 1974. On the 5th of January, 1994, he was called up for military service by the Military Registration and Enlistment Office of Imishli district. On the 1st of January, 1994 during the fight for Shukurbeyli village of Fuzuli district Yusif was taken prisoner by Armenians.

According to a statement of Aslanov Azer Salman oglu who returned from Armenian captivity, Abishov Yusif was kept with him in Shusha prison in 1994. Then Armenians changed Azer's place and that's why he had no information concerning Yusif's life.

### Adıgözəlov Ənvər Səfər oğlu

1969-cu ildə Bakı şəhərində anadan olub. 1992-ci il iyun ayının 27-də Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Tankçı kimi Ağdərə bölgəsinin bir çox qaynar nöqtəsində döyüşüb. 25 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Drambon kəndi uğrunda döyüşdə əsir götürülüb.

Döyüş yoldaşlarının dediyinə görə, son döyüşdə Ənvərin tankının yandığını, özünün isə tankdan düşdüyünü görüblər. Adıgözəlov Ənvər yaralı halda əsir götürülərək Dağlıq Qarabağda saxlanılıb.

### Adigezalov Anver Safar oglu

Adigezalov Anver Safar oglu was born in Baku in 1969. On the 27th of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Nizami district. Adigezalov Anver served as a tanker in Aghdara district. On the 25th of September, 1992 during the fight for Drambon village of Aghdara district Anver was taken prisoner.

According to the words of his front-line comrades, they saw Anver's burning tank and he could get off from it. Wounded Adigezalov Anver was taken prisoner by Armenians and kept in Upper Garabagh.



### Adıgözəlov Feyruz Firudin oğlu

1974-cü ildə Azərbaycan Respublikasının Göyçay şəhərində anadan olub. 1992-ci il iyun ayının 27-də Göyçay Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Həmin il oktyabr ayının 11-də Feyruzun xidmət etdiyi hərbi hissə Laçın rayonunun Səfiyan kəndi ətrafında gedən döyüşlərə göndərilib. Feyruz oktyabrın 18-də Səfiyan kəndi yaxınlığında əsir götürülüb.

Atası-Adıgözəlov Firudin Mərdan oğlunun Ermənistan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyandan əldə etdiyi məlumata görə, Feyruz Yerevan şə-

### Adigezalov Feyruz Firudin oglu

Adigezalov Feyruz Firudin oglu was born in Goychay town of Azerbaijan Republic in 1974. On the 27th of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Goychay district. On the 11th of October, 1992 Adigezalov Feyruz was sent to fight for Sefiyan village of Lachin district. On the 18th of October, 1992 he was taken prisoner near Sefiyan village.

According to the information of his father Adigezalov Firudin Merdan oglu, the Head of Department Noyemberyan district of Committee of State Security of the Republic of Armenia said that he was kept in Investiga-

hər Hərbi Polis İdarəsinin İstintaq Təcridxanasında saxlanılıb.

tory Isolation of Department of Military Police in Yerevan.



## Ağalarov Yaşar Musa oğlu

1975-ci ildə anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 26 aprel 1994-cü ildə Tərtər rayonunun Nəmirli kəndi uğrunda döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Atası-Goranboy rayonu Xanqərvənd kənd sakini Ağalarov Musa Salah oğlu ərizəsində yazıb ki, Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun əldə etdiyi məlumata görə, Şuşa şəhərindəki erməni alayının rəisi Armayis Saakyanın təsdiq etdiyi, Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş, Xankəndi və Şuşa şəhərlərində yerləşən erməni alaylarında və şəxsi evlərdə saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısında Ağalarov Yaşarın da adı olub. Qarşı tərəf onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyib. Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

Bu faktı hərbi əsir Hümbətov Xalid Əli oğlunun atası-Kəlbəcər rayonu Halçalı kənd sakini Hümbətov Əli, əsir Muxtarov Telman Əlisahib oğlunun atası-Hacıqabul rayonu Nəvahi kənd sakini Muxtarov Əlisahib, əsir İsayev Bəxtiyar Səfər oğlunun atası-Bakı şəhəri, Motodrom massivi, ev 8-də yaşayan İsayev Səfər Əli oğlu da təsdiq edib.

## Agalarov Yashar Musa oglu

Agalarov Yashar Musa oglu was born in 1975. He took part in fights for Garabagh. On the 26th of April, 1994 Yashar was taken prisoner by Armenians in fight for Nemirli village of Terter district.

His father Agalarov Musa Salah oglu who lived in Khangarvand village of Goranboy district wrote a statement that while searching for his son, Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (at present he lives, in «Zugulba» sanatorium in Baku, Buzovna settlement) got information that Armenian commander of regiment Armayis in Shusha town confirmed a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC kept in Armenian regiment in Khankandi and Shusha and in the private houses. There was the name of Yashar in that list. The opposite side wanted to change them for Salatin Asgarova's killer Arkadi Ayriyan whose nick name was «Napoleon». But Ayriyan died and that's why the change didn't realize.

That information was confirmed by the following persons: father of prisoner of war Humbatov Khalid Ali oglu - Humbatov Ali who lived in Halchali village of Kelbajar district, father of prisoner of war Mukhtarov Telman Alisahib oglu - Mukhtarov Alisahib who lived in Nahavi village of Hajigabul district, father of prisoner of war Isayev Bakhtiyar Safar oglu – Isayev Safar Ali oglu who lived in Kelbajar district (at present he lives in Baku, Motodrom massif 8).



**Ağakişiyev Əhməd Süleyman oğlu**

1947-ci ildə Şuşa şəhərində anadan olub. Şuşa şəhər əmanət kassasının müdiri vəzifəsində işləyən Ağakişiyev Əhməd 1992-ci ilin may ayının 8-də Şuşanın işğalı zamanı girov götürülüb.

Qardaşı - Şuşa şəhər sakini, Bakı şəhəri Səbail rayonu "Şıx" sanatoriyasında müvəqqəti məskunlaşmış Ağakişiyev Elbrus Süleyman oğlunun izahatında bildirilir ki, 1993-cü ilin yanvar ayında əldə etdiyi məlumata görə, Əhməd Dağlıq Qarabağda Hadrut rayonunda mayor rütbəli Xoren adlı erməninin evində saxlanılıb.

Girov Ələkbərov Ənvər Bəylər oğlunun həyat yoldaşı - Quliyeva Ruzə Əli qızının izahatında Ağakişiyev Əhmədin onun əri ilə birlikdə Dağlıq Qarabağda saxlanıldığı qeyd edilib. Bu məlumat ona Əsir-girovların dəyişdirilməsi ilə məşğul olmuş Seyid Əhməd Kazımov bildirib.

Füzuli rayonunun Yağlıvənd kənd sakini Kazımov Əhəd Musa oğlu 1992-ci ildə əsirlərin dəyişdirilməsi ilə bağlı Xocavənd (Martuni) rayonunda işləyən polis kapitanı Maksimlə (Ambarsumyan Maksim Əmiroviç) əlaqə saxlayarkən sonuncu Şuşada əmanət kassasının müdiri işləmiş Əhmədi yaxşı tanıdığını, yaxın münasibətdə olduğunu, özünün nəzarəti altında saxlanıldığını və dostluq naminə onu Gürcüstan ərazisi istiqamətində azad edəcəyinə söz verib. Maksim Əhmədin yanında Ənvər (Ələkbərov Ənvər Bəylər oğlu) adlı daha bir şəxsin də saxlanıldığını bildirib.

**Agakishiyev Ahmed Suleyman oglu**

Agakishiyev Ahmed Suleyman oglu was born in Shusha town. Agakishiyev Ahmed was a director of savings-bank and during occupation of Shusha he was taken hostage on the 8th of May, 1992.

It's informed in a statement of his brother Agakishiyev Elbrus Suleyman oglu who lived in Shusha town (he lives in sanatorium "Shikh", Sabail district, Baku temporarily) that in accordance with the information gotten in January of 1993, Ahmed was kept in the house of major whose name was Khoren in Hadrut district of Upper Garabagh.

According to a statement of hostage Alakbarov Anvar Beylar oglu's wife Guliyeva Ruza Ali gizi, it's noted that Agakishiyev Ahmed was kept in Upper Garabagh with her husband. That information was given by Seyid Ahad (Kazimov Ahad) who was engaged in change of prisoners and hostages.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district connected with police captain Maxim (Ambarsumyan Maxim Amirovich) who worked at Khojavand (Martuni) district. Maxim said that he knew Ahmed very well who was a director of savings-bank in Shusha and promised to release him in direction of Georgia because of friendship. Maxim also informed that Ahmed was kept with a man whose name was Anvar (Alakbarov Anvar Beylar oglu).



## Ağayev Ayaz Həbibulla oğlu

1975-ci ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Hacıhətəmli kəndində anadan olub. 1993-cü ilin oktyabr ayında İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonu uğrunda döyüşlərə göndərilib. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürəhmanlı kəndi uğrunda döyüşdə yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-İsmayıllı rayonu Hacıhətəmli kənd sakini Ağayev Həbibulla Dosməmməd oğlunun verdiyi məlumata görə, Ayazın axtarışı zamanı döyüş yoldaşları ona oğlunun son döyüşdə yaralandığını və işğal olunmuş ərazidə qaldığını deyiblər. 1996-cı ildə İsmayıllı rayonunun Pircahan kəndindən olan bir qadın ona Ermənistanda olduğunu və Ayazın Yerevanda Qırmızı Həbsxanada (Krasnaya Tyurma) saxlandığını bildirib. O, həmin ildə Gürcüstan Respublikası Marneuli rayonunun Sadaxlı kəndində olub. Orada yaşayan Abdullayev Kamal Ziyavəddin oğlu Ayazın axtarışı ilə bağlı Ermənistana gedərək onun Xankəndi həbsxanasında saxlandığını, sonradan vəfat edib orada dəfn olunduğunu öyrənib.

## Agayev Ayaz Habibulla oglu

Agayev Ayaz Habibulla oglu was born in Hajihatamli village of Ismayilli district of Azerbaijan Republic in 1975. In October of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Ismayilli district and then he was sent to fight for Fuzuli district. On the 26th of January, 1994 during the fight for Asgagi Abdurahmanli village of Fuzuli district wounded Ayaz was taken prisoner by Armenians.

According to the information of Agayav Habibulla Dosmammad oglu who lived in Hajihatamli village of Ismayilli district, when he searched for Ayaz his front-line comrades said that his son was wounded and stayed at the occupied territory. According to the words of Agayev Habibulla, a woman from Pirjahan village of Ismayilli district informed that she was in Armenia and Ayaz was kept in Yerevan Red Prison (Krasnaya tyurma) in 1996. During that year she was in Sadikhli village of Marneuli district of Georgia, Abdullayev Kamal Ziyavaddin oglu who lived there went to Armenia to search for Ayaz. He found out that Ayaz was kept in a prison in Khankandi, he died and was buried there.



**Ağayev
Əfqan
Atakişi oğlu**

1966-ci ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Tüntül kəndində anadan olub. Könüllü olaraq Tərtər rayonu uğrunda döyüşlərə yollanıb. 13 iyun 1993-cü ildə Tərtər rayonunun Madagiz kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası- Qəbələ rayonu Tüntül kənd sakini Atakişi Ağayevin dediyinə görə, ermənilər oğlunu azad etmək üçün 10 milyon rus rublu tələb ediblər. Həmin məbləği düzəldə bilmədiklərindən Əfqanı azad etmək mümkün olmayıb.

Qardaşı-Qəbələ rayonu Tüntül kənd sakini Ağayev Tahir Atakişi oğlu ərizəsində yazıb ki, 1995-ci ildə Gürcüstan Respublikasının vətəndaşı olan Əziz adlı sürücü atasına oğlunun sağ olduğunu, Ermənistanın Oktemberyan rayonunda şəxsi evdə saxlandığını söyləyib. Atası Əzizlə həmin rayona gedib. Ermənilər ona oğlunun pasportunu və saatını verəndə Əfqanın öndə olan qızıl dişlərinin çıxarıldığını, soğan yeməyi xoşlamadığını və s. əlamətlərini deyiblər.

**Agayev
Afgan
Atakishi oglu**

Agayev Afgan Atakishi oglu was born Tuntul village of Gabala district of Azerbaijan Republic in 1966. He voluntarily was sent to fight for Terter district. On the 13th of June, 1993 during the fight for Madagiz village of Terter district Afgan was taken prisoner by Armenians.

According to the information of his father Atakishi Agayev who lived in Tuntul village of Gabala district, Armenians demanded 10 million Russian rubles. It was impossible to release Afgan because he couldn't collect money.

His borther Agayev Tahir Atakishi oglu who lived in Tuntul village of Gabala district wrote a statement that a driver Aziz who was the citizen of Georgian Republic said his father that his son was alive and kept in a private house in Oktemberyan district of Armenia. His father and Aziz went to the same district. When Armenians gave him his passport and watch they said it was taken out his front gold teeth, he disliked onions and etc.



**Ağayev
Həsənalı
Kommunist oğlu**

1969-cu ildə Azərbaycan Respublikası Ağdam rayonunun Tağıbəyli kəndində anadan olub. Post patrul alayının tərkibində Ağdamın müdafiəsində iştirak edib. 12 iyun 1993-cü ildə Ağdamın Çinli

**Agayev
Hasanali
Kommunist oglu**

Agayev Hasanali Kommunist oglu was born in Tagibeyli village of Aghdam district of Azerbaijan Republic in 1969. He took part in defense of Aghdam allotted to the post patrol regiment. On the 12th of

kəndində gedən döyüşdə hərbçilər geri çəkilərkən həmkəndlisi Əliyev Mədət Allahverdi oğlu yaralandığı üçün ona yardım etmək məqsədilə döyüş meydanına qayıdıb. Mühasirəni yara bilmədikləri üçün hər ikisi ermənilər tərəfindən əsir götürülüb. Bu məlumatı onun qardaşı-Ağdam rayonu Tağıbəyli kənd sakini, Ağcabədi rayonundakı Qızıl Ay türk çadır şəhərciyində məskunlaşmış Ağayev Alıxan Kommunist oğlu verib.

31 oktyabr 1993-cü ildən 8 iyun 1995-ci ilə kimi erməni əsirliyində olmuş Beyləqan rayonu Dünyamallar kənd sakini Sarıyev Əli Zöhrab oğlu ərizəsində yazıb ki, 1994-cü ilin mart ayından avqust ayına qədər Xankəndi şəhərində müvəqqəti saxlama təcridxanasında Həsənalı Ağayevlə birlikdə olub. Sonradan ermənilər əsirləri fiziki işə cəlb etmək məqsədilə qruplara ayırıblar. Həsənalı da belə qruplardan birinin tərkibində harasa aparıldığından bir daha onu görməyib.

Erməni əsirliyində olan Əliyev Mədət Allahverdi oğlunun həyat yoldaşı-Bərdə rayonunun Muğanlı kəndində məskunlaşmış Əsədova Aidə Xanoğlan qızının dediyinə görə, 12 iyun 1993-cü ildə Mədət həmkəndlisi Ağayev Həsənalı ilə birlikdə əsir götürülüb.

June, 1993, during the fight for Jinli village of Aghdam district his villager Aliyev Medet Allahverdi oglu was wounded and he wanted to help him and return back. Both of them were taken prisoners by Armenians. That information was given by his brother Agayev Alikhan Kommunist oglu who lived in Tagibeyli village of Aghdam district (at present he lives in «Qizil Ay» Turkish camp town in Agjabedi district).

Sariyev Ali Zohrab oglu who lived in Dunyamallar village of Beylagan district and being in Armenian captivity from the 31st of October, 1993, to the 8th of June, 1995, wrote a statement that from March, 1994, till August of same year he was kept with Agayev Hasanali Kommunist oglu who lived in Aghdam district in Khankandi isolation. Then Armenians separated them for groups to force for heavy labour. Hasanali allotted to such a group was taken to somewhere and after that Ali didn't see him any more.

According to the words of Madat's wife Asadova Aida Khanoglan gizi who being in Armenian captivity (now she lives in Muganli village of Barda district), Madat with villager Agayev Hasanali was taken prisoner by Armenians on the 12th of June, 1993.

## Ağayev Mehdi Ağamir oğlu



1943-cü ildə Azərbaycan Respublikasının Bərdə rayonunda anadan olub. 23 iyul 1993-cü ildə Ağdam rayonunun işğalı zamanı qohumları Xəlilov Vaqif İsmayıl oğlu, Xəlilov Natiq Vaqif oğlu, Xəlilov Vahid İsmayıl oğlu və Muradov Mahir Şirxan oğlu ilə Məmmədov Kamil Kamal oğlunun idarə etdiyi şəxsi «VAZ-2103» markalı 52-19 AQP dövlət nömrə nişanlı ağ rəngli avtomaşında girov götürülüb.

## Agayev Mehdi Agamir oglu

Agayev Mehdi Agamir oglu was born in Barda district of Azerbaijan Republic in 1943. On the 23rd of July, 1993, during occupation of Aghdam district Mehdi and his relatives: Khalilov Vagif Ismayil oglu, Khalilov Natig Vagif oglu, Khalilov Vahid Ismayil oglu, Muradov Mahir Shirhan oglu and Mammadov Kamil Kamal oglu who drove a white car «VAZ 21-03» (public plate number 52-19 AQP) were taken hostages.

Bibisi oğlu-Bərdə şəhəri, Şərq küçəsi, ev 50-də yaşayan Xəlilov Rafiq İsmayıl oğlunun dediyinə görə, Ağayev Mehdi də daxil olmaqla qohumları həmin gün girov götürülərək Xankəndi şəhərinə aparılıblar.

Qohumu-Bərdə şəhəri, Şərq küçəsi 4-də yaşayan Xəlilova Elza Kamal qızı ərizəsində yazıb ki, 23 iyul 1993-cü ildə həyat yoldaşı Xəlilov Vaqif, oğlu Xəlilov Natiqlə Ağayev Mehdi və digər qohumları ermənilər tərəfindən girov götürülərək Xankəndi şəhərinə aparılıblar. Milliyyətcə erməni olan, itkin düşmüş Qaroyan Arşavir Behbudoviçin valideynləri zəng vuraraq yaxınlarının qaytarılması üçün onların övladlarını tapmağı tələb ediblər.

Bərdə şəhəri, Şərq küçəsi, ev 3-də yaşayan, ermənilər tərəfindən girov götürülmüş Xəlilov Vaqif və Xəlilov Natiqin babası Xəlilov İsmayıl Əkbər oğlunun verdiyi məlumata görə, 1993-1994-cü illərdə əzizlərinin aqibətini öyrənmək məqsədilə dəfələrlə döyüş mövqelərində olub. Qarşı tərəflə əlaqə yaradaraq öyrənib ki, Ağayev Mehdi və bir neçə qohumu Şuşa, Xankəndi və Xocavənd şəhərlərində şəxsi evlərdə saxlanılıb. Ermənilərin dəyişmək üçün tələb etdikləri Qaroyan tapılmadığından onları azad etmək mümkün olmayıb.

According to the words of his aunt's son Khalilov Rafig Ismayil oglu (he lives in Barda city, Sharq Street, 50), during occupation of Aghdam district his relatives including Agayev Mehdi were taken hostages and took to Khankandi town.

His relative Khalilova Elza Kamal gizi (she lives in Barda town, Sharg Street, 4) wrote a statement that her husband Khalilov Vagif, son Khalilov Natig including Agayev Mehdi were taken hostages by Armenians and taken to Khankandi town on the 23rd of Jule, 1993. The parents of missed Garoyan Arshavir Behbudovich rang them up and demanded to find their son and they would return her relatives.

According to the information of his relative Khalilov Vagif and Khalilov Natig's grandfather Khalilov Ismayil Akber oglu, (they were taken hostages by Armenian forces) he went to the battle field to get any information concerning relatives in 1993-1994. He connected with opposite side and found out that Agayev Mehdi and some relatives were taken hostages by Armenians, kept in the private houses in Khankandi, Khojavand and Shusha towns of Upper Garabagh. Armenians demanded to find Garoyan, they didn't find him and that's it was impossible to release them.

**Ağayev Mirpaşa Seyidabbas oğlu**



1976-cı ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Cavad kəndində anadan olub. 1992-ci ilin dekabr ayında Sabirabad Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Qarabağ uğrunda döyüşlərə göndərilib. 17 fevral 1994-cü ildə Ağdərə rayonunun Mehmanə kəndində gedən döyüş

**Agayev Mirpasha Seyidabbas oglu**

Agayev Mirpasha Seyidabbas oglu was born in Javad village of Sabirabad district of Azerbaijan Republic in 1976. In December of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabirabad district and then he was sent to fight for Garabagh. On the 17th of February, 1994

zamanı ermənilər tərəfindən əsir götürülüb.

Şuşa həbsxanasında 2 saylı kamerada saxlanılıb. Gündüzlər Albert adlı şəxs onu və daha 3 azərbaycanlı əsiri fiziki işlərə cəlb edib, axşamlar isə Şuşa həbsxanasına gətirib. Bu məlumatı oğlunun axtarışı ilə məşğul olan Sabirabad rayonu Cavad kənd sakini Ağayev Seyidabbas Seyidağa oğlu Mirpaşanın döyüş yoldaşlarından öyrənib.

Erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Axundov küçəsi, ev 10, mənzil 50-də yaşayan Nəbiyev Yusif Allahyar oğlu izahatında yazıb ki, 1993-cü ilin aprel-iyul aylarında Şuşa həbsxanasında Ağayev Mirpaşa ilə eyni kamerada saxlanılıb.

during the fight in Mehmane village of Aghdara district, he was taken prisoner by Armenians.

Agayev Mirpasha was kept in cell № 2 of Shusha prison. In the afternoon Albert forced him and 3 other Azerbaijani prisoners for heavy labour but in the evening he was taken to Shusha prison. Agayev Seyidabbas Seyidaga oglu who lived in Javad village of Sabirabad district got that information from Mirpasha's front-line comrades.

Nabiyev Yusif Allahyar oglu who returned from Armenian captivity (he lives in Baku, Bakikhanov settlement, Akhundov Street, 10, app. 50), wrote a statement that he was kept with Agayev Mirpasha in the same cell during his captivity in Shusha prison in April-July of 1993.

## Ağayev Rəsul Babaxan oğlu



1968-ci ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Navadan kəndində anadan olub. 12 iyul 1992-ci ildə Əli Bayramlı şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam rayonuna göndərilib. 15 iyun 1992-ci ildə Ağdam rayonunun Sırxavənd kəndində gedən döyüşdə əsir götürülüb.

Əsir Atamoğlanov Əbülfət Sabir oğlunun qardaşı, Salyan rayonu Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlunun verdiyi məlumata görə, 1996-cı ildə qardaşının axtarışı zamanı Gürcüstan Respublikası ərazisində Ermənistan Respublikası Noyemberyan rayonunun Ləmbəli kənd sakini Qaqo adlı şəxslə görüşüb. Qaqo ona Ağayev Rəsul Babaxan oğlunun da adı daxil olan 14 azərbaycanlı hərbi əsirin siyahısını verib. Əsirlər bir müddət Er-

## Agayev Rasul Babakhan oglu

Agayev Rasul Babakhan oglu was born in Navadan village of Sabirabad district of Azerbaijan Republic in 1968. On the 12th of July, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ali-Bayramli and was sent to Aghdam district. On the 15th of June, 1992 during the fight for Sirkhavand village of Aghdam district Rasul was taken prisoner by Armenians.

According to the information of brother of prisoner of war Atamoglanov Abulfat Sabir oglu - Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengli village of Salyan district, while searching for his brother he met Gago in Georgia who lived in  Lembeli village of Noyemberyan district of Armenia. Gago gave him a list of 14 Azerbaijani prisoners of war including the name of Agayev Rasul

mənistanın Kirovakan şəhərində saxlanılıb, sonra Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin Yerevan şəhərində yerləşən İstintaq Təcridxanasına göndərilib. Məlumatı Qaqoya yaxın qohumu, Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyan verib.

Babakhan oglu who kept by Armenians. Those prisoners were kept in Kirovakan of Armenian, then they were sent to Investigatory Isolation of Armenian Committee of State Security in Yerevan city. That information was given by Gago's close relative Alik Sarumyan who was the head of Noyemberyan district Department of Armenian Committee of State Security.



**Ağayev Yalçın Rafiq oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Ağcabədi rayonunun Boyat kəndində anadan olub. 16 iyul 1993-cü ildə Ağdam rayonunun Qalayçılar kəndi istiqamətində postda növbə çəkən zaman erməni hərbçiləri tərəfindən əsir götürülərək naməlum istiqamətə aparılıb.

His father Jabbarov Telman Idris oglu (he lives in Baku, «Gizil Sharg» military town, 98. app.19) got that information from an Armenian (he kept in a secret his name because of safety) on the territory of Georgia. According to the words of that man, Ali and Abbasov Rafael Soltan oglu were sent to Sovetashan from Yerevan prison.

The brother of Huseynova Tamara Saleh gizi – Huseynov Akif Saleh oglu who lived in Arsik-Jirdakhan village got a list of Azerbaijani prisoners of war and hostages

Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən (Yerevan tel:63-60-70) aldığı qarşı tərəfdə saxlanılan azərbaycanlı hərbi əsir və girovların siyahısında Cabbarov Əlinin də adı olub. Onun Yerevan şəhərinin Sovetaşan qəsəbəsində yerləşən həbsxanada saxlandığı göstərilib.

from an Armenian Gagik (phone: 63-60-70). There was the name of Jabbarov Ali in the list. It was shown that he was kept in a prison in Sovetashan settlement of Yerevan city of Armenia.



**Cabbarov İlham Yusif oğlu**

1975-ci ildə Bakı şəhərində anadan olub. II kurs tələbəsi Cabbarov İlham 30 aprel 1993-cü ildə vətənini müdafiə etmək üçün könüllü olaraq Xətai Rayon Hərbi Komissarlığına müraciət edib. Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. 20 avqust 1993-cü ildə Füzuli rayonunda gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Sumqayıt şəhəri, 10-cu mikrorayon, ev 49, mənzil 29-da yaşayan Rəcəbov Nazim Rza oğlunun verdiyi məlumata görə, Bakı şəhərindən olan Cabbarov İlhamı 1993-cü ildə Xankəndi xəstəxanasında, müvəqqəti saxlama təcridxanasında və Şuşa həbsxanasında saxlanılan zaman görüb. Sonradan ermənilər İlhamı naməlum istiqamətə aparıblar.

Bakı şəhəri, Nizami rayonu Ə. Vəliyev küçəsi 14, mənzil 23-də yaşayan Orucov Rafael Rəcəb oğlunun dediyinə görə, qonşuluqda yaşayan, erməni əsirliyindən qayıtmış Bəxtiyar adlı bir nəfər milliyyətcə erməni olan Aşotdan İlhamın Şuşa şəhərində saxlandığını öyrənib. Aşot hətta İlhamın xüsusi əlamətləri-uşaqlıqda sinəsində aparılmış əməliyyatın yeri haqqında da məlumat verib.

**Jabbarov Ilham Yusif oglu**

Jabbarov Ilham Yusif oglu was born in Baku in 1975. On the 30th of April, 1993 the student of 2nd course Jabbarov Ilham voluntarily appealed to the Military Registration and Enlistment Office of Khatai district to take part in fights for Garabagh. He took part in fights for Fuzuli district. On the 20th of August, 1994 during the fight in Fuzuli district Ilham was taken prisoner by Armenians.

According to the information of Rajabov Nazim Rza oglu who returned from Armenian captivity (he lives in Sumgayit, 10th microdistrict 49, app. 29), when he was kept in isolation and Shusha prison, he saw Jabbarov Ilham from Baku there. Then Ilham was taken somewhere, to unknown direction by Armenians.

According to the words of Orujov Rafael Rajab oglu (he lives in Baku, Nizami district, A.Valiyev Street 14, app. 23), Bakhtiyar who lived next to him and returned from Armenian captivity found out from an Armenian Ashot that Ilham was kept in Shusha. Ashot also said that there was the trace of operation on his chest which performed in the childhood.



**Cabbarov Səfər İsmət oğlu**

1968-ci ildə anadan olub. 1993-cü ildə Mingəçevir hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib.

Atası-Cabbarov İsmət Kərim oğlu izahatında oğlunun döyüş yoldaşlarından onun Ağdərə uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürüldüyünü öyrənib.

Erməni əsirliyindən qayıtmış, Ucar şəhəri, 28 May küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlu 1993-cü ildə Hadrut rayonunun Tuğ kəndində Cabbarov Səfərlə birlikdə saxlandığını yazıb.

**Jabbaorv Safar Ismat oglu**

Jabbaorv Safar Ismat oglu was born in 1968. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Mingechevir city. Safar took part in fights for Aghdara district.

According to a statement of his father – Jabbarov Ismat Kazim oglu, while searching for his son he found out from his front-line comrades that Safar was taken prisoner by Armenians during the fight for Aghdara.

Mammadov Mayil Mammmadali oglu who returned from Armenian captivity (he lives in Ujar, 28 May Street, 7) wrote that he was kept with Jabbarov Safar in Tug village of Hadrud district in 1993.



**Cahangirov Hümmət Eldar oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Lənkəran rayonunun Tükəvilə kəndində anadan olub. 1993-cü ildə Lənkəran Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonuna göndərilib. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində gedən şiddətli döyüş zamanı dizindən ağır yaralanıb və ermənilər tərəfindən əsir götürülüb.

Atası-Lənkəran rayonu Tükəvilə kənd sakini Cahangirov Eldar Müştəba oğlunun verdiyi məlumata görə, 1994-cü ildə Füzu-

**Jahangirov Hummat Eldar oglu**

Jahangirov Hummat Eldar oglu was born in Tukavila village of Lankaran district of Azerbaijan Republic in 1975. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Lankaran district and sent to Fuzuli district. On the 26th of January, 1994 during the fight in Ashagi Abdurrahmanli village of Fuzuli district Hummat was wounded in knee and taken prisoner by Armenians.

According to the information of his father Jahangirov Eldar Mushtaba oglu

li rayonundakı hərbi hissələrdən birində rabitəçi vəzifəsində xidmət etmiş Lənkəran sakini Mirzəyev Qalib Abdulla oğlu onlara Hümmətin sağ olduğunu bildirib. Ermənilər onunla rabitə yaradaraq Hümmət də daxil olmaqla əsir götürdükləri 6 azərbaycanlı döyüşçünü itkin düşmüş «Ərəb» ləqəbli erməni hərbçisi ilə dəyişmək istədiklərini bildiriblər. Hətta Hümmətin onunla danışmasına da imkan veriblər. «Ərəb» tapılmadığı üçün döyüşçüləri dəyişmək mümkün olmayıb.

who lived in Tukavila village of Lankaran district, a signaler from a military unit of Fuzuli district Mirzeyev Galib Abdulla oglu who lived in Lankaran district informed that Hummat was alive in 1994. Armenians connected and informed that they wanted to change 6 Azerbaijani prisoners for missed Armenian military man whose nick name was «Arab». They gave an opportunity to Hummat to talk. It was impossible to change fighters because «Arab» wasn't found.

## Cahangirov İsmayıl Allahverdi oğlu



1971-ci ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. 1992-ci ilin avqust ayında Sabirabad Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 31 yanvar 1994-cü ildə Xocavənd rayonu ərazisindəki Şişqaya yüksəkliyi uğrunda döyüşdə 8 döyüş yoldaşı: Vəliyev Elşad Əjdər oğlu (Gəncə), Cəfərov Babək Lətif oğlu (Bakı), Quliyev Şahin Ağakərim oğlu (Saatlı), Binəliyev Rafiq Kazım oğlu (Saatlı), Bağırov Qüdrət Nüsrət oğlu (Lənkəran), Kərimov Səhman Şahbaz oğlu (Ucar), İbrahimov Zaur Xəlil oğlu (Göyçay), Eyvazov Knyaz Eyvaz oğlu (Oğuz) ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb, Xocavənd rayonunun Kuropatkino kəndində saxlanılıb.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış, Kazımov Əhəd Musa oğlu ərizəsində yazıb ki, 9 azərbaycanlı döyüşçü əsir götürüləndən sonra erməni polisinin əməkdaşı Abo

## Jahangirov Ismayil Allahverdi oglu

Jahangirov Ismayil Allahverdi oglu was born in Garatapa village of Sabirabad district of Azerbaijan Republic in 1971. In August of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabirabad district. On the 31st of January, 1994 during the fight for Shishgaya height of Khojavand district together with 8 fighters: Valiyev Elshad Ajdar oglu (Ganja), Jafarov Babek Latif oglu (Baku), Guliyev Shahin Agakarim oglu (Saatli), Binaliyev Rafig Kazim oglu (Saatli), Bagirov Gudrat Nusrat oglu (Lankaran), Kazimov Sahman Shahbaz oglu (Ujar), Ibrahimov Zaur Khalil oglu (Goychay), Eyvazov Knyaz Eyvaz oglu (Oguz) were taken prisoners together and kept in Kurapatkino village of Khojavand district.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district) and engaged in change of prisoners and hostages wrote a statement when 9 Azerbaijani fighters were taken prisoners,

onunla əlaqə yaradıb, onları itkin düşmüş 5 erməni tankçı ilə dəyişmək istədiklərini deyib. Tankçılar tapılmadığı üçün dəyişmə baş tutmayıb. Bu faktı əsir götürülmüş hərbçilərin valideynləri də təsdiq ediblər.

Armenian policeman Abo connected with him and wanted to change for 5 missed Armenian tankmen. The change didn't realize because Armenian tankmen weren't found. That fact was confirmed by the parents of military men.

## Camalov Elman Hüseyn oğlu



1970-ci ildə anadan olub. 1991-ci ildə hərbi xidmətdən qayıdan Camalov Elman həmin ilin noyabr ayında Qarabağ uğrunda döyüşlərdə iştirak etmək üçün Şuşanın Malıbəyli kəndinə yollanıb. 26 yanvar 1992-ci ildə Şuşa rayonunun Daşaltı kəndində gedən döyüşdə yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı- Bakı şəhəri, 3-cü Alatava, ev 123-də yaşayan Camalov Sabir Hüseyn oğlunun dediyinə görə, Elmanın axtarışı ilə bağlı döyüş yoldaşı İmranla (1992-ci ilin iyun ayında döyüş zamanı həlak olub) görüşüb. İmran ona Daşaltı döyüşündə Elmanın ayağından yaralandığını və öz əlləri ilə onun yarasını sarıdığını deyib. Onun bildirdiyinə görə, həmin döyüşdə Elmangilin xidmət etdiyi taqım döyüş meydanında qalıb, İmrangilinki isə geri çəkilib. Səhəri gün Elman nə yaralıların, nə də meyitlərin arasında tapılmayıb.

Erməni əsirliyindən qayıtmış Ucar şəhər sakini Məmmədov Mayıl Məhəmmədəli oğlunun izahatında yazılıb ki, 1992-ci ilin sonunda Xankəndi şəhərində saxlanılan zaman «Papanin» ləqəbli Camalov Elman da onunla birlikdə olub. 1993-cü ilin yanvar ayında Mayılı Hadrut rayonunun Tuğ kəndinə aparıblar. Elman isə Xankəndində qalıb.

## Jamalov Elman Huseyn oglu

Jamalov Elman Huseyn oglu was born in 1970. When he returned from military service in November, 1991 he was sent to Malibeyli village of Shusha to take part in fights for Garabagh. On the 26th of January, 1992 during the fight for Dashalti village of Shusha district wounded Elman was taken prisoner by Armenians.

According to the words of his brother Jamalov Sabir Huseyn oglu (he lives in Baku, the 3rd Alatava, app.123), while searching for Elman he met his front-line comrade Imran (it's pity but he died during the fight in June of 1992). Imran said that during Dashalti fight Elman was wounded in leg and he bandaged his leg. According to his information during the fight Elman's troop stayed at the battle field but Elman retutned back. The next morning neither Elman nor his corpse was found.

Mammadov Mayil Mahammadali oglu who returned from Armenian captivity wrote a statement that at the end of 1992 Jamalov Elman whose nickname was «Papanin» was kept with him in Khankandi town. In January of 1993 Mayil was taken to Tug village of Hadrud district. Elman was stayed at Khankandi.



**Camalov Kamal Nüsrət oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Alıbəyli kəndində anadan olub. 1992-ci ilin may ayında Cəbrayıl Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 25 avqust 1993-cü ildə Cəbrayıl rayonunun Havıslı kəndi uğrunda döyüşdə əsir götürülüb.

Atası - Cəbrayıl rayonu Alıbəyli kənd sakini Camalov Nüsrət Cümşüd oğlunun dediyinə görə, döyüş yoldaşları Kamalın Cəbrayıl rayonunun Havıslı kəndində ermənilər tərəfindən əsir götüldüyünü görüblər.

1994 - cü ilin fevral ayında onların həmkəndlisi və Kamalın döyüş yoldaşı Məmmədov Sərvər Heydər oğlu (hazırda Rusiyada yaşayır) Nüsrətə Kamal haqqında bəzi məlumatı verib. Sərvərin dediyinə görə Kamal əsir götürüləndən sonra 16 il Zəngilanda yaşamış Frunzik adlı erməni radioəlaqə vasitəsilə sürücü Nüsrətin oğlunun onların tərəfində əsir olduğunu deyib. Məmmədov ona inanmadığını dedikdə, Frunzik 100-150 metrlik məsafədən Kamalı və digər əsirləri ona göstərib, dərhal da geri qaytarıb. Atası bu məlumatı alandan sonra dərhal həmin əraziyə gedib, hərbçilər vasitəsilə ermənilərlə əlaqə yaradıb, fevral ayının 24-də Kamalın və bir neçə əsirin başqa yerə aparıldığını öyrənib.

Zəngilan rayonu Tağılı kənd sakini, ermənilər tərəfindən əsir götürülmüş Şıxıyev Yaşar Əhməd oğlunun bacısı Şıxıyeva Ülkər Əhməd qızının dediyinə görə, qardaşının, Kamalın və Əsədov Əziz Məhəmməd oğlunun ekipaj üzvü olduqları piyadaların döyüş maşını ermənilər tərəfindən vurulub, özləri isə əsir götürülüblər.

**Jamalov Kamal Nusrat oglu**

Jamalov Kamal Nusrat oglu was born in Alibeyli village of Jabrayil district of Azerbaijan Republic in 1974. In May of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Jabrayil district. On the 25th of August, 1993 during the fight for Havisli village of Jabrayil district Kamal was taken prisoner by Armenians.

According to the words of his father Jamalov Nusrat Jumshud oglu who lived in Alibeyli village of Jabrayil district, his front-line comrades said that Kamal really was taken prisoner by Armenians in Havisli village of Jabrayil district.

In February of 1994 their villager and Kamal’s front-line comrade Mammadov Sarvar Heydar oglu (now he lives in Russia) gave to Nusrat some information concerning Kamal. According to Sarvar’s words, when Kamal was taken prisoner Armenian whose name was Frunzik and who had lived in Zangilan for 16 years informed by radio communication that driver Nusrat’s son was taken prisoner by them. Mammadov said him that he didn’t belive him, Frunzik showed Kamal and other prisoners in a distance of 100-150 meters and then immediately returned them back. When his father got that information he went to the same place, connected with Armenians by the assistance of military men and found out that Kamal and several prisoners were taken to another place on the 24th of February, 1994.

According to the words of sister of prisoner Shikhiyev Yashar Ahmed oglu who lived in Tagili village of Zangilan district Shikhiyeva Ulker Ahmed gizi, Kamal and Aziz Mahamed oglu were the members of armored infantry machine. Armenians fired upon them and took as prisoners.



**Camalov Sərdar Məmmədağa oğlu**

1973-cü ildə Bakı şəhərində anadan olub. 1993-cü ilin avqust ayında Kəlbəcər rayonunda ermənilər tərəfindən əsir götürülüb.

Keçmiş hərbi əsir, Sumqayıt şəhəri, 42-ci məhəllə, ev 7, mənzil 20-də yaşayan Quliyev Elmar Zahid oğlu izahatında 1993-cü ildə Şuşa həbsxanasında Z.Tağıyev qəsəbəsindən olan azərbaycanlı əsir Camalov Sərdar Məmmədaba oğlunun da saxlandığını bildirib.

Erməni əsirliyindən azad olunmuş, Əli Bayramlı şəhəri, Nizami küçəsi, ev 15-də yaşayan Rüstəmov İlqar Malik oğlu da Sərdarın Şuşa həbsxanasında saxlanılması faktını təsdiq edib.

Ağdam ərazi özünümüdafiə batalyonunun sabiq komandiri-Bakı şəhəri, Nəsimi rayonu 2-ci mikrorayon, H.Əliyev küçəsi, ev 1, mənzil 43-də yaşayan Əliyev Ağalar Xasay oğlu ərizəsində bildirib ki, əsirlərin dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Aleksandr Aqasaryanın ona təqdim etdiyi 72 azərbaycanlı hərbi əsirin siyahısında Şuşa həbsxanasında saxlanılan Camalov Sərdarın da adı olub.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun bildirdiyinə görə, Ağdam rayonunun Qərvənd kəndində apardıqları danışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyan ona Camalov Sərdarın Şuşa həbsxanasında əsir saxlandığını deyib.

**Jamalov Sardar Mammadaga oglu**

Jamalov Sardar Mammadaga oglu was born in Baku in 1973. In August of 1993 he was taken prisoner by Armenians in Kelbajar district.

According to a statement of former prisoner of war Guliyev Elmar Zahid oglu (he lives in Sumqayit, 42 quarter, app.7/20), Azerbaijani prisoner Jamalov Sardar Mamedaga oglu from Z.Tagiyev settlement was kept with him in Shusha prison in 1993.

Rustamov Ilgar Malik oglu (he lives in Ali-Bayramli town, Nizami Street, app.15) who released from Armenian captivity confirmed the fact that he was kept with Sardar in Shusha prison.

According to a statement of former commander of Aghdam's self-defense battalion Aliyev Agalar Khasay oglu (he lives in Baku, Nasimi district, 2nd mickodistrict, H.Aliyev street, 1, app.43), when he was engaged in change of prisoners, the representative of opposite side Alexander Agasaryan gave him a list of 72 Azerbaijani prisoners of war kept in Shusha prison and there was the name of Sardar in that list.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district), during the talks with Armenian side in Garvand village of Aghdam district the representative of opposite side Albert Voskanyan said that Jamalov Sardar was kept in Shusha prison.



**Canıyev Səxavət Xanış oğlu**

1964-cü ildə Azərbaycan Respublikası Salyan rayonunun Xalac kəndində anadan olub. Ehtiyatda olan leytenant Canıyev Səxavət könüllü olaraq müharibəyə gedib. Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. Tank taburunda taqım komandiri olub. 27 yanvar 1994-cü ildə Füzuli rayonunun Şişqaya deyilən ərazisində tankları ermənilər tərəfindən vurulub, özü isə ağır yaralı vəziyyətdə əsir götürülüb.

Səxavətlə eyni tankda heyət üzvü olmuş Göyçay rayonu Ləkçıplak kənd sakini Qasımov Altay Topçu oğlunun verdiyi məluma görə, son döyüşdə ermənilərin açdığı atəşdən tank od tutub yanarkən çölə atılıb. Həmin vaxt Səxavət sağ olub. Özü də ağır yaralı olan sürücü-mexanik Qasımov yaralı Səxavətin ermənilər tərəfindən sürüdülərək aparıldığının şahidi olub. Altay yandığından ermənilər onu ölü zənn edib aparmayıblar.

**Janiyev Sakhavat Khanish oglu**

Janiyev Sakhavat Khanish oglu was born in Khalaj village of Salyan district of Azerbaijan Republic in 1964. Lieutenant in the reserve Janiyev Sakhavat voluntarily went to the war. He took part in fight for Fuzuli fistrict. Sakhavet was the commander of tank crew. On the 27th of January, 1994 Armenians fired upon his tank near the place called Shishgaya height in Fuzuli district. Sakhavat was seriously wounded and taken prisoner.

According to the information of Gasimov Altay Topchu oglu who lived in Lekchiplak village of Goychay district and was also the member of same tank crew, Armenians opened fire upon their tank. When the tank began to burn he jumped from it. At that moment Sakhavat was alive. Seriously wounded driver mecanique Gasimov eyewitnessed Armenians took Sakhavat. They thought that Altay died and that's why didn't take him.



**Cavadov Acı Məmməd oğlu**

1973-cü ildə anadan olub. 1992-ci ilin oktyabr ayında Bakı şəhəri Nəsimi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Zəngilan rayonuna göndərilib. Sonradan Acının qulluq etdiyi hərbi hissə Cəbrayıl

**Javadov Aji Mammad oglu**

Javadov Aji Mammad oglu was born in 1973. In October of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Nasimi and sent to Zangilan district. Then he went to help soldiers who fought in

rayonunda döyüşən əsgərlərə köməyə gedib. 23 avqust 1993-cü ildə Cəbrayıl rayonu ermənilər tərəfindən işğal olunan gün yaralanıb və 10 nəfər əsgərlə birlikdə əsir götürülüb.

Bu məlumatı anası-Bakı şəhəri, Suraxanı rayonu, Ə. Mehbalıyeva küçəsi 36/8-də yaşayan Saray Quliyevaya Acının döyüş yoldaşı Zəngilan şəhər sakini, Bakı şəhərinin Əmircan qəsəbəsi, Mahir Mustafayev küçəsi, ev 4, mənzil 30-da məskunlaşmış Əliyev Ceyhun Qurban oğlu (Rusiya Federasiyasında işləyir) verib.

Aji's military unit in Jabrayil district. On 23rd of August, 1993 during the day of Jabrayil's occupation Aji was wounded and taken prisoner with 10 soldiers.

His mother Saray Guliyeva (she lives in Baki, Surakhani district, A.Mehbaliyev Street 36/8) got that information from Aji's front-line comrade Aliyev Jeyhun Gurban oglu who lived in Zangilan district and then moved into Baku, Amirajan settlement, M.Mustafayev Street 4, app. 36 (at present he lives in RF).



## Cavadov Zöhrab İsi oğlu

1972-ci ildə Azərbaycan Respublikası Tərtər rayonunun Evoğlu kəndində anadan olub. 1993-cü ildə Qarabağ uğrunda döyüşlərə yollanıb. 3 may 1993-cü ildə Ağdərə rayonunun Çardaxlı kəndində gedən döyüşdə əsir götürülüb.

Tərtər rayon sakini, Qarabağ müharibəsi veteranı, II qrup əlil Paşayev İlham Sabir oğlunun dediyinə görə, 1993-cü ilin yaz aylarında Tərtər taborunda bölük komandiri vəzifəsində qulluq etdiyi zaman Ağstafa taborunun komandiri onunla əlaqə yaradaraq səhər saat 6-da ermənilərdən Cavadov Zöhrabın əsir götürüldüyünü öyrəndiyini bildirib. Zöhrabın atasının ertəsi gün saat 6-da orada olmasını və ermənilərin mütləq onunla danışmaq istədiklərini deyib. İlham gecə saat 2-də Evoğlu kəndinə gedib. İsi kişiyə oğlunun sağ olduğunu, əsir götürüldüyünü, ermənilərin onunla danışmaq istədiklərini bildirib. Onunla birlikdə səhər saat 5-6 radələrində Madagiz kəndinə gəlib. Həmin vaxt atışma başlayıb, er-

## Javadov Zohrab Isi oglu

Javadov Zohrab Isi oglu was born in Evoglu village of Terter district of Azerbaijan Republic in 1972. In 1993 he was sent to fight for Garabagh. On the 3rd of May, 1993 during the fight in Chardakhli village of Aghdara district Zohrab was taken prisoner by Armenians.

According to the words of Pashayev Ilham Sabir oglu, Veteran of Garabagh war, invalid of 2nd group who lived in Terter district, when he served as a commander of sub-unit in spring of 1993, commander of Aghstafa battalion connected with Armenians by radio communication at 6 o'clock and found out that Javadov Zohrab was taken prisoner. They wanted to see Zohrab's father the next day at 6 o'clock and talk to him. Ilham went to Eloglu village at 2 o'clock. He said to Isi kishi that his son was alive, taken prisoner and Armenians wanted to talk to him. They came to Madagiz village together at 5-6 o'clock. At that moment the skirmish began and connection with Armenians was interrupted. He couldn't get information concerning Zohrab.

mənilərlə əlaqə kəsilib. Buna görə də Zöhrab haqqında daha heç bir məlumat əldə edə bilməyiblər.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhərinin Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun verdiyi məlumata görə, Şuşa şəhərindəki erməni alayının rəisi Armais Saakyanın təsdiq etdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş, Xankəndi və Şuşa şəhərlərində yerləşən erməni alaylarında və şəxsi evlərdə saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısında Cavadov Zöhrabın da adı olub .

Qarşı tərəf onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyib. Lakin Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

Bu faktı əsir götürülmüş Hümbətov Xalidin atası-Kəlbəcər rayonu Halçalı kənd sakini Hümbətov Əli, hərbi əsir Muxtarov Telmanın atası-Hacıqabul rayonu Nəvahi kənd sakini Muxtarov Əlisahib, hərbi əsir İsayev Bəxtiyarın atası-Bakı şəhəri, Motodrom massivi ev 8-də yaşayan İsayev Səfər Əli oğlu, Ağalarov Yaşar Musa oğlunun atası-Goranboy rayonu Xanqərvənd kənd sakini Ağalarov Musa da təsdiq edib.

According to the information of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (now he lives in sanatorium «Zugulba» in Baku, Buzovna settlement), the chief of staff Armenian regiment Armayis Saakyan confirmed a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC who kept in the private houses and Armenian regiments in Khankandi and Shusha. There was the name of Javadov Zohrab in that list.

Armenians wanted to change them for a killer of journalist Salatin Asgerova – Arkadi Ayriyan whose nick name was «Napoleon». But Ayriyan died and the change didn't realize.

That fact was confirmed by the father of prisoner of war Humbatov Khalid Ali oglu – Humbatov Ali who lived in Halchali village of Kelbajar district, the father of prisoner of war Mukhtarov Telman Alisahib oglu – Mukhtarov Alisahib who lived in Navahi village of Hajiqabul district, the father of prisoner of war Isayev Bakhtiyar Safar oglu – Isayev Safar Ali oglu who lived in Baku, Motodrom massif, 8 and the father of prisoner of war Agalarov Yashar Musa oglu – Agalarov Musa who lived in Khangarvand village of Goranboy district.

## Cəbrayılov Qəşəm Əmrah oğlu



1974-cü ildə Azərbaycan Respublikası Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. 1992-ci ilin oktyabr ayında Kürdəmir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. 12

## Jabrayilov Gasham Amrah oglu

Jabrayilov Gasham Amrah oglu was born in Shilyan village of Kurdamir district of Azerbaijan Republic in 1974. In October of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Kurdamir district. Gasham took part in

yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində gedən döyüşdə əsir götürülüb.

Onun qulluq etdiyi hərbi hissədə tabor komandiri vəzifəsində xidmət etmiş Tağıyev Rəhim izahatında yazıb ki, 12 yanvar 1994-cü ildə ermənilər qəfildən mövqeləri mərmi atəşinə tutublar. Başlarının üzərində mərmilər uçan hərbçilər geriyə, arxadakı yüksəkliyə çəkilməyə məcbur olduqları zaman Cəbrayılov Qəşəm həmyerlisi Qədimov Rasimlə birlikdə səngərdən çıxa bilmədikləri üçün orada qalıblar. Həmin ərazi ermənilər tərəfindən işğal olunduğuna görə, onların sonrakı taleyi heç kimə məlum olmayıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun verdiyi məlumata əsasən, 1994-cü ildə erməni polisinin əməkdaşı Albertlə apardığı radioəlaqə zamanı Cəbrayılov Qəşəmin əsir götürülüb, Xocavənd rayonunun Qırmızı Bazar kəndində fiziki işlərə cəlb edildiyini öyrənib. Qarşı tərəf onu azad etmək üçün erməni əsiri tələb edib. Onların tələblərini yerinə yetirilə bilmədiyindən Qəşəmi azad etmək mümkün olmayıb.

fights for Fuzuli district allotted to Internal Forces. On the 12th January, 1994 during the fight in Ashagi Abdurrahmanli village of Fuzuli district Jabrayilov Gasham was taken prisoner by Armenians.

The commander of battalion from his military unit Tagiyev Rahim wrote a statement that Armenians suddenly fired upon their position on the 12th of January, 1994. They had to make a fighting retreat. Jabrayilov Gasham and his villager Gadimov Rasim couldn’t get out from the trench and stayed there. Then that territory was captured by Armenians and their further lives were unknown.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district), he found out from an Armenina policeman Albert by radio communication that Jabrayilov Gasham was taken prisoner and forced for heavy labour in Girmizi Bazar village. The opposite side demanded an Armenian prisoner for his release. It was impossible to release Gasham because their demands were n’t carried out.

## Cəbrayılov Vüqar Vahid oğlu



1974-cü ildə Azərbaycan Respublikasının Ağdaş rayonunda anadan olub. 1991-ci ildə hərbi xidmətə çağırılıb. Füzuli, Ağdərə, Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib. 25 yanvar 1994-cü ildə Ağdam rayonunun Sarıcallı kəndi uğrunda döyüş zamanı yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

## Jabrayilov Vugar Vahid oglu

Jabbarov Vugar Vahid oglu was born in Agdash district of Azerbaijan Republic in 1974. In 1991 he was called up for military service. Vugar took part in fights for Fuzuli, Aghdara and Aghdam districts. On the 25th of January, 1994 during the fight for Sarijalli village of Aghdam district wounded Vugar

Atası-Ağdaş rayonu, Vaqif küçəsi, ev 68-də yaşayan Cəbrayılov Vahid Məhəmmədiyyə oğlu izahatında yazıb ki, oğlunun döyüş yoldaşı, Ağdaş rayonu Nemətabad kənd sakini, Rusiya Federasiyasının Nijnıy Novqorod şəhərində yaşayan Bayram adlı şəxs ona Vüqarın yaralandığını bildrib. Bayram qeyd edib ki, onu ermənilərdən gizlətmək məqsədi ilə Ağdamın girəcəyində, qəbiristanlığın yanındakı kolların arxasında qoyaraq döyüşü davam etdirib. Ara sakitləşəndən sonra oraya qayıdıb, Vüqarı həmin yerdə tapa bilməyib.

was taken prisoner by Armenians.

His father Jabrayilov Vahid Mahammadiyya oglu (he lives in Agdash district, Vagif Street, 68) wrote a statement that his son's front-line comrade Bayram who lived in Nemetabad district of Agdash district (at present he lives in Nijniy Novgarad city of RF) informed that Vugar was wounded. Bayram noted that he left him near the bushes at the cemetery in the entrance of Aghdam in order to hide him from Armenians. Then he continued to fight. He returned but couldn't find Vugar.

### Cəfərov Babək Lətif oğlu



1974-cü ildə Ermənistan Respublikasının Əzizbəyov rayonunda anadan olub. 1988-ci ilin dekabr ayında ermənilər tərəfindən ata-baba yurdlarından qovulduqdan sonra Mingəçevir şəhərinə pənah aparıb. Mingəçevir şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Xocavənd rayonu ərazisində xidmət edib. 31 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda döyüşdə itkin düşüb.

Atası - Bakı şəhəri, Pirallahı qəsəbəsi, Rzayev küçəsi, ev 2, mənzil 46-da yaşayan Ermənistan qaçqını Cəfərov Lətif Həsən oğlu Babəkin axtarışı ilə məşğul olan zaman döyüş yoldaşlarından onun əsir götürüldüyünü, Əhəd Kazımovdan isə övladının Xocavənd rayonunun Kuropatkino kəndində saxlandığını öyrənib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu izahatında yazıb ki, erməni polisinin əməkdaşı Abo Cəfərov Babək və onunla birlikdə

### Jafarov Babek Latif oglu

Jafarov Babek Latif oglu was born in Azizbeyov district of Republic of Armenia in 1974. In December, 1988 Armenians expatriated him from native land and after that they moved into Mingechevir town of Azerbaijan Republic. He was called up for military service by the Military Service and Enlistment Office of Mingechevir city and served in Khojavand district. On the 31st of January, 1994 during the fight for Shishgaya height of Khojavand district Babek was missed.

His father refugee from Armenia Jafarov Latif Hasan oglu (he lives in Baku, Pirallahi settlement, Rzayev Street 2, app.46) during the search for his son's front-line comrades told that he was taken prisoner by Armenians. He connected with Ahad Kazimov with parents of fighters who taken prisoners with Babek and found out that they were kept in Kurapatkino village.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan dis-

əsir götürülmüş 8 göyüşçünün Kuropatkino kəndində saxlandığını və onların yalnız itkin düşmüş 5 erməni tankçısı ilə dəyişdirə biləcəyini deyib.

trict) wrote a statement that Armenian policeman Abo told Jafarov Babek with 8 prisoners was kept in Kurapatkino village and he could change them only for missed 5 tankmen.



## Cəfərov Bəxtiyar Əşrəf oğlu

1974-cü ildə Azərbaycan Respublikası Bərdə rayonunun Zümürxaç kəndində anadan olub. 22 sentyabr 1992-ci ildə könüllü olaraq cəbhəyə gedib. 10 aprel 1994-cü ildə Goranboy rayonu ərazisində yerləşən Güllüstan yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Anası - Bərdə rayonunun Zümürxaç kəndində yaşayan Cəfərova Nübar İldırım qızı oğlunun axtarışı zamanı öyrənib ki, Bəxtiyar sağdır və Ermənistanın Kirovakan şəhərində övladı olmayan bir erməninin evində saxlanılıb. Orada o, maşın təmiri ilə məşğul olub.

Abşeron rayonunun Xırdalan qəsəbəsi, 28-ci məhəllə, ev 12, mənzil 70- də yaşayan, hərbi əsir Səfərov Asif Salman oğlunun qohumu Mahmudov Oruc Qurban oğlu bildirib ki, Şuşa şəhərindəki erməni alayının komandiri Saakyan Armaisdən qohumu ilə birlikdə Cəfərov Bəxtiyar və başqa azərbaycanlı əsirlərin Şuşa və Xankəndi alaylarında, həmçinin şəxsi evlərdə saxlandıqlarını öyrənib.

## Jafarov Bakhtiyar Ashraf oglu

Jafarov Bakhtiyar Ashraf oglu was born in Zumurkhach village of Barda district of Azerbaijan Republic in 1974. On the 22nd of September, 1992 he voluntarily joined the front. On the 10th of April, 1994 during the fight for Gulustan height of Goranboy district Bakhtiyar was taken prisoner.

When his mother Jafarova Nubar Ildirim gizi (now she lives in Zumurkhach village of Barda district) searched for her son, she found out that Bakhtiyar was alive and kept in Kirovakan of Armenia in the family that didn’t have their own children. He was engaged in repairing of cars there.

According to the information of Mahmudov Oruj Gurban oglu (a relative of the prisoner of war Safarov Asif Salman oglu who lives in Absheron district, Khirdalan settlement, 28 quarter, 12/70), commander of Armenian regiment in Shusha Saakyan Armais told him that his relative and other Azerbaijani prisoners including Jafarov Bakhtiyar were kept in regiments in Shusha and Khankandi and also at the private houses.



### Cəfərov Əbdül Əkbər oğlu

1971-ci ildə Azərbaycan Respublikası İmişli rayonunun Çaxırlı kəndində anadan olub. 13 sentyabr 1992-ci ildə İmişli Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun Muğanlı kəndi uğrunda döyüşdə əsir götürülüb.

Əbdülün xidmət etdiyi hərbi hissənin qərargah rəisi Cəfərov Eyvaz Abbas oğlunun dediyinə görə, ermənilər 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun Əmrallar, Kuropatkino və Muğanlı kəndlərinə eyni zamanda hücum ediblər. Ağır döyüş gedib. Çox itki verilib, Cəfərov Əbdül də həmin döyüşdən qayıtmayıb.

Atası - İmişli rayonu Çaxırlı kənd sakini Cəfərov Əkbər Azay oğlu ərizəsində yazıb ki, oğlunun axtarışı ilə məşğul olan zaman döyüş yoldaşları Əbdülün Kuropatkino kəndi uğrunda döyüşdən qayıtmadığını bildiriblər.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun verdiyi məlumata görə, radiodanışıqlar zamanı Şuşa həbsxanasının sabiq işçisi Maksim ona Cəfərov Əbdülün sağ olduğunu və həmin həbsxanada saxlandığını bildirib.

### Jafarov Abdul Akbar oglu

Jafarov Abdul Akbar oglu was born in Chakhirli village of Imishli district of Azerbaijan Republic in 1971. On the 13th of September, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Imishli district. On the 2nd of October, 1992 during the fight for Muganli village of Khojavand district Abdul was taken prisoner.

According to the words of Jafarov Eyvaz Abbas oglu, chief of staff in military unit where Abdul served Armenians attacked Emrallar, Kurapatkino and Muganli villages of Khojavand district at the same time on the 2nd of October, 1992. The fight was very difficult. There were many losses. Jafarov Abdul didn’t return from the same fight.

His father Jafarov Akbar Azay oglu who lived in Chakhirli village of Imishli district wrote a statement during the search for his son, Abdul’s front-line comrades informed that he didn’t return from the fight for Kurapatkino village.

According to the information of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district), a former worker of Shusha prisoner Maxim informed by radio communication that Jafarov Abdul was alive and kept in the same prison.



**Cəfərov
Əfruz
Mahmud oğlu**

1961-ci ildə Azərbaycan Respublikası Masallı rayonunun Ərkivan kəndində anadan olub. 28 aprel 1992-ci ildə polis işçisi kimi Şuşanın müdafiəsinə göndərilib. 8 may 1992-ci ildə Şuşa şəhərinin işğalı günü itkin düşüb.

Qardaşı - Bakı şəhəri, Bakıxanov qəsəbəsi, M. Fətəli küçəsi, ev 40, mənzil 11-də yaşayan Cəfərov Əzizağa Mahmud oğlu ərizəsində Əfruzun axtarışı zamanı erməni əsirliyindən qayıtmış Şuşa şəhər sakini olan çobanla görüşdüyünü yazıb. Çoban ona saxlandığı erməni polis məntəqəsində qonşu otaqda azərbaycanlı əsirlərin döyüldüyünün şahidi olduğunu deyib. İşgəncə verilən əsirlər arasında Əfruzun adı çobanın yadında qalıb.

Əzizağanın Rusiyanın İvanova şəhərində ali məktəbdə oxuyan xalası oğlu 1994-cü ildə Sarkis adlı erməni tələbə vasitəsi ilə Əfruzun ermənilər tərəfindən əsir götürüldüyünü və Ermənistanın Spitak şəhərində inşaat işlərinə cəlb edildiyini öyrənib.

**Jafarov
Efruz
Mahmud oglu**

Jafarov Efruz Mahmud oglu was born in Arkivan village of Masalli district of Azerbaijan Republic in 1961. Efruz was policeman and that's why he was sent to defend Shusha by the Ministry of Internal Affairs on the 28th of April, 1992. On the 8th of May, 1992 during the occupation of Shusha by Armenians Efruz was missed.

His brother Jafarov Azizaga Mahmud oglu (he lives in Baku, Bakikhanov settlement, M.Fatali Street, 40, app.11) wrote a statement during the search for Efruz, he met a shepherd who released from Armenian captivity and lived in Shusha town. At the meeting the shepherd told him Armenians kept him in police department and in the neighbouring room Azerbaijani prisoners were beaten by them. The shepherd remembered the name of Efruz between prisoners who were put to tortures.

In 1994 Azizaga's cousin who studided in Ivanova city of Russia found out from Armenian student Sarkis that Efruz was taken prisoner by Armenians and forced for constructive work in Spitak city of Armenia.



**Cəfərov
Həsən
Mənsim oğlu**

1974-cü oldə Azərbaycan Respublikası Füzuli rayonunun Aşağı Rəfədinli kəndində anadan olub. 1994-cü ildə könüllü olaraq orduya yazılıb. 24 aprel 1994-cü ildə Ağdam rayonunun Şotlandlı kəndi uğrunda döyüş zamanı əsir

**Jafarov
Hasan
Mansim oglu**

Jafarov Hasan Mansim oglu was born in Ashagi Refedinli of Fuzuli district of Azerbaijan Republic in 1974. In 1994 he voluntarily joined the Army. On the 24th of April, 1994 during the fight for Shotlandli village of Aghdam

götürülüb.

Atası - Bakı şəhəri, Sabunçu qəsəbəsi, 2-ci mədəndə məskunlaşmış Cəfərov Mənsum Osman oğlunun verdiyi məlumata görə, 27 sentyabr 1994-cü ildə o, Narxanım adlı bir qadınla görüşüb. Narxanım əvvəllər İsmayıllı rayonunda yaşayıb, sonradan Moskvaya köçüb. Onun dediyinə görə, Dağlıq Qarabağa getdiyi zaman Həsənin Xankəndi və Əsgəran arasında yerləşən quşçuluq fermasında saxlandığını görüb. Həmin qadın Həsənin bədənində olan nişanələri də söyləyib. Narxanımın dediyinə görə, onun ayaqları yox imiş.

Döyüş yoldaşları Həsənin yaralı vəziyyətdə əsir götürüldüyünü bildiriblər.

İmişli rayonunun Vataqa stansiyasında yaşayan, keçmiş hərbi əsir Maqsudov Əhməd Abbas oğlu ərizəsində 1994-cü ildə bir aya yaxın müddətdə Həsənlə birlikdə Şuşa həbsxanasında saxlandığını yazıb.

district Hasan was taken prisoner.

According to the information of his father Jafarov Mansim Osman oglu (he lives in Baku, Sabunchu settlement, 2nd mine) he met a woman whose name was Narkhanim on the 27th of September, 1994. She lived in Ismayilli district and then moved into Moscow. According to her words she saw Hasan who kept in poultry farm situated between Khankendi and Asgaran. That woman said she saw signs on the body of Hasan. According to Narkhanim's words he didn't have legs.

According to front-line comrades' words, wounded Hasan was taken prisoner.

The former prisoner of war Magsudov Ahmed Abbas oglu (he lives in Vataga station of Imishli district of Azerbaijan Republic) wrote a statement that he with Hasan was kept in Shusha prison for one month in 1994.

## Cəfərov Hüseyn Rəşid oğlu



1969-cu ildə anadan olub. 1993-cü ilin fevral ayında Sumqayıt Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Zəngilan rayonuna göndərilib. Zəngilan uğrunda döyüşlərdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Xocahan kənd sakini, Rəcəbov Nazim Rza oğlunun dediyinə görə, 1994-cü ildə Şuşa şəhərindəki sanatoriyada saxlanılan zaman Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 17 azərbaycanlı əsirin arasında Cəfərov Hüseyni görüb. Nazim onu cəbhə dostu kimi döyüşlərdən tanıyırmış.

## Jafarov Huseyn Rashid oglu

Jafarov Huseyn Rashid oglu was born in 1969. In February of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town and then he was sent to Zangilan. During the fight for Zangilan he was taken prisoner.

According to the words of Rajabov Nazim Rza oglu who who lived in Khojahan village of Gubadli district and released from Armenian captivity, when he was kept in sanatorium in Shusha town in 1994 he saw Jafarov Huseyn between 17 Azerbaijani prisoners hidden from ICRC. Nazim knew him as a front-line comrade.



**Cəfərov Hüseyn Səməd oğlu**

1915-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Göyəlli kəndində anadan olub. 13 mart 1990-cı ildə meşədə odun tədarük edərkən mülki geyimli ermənilər onu tutaraq Ermənistana aparıblar.

Bu məlumatı onun qardaşı oğlu - Gədəbəy rayonu Göyəlli kənd sakini Cəfərov Seyfəddin Şəmistan oğlu verib.

Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı S.Rüstəmovun 2 aprel 1993-cü ildə verdiyi arayışda Hüseyn Cəfərovun 1990-ci il mart ayının 13-də meşəyə odun gətirməyə getdiyi və ermənilər tərəfindən girov götürülərək, Ermənistanın Şəmşəddin rayonuna aparıldığı göstərilib. Erməni tərəfi faktı inkar etdiyi üçün Hüseynin sonrakı taleyi bəlli olmayıb.

**Jafarov Huseyn Samed oglu**

Jafarov Huseyn Samed oglu was born in Goyalli village of Gedebey district in 1915. On the 13th of March, 1990 when he prepared firewood in the forest, Armenians in civil clothes took him to Armenia.

That information was given by his brother's son Jafarov Seyfaddin Shamistan oglu who lived in Goyalli village of Gedebey district.

On the 2nd of April, 1993 according to the report of the head of Executive Power of Gedebey district S.Rustamov Jafarov Huseyn went to the forest to bring firewood Armenians took him as hostage and sent to Shamshaddin district of Armenia on the 13th of March, 1990. Armenian side denied that fact and that's why the further life of Jafarov Huseyn was unknown.



**Cəfərov İlqar Qəzənfər oğlu**

1967-ci ildə Azərbaycan Respublikası Kürdəmir rayonunun Axtaçı kəndində anadan olub. 25 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə gedib. 8 may 1992-ci ildə Şuşa şəhərinin Nəbilər kəndində ermənilər tərəfindən əsir götürülüb.

Bacısı - Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi, ev 32, mənzil 69-da yaşayan Salayeva Rəfiqə Qəzənfər qızı ərizə-

**Jafarov Ilgar Gazanfar oglu**

Jafarov Ilgar Gazanfar oglu was born in Ahtaji village of Kurdemir district of Azerbaijan Republic in 1967. On the 25th of April, 1992 he voluntarily went to the front. On the 8th of May, 1992 Ilgar was taken prisoner in Nabiler village of Shusha district by Armenians.

According to a statement of his sister Salayeva Rafiga Gazanfar gizi (she lives in Baku, Khatai district, Javanshir Street, 32,

sində Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan zaman qardaşı ilə göyüşdə iştirak etmiş, Bülbülə qəsəbə sakini Canəhməd adlı şəxslə görüşdüyünü və ondan İlqarın yaralı halda əsir götürüldüyünü öyrəndiyini bildirib.

Daha sonra ailə üzvləri döyüş yoldaşı Mirhaşımla görüşüblər. İlqarın Cavanşir adlı döyüşçü ilə birlikdə onu xilas etdiklərini və yenidən döyüş meydanına qayıtdıqlarını deyib.

İlqarın axtarışı ilə məşğul olan qardaşları onun Şuşanın işğalından sonra Laçına tərəf getdiyini öyrəniblər. Ermənilər onu əsir götürmüş, Dağlıq Qarabağda saxlamışlar.

app.69), during occupation of Shusha town by Armenians her brother with Janahmed who lived in Bulbule settlement and took part in fight with Ilgar informed that wounded Ilgar was taken prisoner.

Then the members of his family met a front-line comrade Mirhashim. He said that a fighter whose name was Javanshir and Ilgar helped him and then returned back to the battle field.

Ilgar's brothers who searched for him found out after occupation of Shusha by Armenians he went to Lachin. He was taken prisoner by Armenians and kept in Upper Garadagh.



**Cəfərov Kamil Bəxşeyiş oğlu**

1971-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun İmamqulubəyli kəndində anadan olub. Kamil Ağdam Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Füzuli rayonunda yerləşən hərbi hissədə döyüşüb. 2 aprel 1993-cü ildə Füzuli rayonunun Qacar kəndi uğrunda döyüşdə əsir götürülüb.

Anası - Ağdam rayonu İmamqulubəyli kənd sakini Cəfərova Məryəm Əyyub qızı ərizəsində qeyd edib ki, döyüş yoldaşları Kamilin səngərdə qaldığını və ermənilər tərəfindən əsir götürüldüyünü deyiblər.

Əslən Ağdamın İmamqulubəyli kəndindən olan Quliyev Oruc Məhəmməd oğlu Qacar kəndində gedən döyüş zamanı Cəfərovun əsir düşdüyünün şahidi olduğunu təsdiq edib. Ermənilər Kamili əsir götürüb, Dağlıq Qarabağda saxlayıblar.

**Jafarov Kamil Bakhsheyish oglu**

Jafarov Kamil Bakhsheyish oglu was born in Imamgulubeyli village of Aghdam district of Azerbaijan Republic in 1971. When Armenians attacked Garabagh, Kamil was called up for military service by the Military Registration and Enlistment Office of Aghdam district. He fought in the military unit in Fuzuli district. On the 2nd of April, 1993 during the fight for Gachar village of Fuzuli district Kamil was taken prisoner.

His mother Jafarova Maryam Eyyub gizi who lived in Imamgulubeyli village of Aghdam district wrote a statement that his front-line comrades said Kamil was kept in trench and taken prisoner by Armenians.

According to the words of Kamil's front-line comrade Guliyev Oruj Mahammad oglu who was originally from Imamgulubeyli village of Aghdam district, confirmed and witnessed that during the fight for Gachar village Jafarov was taken prisoner. Armenians took him as prisoner and kept in Upper Garabagh.



**Cəfərov Məhəmməd Vəlikişi oğlu**

1915-ci ildə Ermənistan Respublikası Əzizbəyov rayonunun Kotanlı kəndində anadan olub. 1930-cu ildə dədə-baba torpaqlarından qovularkən ailəsi ilə Azərbaycan Respublikasının Xocalı şəhərinə pənah aparıb. 1992-ci ildə Xocalı faciəsi baş verərkən həyat yoldaşı -1925-ci il təvəllüdlü Cəfərova Bağdad Həsən qızı ilə birlikdə öz evində girov götürülüb.

Oğlu - Xocalı şəhər sakini, Mingəçevir şəhəri, Kür avarçəkmə bazasında məskunlaşmış Cəfərov Cəfər Məhəmməd oğlununun dediyinə görə, şəhər işğal olunan zaman valideynləri qəti şəkildə ikinci dəfə qaçqın həyatı yaşamayacaqlarını, ərazini tərk etməyəcəklərini bildiriblər. Övladları onları fikirlərindən döndərə bilməyib.

Erməni əsirliyindən qayıtmış Xocalı sakinləri, Ağdam rayonunda məskunlaşmış çoban Yusif, Hüseynova Şərqiyyə və Yusifova Filyarın Cəfərə verdikləri məlumata görə, onlar girov götürülən zaman Cəfərovların evində saxlanılıblar. Bir neçə gündən sonra ermənilər əsirlərlə birlikdə Məhəmmədi və onun həyat yoldaşı Bağdadı Xankəndinə aparılıblar. Xankəndi şəhərində onları əvvəlcə uşaq xəstəxanasında, sonra Ballıca pioner düşərgəsində saxlayıblar. Cəfərovların sonrakı taleyi naməlumdur.

**Jafarov Mahammad Valikishi oglu**

Jafarov Mahammad Valikishi oglu was born in Kotanli village of Azizbeyov district of Armenia in 1915. In 1930 Jafarov Mahammad with family was expatriated from native land by Armenians and then moved into Khojali town of Azerbaijan Republic. In 1992 during occupation of Khojali by Armenians Mahammad with his wife Jafarova Bagdad Hasan gizi (year of birth: 1925) was taken hostage in their house.

According to the words of his son Jafarov Jafar Mahammad oglu who lived in Khojali (he lives in Mingechevir city, Kur rowing base) during the occupation of the town his parents refused to leave the territory because they didn't want to live refuge's life twice. His son couldn't make them change mind.

According to the information of shepherd Yusif, Huseynova Shergiya and Yusifova Filyar who lived in Khojali (at present they live in Aghdam district) and returned from Armenian captivity they were taken hostages and kept in the Jafarovs house. A few days later Mahammad and Bagdad were taken to Khankandi. At the beginning they were kept in children hospital and then in Ballija pioneer camp. The further life of the Jafarovs were unknown.



**Cəfərov Nizami Qabil oğlu**

1973-cü ildə anadan olub. 15 iyun 1991-ci ildə Əzizbəyov Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Füzuli rayonunun Qacar, Divanallar, Qovşadlı və Kürdmahmudlu kəndləri uğrunda döyuşlərdə iştirak edib. 31 avqust 1993-cü ildə xidmət etdiyi motoatıcı tabur Kürdmahmudlu kəndində ermənilər tərəfindən mühasirəyə alınıb və Nizami 16 döyüşçü ilə birlikdə əsir götürülüb.

Atası - Bakı şəhəri, Mərdəkan qəsəbəsi, S. Yesenin küçəsi, ev 92/2- də yaşayan Cəfərov Qabil Sücayət oğlu Nizaminin axtarışı ilə məşğul olan zaman onun qulluq etdiyi hərbi hissənin əsgərləri və alay komandiri Elnur Məmmədovla görüşüb. Komandirin dediyinə görə, Nizamigil mühasirəyə düşərək əsir götürülüb. Həmin döyüşdə yaralı vəziyyətdə əsir düşmüş, Ağstafa rayon sakini Hüseynov Şahbaz Yusif oğlunun əsirlikdən azad olunandan sonra verdiyi izahata görə, Cəfərov Nizami Dağlıq Qarabağın Hadrut rayonunda saxlanılıb.

**Jafarov Nizami Gabil oglu**

Jafarov Nizami Gabil oglu was born in 1973. On the 15th of June, 1991 he was called up for military service by Military Registration and Enlistment Office of Azizbeyov district. Nizami took part in fights for Gachar, Divanallar, Govshadli and Kurdmahmudlu villagers of Fuzuli district. On the 31st of August, 1993 moto-shooting battalion was surrounded in Kurdmahmudlu village by Armenians and Nizami with 16 fighters was taken prisoner.

His father Jafarov Gabil Sujayet oglu (he lives in Baku, Mardakan settlement, S.Yesenin Street, app.92/2) who searched for Nizami, met soldiers from military unit where he served and the commander of regiment Elnur Mammadov. According to the commander's words, he was taken prisoner because he didn't get out from surrounding. According to a statement of Huseynov Shahbaz Yusif oglu who lived in Agstafa district and released from Armenian captivity Jafarov Nizami was kept in Hadrud district of Upper Garabagh.

**Cəfərov Nüsrət (Anar) Fazil oğlu**

The brother of prisoner of war Osmanov Akram Mammadshah oglu – Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district informed that his father and brother took part in radio communication with Armenians. The opposite side demanded 10 t of petrol for each 13 Azerbaijani prisoners kept in Gorus district of Armenia. Armenians' demands weren't realized and that's why the further lives of Eminov Joshgun and 12 military men were unknown.



**Eyvazov Elşən Gülağa oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Masallı rayonunun Sarçuvar kəndində anadan olub. 4 may 1992-ci ildə Masallı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Laçın rayonuna göndərilib. 7 oktyabr 1992-ci ildə Laçın rayonunun Sus kəndində gedən döyüş zamanı əsir götürülüb, Dağlıq Qarabağda saxlanılıb.

Atası-Masallı rayonu Sarçuvar kənd sakini Eyvazov Gülağa Qaraş oğlu ərizəsində yazıb ki, oğlunun axtarışı ilə məşğul olan zaman bölük komandiri Ədalət Verdiyevdən Elşənin Kürdəmir sakini Alışov Aqil Alış oğlu, Əliyev İlqar Tapdıq oğlu və Hümbətov Elxan Vəli oğlu ilə birlikdə mühasirəyə alınaraq əsir götürüldüyünü öyrənib.

**Eyvazov Elshan Gulaga oglu**

Eyvazov Elshan Gulaga oglu was born in Sarchuvar village of Masalli district in 1973. On the 4th of May, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Masalli district and then he was sent to Lachin district. On the 7th of October, 1992 during the fight in Sus village of Lachin district Elshan was taken prisoner and kept in Upper Garabagh.

His father Eyvazov Gulaga Garash oglu wrote a statement that when he searched for his son, he found out from the commander of sub-unit Adalat Verdiyev that Elshan with Alishov Agil Alish oglu from Kurdamir village, Aliyev Ilgar Tapdig oglu and Humbatov Elkhan Vali oglu was surrounded and taken prisoner by Armenians.



**Eyvazov İsmayıl Şükür oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Dünyamallar kəndində anadan olub. 1992-ci ilin mart ayında könüllü olaraq cəbhəyə yollanıb. Şuşa ərazisində yerləşən Ramiz Qənbərovun təşkil etdiyi özünümüdafiə taborunun tərkibində döyüşüb. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün əsir götürülüb, Ermənistanın Stepanovan şəhərində saxlanılıb.

İsmayılın atası-Beyləqan rayonu Dün-

**Eyvazov Ismayil Shukur oglu.**

Eyvazov Ismayil Shukur oglu was born in Dunyamallar village of Beylagan district of Azerbaijan Republic in 1970. In March of 1992 he voluntarily he was sent to the front and took part in fights for Garabagh. Ismayil fought allotted to Ramiz Ganbarov's self-defense battalion in Shusha. On the 8th of May, 1992 during the day of Shusha's occupation he was taken prisoner and kept in Stepanovan of Armenia.

Ismayil's father Eyvazov Shukur Khan-

yamallar kənd sakini Eyvazov Şükür Xanoğlan oğlu ərizəsində 1993-cü ilin əvvəlində Naxçıvan Muxtar Respublikasının Sədərək kəndində yerləşən hərbi hissədən ermənilərlə radiorəlaqə yaratdığını yazıb. Qarşı tərəf itkin düşmüş 11 erməni axtarıb tapacağı, şəkillərini çəkdirib onlara göndərəcəyi təqdirdə Şuşanın işğalı zamanı əsir götürülmüş Beyləqan rayonu Dünyamallar kənd sakinləri Eyvazov İsmayıl Şükür oğlu, Salmanov Mahir Mahmud oğlu, Fərəcov Mais Şəmil oğlu, Məmmədov İltifat Əliyusif oğlu, Həşimov Zakir Cəmil oğlu ilə dəyişəcəklərini bildiriblər. 11 erməni tapılmadığı üçün İsmayılgilin dəyişdirilməsi də baş tutmayıb.

Erməni əsirliyindən qayıtmış Sarıyev Əli Zöhrab oğlu izahatında yazıb ki, Şuşa həbsxanasında Qarik adlı erməni zabiti ona, orada 16 azərbaycanlı hərbçinin saxlandığını bildirib. Onun dediyinə görə, həmin əsirlər Şuşanın işğalı günü 5 erməni öldürüb, 6 nəfəri yaralayıb, bir tank vurublar. Slavik Mkrtıçyan adlı erməni nəzarətçisi də həmin faktı təsdiq edib. Slavik həmin könüllülərin Şuşanı Turşsu istiqamətində müdafiə etdiklərini, Ermənistandan gələn taborun həmin azərbaycanlı döyüşçüləri əsir götürüb, Stepanovan şəhərinə apardıqlarını bildirib. Əli yuxarıda adları çəkilən döyüşçülərin həmin əsirlərin arasında olduğunu öyrənib. Azad olunandan sonra onların taleyi haqqında heç bir məlumat öyrənə bilməyib.

oglan oglu who lived in Dunyamallar village of Beylagan district wrote a statement that he could connect with Armenians by radio communication in a military unit in Sadarak village of the Nakhchivan Autonomous Republic. Armenians informed that if they found missed 11 Armenians, took their photo and sent them, they would change them for prisoners taken during occupation of Shusha who lived in Dunyamallar village of Beylagan district: Farajov Mais Shamil oglu, Salmanov Mahir Mahmud oglu, Mammadov Iltifat Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu. It was impossible to change Ismayil and others because 11 Armenians weren’t found.

Sariyev Ali Zohrab oglu who returned from Armenian captivity wrote a statement that when he was kept in Shusha prison, American officer Garik informed that 16 Azerbaijani military men were kept there. According to his words, those fighters killed 5 Armenians, 6 men were wounded and fired a tank during occupation of Shusha. Armenian observer Slavik Mkrtchyan confirmed that fact. Slavik added that those voluntaries defended Shusha in direction of Turshsu and Armenian battalion took those Azerbaijani fighters as prisoners and sent them to Stepanovan. Ali found out that Farajov Mais Shamil oglu, Salmanov Mahir Mahmud oglu, Mammadov Iltifat Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu were between those prisoners.



## Eyvazov Knyaz Eyvaz oğlu

1974-cü ildə Azərbaycan Respublikası Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. 1991-ci ilin iyun ayında Oğuz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonuna göndərilib. 31 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda döyüş zamanı 8 əsgərlə birlikdə ermənilər tərəfindən mühasirəyə alınıb, əsir götürülüb və həmin rayonun Kuropatkino kəndində saxlanılıb.

Hərbi əsir Vəliyev Elşad Əjdər oğlunun atası-Gəncə şəhəri, Faiq Bayramov küçəsi, ev 66-da yaşayan Vəliyev Əjdər Həsən oğlunun dediyinə görə, oğlunun axtarışı ilə məşğul olan zaman onun döyüş yoldaşları Lənkəran rayonu Vilvan kənd sakini Yusif və Gəncə şəhər sakini Arizdən Şişqaya yüksəkliyi uğrunda gedən döyüşdə Elşadla Knyaz da daxil olmaqla 9 döyüşçünün əsir götürüldüyünü öyrənib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu izahatında yazıb ki, radiodanışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Abo ona Xocavənd rayonunun Kurapatkino kəndində saxlanılan, əslən oğuzlu Eyvazov Knyazın da adı daxil olan 9 azərbaycanlı əsirin siyahısını verib. Abo bildirib ki, hərbçiləri yalnız 5 itkin düşmüş erməni əsiri ilə dəyişə bilər. Qarşı tərəfin şərti yerinə yetirilmədiyi üçün dəyişmə baş tutmayıb.

Hərbi əsir Cəfərov Babək Lətif oğlunun atası-Bakı şəhəri, Pirallahı qəsəbəsi, Rzayev küçəsi ev 2, mənzil 46-da yaşayan Cəfərov Lətif Həsən oğlu bildirib ki, döyüş yoldaşları Babəkin və Eyvazov Knyazın Şişqaya yüksəkliyi uğrunda döyüşdə əsir

## Eyvazov Knyaz Eyvaz oglu

Eyvazov Knyaz Eyvaz oglu was born in Khachmaz village of Oguz district of Azerbaijan Republic in 1974. In June of 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Oguz district and then he was sent to Fuzuli district. On the 31st of January, 1994 during the fight for Shishgaya height of Khojavand district Knyaz with 8 soldiers was surrounded by Armenians. Then they were taken prisoners and kept in Kurapatkino village of the same district.

The father of the prisoner of war Valiyev Elshad Ajdar oglu – Valiyev Ajdar Hasan oglu (he lives in Ganja, Faig Bayramov Street, 66) said that when he searched for Elshad he found out from his front-line comrades Yusif who lived in Vilvan village of Lankaran district and Ariz who lived in Ganja that during the fight for Shishgaya height 9 fighters including Elshad and Knyaz were taken prisoners.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present Allahyarli village of Beylagan district) wrote a statement that during radio communication Abo gave him a list of 9 Azerbaijani prisoners including Eyvazov Knyaz from Oguz district who kept in Kurapatkino village of Khojavand district. Abo informed that he could change them only for 5 missed Armenian prisoners. The opposite side couldn't find those prisoners and that's why the change didn't realize.

The father of prisoner of war Jafarov Babak Latif oglu – Jafarov Latif Hasan oglu (he lives in Baku, Pirallahi settlement, Rzayev Street, 2, app. 46) informed that his son's front-line comrades said that during the fight for Shishgaya height his son And

düşdüklərini və Xocavənd rayonunun Kurapatkino kəndində saxlandıqlarını deyiblər.

Eyvazov Knyaz were taken prisoners and kept in Kurapatkino village of Khojavand district.



**Eyvazov Məsud Eynulla oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunun Bığır kəndində anadan olub. 1991-ci ilin may ayında Göyçay Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam cəbhəsinə göndərilib. 1992-ci ilin sentyabr ayında Ağdamın Fərrux yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb, Yerevan şəhərində saxlanılıb.

Erməni əsirliyindən qayıtmış Ağdam rayon sakini Babayev Elman Möhsüm oğlunun verdiyi məlumata görə, 1993-cü ilin iyul ayından 1995-ci ilin mayına qədər Xankəndi, Şuşa, Yerevan həbsxanalarında saxlanılıb. Yerevan həbsxanasında Göyçay rayon sakini Eyvazov Məsud Eynulla oğlu da onunla birlikdə olub.

**Eyvazov Masud Eynulla oglu**

Eyvazov Masud Eynulla oglu was born in Bigir village of Goychay district of Azerbaijan Republic in 1972. In May of 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Goychay district and then he was sent to Aghdam district. In September of 1992 during the fight for Farrukh height of Aghdam district Masud was taken prisoner and kept in Yerevan.

According to the information of Babayev Elman Mohsum oglu who returned from Armenian captivity and lived in Aghdam district he was kept in Khankandi, Shusha and Yerevan prisons from July, 1993 to May, 1995. Eyvazov Masud Eynulla oglu who lived in Goychay district was kept with him in Yerevan prison.



## Eyvazov Rofiq İsrayıl oğlu

1968-ci ildə Azərbaycan Respublikasının Zərdab rayonunda anadan olub. 5 iyun 1992-ci ildə Zərdab Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam cəbhəsinə göndərilib. 15 iyun 1992-ci ildə Ağdam rayonunun Sırxavənd kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşları-Zərdab rayonu Qoruqbağı kənd sakini Xəlilov Rövşən Xəlil oğlunun və Zərdab rayonu Alıcanlı kənd sakini Ağayev Rasim Mustafa oğlunun dediyinə görə, Rofiq Sırxavənd kəndi uğrunda döyüşdə yaralanıb, digər yaralı hərbçilərlə tibbi yardım maşınına mindirilib, ərazidən çıxarılan zaman ermənilər tərəfindən mühasirəyə alınaraq əsir götürülüb.

Bacısı-Zərdab şəhəri, Azərbaycan küçəsi, ev 1, mənzil 3-də yaşayan Eyvazova Əminənin verdiyi məlumata görə, 1992-ci ildə cəbhə xəttində aparılan danışıqlar zamanı qarşı tərəfdən Sırxavənd kəndində gedən döyüşdə əsir götürülmüş hərbçilərin, o cümlədən, Rofiqin və bir neçə zərdablı döyüşçünün Ermənistanın Leninakan şəhərində inşaat işlərinə cəld edildiklərini bildiriblər.

## Eyvazov Rofig Israyil oglu

Eyvazov Rofig Israyil oglu was born in Zardab district of Azerbaijan Republic in 1968. On the 5th of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Zardab district and then he was sent to Aghdam district. On the 15th of June, 1992 during the fight in Sirkhavand district of Aghdam district Rofig was taken prisoner by Armenians.

According to the words of his front-line comrades Khalilov Rovshan who lived in Gorugbagi village of Zardab district and Agayev Rasim Mustafa oglu who lived in Alijanli village of Zardab district during the fight for Sirkhavand district Rofig was wounded and with all the wounded they were taken to Ambulance. When they left the territory, they were surrounded and taken prisoners by Armenians.

According to the information of his sister Eyvazova Amina (she lives in Zardab village, Azerbaijan Street, 1, app. 3), during radio communication on the front line in 1992, Armenians informed that they took military men as prisoners including Rofig and several men from Zardab district at the fight for Sirkhavand village. They sent them to Leninkanan of Armenia and forced for constructive work there.



**Fərəcov Mais Şamil oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Dünyamallar kəndində anadan olub. 1992-ci ilin mart ayında 3 həmkəndlisi - Salmanov Mahir Mahmud oğlu, Eyvazov İsmayıl Şükür oğlu, Məmmədov İltifat Əliyusif oğlu ilə könüllü olaraq cəbhəyə yollanıb. Onlar Şuşa şəhərində Ramiz Qənbərovun təşkil etdiyi batalyonun tərkibində döyüşüblər. Mais 8 may 1992-ci ildə əsir götürülüb.

Sarıyev Əli Zöhrab oğlu izahatında yazıb ki, Şuşa həbsxanasında saxlanılan vaxt Qarik adlı erməni zabiti ona orada 16 azərbaycanlı hərbçinin saxlandığını bildirib. Dediyinə görə, həmin döyüşçülər Şuşanın işğalı günü 5 erməni öldürüb, 6 nəfəri yaralayıb və bir tank vurublar. Slavik Mkrtıçyan adlı erməni nəzarətçisi də həmin faktı təsdiq edib. Slavik onların Şuşanı Turşsu istiqamətində müdafiə etdiklərini, Ermənistandan gələn taborun həmin azərbaycanlı döyüşçüləri əsir götürüb, Stepanovan şəhərinə apardıqlarını da əlavə edib. Əli Fərəcov Mais Şəmil oğlunun, Salmanov Mahir Mahmud oğlunun, Məmmədov İltifat Əliyusif oğlunun, Eyvazov İsmayıl Şükür oğlunun və Həşimov Zakir Cəmil oğlunun da həmin əsirlərin arasında olduğunu öyrənib.

Hərbi əsir Eyvazov İsmayılın atası-Beyləqan rayonu Dünyamallar kənd sakini Eyvazov Şükür Xanoğlan oğlu ərizəsində 1993-cü ilin əvvəlində Naxçıvan Muxtar Respublikasının Sədərək kəndindəki hərbi hissələrdən birində ermənilərlə radiorəlaqə yaratdığını yazıb. Qarşı tərəf itkin düşmüş 11 ermənini axtarıb tapacağı, şəkillərini çəkdirib onlara göndərəcəyi təqdirdə

**Farajov Mais Shamil oglu**

Farajov Mais Shamil oglu was born in Dunyamallar village of Azerbaijan Republic in 1970. In March of 1992 Mais together with 3 villagers: Salmanov Mahir Mahmud oglu, Eyvazov Ismayil Shukur oglu, Mammadov Ilfat Aliyusif oglu voluntarily went to the front. They fought allotted to battalion organized by Ramiz Ganbarov in Shusha. Mais was taken prisoner on the 8th of May, 1992.

Sariyev Ali Zohrab oglu wrote a statement that when he was kept in Shusha prison, American officer Garik informed that 16 Azerbaijani military men were kept there. According to his words, those fighters killed 5 Armenians, 6 men were wounded and fired a tank during occupation of Shusha. Armenian observer Slavik Mkrtchyan confirmed that fact. Slavik added that those voluntaries defended Shusha in direction of Turshsu and Armenian battalion, took those Azerbaijani fighters as prisoners to Stepanovan. Ali found out that Farajov Mais Shamil oglu, Salmanov Mahir Mahmud oglu, Mammadov Iltifat Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu were between those prisoners.

The father of prisoner of war Eyvazov Ismayil – Eyvazov Shukur Khanoglan oglu who lived in Dunyamallar village of Beylagan district wrote a statement that he could connect with Armenians by radio communication in a military unit in Sadarak village of the Nakhchivan Autonomous Republic. Armenians informed that they found out missed 11 Armenians, took their photo and sent them, they would change them for prisoners taken during occupa-

Şuşanın işğalı zamanı əsir götürülmüş Beyləqan rayonu Dünyamallar kənd sakinləri Fərəcov Mais Şəmil oğlu, Salmanov Mahir Mahmud oğlu, Məmmədov İltifat Əliyusif oğlu, Eyvazov İsmayıl Şükür oğlu və Həşimov Zakir Cəmil oğlu ilə dəyişəcəklərini bildiriblər. 11 erməni tapılmadığı üçün Mahirgilin dəyişdirilməsi baş tutmayıb.

tion of Shusha who lived in Dunyamallar village of Beylagan district: Farajov Mais Shamil oglu, Salmanov Mahir Mahmud oglu, Mammadov Iltifat Aliyusif oglu, Eyvazov Ismayil Shukur oglu and Hashimov Zakir Jamil oglu. It was impossible the change of Mahir and others because 11 Armenians didn't realize.



## Fərzəliyev Aydın Əli oğlu

1972-ci ildə Bakı şəhərində anadan olub. 20 sentyabr 1992-ci ildə Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Daxili Qoşunların tərkibində Tərtər rayonuna göndərilib. 4 oktyabr 1992-ci ildə Tərtər çayı ətrafında gedən döyüşdə, Araçadzor kəndi yaxınlığında əsir götürülüb.

Anası-Bakı şəhəri, Nizami rayonu Rüstəmov küçəsi, ev 35, mənzil 74-də yaşayan Fərzəliyeva Luiza Nikolayevnanın verdiyi məlumata görə, oğlunun döyüş yoldaşlarından onun əsir götürülüb, əvvəlcə Ermənistanın Noyemberyan, sonradan isə Ararat rayonunda şəxsi evlərdə saxlandığını öyrənib. Qarşı tərəf onu azad etmək üçün ya 17.000 ABŞ dolları, ya da itkin düşmüş Tovmasyan Qraçik Surikoviçi tələb edib. Tələb yerinə yetirilmədiyi üçün Aydını azad etmək mümkün olmayıb.

Qazax Rayonu İcra Hakimiyyətinin Kəmərli kəndi üzrə nümayəndəsi işləmiş Məmmədov Ələddin Mahmud oğlunun verdiyi məlumata görə, 1993-1994-cü ildə Qazax rayonu ilə Ermənistanın Noyemberyan rayonunun sərhədində kənd təsərrüfatı işlərinin aparılması zamanı yerli əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə keçirilmiş görüşlərdə Ermənistan xüsusi xid-

## Farzaliyev Aydin Ali oglu

Farzaliyev Aydin Ali oglu was born in Baku in 1972. On the 20th of September, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Nizami district, then he was sent to Terter district allotted to Internal Forces. On the 4th of October, 1992 Aydin was taken prisoner by Armenians near Arachadzor village during the fight in Terter chay.

According to the information of his mother Farzaliyeva Luiza Nikolayevna (she lives in Baku, Nizami district, Rustamov Street, 35, app.74), his front-line comrades found out that he was taken prisoner, at first he was kept in Noyemberyan district of Armenia and then at private house in Ararat district. Armenians demanded for his release 17 000 dollars of USA or missed Tormasyan Grachik Surikovich. Aydin's family neither could collect money nor found Grachik. That's why it was impossible to release Aydin.

According to the information of Mammadov Aladdin Mahmud oglu who was the representative of Kamarli village of Gazakh district got a list of Azerbaijani prisoners and hostages from the officials of security services of Armenia Alexander Sarumyan and Vladimir Ayrapetyan during the meeting

mət orqanlarının əməkdaşları Aleksandr Sarumyan və Vladimir Ayrapetyandan alınan azərbaycanlı əsir və girovların siyahısında Fərzəliyev Aydının da adı olub. Onun Ermənistanda saxlandığı göstərilib.

regarding providing safety of agricultural work on the boundary in 1993-1994. There was the name of Farzaliyev Aydin in that list. It was shown that he was kept in Armenia.

**Fərzəliyev İlqar Nəsib oğlu**



1970-ci ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Uludaş kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 12 sentyabr 1992-ci ildə Ağdam rayonunda gedən döyüş zamanı əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Qaqikdən (Yerevan şəhəri, tel: 63-60-70) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Fərzəliyev İlqar Nəsib oğlunun da adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Farzaliyev Ilgar Nasib oglu**

Farzaliyev Ilgar Nasib oglu was born in Uludash village of Gabala district of Azerbaijan Republic in 1970. He took part in fights for Garabagh. On the 12th of September, 1992 during the fight in Aghdam district Ilgar was taken prisoner.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, got a list of Azerbaijani prisoners of war and hostages from Gagik (Yerevan, phone: 63-60-70) in Tbilisi. There was the name of Farzaliyev Ilgar Nasib oglu in the list. It was shown that he was kept in Upper Garabagh.

**Fətəliyev Rafiq Səmidxan oğlu**



1974-cü ildə Azərbaycan Respublikası Saatlı rayonunun Qaralar kəndində anadan olub. 1992-ci ilin iyun ayında Saatlı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam uğrunda döyüşlərə göndərilib.

**Farzaliyev Rafig Samidkhan oglu**

Farzaliyev Rafig Samidkhan oglu was born in Garalar village of Saatli district of Azerbaijan Republic in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Saatli

Hərbi hissədə rabitəçi vəzifəsində xidmət edən Fətəliyev Rafiq 1994-cü ilin aprel ayında Ağdam rayonu ərazisində gedən döyüşlərdən birində əsir götürülüb, əvvəlcə Ermənistanın Kirovakan, sonra isə Yerevan şəhərində saxlanılıb.

Bu məlumatı qardaşı-Saatlı rayonu Qaralar kənd sakini Fətəliyev Saleh Səmidxan oğlu Rafiqin döyüş yoldaşlarından öyrənib.

Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlunun verdiyi məlumata görə, 1996-cı ildə qardaşının axtarışı zamanı Gürcüstan Respublikası ərazisində Ermənistan Respublikasının Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqo adlı şəxslə görüşüb. Qaqo ona qarşı tərəfdə saxlanılan, Fətəliyev Rafiq Səmidxan oğlunun da adı daxil olan 14 azərbaycanlı hərbi əsirin siyahısını verib. Həmin əsirlər bir müddət Ermənistanın Kirovakan şəhərində saxlanılıb, sonradan Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin Yerevan şəhərində yerləşən istintaq təcridxanasına göndəriliblər. Bu məlumatı Qaqoya yaxın qohumu, Ermənistan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyan verib.

district and sent to fight for Aghdam. Rafig served as a signaler in military unit and he was taken prisoner during the fight in Aghdam in April of 1994. At first Ilgar was kept in Kirovakan and then in Yerevan of Armenia.

His brother Farzaliyev Saleh Samidkhan oglu who lived in Garalar village of Saatli district got that information from his front-line comrades.

According to the information of Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengi village, when he searched for his brother he met Armenian Gago from Lembeli village of Noyemberyan district of Armenia on the territory of Georgia in 1996. Gago gave him a list of 14 Azerbaijani prisoners of war including Farzaliyev Rafig Samidkhan oglu kept by Armenians. At first those prisoners were kept in Kirovakan of Armenia and then sent them to Investigatory Isolation of Committee of State Security of Armenia in Yerevan. That information was given by Gago from his close relative Alik Sarumyan who was the chief of department of Noyemberyan district of Committee of State Security of Armenia.

## Feyziyev Məzahir Məmmədkərim oğlu



1970-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunun 1-ci Ərəb kəndində anadan olub. 1 iyul 1992-ci ildə Göyçay Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 31 avqust 1992-ci ildə Cədəbəy rayonunun Mutudərə kəndi yaxınlığında yaralı vəziyyətdə əsir götürülüb. Əvvəl Xankəndi şəhərində ağır fiziki işlərə cəlb edilib,

## Feyziyev Mazahir Mammadkarim oglu

Feyziyev Mazahir Mammadkarim oglu was born in 1st Arab village of Goychay district of Azerbaijan Republic in 1970. On the 1st of July, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Goychay district. On the 31st of August, 1992 wounded Mazahir was taken prisoner on the territory of Horundag in Mutudara village of

əhəng emalı zavodunda işlədilib, sonra Ermənistanın Spitak şəhərinə aparılıb.

Bu məlumatı anası-Göyçay rayonu 1-ci Ərəb kənd sakini Feyziyeva Şərqiyyə İsrail qızı onun döyüş yoldaşlarından öyrənib.

Erməni əsirliyindən qayıtmış Məmmədov Mayıl Məmmədəli oğlunun dediyinə görə, 1993-cü ildə Ermənistanın Spitak şəhərində yerləşən həbsxanada Feyziyev Məzahirlə birlikdə saxlanılıb.

Gedebey district. At first he was forced for heavy labour, he worked at the plant, and then he was taken to Spitak of Armenia.

His mother Feyziyeva Shargiya Israil gizi (she lives in 1st Arab village of Goychay district) got that information from his front-line comrades.

According to the words of Mammadov Mayil Mammadali oglu who returned from Armenian captivity (he lives in Ujar town, 28 May Street, app.7), he was kept with Feyziyev Mazahir in a prison in Spitak of Armenia.



### Fəzliyev Qədim Fəzli oğlu

1954-cü ildə anadan olub. Milliyyətcə mehseti türküdür. 1990-cı ilin aprel ayında ailəsi ilə birilikdə Gürcüstan Respublikası Zuqdit rayonunun Xetera sovxozundan Xocalı şəhərinə köçüb. Şəhərin işğalına kimi Qaladərəsi deyilən ərazidə yaşayıblar. Faciə baş verən zaman həyat yoldaşı Fəzliyeva (Aslanova) Mərhəmət Katib qızı ilə əhaliyə qoşularaq Ağdam istiqamətində qaçıblar. Mərhəmət vahiməyə düşən insanların arasında Qədimi itirib. Sonradan əsirlikdən qayıdan Xocalı sakinlərindən Qədimin ermənilər tərəfindən əsir götürüldüyünü öyrənib. Bu məlumatı onun oğlu-Saatlı rayonunun Varxankənd kəndində məskunlaşmış Fəzliyev (Aslanov) İslam Qədim oğlu verib.

Qədimlə birlikdə milliyyətcə mehseti türkü olan Xocalı sakinləri Binəliyev Alişer Güləli oğlu (1967), Binəliyev Cabbar Güləli oğlu (1969), Bədişev Əli Rəis oğlu (1968), Həmdiyev Osman Həmdi oğlu (1951), İlyasov Əhməd Məmməd oğlu

### Fazliyev Gadim Fazli oglu

Fazliyev Gadim Fazli oglu was born in 1954. His nationality is mehseti turk. In April of 1990 Gadim with his family moved into Khojali from Khetera collective farm of Zugdit district, Georgia. On the 26th of February, 1992 till the day of Khojali's occupation by Armenian armed forces they lived on the territory called Qaladarasi. His wife Fazliyeva (Aslanova) Marhamat Katib gizi joined people and ran away in direction of Aghdam Because of panic Marhamat lost her husband. Then she found out from residents of Khojali who returned from Armenian captivity that her husband was taken prisoner. That information is given by her son Fazliyev (Aslanov) Islam Gadim oglu who lives in Varkhankand village of Saatli district.

Khojali inhabitants together with Gadim who was mehseti turk: Binaliyev Alisher Gulali oglu (year of birth: 1967). Binaliyev Jabbar Gulali oglu (year of birth: 1969), Badishev Ali Rais oglu (year of birth: 1968), Hamdiyev Osman Hamdi oglu (year of birth:

(1968) da əsir götürülülüb. Ermənilər onları Dağlıq Qarabağda saxlayıblar.

Bu faktı Alişer və Cabbarın atası-Xocalı şəhər sakini, Dəvəçi rayonunun Udulu kəndində məskunlaşmış Binəliyev Güləli Binəli oğlu, Özbəkistan Respublikasında anadan olmuş Xocalı sakini, Sabirabad rayonunun Əhmədabad kəndində məskunlaşmış Muradova Səlimə Mərdəli qızı, qardaşı-Xocalı sakini, Dəvəçi rayonunun Udulu kəndində məskunlaşmış Binəliyev Bəxtiyar Güləli oğlu, Bəxtiyarın həyat yoldaşı-Xocalı sakini, Dəvəçi rayonunun Udulu kəndində məskunlaşmış Binəliyeva Firuzə Fərdi qızı da təsdiq ediblər.

«Beynəlxalq Amnistiya» təşkilatının verdiyi məlumata görə, İnsan Hüquqlarının Müdafiəsi Uğrunda «Helsinki Uotç» təşkilatının nümayəndələri 1992-ci ilin aprel ayında Xankəndi şəhərində olarkən polis idarəsində Qədimin də adı olan azərbaycanlı hərbi əsirlərə aid sənədlə tanış olublar.

«Beynəlxalq Amnistiya» təşkilatının Avropa Üzrə Təhqiqatlar şöbəsinin müdiri Ann Burlinin məlumatında Xocalının işğalı günü Fəzliyev Qədimin də əsir götürüldüyü yazılıb.

1951), Ilyasov Ahmad Mammad oglu (year of birth: 1968) were taken prisoners. Armenians kept them in Upper Garabagh.

That fact was confirmed by Alisher and Jabbar's father – Binaliyev Gulali Binali oglu who lived in Khojali (now he lives in Udulu village of Davachi district), Muradova Salima Mardali gizi who was born in Uzbekistan and lived in Khojali (now she lives in Ahmadabad village of Sabirabad district), brother Binaliyev Bakhtiyar Gulali oglu who lived in Khojali (now he lives in Udulu village of Davachi district), Bakhtiyar's wife Binaliyeva Firuza Fardi gizi who lived in Khojali (at present she lives in Udulu village of Davahi district).

According to the information of «International Amnesty», the representative of organization «Helsenki Uchot» for the defense of Human Rights was in Khankandi in April, 1992, acquainted with document regarding Azerbaijani prisoners of war including Gadim who taken by Armeninans and was kept in police department.

The director of department «International Amnesty» for Europe Investigations Ann Burlin informed that Fazliyev Gadim was take prisoner during the day of Khojali's occupation by Armenian armed forces.

**Gimadiyev İldar Nailoviç**



1973-cü ildə anadan olub. Milliyyətcə tatardır. Tank batalyonunun tərkibində Ağdam uğrunda döyüşlərdə iştirak edib. 31 dekabr 1993-cü ildə Ağdam rayonunun Salahlı kəndində gedən döyüşdə tankın heyət üzvləri: Ələsgərov Nahid Azay oğlu (Quba), Məmmədov Ağahəsən Firudin oğlu (Bakı), İbrahimov İlham Abdulla oğlu (Gəncə) ilə bir-

**Gimadiyev Ildar Nailovich**

Gimadiyev Ildar Nailovich was born in 1973. His nationality was Tatar. He took part in fights for Aghdam district. On the 31st of December, 1993 Ildar with member of tank crew: Alasgarov Nahid Azay oglu (Guba), Mammadov Agahasan Firudin oglu (Baki), Ibrahimov Ilham Abdulla oglu (Ganja) was taken prisoner during the fight in Salahli

likdə ermənilər tərəfindən əsir götürülüb, əvvəlcə işğal olunmuş Ağdamda, sonra isə Xocavənd şəhərində saxlanılıb.

Bu məlumatı anası-Bakı şəhəri, M. Hadi küçəsi, ev 77, mənzil 76-da yaşayan Gimadiyeva Rumiyyə Axmetovna verib.

Erməni əsirliyindən azad edilmiş Bakı şəhəri, A.Səhhət küçəsi, ev 57-də yaşayan Hüseynov Cavid Ağa oğlu izahatında yazıb ki, 1994-cü ildə əsir götürülüb, işğal olunmuş Ağdam şəhərində fiziki işlərə cəlb edilən zaman orada döyüş yoldaşları - Gimadiyev İldarı və onunla birlikdə tankın heyət üzvü olmuş digər 3 nəfəri də görüb. Əsir götürülmüş tankçılar ona Xocavənd şəhərində yerləşən alayda saxlandıqlarını deyiblər. Bundan sonra Cavid onları bir daha görməyib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin verdiyi məlumata görə, 1994-cü ilin sentyabr ayında Gimadiyev İldarı işğal olunmuş Ağdam şəhərindəki daş karxanasında ağır fiziki işlərə cəlb olunan görüblər.

village of Aghdam district. At first they were kept in Aghdam and then in Khojavand town.

That information was given by his mother – Gimadiyeva Rumiyya Akhmetovna (she lives in Baku, M.Hadi Street, 77, app. 76).

According to a statement of Huseynov Javid Aga oglu who released from Armenian captivity (he lives in Baku, A.Sahhat Atreet 57), he was taken prisoner in 1994 and when he was forced for heavy labour in occupied Aghdam's territory, he saw his front-line comrades there: Gimadiyev Ildar with 3 members of tank crew. Prisoners said that they were kept in regiment in Khojavand district. Javid didn't see them any more.

According to the information of ICRC, Gimadiyev Ildar was sent to Aghdam where he was force for heavy labour in September of 1994.

**Göyüşov**
**Yolçu**
**Əhməd oğlu**



1938-ci ildə Gürcüstan Respublikası Bolnisi rayonunun Kvemo kəndində anadan olub. 3 sentyabr 1993-cü ildə həmkəndlisi Məmmədov Ramazan Qasım oğlu ilə birlikdə mal-qara otararkən girov götürülüb, Ermənistana – əvvəl Taşir rayonunun Sarçapet kəndinə, sonra isə Vanadzor şəhərinə aparılıblar.

Bu faktı «Beynəlxalq Amnistiya» təşkilatının Almaniya və Monqolustanda fəaliyyət göstərən qrupları da təsdiq ediblər.

**Goyushov**
**Yolchu**
**Ahmed oglu**

Goyushov Yolchu Ahmed oglu was born in Kvemo village of Bolnisi district of Georgia in 1938. On the 3rd of September, 1993 while grazing the cattle Yolchu with his villager. Mammadov Ramazan Gasim oglu was taken hostage by Armenians. At first Armenians took them to Sarchapet village of Tashir district and then to Vahadzor town.

That fact was confirmed by the group of German and Mongoliya branch of "International Amnesty" organization.



**Gözəlov Azər Xanış oğlu**

1975-ci ildə Azərbaycan Respublikasının Biləsuvar şəhərində anadan olub. 4 yanvar 1994-cü ildə Bakı şəhəri Nəsimi rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonuna göndərilib. 26 aprel 1994-cü ildə Ağdam rayonunun Nəmirli kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb və Əsgəran rayonunun Daşuşen kəndinə aparılıb.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun verdiyi məlumata görə, 1994-cü ildə əsir və girovların dəyişdirilməsi zamanı erməni tərəfin nümayəndəsi Albert Voskanyandan aldığı Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı əsirin siyahısında Gözəlov Azərin də adı olub. Həmin siyahını Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Armais Saakyan təsdiq edib. Onun Əsgəran rayonunun Daşuşen kəndindəki quşçuluq fermasında saxlandığı göstərilib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanını qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istədiklərini bildiriblər. Ayriyan vəfat etdiyindən Azəri azad etmək mümkün olmayıb.

**Gozalov Azer Khanish oglu**

Gozalov Azer Khanish oglu was born in Bilasuvar of Azerbaijan Republic in 1975. On the 4th of January, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Nasimi district and was sent to Fuzuli district. On the 26th of April, 1994 during the fight in Nemirli village of Aghdam district Azer was taken prisoner and sent to Dashushen village of Asgaran district.

According to the information of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (he lives in sanatorium “Zugulba” in Baku, Buzovna Settlement), when he was engaged in change of prisoners and hostages in 1994 he got a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC from Armenian representative Albert Voskanyan. There was the name of Gozalov Azer in the list. It was shown that he was kept in a poultry farm in Dashushen village of Asgaran district. Armenians wanted to change them for a killer of journalist Salatin Asgarova Arkadi Ayriyan whose nickname was “Napoleon”. The change didn’t realize and that’s why it was impossible to release Azer.



**Gülənmədov Ərzuman Əkbər oğlu**

1960-cı ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Yengicə kəndində anadan olub. 18 noyabr 1993-cü ildə könüllü olaraq Vətənin müdafiəsinə yollanıb. Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. 1 yanvar 1994-cü ildə Füzuli rayonunun Şükürbəyli və Aşağı Seyidbəyli kəndləri uğrunda döyüşdə gizir Gülənmədov Ərzuman ağır yaralanıb və ermənilər tərəfindən əsir götürülüb. Ermənistanın Gorus rayonunda yerləşən hərbi əsir düşərgəsində saxlanılıb.

Qardaşı-Qəbələ rayonu Yengicə kənd sakini Gülənmədov Ələsgər Əkbər oğlu ərizəsində qardaşının axtarışı zamanı onun yaşadıqları rayonunun Mollatıxalı kəndindən olan döyüş yoldaşından (adını unudub) Ərzumanın yaralandığı və ermənilərin onu zirehli döyüş maşınına qoyub apardıqları barədə öyrəndiyini yazıb.

Qohumu-Bakı şəhəri, Nobel prospekti, 1219-cu məhəllə, ev 29-da yaşayan Məmmədova Gülsurə İbad qızının verdiyi məlumata görə, 1994-cü ilin oktyabr ayında cəbhə xəttində keçirilmiş görüş zamanı erməni tərəfi Ərzumanın sağ olduğunu və Gorus şəhərində, hərbi düşərgədə saxlandığını bildirib.

**Gulanmadov Arzuman Akbar oglu**

Gulanmadov Arzuman Akbar oglu was born in Yengije village of Gabala district of Azerbaijan Republic in 1960. On the 18th of November, 1993 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Gabala district. Arzuman took part in fights for Fuzuli district. On the 1st of January, 1994 during the fight for Shukurbeyli and Ashaghi Seyidbeyli villages of Fuzuli district ensign Gulanmadov Arzuman was seriously wounded and taken prisoner by Armenians. He was kept in the camp for prisoners of war in Gorus district of Armenia.

His brother Gulanmadov Alasgar Akbar oglu who lived in Yengije village of Gabala district wrote a statement while searching for his brother his front-line comrade (he didn’t forget his name) informed that Arzuman was wounded, taken to the armoured machine.

According to the information of his relative Mammadova Gulsura Ibad gizi (she lives in Baku, Nobel avenue, 1219 quarter, app.29), during the meeting with Armenians, it was informed that Arzuman was alive and kept in the camp for prisoners of war in Gorus in October of 1994.



**Hacıyev Bədəl Oruc oğlu**

1967-ci ildə anadan olub. 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. Daxili Qoşunların tərkibində Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. Taborun qərargah rəisi baş leytenant Hacıyev Bədəl 12 mart 1993-cü ildə Ağdam rayonunun Manuklu kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə əsir götürülüb.

Qardaşı-Bakı şəhəri, Xutor qəsəbəsi, 7-ci sıra, ev 48-də yaşayan Hacıyev Sərdar Oruc oğlunun verdiyi məlumata görə, qardaşının axtarışı zamanı onun qərargah rəisi olduğu taborda xidmət edən Abbas adlı əsgər bildirib ki, Bədəl əsir götürülən günün səhəri, yəni 13 mart 1993-cü ildə ermənilər radioəlaqə yaradaraq istehza ilə «Sizin yaralı qərargah rəisinizə səngər qazdırırıq» deyiblər.

Döyüş yoldaşı-Bakı şəhəri, Mətbuat prospektindəki 2 saylı yataqxanada məskunlaşmış Kərimov Nemətin dediyinə görə, Bədəl 12 mart 1993-cü ildə ermənilər tərəfindən əsir götürülüb, Xankəndi şəhərində saxlanılıb.

Döyüş yoldaşı-Sabirabad rayonu Muğangəncəli kənd sakini, sabiq bölük komandiri, istefada olan zabit Qarayev Qaraş Əmir oğlu izahatında yazıb ki, Ağdam rayonunun Manuklu kəndində Sığnaq yüksəkliyində gedən döyüş zamanı taborun qərargah rəisi Hacıyev Bədəl də iştirak edib. Ermənilər tərəfindən atılan qəfil mərmi səngərə düşüb və Bədəlin yaxınlığında partlayıb. O, yaralanıb. Ermənilərin aramsız atəşi nəticəsində hədəfə çevrilmiş səngərdən yaralı qərargah rəisini çıxara bilməyiblər. Döyüşçülər Bədəli orada qoyub, geri çəkilməli olublar. Ermənilər həmin ərazini işğal edərək yaralı Hacıyevi də əsir götürüblər.

**Hajiyev Badal Oruj oglu**

Hajiyev Badal Oruj oglu was born in 1967. In 1992 he voluntarily went to the front. Badal took part in fights for Aghdam district allotted to Internal Forces. On the 12th of March, 1993 during the fight in Manikli village of Aghdam district the chief of staff of battalion senior lieutenant Hajiyev Badal was wounded and taken prisoner.

According to the information of his brother Hajiyev Sardar Oruj oglu (he lives in Baku, Khutor settlement, 7 row, app.48), when he searched for Badal the soldier Abbas from his battalion connected with Armenian by radio communication on the 13th of March, 1993 said: «Your wounded chief of staff of battalion had been dug the trenches.»

According to the words of his front-line comrade Karimov Nematin (he lives in Baku, Metbuat avenue, the hostel № 2), Badal was taken prisoner by Armenians and then he was kept in Khankandi town on the 12th of March, 1993.

His front-line comrade, former commander of sub-unit Garayev Garash Amir oglu who lived in Mugangenjeli village of Sabirabad district wrote a statement that during the fight for Signag height in Manikli village of Aghdam district the chief of staff of battalion Hajiyev Badal also took part. Armenians threw the bomb and it exploded near Badal. He was wounded. In the result of skirmish it was impossible to take the chief of staff from the trench. The fighters stayed Badal there and returned. Armenians occupied that territory and Babal was taken prisoner.



**Hacıyev**
**Faiq**
**Yusif oğlu**

1969-cu ildə Ağstafa rayonunun Həsənsu kəndində anadan olub. 22 dekabr 1992-ci ildə Ağstafa Rayon Hərbi Komissarlığı tərəfindən orduya çağırılıb. 2 mart 1993-cü ildə Ağdərə rayonundakı Sərsəng su ambarı ətrafında gedən döyüşdə əsir götürülüb.

Atası-Ağstafa rayonu Həsənsu kənd sakini Hacıyev Yusif Xəlil oğlunun bildirdiyinə görə, Faiqin döyüş yoldaşları həmin gün onun 6 əsgərlə birlikdə ermənilər tərəfindən əsir götürüldüyünü söyləyiblər.

Girov götürülmüş Hüseynova Tamara Saleh qızının axtarışı ilə məşğul olan qardaşı-Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Qaqik adlı ermənidən aldığı siyahıda Hacıyev Faiqin Gorus şəhərində saxlandığı göstərilib.

Mərhum jurnalist Elmira Əmrah qızının verdiyi məlumatda Hacıyev Faiqin ermənilər tərəfindən Gorus şəhərində əsir saxlandığı göstərilib.

**Hajiyev**
**Faig**
**Yusif oglu**

Hajiyev Faig Yusif oglu was born in Hasansu village of Agstafa district in 1969. On the 22nd of December, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Agstafa district. On the 2nd of March, 1993 during the fight near Sarsang water barn in Aghdara district Faig was taken prisoner by Armenians.

According to the information of his father Hajiyev Yusif Khalil oglu who lived in Hasansu village of Agstafa district, his front-line comrades said that day Faig with 6 soldiers was taken prisoner by Armenians.

When the brother of prisoner Huseynova Tamara Saleh gizi - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian whose name was Gagik in Tbilisi. There was the name of Hajiyev Faig in the list. It was shown that Faig was kept in Gorus town of Yerevan.

According to the information of deceased journalist Elmira Emrah gizi, it was shown that Faig was taken prisoner by Armenians and kept in Gorus.



**Hacıyev**
**Məhəmmədəli**
**Adil oğlu**

1930-cu ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Qazanzəmi kəndində anadan olub. 24 avqust 1993-cü ildə kənd ermənilər tərəfindən işğal olunduğu üçün həyat yoldaşı-Nəcəfova Gülarə İsmayıl qızı ilə birlikdə

**Hajiyev**
**Mammadali**
**Adil oglu**

Hajiyev Mammadali Adil oglu was born in Gazanzami village of Jabrayil district of Azerbaijan Republic in 1930. On the 24th of August, 1993 during the occupation of Gazanzami village by Armenians Mammadali with wife Gulara Ismayil gizi went to

Qubadlı rayonunun Çaytumas kəndinə gəlib. 30 avqust 1992-ci ildə həmin kənd də işğal olunan zaman həyat yoldaşı ilə birlikdə girov götürülüb.

Bu məlumatı qızı-Cəbrayıl rayonu Qazanzəmi kənd sakini, Sumqayıt şəhəri, 11-ci mikrorayon, ev 2, mənzil 51-də yaşayan Hacıyeva Adilə Məhəmmədəli qızı verib.

Erməni əsirliyindən azad olunmuş, Sumqayıt şəhəri, 42-ci məhəllə, ev 7, mənzil 47-də yaşayan Quliyev Elmar Zahid oğlunun dediyinə görə, 1993-cü ilin mart ayından noyabr ayına kimi Şuşa həbsxanasında saxlanılan zaman Cəbrayıl rayon sakini Hacıyev Məhəmmədəli İsmayıl oğlu onunla birlikdə olub. Həyat yoldaşı Nəcəfova Gülarə İsmayıl qızı isə Xankəndi uşaq bağçasında saxanılıb. Bir müddət sonra Elmar azad olunub.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Xətai rayonu R.Məmmədov küçəsi, ev 10, mənzil 43-də yaşayan Əliyev Famil Heydərəli oğlu Xankəndi həbsxanasında girov saxlanılan Hacıyev Məhəmmədəlini və onun həyat yoldaşını gördüyünü yazıb.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Cəbrayıl rayon şöbəsinin məlumatına görə, 1993-cü ildə erməni tərəfin nümayəndəsi Edik (Yerevan tel:24-77-17; 24-74-14) adlı şəxs radioəlaqə vasitəsilə Hadrut şəhərində saxlanılan 19 azərbaycanlı əsirin siyahısını verib. Əsirlərin 14 nəfəri sonradan dəyişdirilib, 5 nəfərin taleyi məlum olmayıb. Həmin 5 nəfərin siyahısında Hacıyev Məhəmmədəli və onun həyat yoldaşı Nəcəfova Gülarə İsmayıl qızının da adı var.

Chaytumas village of Gubadli district. On the 30th of August, 1992 during the occupation of the same village by Armenians they were taken hostages.

That information was given by his daughter Hajiyeva Adila Mahammadali gizi who lived in Gazanzami village of Jabrayil district (at present she lives in Sumgayit 11th microdistrict, app. 2/51).

According to the words of Guliyev Elmar Zahid oglu (he lives in Sumgayit, 42 quarter, app. 7/47) who released from Armenian captivity, he with Hajiyev Mahammadali oglu from Jabrayil ditrict was kept in Shusha prison from March to November, 1993. His wife Nazarova Gulara Imayil gizi was kept in kindergarten. When he released from Armenian capitivity.

Aliyev Famil Heydarali oglu (he lives in Baku, Khatai ditrict, R.Mammadov Street 10, app. 43) who returned from Armenian captivity saw Hajiyev Mahammadali and his wife in Khankandi prison.

According to the information of Jabrayil department of Ministry of National Security of Azerbaijan Republic, an Armenian representative Edik (Yerevan phone: 24-77-17; 24-74-14) gave a list of 19 Azerbaijani prisoners kept in Hadrud town of Upper Garabagh in 1993. Then 14 of those prisoners were changed but the lives of 5 prisoners were unknown. There were the name of Hajiyev Mahammadali and his wife Najafova Gulara Ismayil gizi in the list of 5 prisoners.



**Hacıyev Siyavuş Bədrəddin oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Ağdaş rayonunun Qoşaqovaq kəndində anadan olub. 1992-ci ildə ordu sıralarına çağırılıb. Laçın rayonunun Fingə kəndi istiqamətində gedən döyüşdə iştirak edib. 21 noyabr 1992-ci ildə Siyavuş döyüş yoldaşlarının ermənilər tərəfindən mühasirəyə düşdüyünü eşidərək «UAZ» markalı maşınla köməyə gedərkən ermənilər tərəfindən qumbaraatanla vurulub. Qızğın döyüş getdiyindən heç kim onlara kömək edə bilməyib. 6 yaralı döyüşçü, o cümlədən, Siyavuş əsir götürülüb.

Bu məlumatı Hacıyevin anası-Ağdaş rayonu Qoşaqovaq kənd sakini Hacıyeva Naibə Əhməd qızı oğlunun döyüş yoldaşlarından öyrənib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təqdim etdiyi hərbi əsirlərin siyahısında Hacıyev Siyavuş Bədrəddin oğlunun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Hajiyev Siyavush Badraddin oglu**

Hajiyev Siyavush Badraddin oglu was born in Goshagovag village of Agdash district of Azerbaijan Republic in 1972. In 1992 he was called up for military service. Siyavush took part in fight for Finga village of Lachin district. On the 21st of November, 1992 Siyavush heard that his front-line comrades were surrounded by Armenians and he went to help them by car «UAZ» but the same car was blown up by them. Because of tense struggle nobody could help them. Wounded 6 fighters including Siyavush were taken prisoners by Armenians.

His mother Hajiyeva Naiba Ahmed gizi who lived in Goshagovag village of Agdash district found out that information from his front-line comrades.

The Ministry of Defense represented a list of Azerbaijani prisoners of war and there was the name of Hajiyev Siyavush Badraddin oglu in that list. It was shown that he was kept in Upper Garabagh.



**Hacıyev Süleyman Lətif oğlu**

1949-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə erməni silahlıları Xocalı şəhərini işğal edən zaman şəhəri ən son tərk edənlərdən biri olub.

Qardaşı- Xocalı şəhər sakini, Bakı şəhəri, Naxçıvanski küçəsi, ev 35,

**Hajiyev Suleyman Latif oglu**

Hajiyev Suleyman Latif oglu was born in Khojali town in 1949. On the 26th of February, 1992 during occupation of Khojali town by Armenian armed forces he was one of who left the town at last.

According to the words of his brother Hajiyev Safar Latif oglu who lived

mənzil 48-də yaşayan Hacıyev Səfər Lətif oğlunun dediyinə görə, Süleyman son gülləsi qalana qədər şəhəri müdafiə edib. Atası-Hacıyev Lətif Süleyman oğlu ilə birlikdə əsir götürülüb. Elə həmin gün əsirləri Xankəndinə aparıblar. Atasının dediyinə görə, ermənilər fevral ayının 27-də Süleymanı Qafan rayonuna köçürüblər. Onlar Süleymana qarşı daha amansız olublar. Lətif Hacıyev sonradan girovluqdan azad olunub.

Xocalı şəhər sakini, Naftalan şəhərində yerləşən «Qarabağ» sanatoriyasında məskunlaşmış Məmmədova Yeganə Hüseyn qızının verdiyi məlumata görə, Xocalı işğal olunan gecə Qarqar çayı istiqamətində ermənilər onları mühasirəyə alıb, girov götürdükdən sonra həmyerliləri Paşayev Sevindiyin zirzəmisinə salıblar. Yeganə orada Milli Qəhrəman Əlif Hacıyevin atası- Lətif Hacıyevi görüb. Ermənilər Lətif kişidən əsir götürülmüş Süleymanın onun oğlu olub-olmadığını soruşublar. Lətif kişi Süleymanın onun oğlu olduğunu inkar edib. Həmin vaxt Süleymanı təndirdən çıxarıb gətiriblər. Şahinin mağazasına aparıb, stolla döyərək ağır işgəncələr veriblər. Bundan sonra onları lafetə mindirib, Xankəndinə aparıblar. 3 gün avtobusun içərisində saxlandıqdan sonra onları dəyişmək üçün Qırmızı Bazara, Süleymanı isə avtobusdan çıxarıb, naməlum istiqamətə aparıblar. O, bir də Süleymanı görməyib.

in Khojali town (at present he lives in Baku, Nakhchivanski Street, 35, app.48), Suleyman defended town till the last bullet was over. His father Hajiyev Latif Suleyman oglu with him was taken prisoner. That day prisoners were taken to Khankandi. According to his father's words, Suleyman was taken to Gafan district on the 27th of February. They were too cruel with Suleyman. Later Hajiyev Latif was released from captivity.

According to the information of Mammadova Yegana Huseyn gizi who lived in Khojali town (now she lives in sanatorium «Qarabagh» in Naftalan town) during the night when Khojali was occupied, they ran to the Gargar but Armenians surrounded them, took as hostages and then her villager Pashayev Sevindik was taken to the cellar. Yegana saw National hero Alif Hajiyev's father Latif Hajiyev there. Armenians asked Latif if prisoner Suleyman was his son. Latif denied that Suleyman was his son. That time they took Suleyman from the cellar. They took him to Shahin's shop. He was beaten with a table by Armenians and put to torture. Then they were taken to Khankandi. They have been kept in the bus for 3 days and then they took them to Girmizi Bazar for change. Armenians got out Suleyman from the bus and took him to unknown direction.



## Hadıyev Əlikram Mürsəl oğlu

1970-ci ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində anadan olub. 12 dekabr 1992-ci ildə Sumqayıt şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 24 dekabr 1992-ci ildə

## Hadiyev Alikram Mursal oglu

yoldaşı Ayvazyan Beniamin Mixayloviçlə (Benik təxəllüslü) dəyişmək istədiklərini bildirib. Həmin qadın 2 gün sonra yenə zəng vurub, qohumu haqqında məlumat almaq istəyib və Faiqin anası Nemətgildə olduğundan onunla da danışıb, arxayın edib ki, oğlundan nigaran qalmasın. 10 gün ərzində Faiqin ailə üzvləri beynəlxalq təşkilatlara və əlaqədar orqanlara müraciət edib, lakin Beniamin haqqında heç bir məlumat əldə edə bilməyiblər. Moskva şəhərindən Cülyettanın bacısı Janna növbəti dəfə zəng vurub, Beniamin tapılana qədər Faiqə himayədarlıq edəcəklərini bildirib. Sonradan əlaqə kəsilib, erməni tərəfdən daha heç kim zəng vurmayıb.

later that woman called again and wanted to get information concerning her relative. Faig's mother talked to Julietta. She convinced not to be worried about the son. During 10 days the members of Faig's family appealed to International organization but they didn't get any information regarding Beniamin. Julietta's sister Janna called from Moscow. She promised to look after Faig till they found Beniamin. Then connection was interrupted and nobody from Armenian side called them.



**Həsənov İlham Gülməmməd oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Quba rayonunun Vladimirovka kəndində anadan olub. 1993-cü ilin noyabr ayında Quba-Qusar könüllülər batalyonunun tərkibində Qarabağ uğrunda döyüşlərə yollanıb. Xocavənd rayonunda gedən döyüşlərdə iştirak edib. 31 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşı və həmkəndlisi-Quba rayonu Vladimirovka kənd sakini Novruzov İbrahim Məmmədşah oğlunun verdiyi məlumata görə, 1994-cü il yanvar ayının 31-nə keçən gecə o, əmisi oğlu Tahir, Həsənov İlham və əslən mehseti türkü olan Bayraqdarov Hümmətlə bir yerdə olub. Ermənilər qəfil hücum edən zaman onların sursatı qurtarıb. Buna görə də geri çəkilməyə məcbur olublar. İbrahim yaralandığı üçün başqa istiqamətə qaçıb, geri dönən-

**Hasanov Ilham Gulmammad oglu**

Hasanov Ilham Gulmammad oglu was born in Vladimirovka village of Guba district of Azerbaijan Republic in 1974. In November of 1993 he was sent to fight for Garabagh allotted to Gusar battalion of voluntaries. Hasanov Ilham took part in fights for Khojavand district. On the 31st of January, 1994 during the fight for Shishgaya height of Khojavand district Ilham was taken prisoner by Armenians.

According to the information of his front-line comrade and villager Novruzov Ibrahim Mammadshah oglu who lived in Vladimirovka village of Guba district, he was with cousin Tahir and mehseti turk Bayragdarov Hummet during the night on the 31st of January, 1994. When Armenians attacked them suddenly their bullets were over. They had to return back. Ibrahim was wounded and ran away to unknown direction. When he returned, he saw Ilham was surrounded.

də ermənilərin İlhamın qaldığı tərəfi mühasirəyə aldıqlarını görüb. Həmin anda İlham sursatsız olub, İbrahim əminliklə onun ermənilər tərəfindən əsir götürüldüyünü bildirib.

That moment Ilham was without weapon. Ibrahim was sure that he was taken prisoner by Armenians.



**Həsənov İsmiəli İsmayıl oğlu**

1924-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Alıxanlı kəndində anadan olub. 23 avqust 1993-cü ildə Alıxanlı kəndi ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Həsənova Fatma Hüseynqulu qızı (1933) ilə ermənilər tərəfindən girov götürülüb.

Bu məlumatı oğlu-Bakı şəhəri, 3-cü Alatava, ev 125V-də yaşayan Həsənov Habil İsmiyəli oğlu verib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki, əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndələri Abo və Edik ona Həsənovların Dağlıq Qarabağda girov saxlandıqlarını, 2 əsir götürülmüş erməni döyüşçüsü ilə dəyişmək istədiklərini deyiblər. Erməni döyüşçüsü tapa bilmədiklərindən dəyişmə baş tutmayıb.

**Hasanov Ismiali Ismayil oglu**

Hasanov Ismiali Ismayil oglu was born in Alikhanli village of Fuzuli district of Azerbaijan Republic in 1924. On the 23rd of August, 1993 during the day of Alikhanli village's occupation, Ismiali with his wife Hasanova Fatma Huseyngulu gizi (year of birth 1933) was taken hostage by Armenians.

That information was given by his son Hasanov Gabil Ismayil oglu (he lives in Baku, 3rd Alatava, app. 125V).

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district), when he was engaged in change of prisoners and hostages, representatives of Armenian side Abo and Edik wanted to change the Hasanovs kept as hostages in Upper Garabagh for 2 Armenian fighters who were taken prisoners. But it was impossible to find Armenian fighters and that's why the change didn't realize.



**Həsənov Mehdi Ramil oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı birləşmələri tərəfindən işğal olunan gün şəhəri müdafiə edənlərlə bir yerdə imiş. Əhalini işğal olunmuş ərazidən çıxaran zaman Dəhraz kəndi yaxınlığında əvvəlcədən pusquda duran erməni silahlıları ilə rastlaşıblar. Qarşı tərəfin açdığı atəş nəticəsində Mehdi və onun bir neçə həmyerlisi ağır yaralanıb, hadisə yerində qalıb. Ermənilər dinc əhalini əsir götürüb, Dəhraz kəndinə aparıb. Onların yaralıları hara apardıqları isə heç kimə bəlli olmayıb.

Bu məlumatı onun dayısı-Xocalı şəhər sakini, Naftalan rayonunun «Goran» sanatoriyasında məskunlaşmış Paşayev Sevindik Bəhlul oğlu verib.

**Hasanov Mehdi Ramil oglu**

Hasanov Mehdi Ramil oglu was born in Khojali town of Azerbaijan Republic in 1973. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces, he defended the town with others. When he left captured territory with people near Dehraz village, he met Armenian armed forces who made an ambush. Armenian fired upon them, Mehdi and several his villagers were seriously wounded and stayed there. Armenians took residents as prisoners and sent to Dehraz village. Armenians took them to unknown direction.

That information was given by his uncle Pashayev Sevindik Bahlul oglu who lived in Khojali (now he lives in "Goran" sanatorium in Naftalan district).



**Həsənov Qərib Müzəffər oğlu**

1955-ci ildə Azərbaycan Respublikasının Sumqayıt şəhərində anadan olub. Hərbi feldşer işləyib. 1992-ci il may ayının 10-da könüllü olaraq cəbhəyə gedib. 17 iyun 1992-ci ildə Ağdamın Sırxavənd kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin təqdim etdiyi arayışda Həsənov Qəribin Ağdamın Sırxa-

**Hasanov Garib Muzaffar oglu**

Hasanov Garib Muzaffar oglu was born in Sumgayit town of Azerbaijan Republic in 1955. He was a military medical attendant. On the 10th of May, 1992 Garib voluntarily went to Aghdam. On the 17th of June, 1992 during the fight for Sirkhavand village of Aghdam he was taken prisoner by Armenians.

According to the report represented by Azerbaijan National Committee of Helsinki

vənd kəndində əsir götürülüb, Dağlıq Qarabağda saxlandığı göstərilib.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində danışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Edikdən Qərib Həsənovun əsir götürülərək Xankəndi şəhərində saxlandığını öyrəndiyini yazıb.

Civil Assembly it was shown that Hasanov Garib was taken prisoner and kept in Upper Garabagh.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoner and hostages wrote a statement during the following talks with Armenians he found out from the representative of opposite side that Garib was taken prisoner and kept in Khankandi.

**Həsənov Qürbət Əkbər oğlu**



1953-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub. 27 dekabr 1993-cü ildə könüllü olaraq Bakı şəhəri Binəqədi Rayon Hərbi Komissarlığına müraciət edib. Füzuli rayonuna göndərilib. 13 yanvar 1994-cü ildə Füzuli rayonunun Seyidəhmədli kəndində gedən döyüş zamanı yaralanıb, ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Ağdam rayon sakini, Bakı şəhərində, Azərbaycan Pedaqoji Universitetinin 3 saylı yataqxanasında məskunlaşmış Həsənov Əsgər Əkbər oğlunun verdiyi məlumata görə, qardaşı itkin düşəndən sonra Qobustan həbsxanasında saxlanılıb, sonradan azad olunan milliyyətcə erməni Aşot Oqanesyana (ünvanı: Dağlıq Qarabağ, Xankəndi şəhəri, Ter-Qabrielyan küçəsi, ev 3A) Qürbətin şəklini göstərdikdə onu tanıyıb. O, Qürbətin Hadrut rayonunun Edilli kəndində saxlandığını deyib.

**Hasanov Gurbat Akbar oglu**

Hasanov Gurbat Akbar oglu was born in Ismayilbeyli village of Aghdam district of Azerbaijan Republic in 1953. On the 27th of December, 1993 he voluntarity appealed to the Militry Registration and Enlistment Office of Binagadi district. Hasanov Gurbat was sent to Fuzuli district. On the 13th of January, 1994 during the fight in Seyidahmedli village of Fuzuli district Gurbat was wounded and taken prisoner by Armenians.

According to the information of his brother Hasanov Asgar Akbar oglu who lived in Aghdam district (he lives in the hostel № 3 of ATU in Baku), he showed Gurbat's picture to Armenian prison Ashot Oganesyan (address: Upper Garabagh, Khankandi town, Ter-Gabrielyan Street, app.3A) who was kept in Gobustan prison and then he was released. He said that Gurbat was kept in Edilli village of Hadrud district of Upper Garabagh.



**Həsənov Rauf Vəliququ oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Aşıqlı kəndində anadan olub. 22 iyul 1992-ci ildə Ağdam rayonunun Qazançılar kəndində gedən döyüş zamanı ağır yaralanıb və ermənilər tərəfindən əsir götürülüb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərinin Yasamal rayonunda yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunun verdiyi məlumata görə, radiodanışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Raufun minaya düşdüyünü və sol ayağının topuğundan yaralı vəziyyətdə əsir götürüldüyünü deyib.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Füzuli rayonu Yağlıvənd kənd sakini, hazırda Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu izahatında 1993-cü ildə erməni polis əməkdaşı Edikdən radioəlaqə vasitəsilə Həsənov Raufun Dağlıq Qarabağda saxlandığı barədə öyrəndiyini yazıb.

**Hasanov Rauf Valigugu oglu**

Hasanov Rauf Valigugu oglu was born in Ashigli village of Beylagan district of Azerbaijan Republic in 1973. On the 22nd of July, 1992 during the fight in Gazanchilar of Aghdam district Rauf was seriously wounded and taken prisoner by Armenians.

According to the information of former head deputy of Executive Power Yasamal district Eyvazov Fireddin Ali oglu who worked in 1992-1993 (now he lives in the hostel № 4 of ATU, room N 205 in Yasamal district, Baku), representative of Armenian side by radio communication informed that Rauf was wounded in left leg and was taken prisoner.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district) and engaged in change of prisoners and hostages wrote a statement that he found out by radio communication from Armenian policeman Edik that Hasanov Rauf was kept in Upper Garabagh.



**Həsənov Rövşən Elman oğlu**

1969-cu ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. Ağdam rayonunun müdafiəsini təşkil edənlərdəndir. 4 sentyabr 1992-ci ildə Ağdamın Aranzəmi kəndində gedən döyüş zamanı əsir götürülüb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, hazırda Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunun verdiyi məlumata görə, növbəti radiodanışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Həsənov Rövşənin Aranzəmi və Pircamal kəndləri arasındakı ərazidə piyadaların döyüş maşınında əsir götürüldüyünü bildirib.

**Hasanov Rovshan Elman oglu**

Hasanov Rovshan Elman oglu was born in Aghdam town of Azerbaijan Republic in 1969. He organized the defense of Aghdam district. On the 4th of September, 1992 Rovshan was taken prisoner by Armenians during the fight in Aranzami village of Aghdam district.

According to the information of head deputy of Executive Power of Fuzuli district Eyvazov Fireddin Ali oglu who worked in 1992-1993 (now he lives in the hostel № 4 of ATU in Baku, room № 205), representation of Armenian side said by radio communication that Hasanov Rovshan by armoured machine was taken prisoner between Aranzami and Pirjamal villages.



**Həsənov Rövşən Qaçay oğlu**

1958-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə erməni silahlı birləşmələri Xocalı şəhərini işğal edən zaman əhali vahimə içində ərazini tərk edib, Ağdam rayonuna tərəf üz tutub. Əsgəran rayonunun Dəhraz kəndi yaxınlığında pusquda duran ermənilər onları Azərbaycan dilində çağıraraq aldadıblar. Ermənilər təxminən 180 nəfərə yaxın xocalılını Dəhraz kəndindəki maldarlıq ferma-

**Hasanov Rovshan Gachay oglu**

Hasanov Rovshan Gachay oglu was born in Khojali town of Azerbaijan Republic in 1958. On the 26th of February, 1992 during Khojali's occupation by Armenian armed forces, he left the territory together with people and went to Aghdam district. Armenians made an ambush near Dehraz village of Asgaran district, called as Azerbaijani and deceived them. Armenians took 180 men from Khojali to the stock-breeding farm near Dehraz vil-

sına dolduraraq onlara ağır işgəncələr veriblər. Girov götürülmüş insanların arasından Həsənov Rövşən də daxil olmaqla 13 nəfər cavan oğlanı seçib naməlum istiqamətə aparıblar.

Bu faktı Rövşənin anası-Xocalı sakini Həsənova Rəfiqə Məmi qızı, girov götürülmüş Zakir, Elşad və Əliyarın atası-Xocalı sakini Usubov Kamran Hüseyn oğlu, girov götürülmüş Qarayev Usubəlinin atası-Xocalı sakini Qarayev Süleyman Salman oğlu və Xocalı sakinləri Hüseynov Kamil Dadaş oğlu, Xudayarov Vəfadar Səlim oğlu, Vəliyer Şahmar Əliabbas oğlu, Ağayev Səttar Muxtar oğlu, Nəbiyev Əli İbad oğlu və başqaları təsdiq ediblər.

**Həsənov Rövşən Qasım oğlu**



1973-cü ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olub. 20 yanvar 1992-ci ildə Şəki Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Ağdərə rayonuna göndərilib. 27 iyul 1992-ci ildə Ağdərə rayonunun Möhrətac kəndində gedən döyüş zamanı onun xidmət etdiyi alay ermənilər tərəfindən mühasirəyə alınıb. Ayağından yaralanmış Rövşən ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşı-Şəki şəhəri, 19-cu Bağbanlar küçəsi, 2-ci döngə, ev 9-da yaşayan Eyvazov İmran Kənan oğlunun dediyinə görə, 27 iyul 1992-ci ildə Ağdərə rayonunun Möhrətac kəndində 19 nəfərlə birlikdə durduqları postu ermənilər mühasirəyə alıb, güclü atəşə tutublar. Həmin vaxt əslən Şəkidən olan Həsənov Rövşən və ağdaşlı Aslan (soyadını unudub) ağır yaralanıb. Qızğın döyüş getdiyindən yaralıları

lage and put them to tortures. They separated 13 young men including Hasanov Rovshan between those hostages and took to unknown direction.

That fact was confirmed by Rovshan's mother Hasanova Rafiga Mami gizi who lived in Khojali, the father of hostages Zakir, Elshad and Aliyar – Usubov Kamran Huseyn oglu who lived in Khojali, the father of hostage Garayev Usubali – Garayev Suleyman Salman oglu who lived in Khojali and others form Khojali town: Huseynov Kamil Dadash oglu, Hudayarov Vafadar Salim oglu, Valiyev Shahmar Aliabbas oglu, Agayev Saftar Mukhtar oglu, Nabiyev Ali Ibad oglu etc.

**Hasanov Rovshan Gasim oglu**

Hasanov Rovshan Gasim oglu was born in Shaki town of Azerbaijan Republic in 1973. On the 20th of January, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shaki district. Rovshan was sent to Aghdara allotted to Internal Forces. On the 27th of July, 1993 during the fight in Mokhratag village of Aghdara district regiment where Rovshan served was surrounded by Armenians. During the skirmish Rovshan was wounded and taken prisoner by Armenians.

According to the words of his front-line comrade Eyvazov Imran Kanan oglu (he lives in Shaki town, Bagbanlar Street, 19-2 quarter, app. 9), Armenians surrounded 19 men in Mohrataj village of Aghdara district on the 27th of July, 1992. They opened the fire. At that moment Hasanov Rov-

döyüş meydanından çıxara bilməyib, geri çəkiliblər.

Qardaşı-Şəki şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 49-da yaşayan Heydər Həsənovun verdiyi məlumata görə, 1993-cü ildə Rövşənin axtarışı zamanı xidmət etdiyi hərbi hissədən onun Bakı şəhəri, Maştağa qəsəbə sakini Nəsirov İlham Sədulla oğlu ilə əsir götürüldüyünü bildiriblər. Nəsirovun qardaşı Xankəndi Yol Polisinin milliyyətcə erməni olan əməkdaşının tez-tez onlara zəng vurduğunu, İlhamla Rövşənin sağ-salamat olduqlarını, Xankəndi şəhərində saxlandıqlarını və itkin düşmüş Şagen Arakelyan adlı yaxın qohumu ilə dəyişmək istədiklərini deyib. Qarşı tərəfdən zəng edən şəxs hətta Heydərlə də danışıb və söz verib ki, əgər qohumundan xəbər versə, onda Rövşənlə də danışmağa imkan yaradacaq.

İhamın atası-Bakı şəhəri, Maştağa qəsəbəsi, S. Vurğun küçəsi, ev 9-da yaşayan Nəsirov Sədulla Məhəmməd oğlu izahatında yazıb ki, Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu vasitəsilə itkin düşmüş Şagenin atası-Arakelyan Edikdən (Yerevan şəhəri, Sasunts David küçəsi, ev 22, mənzil 10; tel: 24-77-17) oğlunun Həsənov Rövşənlə birlikdə yaralı vəziyyətdə əsir götürüldüyünü öyrənib. Edikin həyat yoldaşı Rimma Arakelyan Ermənistanın Yaxınları İtkin Düşmüşlərin Axtarışı ilə məşğul olan cəmiyyətinin sədridir. Onların oğlu tapılmadığı üçün qarşı tərəflə əlaqə kəsilib, İlhamgilə bir daha zəng vurulmayıb.

23 mart 1994-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən Nəsirov İlham Sədulla oğlunun meyidinin qalıqları ailəsinə qaytarılıb. Ermənilər onu ac saxladıqları üçün kaxeksiyadan (acından ölmə) vəfat edib. Rövşənin taleyi bu günədək məlum deyil.

shan from Shaki and Aslan (he forget his surname) who lived in Agdash were wounded. Because of battle the wounded stayed at the battle field and other fighters had to return back.

That information was given by his brother Hasanov Heydar Gasim oglu (he lives in Shaki, M.A. Rasulzade Street, 49). According to his words, while searching Rovshan it was found out from military unit in 1993, his brother with Nasirov Ilham Sedulla oglu who lived in Mashtaga settlement of Baku was taken prisoner. Fighters advised him to connect with Ilham’s family. Nasirov’s brother often rang up an Armenian who worked at Khankandi Police department and informed him that Ilham and Rovshan were alive, kept in Khankendi and wanted to change them for his close relative missed Shagen Arakelyan. That man who called Heydar and promised that if he got information regarding his relatives it would be possible to talk to Rovshan.

Ilhams father–Nasirov Sadulla Mahammad oglu (he lives in Baku, Mashtaga settlement, S.Vurgun Street, 9) wrote a statement that by the assistance of Kazimov Ahad Musa oglu who lived in Yaglivared village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district), he found out from the father of missed Shagen–Arakelyan Edik (Yerevan, Sasunts David Street 22, app. 10, phone: 24-77-17) that wounded son with Hasanov Rovshan was taken prisoner. Edik’s wife–Rimma Arakelyan was the chairman of Armenian Society Searching for the missing people. Their son wasn’t found and they interrupted the connection. Nobody called to Ilham.

The parts of Nasirov Ilham’s corpse were returned his family by ICRC on the 23rd of March, 1994. Armenians kept him without food and that’s why he was starved. Rovshan’s life is unkown till the present time.



**Həsənov Şahin Cahangir oğlu**

1968-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olub. 25 iyun 1992-ci ildə könüllü olaraq «20 Yanvar» taborunun tərkibində Dağlıq Qarabağa yollanıb. 5 iyul 1992-ci ildə Əsgəran rayonunun Naxçıvanik kəndində gedən döyüş zamanı əsir götürülüb.

Atası-Bakı şəhəri, Mehdiabad qəsəbəsi, 20 Yanvar küçəsi, ev 8, mənzil 28-də yaşayan Həsənov Cahangir Əli oğlunun dediyinə görə, oğlunun axtarışı zamanı Naxçıvanik kəndində gedən döyüşdən sonra hərbçilər 8 döyüşçünün itkin düşdüyünü öyrəniblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun 1993-cü ildə Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən aldığı azərbaycanlı hərbi əsirlərin siyahısında Həsənov Şahinin də adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Hasanov Shahin Jahangir oglu**

Hasanov Shahin Jahangir oglu was born in 1968. On the 25th of June, 1992 he was sent to Upper Garabagh allotted to the battalion “20th of January”. On the 5th of July, 1992 during the fight in Nakhchivanik village of Asgaran district Shahin was taken prisoner.

According to the words of his father Hasanov Jahangir Ali oglu (he lives in Baku, Mehdiabad settlement, 20 January Street, app. 28), while searching for his son, he found out that after the battle in Nakhcivanik village 8 military men were missed.

When Huseynov Akif Saleh oglu who lived in Arsik-Jirdakhan village of Tovuz district searched for his sister, the representative of Armenian side Gagik gave him a list of Azerbaijani prisoner of war in Tbilisi in 1993. There was the name of Hasanov Shahin in that list. It was shown that he was kept in Upper Garabagh.



**Həsənov Şükran Əlixan oğlu**

1975-ci ildə Bakı şəhərində anadan olub. 2 aprel 1993-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən yaralı vəziyyətdə əsir götürülüb.

Bu məlumatı atası-Bakı şəhəri, Zabrat qəsəbəsi, Nərimanov küçə-

**Hasanov Shukran Alikhan oglu**

Hasanov Shukran Alikhan oglu was born in 1975. On the 2nd of April, 1993 during the fight for Murovdagh height of Kelbajar district wounded Shahin was taken prisoner by Armenians.

That information was given by his father Hasanov Alikhan Muslum oglu

si, ev 6, mənzil 80-da yaşayan Həsənov Əlixan Müslüm oğlu Şükranın axtarışı zamanı onun döyüş yoldaşlarından öyrənib.

Erməni əsirliyindən qayıtmış Ucar şəhəri, 28 May küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlu Həsənov Şükranın onunla birlikdə Şuşa həbsxanasında saxlandığını deyib.

(he lives in Baku, Zabrat settlement Narimanov Street 6, app. 80). He found out that information while searching for Shukran.

Mammadov Mayil Mammadali oglu who returned from Armenian captivity (he lives in Ujar town, 28 May Street, 2) said that he was kept with Hasanov Shukran in Shusha prison.



### Həsənov Vüqar Çərkəz oğlu

1969-cu ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Mayak qəsəbəsində anadan olub. 1989-cu ildə Sovet Ordusunda hərbi xidməti başa vurub. 1990-cı ildə Ağdam Rayon Polis Şöbəsində təşkil edilmiş polis taborunun tərkibində könüllü olaraq döyüşüb. 4 iyul 1992-cü ildə ermənilər Ağdam rayonunun İsmayılbəyli kəndini işğal edən gün bacısının həyat yoldaşı gizir Quliyev Rafiq Barat oğlunun idarə etdiyi xidməti «UAZ-429» markalı 24-93 AQZ dövlət nömrə nişanlı avtomaşında həmin kənddə qalmış yaşlı, qadın və uşaqları xilas etmək üçün oraya gedib. Ermənilər tərəfindən əsir götürülərək Xankəndi şəhərinə aparılıblar.

Ağdam rayonu İsmayılbəyli kənd sakini, Bakı şəhərinin Mərdəkan qəsəbəsindəki «Kristal» düşərgəsində məskunlaşmış Abbasov Cəmil Həsən oğlu izahatında yazıb ki, 1993-cü ildə doğma kəndləri ermənilər tərəfindən işğal olunduğu üçün ailəliklə Rusiya Federasiyasının Stavropol şəhərinə köçüblər. 2001-ci ilin payızında yaşadığı qəsəbənin sakini, milliyyətcə erməni olan Joranın ad günündə həmin ərazinin (Krasnodar şəhər avtovağzalından Novorossiysk şəhəri istiqamətində 4-5 km hərə-

### Hasanov Vugar Cherkez oglu

Hasanov Vugar Cherkez oglu was born in Mayak settlement of Beylagan district of Azerbaijan Republic in 1969. Vugar finished military service in ranks of Soviet Army in 1989. Then he voluntarily fought allotted to the police battalion organized by Police Department of Aghdam district in 1990. On the 4th of July, 1992 during the day of occupation of Ismayilbeyli village of Aghdam district by Armenians, his sister's husband – ensign Guliyev Rafig Barat oglu went to the same village to save old women and children by the car "UAZ-429" (public plate-number 24-93 AQZ). They didn't return any more, they were taken prisoners and kept in Khankandi.

Abbasov Jamil Hasan oglu who lived in Ismayilbeyli village of Aghdam district (he lives in camp "Kristal" in Baku, Mardakan settlement) wrote a statement that he with family moved into Stavropol city of RF in 1993 because their village was captured by Armenians. In autumm of 2001 there was a head of police department whose nationality was Armenian and several another Armenians at Jora's birthday party in direction 4-5 km of Novorossiysk city

kət edib, Kuban çayını keçdikdən sonra) polis rəisi adıgey millətindən olan şəxs və bir neçə erməni ilə eyni masa arxasında oturub. Jora əslən Xocavənd rayonunun Qarakənd kəndindən olub. Həmin məclisdə özünü Karo kimi təqdim edən şəxs əslən Xocavənd rayonundan olduğunu, oraya qazanc məqsədilə gəldiyini deyib. O, Ağdam rayon sakinləri Əkbər, Çərkəz və Yelişin oğlanlarını əsirlikdə işğal olunmuş Ağdamın evlərini sökərək İrandan ermənilər üçün kartof gətirmiş maşınlara yükləyən zaman gördüyünü deyib.

**Həsənov Zabit İsmayıl oğlu**



1970-ci ildə Ermənistan Respublikası Vardenis rayonunun Nerkin Şorca kəndində anadan olub. Sonradan Azərbaycan Respublikası Xanlar rayonunun Göyçəkənd kəndində yaşayıb. 1992-ci ilin yanvar ayında Xanlar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Kiçik çavuş Həsənov hərbi hissədə sürücü vəzifəsində xidmət edib. 15 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə ağır yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Xanlar rayonu Göyçəkənd kənd sakini Əliyev İsmayıl Bəylər oğlu ərizəsində yazıb ki, oğlunun axtarışı zamanı Gürcüstanda yaşayan qohumları vasitəsilə Ermənistan Respublikası Noyemberyan rayonunun Ləmbəli kəndində Dövlət Təhlükəsizlik Komitəsinin həmin rayon üzrə şöbə rəisi Alik Sarumyanla görüşüb. A.Sarumyan ona Zabitin ağır yaralı-kontuziya almış vəziyyətdə əsir götürüldüyünü və Ermənistanın Spitak şəhərində saxlandığını

from railway station in Krasnodar. Jora was originally from Garakand village of Khojavand district. An Armenian Karo who was from Khojavand district said that he came here to earn money. He saw Akbar, Cherkez and Yelish's son who lived in Aghdam district took out potatoes from the trucks which came from Iran for Armenians and put broke house-top in occupied Aghdam to the trucks.

**Hasanov Zabit Ismayil oglu**

Hasanov Zabit Ismayil oglu was born in Nerkin Shorja of Vardenis district of Armenia in 1970. Then he moved into Goychakand village of Khanlar district of Azerbaijan Republic. In January of 1992 Zabit was called up for military service by the Military Registration and Enlistment Office of Khanlar district. Junior ensign Hasanov served as a driver in a military unit. On the 15th of February, 1994 during the fight for Murovdagh height of Kelbajar district seriously wounded Zabit was taken prisoner by Armenians.

His father Aliyev Ismayil Beylar oglu who lived in Goychaykand village of Khanlar district wrote a statement that while searching for his son he met by the assistance of his relatives in Georgia the head of Noyemberyan district of Armenia of Committee of State Security Alik Sarumyan who lived in Lembeli village of the same district. A.Sarumyan said that seriously wounded Zabit got the contusion, was taken prisoner and kept in Spitak. He

bildirib. O, qeyd edib ki, Zabit də daxil olmaqla bir neçə azərbaycanlı hərbi əsir xüsusi nəzarət altında saxlandığı üçün onları azad edə bilməz.

1994-cü ildə Azərbaycan Respublikasının Müdafiə naziri M.Məmmədovun Milli Təhlükəsizlik Nazirliyinə təqdim etdiyi arayışda Kəlbəcər rayonu ərazisində gedən döyüş zamanı kiçik çavuş Həsənov Zabitin kontuziya almış və donmuş vəziyyətdə ermənilər tərəfindən əsir götürüldüyünü və Xankəndi şəhərinə aparıldığını yazıb. Erməni tərəfi onu azad etmək üçün əsir götürülmüş erməni hərbçisi, və ya 12 milyon rus rublu tələb edib. Ailəsi həmin tələbləri yerinə yetirə bilmədiyi üçün Zabit əsirlikdən azad olmayıb.

Erməni əsirliyindən qayıtmış Tovuz rayonu Qovlar qəsəbə sakini Hacıyev Elfaq Kazım oğlu izahatında 1994-cü ilin yanvar ayında Xənkəndi şəhərində yerləşən xəstəxanada saxlanılan zaman oraya 5-6 yaralı azərbaycanlı əsgər gətirildiyini bildirib. O, qaytarılacağını bildiyi üçün həmin əsirlər haqqında məlumat toplayıb. Onlardan biri əslən ermənistanlı olan Həsənov Zabit olub. Zabit erməni dilini yaxşı bilirmiş. Bir neçə gündən sonra Elfaq dəyişdirilmək üçün həbsxanaya aparıldığından bir daha onu görməyib.

noted that he couldn't release Zabit including several Azerbaijani prisoners of war because they were under special control.

According to the report from 1994 represented by the Ministry of Defense to the Ministry of National Security, during the fight in Kelbajar district junior ensign Hasanov Zabit got the contusion and was frozen, taken prisoner by Armenians and sent to Khankandi. Armenians demanded for his release an Armenian military man who was taken prisoner or 12 million Russian rubles. His family couldn't realize those demands and Zabit wasn't released.

According to a statement of Hajiyev Elfag Kazim oglu who lived in Govlar settlement of Tovuz district and returned from Armenian captivity, when he stayed at Khankandi hospital, 5-6 Azerbaijani soldiers came there in January of 1994. He knew that he would release and that's why he collected information concerning those prisoners. One of them was Hasanov Zabit from Armenia. Zabit knew Armenian very well. Several days later Elfag was taken to the prison and was changed. He didn't see Zabit any more.

## Həsənova Fatma Hüseynqulu qızı



1933-cü ildə Füzuli rayonunun Alıxanlı kəndində anadan olub. 23 avqust 1993-ci ildə Alıxanlı kəndi ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Həsənov İsmiyəli İsmayıl oğlu (1924) ilə birlikdə girov götürülüb.

Oğlu-Bakı şəhəri, 3-cü Alatava, ev

## Hasanova Fatma Huseyngulu gizi

Hasanova Fatma Huseyngulu gizi was born in Alikhanli village of Fuzuli district in 1933. On the 23rd of August, 1993 during occupation of Alikhanli village by Armenians she with husband Hasanov Ismayali Ismayil oglu (year of birth: 1924) was taken hostage.

125v-də yaşayan Həsənov Habil İsmiyəli oğlu 16 may 2001-ci ildə yazdığı ərizəsində valideynlərinin girov götürüldüklərini bildirib. Beyləqan rayon sakini Tağıyev Məmməd ona valideynlərini dəyişmək üçün qarşı tərəfin əsir düşmüş 2 erməni hərbçisi tələb etdiyini söyləyib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində erməni tərəfin nümayəndəsi Abo və Edikdən Həsənova Fatma və onun həyat yoldaşı Həsənov İsmiyəlinin sağ olduğunu, Dağlıq Qarabağda saxlandığını, yalnız əsir düşmüş 2 erməni hərbçisinə dəyişdirilə biləcəyini öyrənib. Girovların övladları əsir düşmüş erməni hərbçiləri tapa bilmədikləri üçün dəyişmə baş tutmayıb.

Her son Hasanov Habil Ismayali oglu (he lives in Baku, the 3rd Alatava, app.125) wrote a statement (from the 16th of May, 2001) his parents were taken hostages. According to Hasanov Gabil's words, Tagiyev Mammad who lived in Beylagan district said that Armenians demanded 2 Armenian prisoners to change for his parents.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Khojavand district) wrote a statement that he found out from representatives of Armenia Abo and Edik that Hasanova Fatma and her husband Hasanov Ismayali were alive, kept in Upper Garabagh and the opposite side could change them for 2 Armenian military men. Their children couldn't find those Armenian military men, the change didn't realize.

**Həsənova Məstan İbiş qızı**



1906-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Horadiz kəndində anadan olub. 3 sentyabr 1993-cü ildə Horadiz kəndi ermənilər tərəfindən işğal olunan gün əsir götürülüb.

Oğlu- Füzuli rayon sakini, Bakı şəhərinin Mərdəkan qəsəbəsində yerləşən 2 saylı sanatoriyada məskunlaşmış Həsənov Abbas Mürsəl oğlunun verdiyi məlumata görə, kəndləri ermənilər tərəfindən işğal olunan gün anası evdə tək olub. Kənd sakinləri ərazini tərk edib, qaçan vaxt Həsənova Məstan yaşlı olduğu üçün evdən çıxa bilməyib. Anasının axtarışı ilə məşğul olan zaman Füzuli Rayon İcra Hakimiyyəti başçısına və rayon komendantına müraciət edib. Rayonun komendantı mayor rütbəli şəxs (adını unudub) er-

**Hasanova Mestan Ibish gizi**

Hasanova Mestan Ibish gizi was born in Horadiz village of Fuzuli district of Azerbaijan Republic in 1906. On the 3rd of September, 1993 during occupation of Horadiz village by Armenians she was taken prisoner.

According to the information of her son Hasanov Abbas Mursel oglu who lived in Fuzuli district (now he lives in sanatorium № 2 in Baku, Mardakan settlement), during occupation of their village by Armenians. his mother was alone at home. Inhabitants of village left the territory, when they ran away Mestan was old and that's why she couldn't leave the house. During the search for his mother, he appealed to the head of Executive Power of Fuzuli district and district commandant. The district commandant who-

mənilərlə radioəlaqə yaradıb və Həsənova Məstanın qarşı tərəfdə girov saxlandığını öyrənib.

Həsənov Mürsəlin dediyinə görə, 1996-cı ilin sentyabr-oktyabr aylarında elektrik qatarında Bakıdan Mərdəkana gedən zaman hərbi geyimli bir nəfərlə tanış olub, söhbət əsnasında həmin şəxs ona ermənilər Horadiz kəndini işğal edən zaman orada olduğunu və Həsənovanı evində gördüyünü deyib.

Füzuli rayonu Horadiz kənd sakini, Ağsu rayonu İlxıçı kəndində məskunlaşmış Ağayev Rəşad Misir oğlu yazdığı ərizəsində erməni işğalı zamanı Həsənova Məstanla birlikdə girov götürüldüyünü, sonradan onun Şaumyan rayonuna aparıldığını yazıb.

se military rank was major (it's pity that he didn't remember his name) connected with Armenians by radio communication and found out that Mestan was taken prisoner by them.

According to the words of Hasanov Mursel, when he went by train to Mardakan from Baku, he met a familiar in military uniform in September-October of 1996. During the talk that man said that when Horadiz was occupied, he was there and saw that Hasanova was at the house.

Agayev Rashad Misir oglu who lived in Horadiz district of Fuzuli district (he lives in Ilkhiji village of Agsu district) wrote a statement that during occupation Hasanova Mestan was taken hostage and then sent to Shaumyan district.

## Həsənquliyev İman Mehdiqulu oğlu



1967-ildə Azərbaycan Respublikası Laçın rayonunun Pircahan kəndində anadan olub. 19 aprel 1993-cü ildə qardaşı Həsənquliyev Vüqar Mehdiqulu oğlu, Laçın rayonu Bülövlük kənd sakinləri Əbdülrəhmanov Kamran Müseyib oğlu və Ədbülrəhmanov İmamverdi Kamran oğlu ilə mühasirəndən çıxa bilməyib, əsir götürülüblər.

Qardaşı- Bakı şəhəri, Naximov küçəsi, ev 43, mənzil 21-də yaşayan Həsənquliyev Etibar Mehdiqulu oğlu həmin gün qardaşları ilə birlikdə olub, sonradan mühasirədən çıxa bilən Kəlbəcər rayon sakinləri İnqilab, Faiq, Abuzər, Bağban, Yapon və İsmayılla görüşüb. Onlar Etibara Həsənquliyev qardaşlarının Kamran və İmamverdi Əbdülrəhmanovlarla birlikdə Kəlbəcər rayonunun Zülfüqarlı kəndi istiqamətində

## Hasanguliyev Iman Mehdigulu oglu

Hasanguliyev Iman Mehdigulu oglu was born in Pirjahan village of Lachin district in 1967. On the 19th of April, 1993, during occupation of Kelbajar district by Armenians Iman with his brother Hasanguliyev Vugar Mehdigulu oglu and Abdulrahmanov Kamran Museyib oglu and Abdulrahmanov Imamverdi Kamran oglu couldn't get out of encirclement of Armenians and they were taken prisoner.

His brother Hasanguliyev Etibar Mehdigulu oglu (he lives in Baku, Nahimov Street, 43, app.21) was with brothers but then he met Ingilab, Faig, Abuzer, Bagban, Yapon and Ismayil who lived in Kelbajar district and could get out of encirclement. They said to Etibar that the Hasanguliyevs' brother Kamran with the Abdulrahmanovs was surrounded near Zulfugarli village of Kelbajar district

mühasirəyə düşdüklərini, Kamranın ayağından yaralandığını deyiblər. Həmin vaxt kəlbəcərlilər onlarla rastlaşıb, bir müddət Daşbulaq kəndi yaxınlığındakı kahalarda yaşayıblar. Sonradan kəlbəcərlilər yollarına davam edib, mühasirədən çıxa biliblər.

Bakı şəhəri, Əbilov qəsəbəsi, ev 10, mənzil 8-də yaşayan Əbdülrəhmanov Müseyib Kamran oğlunun verdiyi məlumata görə atası və qardaşının axtarışı ilə məşğul olan zaman onların Həsənquliyev qardaşları ilə birlikdə ermənilər tərəfindən girov götürüldüklərini öyrənib.

Laçın rayonu Alıqulu kənd sakini, Bakı şəhəri, Binəqədi şossesi, ev 2-də məskunlaşmış İsmayılov Şakir Əkbər oğlu ərizəsində yazıb ki, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman Həsənquliyev və Əbdülrəhmanovlarla rastlaşıb, görüşmək üçün şərtləşib ayrılıb, bir daha görüşməyiblər.

but Kamran was wounded in leg. At that time inhabitants of Kelbajar met them, they lived in Karhalar near Dashbulag village for some time. Then Kelbajar's residents continued their way and could break out of encirclement.

According to the information of Abdulrahmanov Museyib Kamran oglu (he lives in Baku, Abilov Street, 10, app.8), when he searched for his father and brothers he found out that they with brothers of Hasanguliyev were taken hostages by Armenians.

Ismayilov Shakir Akbar oglu who lived in Aligulu village of Lachin district (he lives in Baku, Binagadi highway, app.2) wrote a statement that during occupation of Kelbajar district by Armenians, he met Hasanguliyev and the Abdulrahmanovs, agreed to meet and that's why they separated. But they didn't meet any more.

## Həsənquliyev Vüqar Mehdiqulu oğlu



1974-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Pircahan kəndində anadan olub. 19 aprel 1993-cü il tarixdə qardaşı Həsənquliyev İman Mehdiqulu oğlu, Laçın rayonu Bülövlük kənd sakinləri Əbdülrəhmanov Kamran Müseyib oğlu və Ədbülrəhmanov İmamverdi Kamran oğlu ilə birlikdə ermənilərin mühasirəsindən çıxa bilməyib, əsir götürülüblər.

Qardaşı-Bakı şəhəri, Naximov küçəsi, ev 43, mənzil 21-də yaşayan Həsənquliyev Etibar Mehdiqulu oğlu həmin gün qardaşları ilə birlikdə olub, sonradan mühasirədən çıxa bilən Kəlbəcər rayon sakinləri İnqilab, Faiq, Abuzər, Bağban, Yapon və

## Hasanguliyev Vugar Mehdigulu oglu

Hasanguliyev Vugar Mehdigulu oglu was born in Pirjahan village of Lachin district in 1974. On the 19th of April, 1993 during occupation of Kelbajar district by Armenians Vugar with his brother Hasanguliyev Iman Mehdigulu oglu, Abdulrahmanov Kamran Museyib oglu and Abdulrahmanov Imamverdi Kamran oglu couldn't break out of encirclement of Armenians and they were taken prisoners.

His brother Hasanguliyev Etibar Mehdigulu oglu (he lives in Baku, Nahimov Street, 43, app.21) was with his brothers but then he met Ingilab, Faig, Abuzer, Bagban, Yapon and Ismayil who lived in Kelbajar district and could break out of encirclement. They said to

İsmayılla görüşüb. Onlar Etibara Həsənquliyev qardaşlarının Kamran və İmamverdi Əbdülrəhmanovlarla Kəlbəcər rayonunun Zülfüqarlı kəndi yaxınlığında mühasirəyə düşdüklərini, Kamranın ayağından yaralandığını deyiblər. Həmin vaxt kəlbəcərlilər onlarla rastlaşıb, bir müddət Daşbulaq kəndi yaxınlığındakı kahalarda yaşayıblar. Sonradan kəlbəcərlilər yollarına davam edib, mühasirədən çıxa biliblər.

Bakı şəhəri, Əbilov qəsəbəsi, ev 10, mənzil 8-də yaşayan Əbdülrəhmanov Müseyib Kamran oğlunun verdiyi məlumata görə atası və qardaşının axtarışı ilə məşğul olan zaman onların Həsənquliyev qardaşları ilə birlikdə ermənilər tərəfindən girov götürüldüklərini öyrənib.

Laçın rayonu Alıqulu kənd sakini, Bakı şəhəri, Binəqədi şossesi, ev 2-də məskunlaşmış İsmayılov Şakir Əkbər oğlu ərizəsində yazıb ki, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman Həsənquliyev və Əbdülrəhmanovlarla rastlaşıb, görüşmək üçün şərtləşib ayrılıblar. Bir daha görüşməyiblər.

Etibar that the Hasanguliyevs' brother Kamran with the Abdulrahmanovs was surrounded near Zulfugarli village of Kelbajar district but Kamran was wounded in leg. At that time residents of Kelbajar met them, they lived in Karhalar near Dashbulag village for some time. Then Kelbajar's residents continued their way and could break out of encirclement.

According to the information of Abdulrahmanov Museyib Kamran oglu (he lives in Baku, Abilov Street, 10, app.8), when he searched for his father and brothers he found out that they together with brothers of Hasanguliyev were taken hostages by Armenians.

Ismayilov Shakir Akbar oglu who lived in Aligulu village of Lachin district (he lives in Baku, Binagadi highway, app.2) wrote a statement that during occupation of Kelbajar district by Armenians he met Hasanguliyev and the Abdulrahmanovs, agreed to meet and that's why they separated. But they didn't meet again.

## Həsrətov Akif Möhtərəm oğlu



1970-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Hacıəlibəyli kəndində anadan olub. 12 sentyabr 1992-ci ildə könüllü olaraq orduya yazılıb, Tərtər batalyonunun tərkibində Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib. 5 mart 1993-cü ildə Ağdərə rayonunun Çardaxlı kəndində mühasirəyə düşərək əsir götürülüb.

Atası-Xaçmaz rayonu Hacıəlibəyli kənd sakini Həsrətov Möhtərəm Bəşir oğlunun verdiyi məlumata görə oğlunun axtarışı ilə məşğul olan zaman onun döyüş yoldaşla-

## Hasratov Akif Mohtaram oglu

Hasratov Akif Mohtaram oglu was born in Hajialibeyli village of Khachmaz district of Azerbaijan Republic in 1970. On the 12th of September, 1992 he voluntarily joined the army and took part in fights for Aghdara district allotted Terter battalion. On the 5th of March, 1993 during the fight for Chardakhli village of Aghdara district Akif was surrounded and taken prisoner.

According to the information of his father Hasratov Mohtaram Bashir oglu who lived in Hajialibeyli village of Khachmaz district,

rından, Akifin Çardaxlı kəndində gedən döyüşdə mühasirəyə düşərək əsir götürüldüyünü öyrənib. Erməni əsirliyindən qaçan Bakı şəhər sakini Əliyev Famil əsirlikdə Akiflə birlikdə 5 ay saxlandığını bildirib.

Hərbi əsir Ramazanov Zaur Əli oğlunun atası- Bakı şəhəri, 8-ci kilometr qəsəbəsi, B. Nuriyev küçəsi, ev 67, mənzil 38-də yaşayan Ramazanov Əli Ağaməşədi oğlu ərizəsində göstərib ki, oğlunun axtarışı ilə bağlı 1994-cü ildə əsirlikdən azad olmuş, milliyyətcə erməni, Xankəndi şəhəri, Ter-Qabrielyan küçəsi, ev 3a-da (tel:4-58-45) yaşayan Ohanesyan Aşot Manveloviçlə görüşüb, Zaurun Akiflə birlikdə Xankəndində Samvel Karapetyanın alayında əsir saxlandığını öyrənib.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsi, «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun dediyinə görə, 1994-cü ildə əsir və girovların dəyişdirilməsi ilə məşğul olan zaman qarşı tərəfin nümayəndəsi Albert Voskanyan ona Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahısını təqdim edib. Həmin siyahıda Həsrətov Akifin də adı olub. Erməni tərəfi həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişdirmək istədiklərini bildirib.

Beynəlxalq İşçi Qrupunun verdiyi məlumata görə, Həsrətov Akif 1994-cü ildə 2 gün Xankəndi şəhərində itkin düşmüş Aşot Ohanesyanın anasıgildə saxlanılıb. Sonra isə Şuşa şəhərində əvvəl əsir saxlandığı yerə qaytarılıb.

when he searched for his son he found out from his front-line comrades that Akif was surrounded and taken prisoner. Aliyev Famil who lived in Baku city and ran away from captivity had been kept by Armenians for 5 months with Akif.

The father of prisoner of war Ramazanov Zaur Ali oglu - Ramazanov Ali Agameshedi oglu (he lives in Baku, 8 km settlement, B.Nuriyev Street, 67, app.38) wrote a statement when he searched for his son an Armenian Ohanesyan Ashot Manvelovich (he was from Khankendi, Ter-Gabriyelyan Street, app.3A, phone: 4-58-45) who released from captivity in 1994, found out that Zaur with Akif was kept as a prisoner in Samvel Karapetyan's regiment.

According to the words of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran village (at present he lives in sanatorium «Zugulba» in Baku, Buzovna Settlement), when he engaged in change of prisoners and hostages, representative of opposite side Albert Voskanyan gave a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC. There was the name of Hasratov Akif in that list. Armenians wanted to change the same prisoners for a killer of journalist Salatin Asgerova Arkadi Ayriyan whose nick name was «Napoleon».

According to the information of International Working Group in 1994, Hasratov Akif has been kept in the house of missed Ashot Ohanesyan's mother for 2 days in Khankandi. Then he returned to the same person who taken him in Shusha town.



## Həsrətov Mürvət Möhübbət oğlu

1974-cü ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Hovuzlu kəndində anadan olub. 15 oktyabr 1992-ci ildə hərbi xidmətə çağırılıb. Füzuli rayonunda yerləşən hərbi hissənin tərkibində döyüşüb. 23 iyul 1993-cü ildə Füzuli rayonunun Xələvşə kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Anası- Cəbrayıl rayonu Hovuzlu kənd sakini, hazırda Füzuli rayonu Horadiz qəsəbəsi, BMT küçəsi 7- də məskunlaşmış Cabbarova Təbriz Poladxan qızının verdiyi məlumata görə, oğlu əsir götürüldükdən 3 gün sonra onun qulluq etdiyi hərbi hissənin zabiti Azər ermənilərlə radioəlaqə yaradaraq Mürvət haqqında məlumat alıb. Erməni tərəfi onu Füzuli rayonunun Kürdlər kəndində dəyişməyi təklif edib. Lakin ertəsi gün həmin kənd ermənilər tərəfindən işğal olunduğu üçün dəyişmə baş tutmayıb.

İkinci dəfə Mürvəti daha 4 azərbaycanlı əsirlə birlikdə Füzuli rayonunun Yağlıvənd kəndində dəyişməyi qərara alıblar, həmin gün adı çəkilən kənd ermənilər tərəfindən işğal olunub. Ermənilər Mürvəti Dağlıq Qarabağın Hadrut rayonuna aparıblar.

Cabbarova Təbrizin digər məlumatında deyilib ki, həmkəndlisi Pirişov Əli Sarı oğlu Füzuli rayonunun Yuxarı Veysəlli kəndində hərbi xidmətdə olan oğlu Qədirin yanından qayıdarkən, yolda hərbi hissənin həkimi ona (əslən Zəngilan rayonunun Məmmədbəyli kəndindən olan) uzaqdan ermənilərin Mürvəti zorla maşına mindirib, apardıqlarını gördüyünü deyib.

Mürvətin döyüş yoldaşı İmişli rayonu

## Hasratov Murvat Mohubbat oglu

Hasratov Murvat Mohubbat oglu was born in Hovuzlu village of Jabrayil district of Azerbaijan Republic in 1974. On the 15th of October, 1992 he was called up for military service. Murvat fought allotted to the military unit in Fuzuli district. On the 23rd of July, 1993, during the fight for Khalavsha village of Fuzuli district Murvat was taken prisoner by Armenians.

According to the information of his mother Jabbarova Tabriz Poladkhan gizi who lived in Hovuzlu village of Jabrayil district (now she lives in Fuzuli district, Horadiz settlement, BMT Street, 7) after his captivity, 3 days later officer Azer who served in the military unit connected with Armenians by radio communication and got information concerning Murvat. Armenian side offered to change him in Kurdler village of Fuzuli district. But the next day that village was captured by Armenians and the change didn’t realize.

The second time Armenians decided to change Murvat and 4 Azerbaijani prisoners in Yaglivand village of Fuzuli district, that day the same village was captured by Armenians. Armenians took Murvat to Hadrud district of Upper Garabagh.

According to another information of Jabbarova Tabriz, when her villager Pirishov Ali Sari oglu returned from Gadir’s military unit in Yukhari Veyselli village of Fuzuli district, a doctor (originally from Mammadbeyli village of Gubadli district) from the military unit said that Murvat was taken forcibly to the car by Armenians.

Murvat’s front-line comrade Lazimov Farahim Murshud oglu who lived in Jafarli village of Imishli district wrote a statement,

Cəfərli kənd sakini Lazımov Fərahim Mürşüd oğlu ərizəsində yazıb ki, o, Həsrətovla birlikdə Xələfşə kəndində növbə çəkən vaxt ermənilər qəflətən hücum edib, döyüş zamanı Mürvəti əsir götürüblər.

when Hasratov with Halafsha was on point duty, Armenians suddenly attacked and during the fight Murvat was taken prisoner.



**Heybətov İlqar Heybətağa oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Siyəzən rayonunun Böyük Həmyə kəndində anadan olub. 1993-cü ilin avqust ayında Siyəzən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Tərtər rayonuna göndərilib. 18 aprel 1994-cü ildə Tərtər rayonu uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Siyəzən rayonu Böyük Həmyə kənd sakini Heybətov Heybətağa Qardaşağa oğlu izahatında yazıb ki, oğlunun axtarışı zamanı onun qulluq etdiyi hərbi hissənin komandiri ilə görüşüb. Polkovnik-leytenant Eldar Ağayev ona İlqarın lənkəranlı döyüşçü ilə birlikdə ermənilərin pusqusuna düşdüyünü, onları Azərbaycan dilində çağıraraq aldatdıqlarını bildirib. İlqar erməniləri azərbaycanlı hərbçilər zənn edib həmin tərəfə getdikdə, onu əsir götürüblər. İlqarla birlikdə olan əsgər onun əsir götürüldüyünü görüb, hərbi hissəyə gayıdaraq komandirə bildirib. Heybətağanın həmkəndlisi, əslən Gürcüstan Respublikasının Marneuli rayonunun Dəmyə-Gorax kəndindən olan Abdulla İsayev bir neçə dəfə həmin kəndə gedərək orada yaşayan ermənilərdən İlqarın Ermənistanın Masis rayonunda saxlandığını öyrənib.

Dayısı-Hüseynov Famil 2000-ci ilin iyul ayında Rusiya Federasiyasının Samara şəhərinə gedib, orada yaşayan və Ermə-

**Heybatov Ilgar Heybataga oglu**

Heybatov Ilgar Heybataga oglu was born in Boyuk Hamya village of Siyazan district of Azerbaijan Republic in 1974. In August of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Siyazan district and sent to Terter district. On the 18th of April, 1994 during the fight for Terter district Ilgar was taken prisoner by Armenians.

His father Heybatov Heybataga Gardashaga oglu who lived in Boyuk Hamya village of Siyazan district wrote a statement while searching for his son, he met a commander of military unit where his son served. Colonel-lieutenant Eldar Agayev said that Armenians made an ambush for Ilgar with fighter from Lankaran. They called them on Azerbaijani and deceived them. Ilgar confused Azerbaijanis with Armenians. When he came up to Armenians, Ilgar was taken prisoner and a soldier saw him. He returned to the military unit and said to the commander about Ilgar. Heybataga's villager Abdulla Isayev who lived in Demya-Gorakh village of Marneuli district of Georgia found out from Armenians who lived in the same village that Ilgar was kept in Masis district of Armenia.

His uncle Huseynov Famil went to Samara city of RF in 2000. He found out

nistanla əlaqəsi olan Artur adlı bir şəxsdən İlqarın sağ olduğunu, digər azərbaycanlı əsirlərlə birlikdə Gorus-Laçın yolunun inşasına cəlb olunduğunu öyrənib.



**Heydərov Azad Feytulla oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Quba rayonunun Yuxarı Tüləkəran kəndində anadan olub. 12 yanvar 1994-cü ildə Quba Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Orta Qərvənd kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Quba rayonu Yuxarı Tüləkəran kənd sakini Heydərov Feytulla Yunis oğlunun verdiyi məlumata görə, oğlunun axtarışı zamanı döyüş yoldaşı-Quba rayonu Ləzgidigah kənd sakini Elnur ona Azadın ermənilər tərəfindən əsir götürüldüyünün şahidi olduğunu deyib.

Quba rayonu Heydərqışlaq kənd sakini Heydər kişinin oğlu Mehman (sonradan şəhid olub) Azadın ermənilər tərəfindən əsir götürüldüyü və Qubanın İsnik kənd sakini olan döyüşçü ilə birlikdə Dağlıq Qarabağda saxlandığı barədə məlumat verib.

from Armenian Artur that Ilgar was alive and with other prisoners was forced for constructive work in Gorus-Lachin road.

**Heydarov Azad Feytulla oglu**

Heydarov Azad Feytulla oglu was born in Yukhari Tulekeran village of Guba district of Azerbaijan Republic in 1975. On the 12th January, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Guba district. On the 27th April, 1994 during the fight for Orta Garvand village of Aghdam district Azad was taken prisoner by Armenians.

According to the information of his father Heydarov Feytulla Yunis oglu who lived in Yukhari Tulekeran village of Guba district, while searching for his son his front-line comrade Elnur who lived in Lezgi Digah village of Guba district witnessed that Azad was taken prisoner by Armenians.

The son of Heydar Kishi – Mehman (then he died) who lived in Heydargishlag village of Guba district informed that Azad was taken prisoner by Armenians and kept in Upper Garabagh with fighter from Isnik village of Guba.



**Heydərov Müşfiq Ələkbər oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Ağsu rayonunun 2-ci Arat kəndində anadan olub. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Seyid Əhmədli kəndi uğrunda döyüşdə yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, 6-cı mikrorayon, Kazımovski küçəsi, ev 16A, mənzil 34-də yaşayan Abdlullayev Eldar İsrail oğlu izahatında 1994-cü ildə Xankəndi xəstəxanasında Müşfiqlə birilkdə saxlandığını bildirib.

**Heydarov Mushvig Alakbar oglu**

Heydarov Mushvig Alakbar oglu was born in 2nd Arat village of Aghsu district of Azerbaijan Republic in 1970. On the 26th of January, 1994 during the fight for Seyid Ahmedli village of Fuzuli district wounded Mushfig was taken prisoner by Armenians.

Abdullayev Eldar Israil oglu who returned from Armenian captivity (he lives in Baku, 6th microdistrict, Kazimovski Street, 16 A, app. 34) wrote a statement he was kept in Khankandi hospital with Mushfig in 1994.



**Hümbətov Elxan Vəli oğlu**

1958-ci ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olub. 1992-ci ilin avqust ayında Qarabağ uğrunda döyüşlərə yollanıb. 7 oktyabr 1992-ci ildə Laçın rayonunun Sus kəndində gedən döyüş zamanı əsir götürülüb.

Qardaşı- Bərdə şəhəri, Q.B.Zakir küçəsi ev 8-də yaşayan Hümbətov Əli Vəli oğlunun məlumatında deyilib ki, radiodanışıq vasitəsilə qərargah rəisi Albertlə əlaqə yaradaraq Elxanın əsir götürülüb, Dağlıq Qarabağda saxlandığını öyrənib.

Atası- Bərdə şəhəri, Q.B.Zakir küçəsi, ev 8-də yaşayan Hümbətov Vəli Rəhim oğlu Əsgəran alayının qərargah rəisi Al-

**Humbatov Elkhan Vali oglu**

Humbatov Elkhan Vali oglu was born in Barda town of Azerbaijan Republic in 1958. In August of 1992 he was sent to fight for Garabagh. On the 7th of October, 1992 during the fight for Sus village of Lachin district Elkhan was taken prisoner.

According to the information of his brother Humbatov Ali Vali oglu (he lives in Barda town, G.B.Zakir Street, 8), he connected by radio communication with the chief of staff of Asgaran's regiment Albert and found out that Elhan was taken prisoner and kept in Upper Garabagh.

According to the information of his father Humbatov Vali Rahim oglu (he lives in Barda

bertdən 1993-cü ildə oğlunun bir neçə hərbçi ilə Sus kəndində gedən döyüşdə əsir götürüldüyünü və Dağlıq Qarabağda saxlandığını öyrənib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən aldığı azərbaycanlı əsir və girovların siyahısında Hümbətov Elxanın da adı olub. Onun Yerevan şəhərində yerləşən 10724 saylı mərkəzi həbsxanada saxlandığı göstərilib.

town, G.B.Zakir Street, 8), he found out from chief of staff of Asgaran's regiment Albert that during the fight for Sus village his son with several military men was taken prisoner and kept in Upper Garabagh in 1993.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from an Armenian whose name was Gagik in Tbilisi and there was the name of Humbatov Elkhan in that list. It was shown that he was kept in prison № 10724 in Yerevan city.

## Hümbətov İnqilab Niftalı oğlu



1963-cü ildə Ermənistan Respublikası Əzizbəyov rayonunun Axta kəndində anadan olub. 1989-cu ildə ermənilər tərəfindən ata-baba yurdlarından qovulduqdan sonra Azərbaycan Respublikası Şuşa rayonunun Malıbəyli kəndində məskunlaşıb. 1991-ci ildə könüllü olaraq Şuşa batalyonuna yazılıb. 11 fevral 1992-ci ildə Malıbəyli kəndi uğrunda döyüşdə yaralanaraq əsir götürülüb.

Qardaşı- Bakı şəhəri, Çobanzadə küçəsi, ev 15, mənzil 7-də yaşayan Hümbətov Ehtiram Niftalı oğlunun verdiyi məlumatda göstərilib ki, İnqilab yaralandığı zaman əmisi qızı Babayeva Xassa Hümbətəli qızı onun yanında olub. Xassa kömək gətirmək məqsədi ilə Ağdama gedib, geri qayıtdıqda İnqilabı orada görməyib. Ehtiramın dediyinə görə, Ermənistanla əlaqəsi olan bir qadın ona qarşı tərəfdə saxlanılan azərbaycanlı əsirlərin siyahısını verib. Həmin siyahıda İnqilabın Dağlıq Qarabağda saxlandığı göstərilib.

Hümbətov əsir və girovlar dəyişdirilən məntəqələrdə olub, dəfələrlə erməni tərəfi

## Humbatov Ingilab Niftali oglu

Humbatov Ingilab Niftali oglu was born in Akhta village of Azizbeyov district of Armenia in 1963. In 1989 they were expatriated from the native lands by Armenians and then they moved into Malibeyli village of Shusha district of Azerbaijan Republic. In 1991 Ingilab voluntarily joined Shusha battalion. On the 11th of February, 1992 during the fight for Malibeyli village wounded Ingilab was taken prisoner.

According to the information of his brother Humbatov Ehtiram Niftali oglu (he lives in Baku, Chobanzade Street, 15, app.7), when Ingilab was wounded, his cousin Babayeva Khassa Humbatali gizi was near him. Khassa went to Aghdam for the help but when she returned, Ingilab wasn't there. According to Ehtiram's words, a woman who had contacts with Armenia gave him a list of Azerbaijani prisoners kept by the opposite side. There was the name of Humbatov Ingilab in that list and it was shown that he was kept in Upper Garabagh.

Humbatov was at the place where had changed prisoners and hostages, during

ilə etdiyi söhbətlərdən qardaşının sağ olduğunu, şəxsi evdə saxlanılıb, dərzilik etdiyini öyrənib.

Əmisi qızı- Bakı şəhəri, Şüvəlan qəsəbəsindəki «Cəsur» pioner düşərgəsində məskunlaşmış Babayeva Xassa Hümbətəli qızı ərizəsində yazıb ki, o, yaralı İnqilabı Quşçular kəndinin kənarına qədər gətirib və orada qoyub, kömək üçün Abdal Gülablı kəndinə gedib. Bir neçə nəfərlə qayıdan zaman əmisi oğlunu orada tapmayıb.

talks with Armenians he found out that his brother was alive, kept in a private house and sewed.

His cousin Babayeva Khassa Humbatali gizi (now she lives in pioneer camp «Jasur» in Shuvelan settlement, Baku) wrote a statement that she carried wounded Ingilab to Gushchular village and stayed him there, went to Abdal Gulabli village for the help. When she returned with several men, his cousin wasn't there.

## Hümbətov İsrafil Xasay oğlu



1958-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 18 may 1992-ci ildə Hümbətov İsrafil Füzuli rayonunun Kərimbəyli kənd sakini Şahverdiyev Saleh Kərim oğlu ilə Fətəli Pəyəsi kəndi yaxınlığında girov götürülərək Xankəndinə aparılıb. Bir müddət sonra İsrafil və Saleh dəyişdirilmək adı ilə Xocavənd rayonuna aparılıblar.

1995-ci ildə erməni əsirliyindən qayıtmış, Ceyranbatan qəsəbəsində yerləşən texniki litseyin yataqxanasında məskunlaşan Məmmədov Əlif Fərhad oğlunun dediyinə görə, 18 may 1992-ci ildə o, bacısının həyat yoldaşı Hümbətov İsrafil və Qarıqışlaq kənd sakini Həsənlə birlikdə, Kərimbəyli kəndindən olan Şahverdiyev Salehin maşınında ev əşyalarını işğal olunmuş ərazidən çıxartmaq istəyən zaman ermənilər tərəfindən əsir götürülüb. İsrafil çiynindən yaralanıb. Sonradan İsrafili dəyişdirmək adı ilə Xocavənd rayonuna aparıblar. Əlif bir daha İsrafili görməyib.

## Humbatov Israfil Khasay oglu

Humbatov Israfil Khasay oglu was born in Minkand village of Lachin district of Azerbaijan Republic in 1958. On the 18th of May, 1992 Humbatov Israfil with Shahverdiyev Saleh Kerim oglu who lived in Karimbeyli village of Fuzuli district was taken hostage near Fatali Peyesi village and sent to Khankandi. Israfil and Saleh were taken to Khojavand district as if for the change.

According to the words of Mammadov Alif Farhad oglu (at present he lives in the hostel of technique secondary school in Baku, Jeyranbatan settlement) who returned from Armenian captivity in 1995, when his sister's husband Humbatov Israfil with Hasan who lived in Garishgilag village wanted to put their things to Shahverdiyev Saleh's car from Karimbeyli village and to leave the occupied territory, they were taken prisoners by Armenians on the 18th of May, 1992. Israfil was wounded in shoulder. Then they took Israfil to Khojavand district as if to change. Alif didn't see Israfil any more.



**Hümbətov Nəbi Əbülfət oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Şamkənd kəndində anadan olub. 1991-ci ildə könüllü olaraq ordu sıralarına yazılıb. Laçın alayının tərkibində döyüşüb. 29 mart 1993-cü ildə Kəlbəcər rayonunun Alaqaya kəndində gedən döyüş zamanı əsir götürülüb.

Həmkəndlisi və döyüş yoldaşı, Bakı şəhəri, Nizami rayonunda yerləşən 2 saylı uşaq bağçasında məskunlaşmış Hümbətov Əzim Məhəmmədəli oğlunun verdiyi məlumata görə, döyüş zamanı hava qatı duman olduğu üçün Nəbi onlardan ayrı düşüb və əsir götürülüb.

Həmkəndlisi və döyüş yoldaşı-Bərdə rayonunun Mollalı kəndində məskunlaşmış Hümbətov Akif Saday oğlunun dediyinə görə, uzaqdan ermənilərin Nəbini əsir götürdüyünü görüb.

Bərdə rayonunun Qaratəpə kəndində məskunlaşmış məcburi köçkün Məmmədov Tapdıq Azad oğlu da Hümbətovun ermənilər tərəfindən əsir götürüldüyü faktını təsdiq edib.

Qardaşı-Bərdə rayonu Mollalı kəndində məskunlaşmış Hümbətov Çingiz Əbülfət oğlunun topladığı materiallara görə, Nəbi Alaqaya kəndində ermənilər tərəfindən əsir götürülüb və Şuşa rayonunun Xələfli kəndində kənd təsərrüfatı işlərinə cəlb edilib.

**Humbatov Nabi Abulfat oglu**

Humbatov Nabi Abulfat oglu was born in Shamkand village of Lachin district of Azerbaijan Republic in 1972. In 1991 he voluntarily joined the army. Nabi fought allotted to Lachin detachment. On the 29th of March, 1993 Humbatov during the fight for Alagaya village of Kelbajar district Nabi was taken prisoner by Armenians.

According to the information of his villager and front-line comrade Humbatov Azim Mahammadali oglu (now he lives in kindergarten № 2 in Baku, Nizami district) during the fight it was foggy and that's why Nabi separated and was taken prisoner.

According to the words of his villager and front-line comrade Humbatov Akif Saday oglu (at present he lives in Mollali village of Barda district) he saw from a long distance Armenians took Nabi as a prisoner.

Forced settler Mammadov Tapdig Azad oglu who lived in Garatape village of Barda district confirmed that Nabi was taken prisoner.

According to the materials collected by his brother Humbatov Chingiz Abulfat oglu (he lives in Mollali village of Barda district), Nabi was taken prisoner by Armenians in Alagaya village and forced for agricultural work in Khalafli village of Shusha district.



**Hümbətov Rizvan Məşədi oğlu**

1948-ci ildə Azərbaycan Respublikası Tovuz rayonunun Duz-Cırdaxan kəndində anadan olub. Polis mayoru Rizvan Hümbətov Goranboy rayonu uğrunda gedən döyüşlərdə yaxından iştirak edib. 14 sentyabr 1991-ci ildə həmin rayonun Buzluq kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Həyat yoldaşı- Tovuz rayonu, Sadıqov küçəsi, ev 6-da yaşayan Hümbətova Tamella Hacı qızının verdiyi məlumata görə Rizvanın döyüş yoldaşları ilə birlikdə «UAZ» markalı avtomaşında əsir götürüldüyünü öyrənib. Onları bir müddət Goranboyda saxlayıb, sonra Xankəndinə aparıblar.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu bildirib ki, polis podpolkovniki Boris Yesayan Hümbətov Rizvanın sağ olduğunu və Yerevan şəhərində, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsində saxlandığını deyib.

**Humbatov Rizvan Meshedi oglu**

Humbatov Rizvan Meshedi oglu was born in Duz-Jirdakhan village of Tovuz district of Azerbaijan Republic in 1948. Police major Rizvan Humbatov took part in fights for Goranboy district. On the 14th of September, 1991 during the fight for Buzlug village of Goranboy district Rizvan with front-line comrades was taken prisoner by Armenians.

According to the information of his wife Humbatova Tamilla Haji gizi (she lives in Tovuz district, Sadigov Street, 6), she found out that he with front-line comrades was taken prisoner by a car «UAZ». They were kept in Goranboy and then in Khankendi.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district) found out from police colonel-lieutenant Boris Yesayan that Humbatov Rizvan was alive and kept in Yerevan city, Armenian Committee of State Security.



**Hümbətov Xalid Əli oğlu**

1961-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Halcalı kəndində anadan olub. Qarabağ müharibəsi başlayanda könüllü olaraq orduya yazılıb. 7 fevral 1994-cü ildə Kəlbəcər rayonu Cəmilli kəndi uğrunda dö-

**Humbatov Khalid Ali oglu**

Humbatov Khalid Ali oglu was born in Halchali village of Kelbajar district of Azerbaijan Republic in 1961. When Garabagh war began, he voluntarily joined the army. On the 7th of February, 1994 during the fight for Jamilli village of Kelbajar

yüşdə batalyonun qərargah rəisi Xalid Hümbətov, komandir Feyruz Abışovla birlikdə ermənilər tərəfindən əsir götürülüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu 1995-ci ildə Ağdam rayonunun Qərvənd kəndində erməni tərəfi ilə danışıq aparıldığı zaman Hümbətov Xalidin 3 döyüşçü və həmyerliləri ilə birlikdə əvvəlcə Yerevanda, sonra Şuşa şəhər həbsxanasında saxlandığını öyrənib. Ona bu məlumatı qarşı tərəfdən polis əməkdaşı Albert verib.

district chief of staff of battalion Khalid Humbatov with commander Feyruz Abishov was taken prisoner by Armenians.

During talks with Armenian side in Garvand village of Aghdam district Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) found out that Humbatov Khalid with three front-line comrades and villagers was kept at first in Yerevan and then in Shusha prison in 1995. Tagiyev Mammad found out that information from Armenian policeman Albert.

**Hüseynov Ağası Rauf oğlu**



1968-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Tibb Universitetinin V kurs tələbəsi Hüseynov Ağası təhsilini yarımçıq qoyub, 3 aprel 1992-ci ildə könüllü olaraq feldşer kimi Qarabağ uğrunda döyüşlərə yollanıb. 8 may 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunan gün bacısının həyat yoldaşı mayor Məmmədov Vahid Şahvələd oğlu ilə döyüşə gedib və bir daha geri qayıtmayıb, ermənilər tərəfindən əsir götürülüb.

Anası-Bakı şəhəri, Q.Qarayev prospekti ev 94, mənzil 58-də yaşayan Hüseynova Svetlana Seyfəddin qızı ərizəsində yazıb ki, 1996-cı ildə onlara ononim zəng olunub, oğlunun Ermənistanda - Alaverdi rayonu, Alaverdi şəhəri 4, Qalaqaya küçəsi, ev 3/12, mənzil 48 (tel: 3-19-34) ünvanda saxlandığını bildirilib.

**Huseynov Agasi Rauf oglu**

Huseynov Agasi Rauf oglu was born in 1968. The student of V course of Azerbaijan Medical University Huseynov Agasi left his study and then he voluntarily was sent to fight for Garabagh as a medical attendant on the 3rd of April, 1992. On the 8th of May, 1992 during the day of Shusha's occupation Agasi with sister's husband major Mammadov Vahid Shahvalad oglu went to fight by armoured infantry machine and didn't return. They were taken prisoners by Armenians.

His mother Huseynova Svetlana Seyfaddin gizi (she lives in Baku, G.Garayev avenue 94, app. 58) wrote a statement that somebody called her and said that he was kept in Armenia, Alaverdi district, Alaverdi town-4, Gala-gaya Street 3/12, app. 48 (phone 3-19-34) in 1996.



**Hüseynov Bakir Mirsiyab oğlu**

1956-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. Xocalı avtobazasında mühəndis işləyən Bakir şəhərin müdafiəsini təşkil edənlərdən olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı dəstələri tərəfindən işğal olunan gecə ailə üzvləri-atası Hüseynov Mirsiyab Həzrətqulu oğlu (1922), anası Hüseynova Minəş Cümşüd qızı (1936), bacısı Həsənova Qətibə Mirsiyab qızı (1952), qardaşının həyat yoldaşı Hüseynova Məxmər Qurban qızı (1950) ilə birlikdə girov götürülüb.

Erməni əsirliyindən qayıtdıqdan sonra Bakı şəhəri, Nizami rayonunda yerləşən 150 saylı uşaq bağçasında məskunlaşan Ələkbərov Elxan Eyyub oğlu izahatında 1994-1995-ci illərdə Şuşa həbsxanasında Hüseynov Bakirlə birlikdə saxlandığını yazıb.

**Huseynov Bakir Mirsiyab oglu**

Huseynov Bakir Mirsiyab oglu was born in Khojali town of Azerbaijan Republic in 1956. He was an engineer in Khogali's motor depot and organized the defense of the town. On the 26th of February, 1992 his members of family: father Huseynov Mirsiyab Hazratgulu oglu (year of birth: 1920), mother Huseynov Minash Jumshud gizi (year of birth: 1936), sister Hasanova Gatiba Mirsiyab gizi (year of birth: 1952), brother's wife Huseynova Mahmar Gurban gizi (year of birth: 1950) were taken hostages together.

Alakbarov Elkhan Eyyub oglu who returned from Armenian captivity (he lives in Kindergarten № 150 in Baku, Nizami district) wrote a statement that he with Huseynov Bakir was kept in Shusha prison in 1994-1995.



**Hüseynov Bəxtiyar Hidayət oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Xələfşə kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 2 aprel 1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan gün Çərəktar kəndində gedən döyüşdə əsir götürülüb.

1994-cü ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təqdim etdiyi arayışda Hüseynov Bəxtiyarın Şuşa həbsxanasında saxlandığı yazılıb.

**Huseynov Bakhtiyar Hidayat oglu**

Huseynov Bakhtiyar Hidayat oglu was born in Khalafsha of Fuzuli district of Azerbaijan Republic in 1973. He took part in fights for Garabagh. On the 2nd of April, 1992 during the day of Kelbajar's occupation Bakhtiyar was taken prisoner by Armenians.

According to the report of ICRC it was found out that Huseynov Bakhtiyar was kept in Shusha prison in 1994.

According to the information of Aliyev

Erməni əsirliyindən qayıtmış, Bakı şəhərinin Xətai rayonu R.Məmmədov küçəsi, ev 10, mənzil 43-də yaşayan Əliyev Famil Heydərəli oğlunun verdiyi məlumata görə, Şuşa şəhərində saxlanılan zaman Bəxtiyarı orada görüb. Ermənilər onu ağır fiziki işlərə cəlb ediblər.

Erməni əsirliyindən qayıtmış Beyləqan rayonunun Dünyamallar kənd sakini Sarıyev Əli Zöhrab oğlunun dediyinə görə, 7 aprel 1994-cü ildə Xankəndi şəhərində təmizlik işlərinə cəlb olunan zaman Hüseynov Bəxtiyarı orada görüb.

Famil Heydarali oglu who returned from Armenian captivity (he lives in Baku, Khatai district, R. Mammadov Street, 10, app. 43), when he was kept in Shusha prison he saw Bakhtiyar there. Armenians forced him to look after pigs.

According to the words of Sariyev Ali Zohrab oglu who lived in Dunyamallar village of Beylagan district and returned from Armenian captivity, when he was forced to clean Khankandi, he saw Huseynov Bakhtiyar there on the 7th of April, 1994.

## Hüseynov Cavanşir Ərşad oğlu



1960-cı ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub. 23 oktyabr 1993-cü ildə qohumu Şirinov Tahir Şirin oğlunun idarə etdiyi «VAZ-011» markalı S 18-87 JA dövlət nömrə nişanlı avtomaşınla Füzuli rayonunun Kərimbəyli və Şükürbəyli kəndləri arasındakı ərazidə ermənilər tərəfindən girov götürülüb.

Yaxın qohumları - Şirinov Şirin Bilal oğlu, Şirinov Nazim Şirin oğlu və Əliyeva Nisə Xanlar qızı da onunla birlikdə girov götürülərək Dağlıq Qarabağın Xankəndi şəhərində, Arustamyan Yurikin evində saxlanılıblar.

Bu məlumatı Şirinov Bakir Şirin oğlu radiodanışıqlar zamanı erməni tərəfindən öyrənib.

## Huseynov Javanshir Arshad oglu

Huseynov Javanshir Arshad oglu was born in Doshulu village of Jabrayil district in 1960. On the 23rd of April, 1993 his relative Shirinov Tahir Shirin oglu who drove a car «VAZ-011» (public number-plate S 18-87 JA) was taken hostage on the territory between Karimbeyli village and Shukurbeyli village of Fuzuli district.

His close relatives: Shirinov Shirin Bilal oglu, Shirinov Nazim Shirin oglu and Aliyeva Nisa Khanlar gizi were taken hostages with him and they were taken to Khankandi of Upper Garabagh.

Shirinov Bakir Shirin oglu found out that information from Armenians by radio communication.



**Hüseynov Dağıstan Balaca oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Ağqaya kəndində anadan olub. 27 mart 1993-cü ildə qohumu Rəhimov İlham Zülfü oğlunun idarə etdiyi «QAZ- 53» markalı yük maşınında Kəlbəcərdən Ağqaya kəndinə əsgərlər üçün döyüş sursatı daşıyan zaman ermənilər tərəfindən girov götürülüb və Xankəndi şəhərinə aparılıb. Girov götürülən zaman İlhamın atası Kəlbəcər rayonu Ağqaya kənd sakini, 1915-ci il təvəllüdlü Rəhimov Zülfü Camal oğlu da onlarla olub.

Bu məlumatı Rəhimov İlhamın anası- Kəlbəcər rayonu Ağqaya kənd sakini, hazırda Tərtər şəhərində yerləşən 5 saylı uşaq bağçasında məskunlaşmış Rəhimova Nabat Çərkəz qızı verib.

**Huseynov Dagistan Balaja oglu**

Huseynov Dagistan Balaja oglu was born in Aghgaya village of Kelbajar district in 1970. On the 27th of March, 1993, when his relative Rahimov Ilham Zulfu oglu who drove a lorry «QAZ-53» went to carry weapons for the fighters, Armenians took him as a hostage and sent to Khankandi. When Armenians took him, Ilham's father Rahimov Zulfu Jamal oglu (year of birth: 1915) who lived in Aghgaya village of Kelbajar district was together with them there.

That information was given by Ilham's mother Rahimova Nabat Cherkez gizi who lived in Aghgaya village of Kelbajar district (at present she lives in kindergarten № 5 in Terter town).



**Hüseynov Əbülfət Mehman oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndində anadan olub. 17 fevral 1992-ci ildə Qaradağlı kəndi ermənilər tərəfindən işğal olunan zaman girov götürülüb, əvvəlcə Xankəndi şəhərində saxlanılıb, sonradan isə Yerevanda baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmaq üçün ağır fiziki işlərə cəlb edilmək məqsədilə oraya aparılıb.

**Huseynov Abulfat Mehman oglu**

Huseynov Abulfat Mehman oglu was born in Garadaghli village of Khojavand district of Azerbaijan Republic in 1972. On the 17th of February, 1992 during occupation of Garadaghli village he was taken hostage. At first Abulfat was kept in Khankandi and then he was sent to Yerevan and forced for heavy labour.

His mother Huseynova Afayat Gubad

Bu məlumatı anası-Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonundakı 5 saylı sovxozun ərazisində məskunlaşmış Hüseynova Afayət Qubad qızı Bakı şəhəri, 9-cu mikrorayonda məskunlaşmış bacısının həyat yoldaşı Məmmədov Mübariz Tofiq oğlundan öyrənib. Mübariz ermənilərlə radioəlaqə yaradaraq Əbülfət haqqında məlumat ala bilib.

Erməni əsirliyindən qayıtmış həmyerlisi, Ağcabədi rayonunda yerləşən «Alman» qaçqın şəhərciyində məskunlaşmış Əliyev Şahruz Əmirxan oğlunun dediyinə görə, Xankəndi şəhərindəki internat-məktəbdə saxlanılan zaman Əbülfət də onunla birlikdə olub. Ermənilər Vəliyev Füzuli ilə Əbülfəti Ermənistana aparıblar.

Həmyerlisi - Bakı şəhəri, Nizami rayonu R. Qənbərov küçəsində yerləşən Maşınqayırma Texnikumunun yataqxanasında məskunlaşmış Tağıyev Tevon Həbil oğlu izahatında yazıb ki, yaşadıqları kənd işğal olunan zaman ermənilər onları girov götürüb, Xankəndi şəhərinə aparıblar. İnternat-məktəbdə digər gənclər kimi Əbülfət də işgəncələrə məruz qalıb.

Bu faktı erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Binəqədi rayonu 9-cu mikrorayonda məskunlaşmış Tağıyev Tapdıq İnqilab oğlu, Bakı şəhəri, Səbail rayonu Nemanzadə küçəsi, ev 17-də yaşayan Hüseynov İlqar Qardaşxan oğlu və Qax rayonu Zəyəm kənd sakini Nadirov Bayram Cahangir oğlu da təsdiq edib.

gizi who lived in Garadaghli village of Khojavand district (at present she lives in collective farm № 5 in Beylagan district) found out that information from sister's husband Mammadov Mubariz Tofig oglu (he lives in Baku, 9th Microdistrict). Mubariz connected with Armenians and got information concerning Abulfat.

According to the words of his villager Aliyev Shahruz Amirkhan oglu who returned from Armenian captivity (he lives in «Alman» refugee town in Aghjabedi district), he was kept with Abulfat in Khankandi boarding school. Then Armenians took him with Valiyev Fizuli to Armenia.

His villager Tagiyev Tevon Habil oglu (he lives in a hostel of machine-building technical secondary school in Baku, Nizami district, R.Ganbarov Street) wrote a statement when their village was captured by Armenians, they were taken hostages and sent to Khankandi. Abulfat was with them. Armenians kept them. As all the youngers Abulfat was put to tortures in a boarding-school .

That fact was confirmed by former prisoners who returned from Armenian captivity: Tagiyev Tapdig Ingilab oglu (he lives in Baku, Binagadi district, 9th microdistrict), Huseynov Ilgar Garadashkhan oglu (he lives in Baku, Sabail district, Nemanzade Atreet, 17) and Nadirov Bayram Jahangir oglu who lived in Zayam village of Gakh district.



**Hüseynov Fazil Hüseyn oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Kürdəmir rayonunun Görüs-Əyrivənd kəndində anadan olub. 1992-ci ilin mart ayında könüllü olaraq orduya yazılıb. 15 avqust 1993-cü ildə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi uğrunda döyüşdə əsir götürülüb.

Atası - Hüseynov Hüseyn Oruc oğlunun dediyinə görə, Beynəlxalq Qırımızı Xaç Komitəsində işləyən bir qadın Manvel Poqosyan adlı hərbi əsirdə onun oğlu haqqında məlumat olduğunu bildirib. M. Poqosyanın (Ermənistan Respublikası, Artaşat şəhəri, Arazi küçəsi ev 41, mənzil 25) verdiyi məlumata görə, Fazil Hüseynov işğal olunmuş Hadrut rayonunun Edilli kəndində yerləşən erməni hərbi hissəsinin qərargahında saxlanılıb.

**Huseynov Fazil Huseyn oglu**

Huseynov Fazil Huseyn oglu was born in Gorus-Ayrivand village of Kurdemir district of Azerbaijan Republic in 1970. In March of 1992 he voluntarily joined the Army. On the 15th of August, 1993 during the fight for Yukhari Yaglivand village of Fuzuli district he was taken prisoner.

According to the words of his father Huseynov Huseyn Oruj oglu, a woman who worked at ICRC informed him that a prisoner of war whose name was Manvel Pogosyan had information concerning his son. In accordance with M.Poqosyan's information (Republic of Armenia, Artoshat town, Arazi Street 41, app.25), Fazil Huseynov was kept at the staff of military unit in Edilli village of Hadrud district occupied by Armenians.



**Hüseynov Heydər Əhməd oğlu**

1959-cu ildə Azərbaycan Respublikasının Ağdərə rayonunda anadan olub. 1993-cü ildə Bakı şəhəri Sabunçu Rayon Hərbi Komissarlığına könüllü olaraq müraciət edib, Qarabağ uğrunda döyüşlərə yollanıb. 2 yanvar 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb, Xankəndi şəhərinə aparılıb.

Qohumu-Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Sülh küçəsi, ev 14/1, mənzil 81-də yaşayan Məmmədova Samara İspəndiyar qızı

**Huseynov Heydar Ahmed oglu**

Huseynov Heydar Ahmed oglu was born in Aghdara district of Azerbaijan Republic in 1959. In 1993 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Sabunchi district and was sent to fight for Garabagh. On the 2nd of January, 1994 during the fight in Gelluje village of Aghdam district Heydar was taken prisoner and sent to Khankandi.

His relative – Mammadova Samara Ispandiyar gizi (she lives in Baku, Bakiha-

ərizəsində yazıb ki, 1996-cı ildə Rusiya Federasiyasının Sverdlovsk şəhərində, Texniçeskaya küçəsi, ev 28-də (tel: 45-31-56) yaşayan bacısı Nazilə ona zəng vurub. Nazilənin milliyyətcə erməni olan həyat yoldaşı qonşuluqda yaşayan ermənilərin evinə getdikdə onların videokasetə baxdıqlarını görüb. Videokaset qarşı tərəfdə saxlanılan azərbaycanlı hərbi əsir və girovlar haqqında olub. Kasetə baxdığı zaman ermənilərin onun bacısı Samaranın həyat yoldaşının bibisi oğlu Heydəri yaralı vəziyyətdə, daha bir neçə yaralı əsirlə birlikdə maşina mindirdiklərini görüb. Əslən Ağdərə rayonundan olan milliyyətcə erməni Satik adlı bir qadın Naziləyə Heydəri göstərib, onu azərbaycanlıların əsir götürdükləri oğlu-Simonyan Hamlet Sarkisoviçlə dəyişmək istədiklərini deyib. Satikin dediyinə görə, ermənilər Heydəri onların Xankəndi şəhərində yaşayan kürəkəni-polis əməkdaşı Vladikin evində (4-39-57; 4-19-96) saxlayıblar. Heydərin qohumları dəfələrlə Vladiklə telefon əlaqəsi saxlayıb. Qarşı tərəf Simonyanın tapılmasını tələb edib. Hamlet tapılmadığı üçün Heydəri azad etmək mümkün olmayıb. Nazilə bacısına kaset barəsində xəbər verdiyi üçün həyat yoldaşı Şiraz ona ağır fiziki işgəncələr verib və ailəsini atıb, başqa yerə köçüb.

nov settlement, Sulh Street 14/1, app.81) wrote a statement that her sister Nazilya rang her up from Sverdlovsk city of RF, Tehnicheskaya Street, 28 (phone: 45-31-56). Her husband was Armenian and she went to her neighbour place and saw a video cassette. That cassette was about Azerbaijani prisoners of war and hostages kept by Armenians. She saw Samara's husband relative - his aunt's son Heydar. He was wounded and with other prisoners got into a car. An Armenian woman Satik who was originally from Aghdara district showed to Naziliya Heydar and they wanted to change him for Simonyan Hamlet Sarkisovich who was taken by Azerbaijanis. According to Satik's words Heydar was kept in the house of son-in-law policeman Vladik in Khankandi (phone: 4-39-57, 4-19-96). Heydar's relative called Vladik for many times. Armenian side demanded to find Simonyan. It was impossible to release Heydar because Hamlet wasn't found. Bacause of Nazilya informed sister about cassette, her husband Shiraz put her tortures, left his family and moved into another place.



### Hüseynov Hüseyn Əhməd oğlu

1935-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olub. 1992-ci ilin oktyabr ayında könüllü olaraq Qarabağın müdafiəsinə yollanıb. 19 yanvar 1993-cü ildə Ağdam rayonunun Fərrux yüksəkliyi uğrunda döyüşdə əsir götürülüb.

Həyat yoldaşı- Gəncə şəhəri, N.Gəncə-

### Huseynov Huseyn Ahmed oglu

Huseynov Huseyn Ahmed oglu was born in Ganja city of Azerbaijan Republic in 1935. In October of 1992 he voluntarily was sent to defense Garabagh. On the 19th of January, 1993 during the fight for Farrukh height in Aghdam district Huseyn was taken prisoner.

vi küçəsi, ev 39a-da yaşayan Hüseynova Gülnaz Nadir qızının ərizəsində yazılıb ki, döyüş yoldaşları ona Hüseynin son döyüşdə ermənilər tərəfindən əsir götürüldüyünü deyiblər.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Sabunçu qəsəbəsi, H.Soltanov küçəsi 2, mənzil 6-da yaşayan Əliyev Vaqif Hüseyn oğlunun verdiyi məlumata görə 1993-cü ildə Hüseynov Hüseyn Şuşa həbsxanasında onunla birlikdə saxlanılıb. Sonradan erməni əsiri ilə dəyişdirilib, Hüseyni bir daha görməyib.

His wife Huseynova Gulnaz Nadir gizi (she lives in Ganja city, N.Ganjavi Street, 39A) wrote a statement his front-line comrades told that Huseyn was taken prisoner.

According to the information of Aliyev Vagif Huseyn oglu (he lives in Baku, Sabunchu settlement, H.Soltanov Street, 2, app.6) who returned from Armenian captivity, he was kept with Huseynov Huseyn in Shusha prison in 1993. Then he was changed with Armenian prisoner and didn't see him any more.

## Hüseynov Hüseyn İsmayıl oğlu



1930-cu ildə Azərbaycan Respublikası Laçın rayonunun Ərikli kəndində anadan olub. Sonradan Dağlıq Qarabağın Xocalı şəhərinə köçüb. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün ailə üzvləri -həyat yoldaşı Hüseynova Əziz Alış qızı (1956), qızları Hüseynova Süsən (1971), Hüseynova Xoşbəxt (1962), Hüseynova Nəsibə (1982) və oğlu Hüseynov Zöhrab ilə ermənilər tərəfindən girov götürülüb.

Böyük qızının həyat yoldaşı - Bakı şəhəri, Səbail rayonu, Əmək küçəsi ev, 2- də yaşayan Əliyev Vidadi Şirastan oğlunun verdiyi məlumata görə, 1994-cü ildə Moskva şəhərində Əsgəran rayonunun Daşuşen kənd sakini, milliyyətcə erməni olan Şahverənov Şuqan ona Hüseynov Hüseynin ailəsi ilə Daşbulaq kəndində saxlandığını və kənd təsərrüfatı işlərinə cəlb olunduqlarını deyib.

Erməni əsirliyindən qayıtmış, Dəvəçi rayonunun Udulu kəndində yaşayan mehseti türkü Binəliyev Güləli Binəli oğlu ərizəsində yazıb ki, Xocalı şəhəri işğal olunan

## Huseynov Huseyn Ismayil oglu

Huseynov Huseyn Ismayil oglu was born in Arikli village of Lachin district of Azerbaijan Republic in 1930. Then he moved into Khojali town of Upper Garabagh. On the 26th of February, 1992 during occupation of Khojali by Armenian armed forces his members of family: wife Huseynova Aziz Alish gizi (year of birth: 1956), daughters Huseynova Susen (year of birth: 1971), Huseynova Khoshbeht (year of birth: 1962), Huseynova Nasiba (year of birth: 1982) and son Huseynov Zohrab together with him were taken hostages by Armenians.

According to the information of his elder daughter's husband Aliyev Vidadi Shirastan oglu (he lives in Baku, Sabail district, Amak Street, 2), an Armenian whose name was Shahverenov Shugan from Moscow and who lived in Dashushen village of Asgaran district said that Huseynov Huseyn together with family was kept in Dashbulag village and forced for agricultural work in 1994.

Mehseti turk Binaliyev Gulali Binali oglu (he lives in Udulu village of Davachi district) who returned from Armenian captivity wrote

gün Hüseynovlarla girov götürülərək Xankəndi şəhərinə aparlıb, bir müddət Xankəndində saxlanılıblar.

a statement that during occupation of Khojali the Huseynovs were taken hostages and taken to Khankandi. They were kept in Khankandi together for some time.



### Hüseynov İmamverdi Tanrıverdi oğlu

1958-ci ildə Azərbaycan Respublikası Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 27 iyul 1992-ci ildə Ağdərə rayonunun Mohrataq kəndində gedən döyüş zamanı əsir götürülüb.

Atası-Biləsuvar rayonu Ağalıkənd sakini Hüseyneov Tanrıverdi Rəhim oğlunun bildirdiyinə görə oğlu bir neçə döyüş yoldaşı və kapitan Zəkiyev Zakirlə mühasirəyə düşərək yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, Talıblı küçəsi ev 38, mənzil 13-də yaşayan Zəkiyev Zakir Həmid oğlu ərizəsində yazıb ki, o, İmamverdi ilə birlikdə əsir götürülüb. Ermənilər onu başqa, İmamverdini isə sürücü olduğu üçün başqa istiqamətə aparıblar. Zakir bir daha onu görməyib.

### Huseynov Imamverdi Tanriverdi oglu

Huseynov Imamverdi Tanriverdi oglu was born in Agalikand village of Bilasuvar district of Azerbaijan Republic in 1958. He took part in fights for Garabagh. On the 27th of July, 1992 during the fight for Mohratag village of Aghdara district Imamverdi was taken prisoner.

According to the information of his father Huseynov Tanriverdi Rahim oglu who lived in Agalikand village of Bilasuvar district, Imamverdi with some front-line comrades and captain Zakiyev Zakir was surrounded, then he wounded and taken prisoner by Armenians.

Zakiyev Zakir Hamid oglu (he lives in Baku, Talibli Street, 38, app.13) who returned from Armenian captivity wrote a statement that he was taken prisoner with Imamverdi. Armenians took him to another place but Imamverdi was a driver and that's why they took him to another direction. Zakir didn't see him any more.

**Hüseynov Məhsəl Elxan oğlu**

1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı dəstələri tərəfindən işğal olunan gün anası Hüseynova Mehriban (1964), qardaşı Hüseynov Rəcəf (1987) və bacısı Hüseynova Səbinə (1988) ilə girov götürülüb.

Babası-Yevlax şəhərinin Malbinəsi kəndində məskunlaşmış Xocalı qaçqını Həsənov Allahverdi Xalıqverdi oğlunun dediyinə görə Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin Yerevan şəhər şöbəsinin müstəntiqi Ayrapetyan Valerik Mehriban və onun 3 uşağını itkin düşmüş qaynanası Sandaryan Elza ilə dəyişmək istəyib.

Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin sabiq rəisi Alik Sarumyan uşaqlardan birinin öldüyünü, Mehribanın 2 uşaqla Şuşa həbsxanasında saxlandığını bildirib. 1993-cü ildə Sarumyan onları azad etmək üçün 60.000 rus rublu tələb edib, sonradan fikrini dəyişib.

Erməni əsirliyindən qayıtmış, Ucar şəhəri, 28 May küçəsi ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlu Hüseynova Mehribanı 3 uşağı ilə Yerevan şəhərində, Mərkəzi İstintaq Təcridxanasında görüb. Onun dediyinə görə, orada uşaqlardan biri acından ölüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun verdiyi məlumata görə, 1993-cü ildə erməni polisinin əməkdaşı Abo radiodanışıq vasitəsilə Hüseynova Mehribanın 3 uşağı ilə Xankəndindəki uşaq bağçasında saxlandığını və onu 3 erməni əsiri ilə dəyişdirmək istədiklərini söyləyib.

**Huseynov Mehsel Elkhan oglu**

Huseynov Mehsel Elkhan oglu was born in Khojali town of Azerbaijan Republic in 1992. On the 26th of February, 1992, during occupation of Khojali by Armenian armed forces, his mother Huseynova Mehriban (year of birth: 1964), brother: Rajaf (year of birth: 1987) and sister Huseynova Sabina (year of birth: 1988) were taken hostages together.

According to the words of his grandfather, Khojali's refugee Hasanov Allahverdi Khaligverdi oglu (he lives in Malbinesi village of Yevlakh district), investigator of Yerevan City Department of Ministry of Internal Affairs (the Republic of Armenia) Ayrapetyan Valerik wanted to change Mehriban and her 3 children for his missed mother-in-law Sandaryan Elza.

The former chief of Noyemberyan district Department of Committee of State Security (the Republic of Armenia) Alik Sarumyan informed that one of children Rajaf died but Mehriban together with children was kept in Shusha prison. In 1993 Sarumyan wanted 60 000 Russian rubles for their release but then he changed his mind.

Mammadov Mayil Mammadali oglu (he lives in Ujar city, 28 May Street) who released from Armenian captivity saw Mehriban together with 3 children in central investigatory isolation in Yerevan. According to his words, one child was starved.

According to the information of Tagiyev Mammad Gachay oglu who was originally from Garadaghli village of Khojavend district (he lives in Machgara village of Beylagan district), Armenian policeman Abo informed by radio communication that Huseynova Mehriban and her 3 children were kept in Khankandi kindergarten and could change them for 3 Armenian prisoners in 1993.



**Hüseynov Müdafət Hacı oğlu**

1931-ci ildə Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olub. 27 avqust 1991-ci ildə idarə etdiyi «KamAZ» markalı 57-79 AQT dövlət nömrə nişanlı avtomaşınla işə gedərkən Xankəndi-Əsgəran yolunda ermənilər tərəfindən girov götürülüb.

Oğlu - Bakı şəhəri, Binəqədi rayonu, Naxçivani küçəsi, ev 24 A, mənzil 44-də yaşayan Şuşa qaçqını Hüseynov İlqar Müdafət oğlunun verdiyi məlumata görə, atası itkin düşəndən sonra bir nəfər erməni onlara Müdafətin sağ olduğunu və Xankəndi həbsxanasında saxlandığını söyləyib. Həmin erməninin qohumu qanunsuz silah saxladığına görə həbs edilib, Müdafətlə birlikdə həbsxanada saxlanılıb. O, İlqardan qohumunu azadlığa buraxdıracaqları zaman atasını qaytaracaqlarını bildirib. Sonradan əlaqə kəsildiyi üçün İlqar həmin ermənini tapa bilməyib.

**Huseynov Mudafet Haji oglu**

Huseynov Mudafet Haji oglu was born in Shusha town of Azerbaijan Republic in 1931. When he went to work by car «KamAZ» (public plate-number was 57-79 AQT), Armenians took him as a hostage in Khankandi – Asgaran road on the 27th of August, 1991.

According to the information of his son, Shusha's refugee Huseynov Ilgar Mudafet oglu (he lives in Baku, Binagadi district, Nakhchivani Street, 24 A, app. 44), his father was missed and a man whose nationality was Armenian told that Mudafet was alive and kept Khankandi prison. That Armenian's relative was arrested because he kept gun illegally and they were kept in prison with Mudafat. He informed that if his relative was released, they would return his father. Later the connection was interrupted and that's why Ilgar couldn't find that Armenian.



**Hüseynov Müşfiq Rüstəm oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Navadan kəndində anadan olub. 1993-cü ilin oktyabr ayında Sabirabad Rayon Hərbi Komissarlığı tərəfindən orduya çağırılıb. 25 aprel 1994-cü ildə Ağdam rayonunun Nəmirli kəndi uğrunda döyüşdə itkin düşüb.

**Huseynov Mushfig Rustam oglu**

Huseynov Mushfig Rustam oglu was born in Navadan village of Sabirabad district of Azerbaijan Republic in 1975. In October of 1993 he was called up for Army by the Military Registration and Enlistment Office of Sabirabad district. On the 25th of April, 1994 during the fight for Nemirli village of Aghdam district

Anası - Sabirabad rayonu Navadan kənd sakini Hüseynova Leyla Məhəmməd qızının dediyinə görə, son döyüşdə oğlu qolundan yaralanaraq əsir götürülüb. Bu məlumatı Müşfiqin axtarışı ilə məşğul olan zaman onun döyüş yoldaşlarından öyrənib.

Hacıqabul rayonunun Abdulyan kəndində yaşayan keçmiş döyüşçü Abbasov Rail Əliqardaş oğlunun ərizəsində göstərilib ki, 25 aprel 1994-cü ildə Müşfiq ağır yaralı vəziyyətdə düşmənin ağır texnikası tərəfindən mühasirəyə alınıb və əsir götürülüb. Railin bildirdiyinə görə, həmin döyüşdə o da ağır yaralanıb, lakin döyüş yoldaşları onu xilas edə bilib.

Hərbi əsir Atamoğlanov Əbülfət Sabir oğlunun qardaşı - Salyan rayonunun Kürsəngi kəndində yaşayan Atamoğlanov Seyfulla Sabir oğlunun bildirdiyinə görə, 1996-cı ildə Ermənistanın Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqiklə Tbilisi şəhərində görüşdüyü zaman əldə etdiyi 14 azərbaycanlı əsir və girovun siyahısında Hüseynov Müşfiqin də adı olub.

Qaqo əsirlərin əvvəl Kirovakanda saxlandığını, sonra Yerevan Dövlət Təhlükəsizlik Komitəsinin istintaq təcridxanasına köçürüldüyünü deyib. Bu məlumatı ona Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyan verib.

Mushfig was missed.

According to the words of his mother Huseynova Leyla Mammad gizi who lived in Navadan village of Sabirabad district, her son was wounded in arm and taken prisoner at last fight. She found out that information from his front-line comrade.

Former fighter Abbasov Rail Aligardash oglu (he lives in Abdulyan village of Hajigabul district) wrote a statement that on the 25th of April, 1994 seriously wounded Musghfig was surrounded by the enemy's armoured technique and was taken prisoner. According to Rail's information, he was also seriously wounded at the same fight but his font-line comrades could save him.

The brother of prisoner of war Atomoglanov Abulfat Sabir oglu - Atomoglanov Seyfulla Sabir oglu who lived in Kursengi village of Salyan district he met Gagik who lived in Lembeli village of Noyemberyan district of Armenia, got a list of 14 Azerbaijani prisoners and hostages in Tbilisi in 1996. There was the name of Huseynov Mushfig in that list.

Gago said that at first prisoners were kept in Kirovokan later they were sent to investigatory isolation of Committee of State Security in Yerevan. That information was given by his relative Alik Sarumyan who was the head of Noyemberyan district Department of Armenian Committee of State Security.

## Hüseynov Namiq Fəxrəddin oğlu



1975-ci ildə anadan olub. 4 yanvar 1994-cü ildə Xocavənd rayonunun Qarakənd kəndi istiqamətində döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası - Ağcabədi rayonu Hacıbədəlli kənd sakini Hü-

## Huseynov Namig Fakhraddin oglu

Huseynov Namig Fakhraddin oglu was born in 1975. On the 4th of January, 1994 during the fight in direction of Garakand village of Khojavand district he was taken prisoner by Armenians.

His father Huseynov Fakh-

seynov Fəxrəddin Məmməd oğlu ərizəsində bildirib ki, 22 mart 1994-cü ildə ermənilər Xocavənd rayonundan ona Namiqlə birlikdə qohumu Kərimov Mübariz İsa oğlunun Şuşada əsir saxlandığını və itkin düşmüş Vardanyan Mais Baxşiyeviçlə dəyişdirə biləcəklərini deyiblər.

Ağcabədi rayonu Hacıbədəlli kənd sakini, əsir Orucov Sənan Yunis oğlunun atası Orucov Yunis Cəvo oğlunun izahatına görə, o, 1994-cü ilin aprelində 4-58-70 saylı telefonla Xankəndi alayının gərarqah rəisi Ağayan Elmira ilə əlaqə saxlayaraq oğlunun, Hüseynov Namiqin və Orucov Rizvan Qurban oğlunun sağ olduğunu və Əsgəran rayonunda saxlandığını öyrənib.

raddin Mammad oglu who lived in Hajibedelli village of Aghjabedi district wrote a statement that on the 22nd of March, 1994 Armenians from Khojavand district said him Namig with relative Karimov Mubariz Isa oglu was kept as prisoner in Shusha and they could change them for missed Vardanyan Mais Bakhshiyivich.

The father of prisoner of war Orujov Senan Yunis oglu who lived in Hajibedelli village of Aghjabedi district - Orujov Yunis Chevo oglu wrote a statement that in April, 1994 he connected with chief of staff of regiment Agayan Elmira and found out that Huseynov Namig and Orujov Rizvan Gurban oglu were alive and kept in Asgaran district.

## Hüseynov Novruz Cəbrayıl oğlu



1962-ci ildə Azərbaycan Respublikası Tovuz rayonunun Qovlar kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 8 fevral 1993-cü ildə Ağdərə rayonunun Çıldıran kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Hüseynov Cəbrayıl Musa oğlu izahatında yazıb ki, 1993-1995-ci illərdə əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Tağıyev Məmməd Qaçay oğlu ona dəfələrlə qarşı tərəflə əlaqə yaradıb, Albert Voskanyandan Novruzun sağ olduğunu və Xankəndi şəhərində saxlandığını öyrəndiyini deyib.

Erməni əsirliyindən qayıtmış, Tovuz rayonu Qovlar kənd sakini Hacıyev Elfaq Kamil oğlu Xocavənd rayonunun komendantlığında əsir saxlandığı vaxt nəzarətçi Tolik ona göy rəngli «Jiquli» markalı avtomaşında əsir götürülmüş yerlisi olduğunu deyib.

## Huseynov Novruz Jabrayil oglu

Huseynov Novruz Jabrayil oglu was born in Govlar village of Tovuz district of Azerbaijan Republic in 1962. He took part in fights for Garabagh. On the 8th of February, 1993 during the fight for Childiran village of Aghdara district Novruz was taken prisoner by Armenians.

His father Huseynov Jabrayil Musa oglu wrote a statement that Tagiyev Mammad Gachay oglu who was engaged in change of prisoners and hostages in 1993-1995 connected with opposite side and found out from Albert Voskanyan that Novruz was alive and kept in Khankandi town.

According to the words of Hajiyev Elfag Kamil oglu who lived in Govlar village of Tovuz district and returned from Armenian captivity, when he was kept as a prisoner at commandant's office in Khojavand district, an observer Tolik said that his villager in a blue car «Jiguli» was taken prisoner. Elfag

Bunu eşidən Elfaq maşina yaxınlaşan zaman arxa oturacaqda əlləri bağlı, paltarı cırılmış, üzündə qan ləkələri olan bir hərbçini görüb. Həmin əsir ona Tovuz rayonu Qovlar kənd sakini Cəbrayılın oğlu olduğunu deyib. Bu onların ilk və son görüşü olub. Əsirlikdən qayıdandan sonra atası ona Novruzun şəklini göstərdikdə, Elfaq onu tanıyıb.

heard that he saw a military man on the back seat of car whose hands were closed, dress was toren and there were traces of blood on his face. That prisoner said that he was Jabrayil's son and lived in Govlar village of Tovuz district. It was their first and last meeting. When he returned from captivity his father's showed picture, Elfag recognized Novruz.

1924-cü ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Həmzəli kəndində anadan olub. 1993-cü ilin avqustunda şəxsi mal-qarasını otarmağa aparıb və bir daha qayıtmayıb. Qohumu, o zaman polis orqanında işləmiş Cəbrayılov Ələkbər İsmayıl oğlunun (hazırda Rusiyada yaşayır) verdiyi məlumata görə, Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoylunts ona İbrahimov Müseyibin girov saxlandığını və 12 itkin düşmüş ermənidən heç olmasa birinin əvəzinə qaytarılacağını bildirib. Erməniləri tapmaq mümkün olmayıb.

Oğlu - Qubadlı rayonu Həmzəli kənd sakini, Sumqayıt şəhəri, 42-ci məhəllədə yerləşən Neft və Kimya İnstitutunun yataqxanasında məskunlaşmış İbrahimov Oqtay Müseyib oğlunun dediyinə görə, atası itkin düşəndən 45 gün sonra onun Xankəndin-

## Ibrahimov Museyib Tapdig oglu

Ibrahimov Museyib Tapdig oglu was born in Hemzeli village of Gubadli district of Azerbaijan Republic in 1924. In August of 1993 he went to graze his cattle and didn’t return. According to the information of his relative Jabrayilov Alakbar Ismayil oglu (now he lives in Russia) who worked at police services, the head of police department Gorus district whose name was Misha said that Museyib was taken hostage by them and if they found one of 12 missed Armenians they would return him. It was impossible to find Armenians.

According to the words of his son Ibrahimov Ogtay Museyib oglu who lived in Hemzeli village of Gubadli district (at present he lives in the hostel of Oil and Chemistry Institute in Sumgayit town, 42 quarter), he found out that after 45 days his father was

də girov saxlandığını öyrənib. Sonradan Zəngilan rayonu ermənilər tərəfindən işğal olunduğundan qarşı tərəflə əlaqə kəsilib və atası haqqında heç bir məlumat ala bilməyib.

kept as a hostage in Khankandi. Then Zangilan district was occupied by Armenians, the connection was interrupted and he didn't have any information concerning his father.

**İbrahimov Zaur Xəlil oğlu**



1975-ci ildə anadan olub. 31 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda döyüşdə əsir götürülüb.

Hərbi əsir Cəfərov Babək Lətif oğlunun atası - Bakı şəhəri, Pirallahı qəsəbəsi, Rzayev küçəsi, ev 2, mənzil 46-da yaşayan Cəfərov Lətif Həsən oğlunun dediyinə görə, döyüş yoldaşları Babəkin Zaur İbrahimov və başqa əsgərlərlə ermənilər tərəfindən əsir götürüldüyünü bildiriblər.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun izahatında göstərilir ki, radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Abo ona Xocavənd rayonunun Kurapatkino kəndində 9 əsgərin, o cümlədən, Göyçay rayonundan olan İbrahimov Zaurun da saxlandığını deyib. Onlar əsirləri yalnız itkin düşmüş 5 erməni tankçısı ilə dəyişəcəklərini bildiriblər. Tankçılar tapılmadığından dəyişmə baş tutmayıb.

**Ibrahimov Zaur Khalil oglu**

Ibrahimov Zaur Khalil oglu was born in 1975. On the 31st of January, 1994 during the fight for the height called Shishgaya height of Khojavand district he was taken prisoner.

The father of prisoner of war Jafarov Latif Hasan oglu - Jafarov Babek Latif oglu (he lives in Baku, Pirallahi settlement, Rzayev Street 2, app.46) said his son's front-line comrades informed that Babek and Ibrahimov Zaur with other soldiers were taken prisoners by Armenian side.

According to a statement of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district and (at present he lives in Allahyarli village of Beylagan district), during radio communication Armenian policeman Abo said that 9 fighters including Ibrahimov Zaur from Goychay district were kept in Kurapatkino village of Khojavand district. They informed that could change them only for 5 missed Armenian tankmen. They couldn't find Armenian tankmen and the change didn't realize.



**İbrahimova Fatma Mədət qızı**

1958-ci ildə Ermənistan Respublikasında anadan olub. Ailə üzvləri ilə birlikdə Ermənistandan qovulduqdan sonra Xocalı şəhərində məskunlaşıblar. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan zaman Fatma, həyat yoldaşı İbrahimov Alxan Əmirxan oğlu, oğlanları Samir və Sabirlə birlikdə girov götürülüb. Onları əvvəlcə Əsgəranda saxlayıblar.

Xocalı sakini Məmmədova Gülöyşə Bəxtiyar qızının verdiyi məlumatda bildirilir ki, Fatmanı ailəsi ilə 10 gün saxladıqdan sonra ermənilər onun həyat yoldaşı Alxanın başını kəsiblər. Oğlanlarını azad etdikləri üçün Fatma uşaqlarını Gülöyşəyə tapşırıb. Özünü isə ermənilər naməlum istiqamətə aparıblar. Güleyşə Fatmanın uşaqlarını Zərdab rayonunda yaşayan əmilərinə verib. Bu faktı Məmmədovanın oğlu, erməni əsirliyindən qayıtmış Məmmədov Fərman Qəzənfər oğlu da təsdiq edib.

Qohumu - Bakı şəhəri, Nizami rayonu Naxçıvani küçəsi, ev 18, mənzil 36-da yaşayan Qəribov Fərhad Əhməd oğlunun dediyinə görə, Fatmanın əslən gürcüstanlı olan atası Gürcüstanla Ermənistan arasındakı kənddə yaşayan bir erməni vasitəsilə İbrahimovanın Şuşa şəhərində saxlandığını, azad edilməsi üçün 50 milyon rus rublu tələb edildiyini öyrənə bilib. Dmanisi rayon əhalisi istənilən məbləği yığıb həmin erməniyə verib. Lakin erməni pulları alan kimi qaçıb.

Qohumu - Bakı şəhəri, Suraxanı qəsəbəsi, 4-cü mədən, ev 240-da yaşayan Mustafayev İbrahim Vaqif oğlunun ərizəsindən məlum olub ki, Fatma ailəsi ilə bərabər ermənilər tərəfindən girov götürülüb. Uşaqları və ərinin başı kəsilmiş meyidi qaytarılıb, özünün taleyi isə heç kimə məlum olmayıb.

**Ibrahimova Fatma Madat gizi**

Ibrahimova Fatma Madat gizi was born in Armenia in 1958. After expatriation they moved into Khojali town of Azerbaijan Republic. When Khojali was captured by Armenians on the 26th of February, 1992 Fatma, her husband Ibrahimov Alkhan Amirkhan oglu, her sons Samir and Sabir were taken prisoners. At first they were kept in Asgaran.

According to the information of Mammadova Guleysha Bakhtiyar gizi who lived in Khojali town Fatma and her family were kept with them for 10 days, and then Armenians had cut off her husbands head. After her sons were released, she asked Guleysha to take care of them. She was taken away by Armenians in the unknown direction. Guleysha took Fatma’s children to their uncle’s place in Zardab district. That fact was confirmed by Mammadova’s son Mammadov Farman Gazanfar oglu who had also returned from captivity.

According to the words of her relative Garibov Farhad Ahmed oglu (he lives in Baku, Nizami district, Nakhchivani str. app. 36), because of Fatma’s father was from Georgia, one Armenian from a village on the border of Georgia and Armenia informed them that Ibrahimova wes kept in Shusha and they demanded 50 million Russian rubles to release her. People of Dmanisi district of Georgia collected needed amount and gave to that Armenian but he took the money and disappeared.

According to a statement of another relative Mustafayev Ibrahim Vagif oglu (he lives in Baku, Surakhani settlement, 4 quarter, 240), Fatma with her family was taken prisoner by Armenians. The corpses of her children and cut head of her husband were

but the further life of Fatma was
.



### İlyasov Əhməd Məmməd oğlu

1968-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. Milliyyətcə mehseti türkü İlyasov Əhməd Xocalı şəhəri erməni-rus silahlı birləşmələri tərəfindən işğal olunan gün qohumları ilə birlikdə girov götürülüb.

Dayısı - milliyyətcə mehseti türkü, Dəvəçi rayonunun Udulu kəndində məskunlaşmış Xocalı qaçqını Binəliyev Güləli Binəli oğlunun bildirdiyinə görə, 26 fevral 1992-ci ildə, o, ailə üzvləri və qohumları ilə girov götürülüb. Sonradan azad olunsalar da, övladları Alişerlə Cabbar və bacısı oğlu İlyasov Əhməd Məmməd oğlu qaytarılmayıb.

«Beynəlxalq Amnistiya Təşkilatı»nın Avropa Üzrə Tədqiqatlar şöbəsinin müdiri Ann Burli 23 noyabr 1993-cü ildə verdiyi məlumatda Xocalı şəhərinin işğalı zamanı 6 mehseti türkünün, o cümlədən, İlyasov Əhməd Məmməd oğlunun ermənilər tərəfindən girov götürüldüyünü göstərib.

«Beynəlxalq Amnistiya Təşkilatı»nın nümayəndələri 1992-ci ilin aprel ayında Xankəndində olduqları zaman Dağlıq Qarabağdakı polis idarəsində ermənilər tərəfindən əsir götürülmüş Azərbaycan vətəndaşlarının, həmçinin İlyasov Əhmədin də adı olan siyahı görüblər.

### Ilyasov Ahmed Mammad oglu

Ilyasov Ahmed Mammad oglu was born in Khojali town of Azerbaijan Republic in 1968. His nationality is mehseti turk. During the day of Khojali's occupation by Armenian armed forces Ilyasov Ahmed with relatives was taken hostage.

According to the information of his uncle Khojali's refugee Binaliyev Gulali Binali oglu (at present he lives in Davachi district, Udulu village) whose nationality was also mehseti turk, members of his family with relatives were taken hostages on the 26th of February, 1992. Later they were released from captivity but his 2 sons Binaliyev Alisher Gulali oglu, Binaliyev Jabbar Gulali oglu and sister's son Ilyasov Ahmed Mammad oglu didn't return.

According to the given information the 26th of February, 1992 by Ann Burlin, the director of Department Europe Branch of Investigation «International Amnesty» during occupation of Khojali town 6 mehseti turks including Ilyasov Ahmed Mammad oglu were taken hostages by Amenians.

In April, 1992 «Organization of International Amnesty» was at police department of Khankandi and Upper Garabagh, saw the name of Ilyasov Ahmed in a list of Azerbaijani citizens who were taken hostages by Armenians.



## İlyasov İlyas Veysəl oğlu

1972-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Soyuqbulaq kəndində anadan olub. 1990-cı ildən Laçın özünümüdafiə batalyonu tərkibində döyüşüb. 1 aprel 1993-cü ildə rayonun Kürdhacı kəndi uğrunda döyüşdə əsir götürülüb.

Qardaşı - İlyasov Şəfa Veysəl oğlunun dediyinə görə, İlyasın ermənilər tərəfindən əsir götürüldüyünü döyüş yoldaşları və həmkəndliləri Musayev Elsevər Musa oğlu və Qurbanov Etibar İbrahim oğlu təsdiq ediblər.

Laçın rayonunun Soyuqbulaq kəndində məskunlaşmış Qurbanov Etibar İbrahim oğlunun dediyinə əsasən, İlyasov İlyas Laçın rayonunun Kürdhacı kəndindəki döyüşçülərə ərzaq gətirərkən yaralanaraq əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində erməni Qaqikdən (Yerevan şəhərindəki telefon 63-60-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında İlyasov İlyas Veysəl oğlunun da adı olub. Onun Dağlıq Qarabağda saxlanıldığı göstərilib.

## Ilyasov Ilyas Veysal oglu

Ilyasov Ilyas Veysal oglu was born in Soyugbulag village of Lachin district of Azerbaijan Republic in 1972. In 1990 he fought allotted to Lachin self-defense battalion. On the 1st of April, 1993 during the fight for Kurdhaji village of Lachin district Ilyas was taken prisoner.

According to the words of his brother Ilyasov Shafa Ilyas oglu, Ilyas was taken prisoner by Armenians, his front-line comrades and villagers Musayev Elsavar Musa oglu and Gurbanov Etibar Ibrahim oglu confirmed that fact.

According to the words of Gurbanov Etibar Ibrahim oglu (he lives in Soyugbulag village of Lachin district), when Ilyasov Ilyas Veysal oglu went to bring some wholefoods for the fighters of Kurdhaji village of Lachin district, he was wounded and taken prisoner.

The brother of prisoner Huseynova Tamara Saleh gizi - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district met Armenian whose name was Gagik (Yerevan city, phone: 63-60-70) got a list of Azerbaijani prisoners and hostages in Tbilisi. There was the name of Ilyasov Ilyas in the list. It was shown that he was kept in Upper Garabagh.



## İsaqov Dilbazi Dadaş oğlu

1974-cü ildə Ermənistan Respublikası Sisyan rayonunun Murxuz kəndində anadan olub. 1992-ci ildə Mingəçevir Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Laçın və Kəlbəcər rayonları uğrunda döyüşlərdə iştirak edib. 2 aprel 1993- cü ildə Kəlbəcər rayonunun Çaykənd kəndi yaxınlığında əsir götürülüb.

Atası – Mingəçevir şəhəri, C. Əliyev küçəsi, ev 18, mənzil 41-də yaşayan İsaqov Dadaş Həzi oğlunun verdiyi məlumata görə, Dilbazi 2 aprel 1992-ci ildə taqım komandiri və 7 döyüşçü ilə birlikdə mühasirəyə alınaraq əsir götürülüb. Bu məlumatı ona oğlunun əsir düşdüyünün şahidi olan döyüş yoldaşları verib.

1993-cü ilin avqust ayında İsaqov Dadaşın qardaşı - Quliyev Salman Həzi oğlu Moskvada yaşayan bir erməni vasitəsilə Dilbazinin sağ olduğunu, Sisyan rayonunun Comərdli kəndində 7-8 cavan, 30 qadın və kişi ilə birlikdə əsir saxlandığını öyrənib. Ermənilər onları təsərrüfatda işlədib, axşamlar isə kəndin tövləsində saxlayıblar.

Bərdə rayonunun Gülgəzli kəndində yaşayan, keçmiş hərbi əsir Məlikov Zamin Ataş oğlu verdiyi məlumatda 2 aprel 1993-cü ildə 5 nəfər hərbçi ilə mühasirəyə alınaraq əsir götürüldüyünü, Ağdərə rayonunun Drambon kəndində yerləşən hərbi qərargaha aparılaraq ermənilər tərəfindən işgəncələrə məruz qaldığını bildirib. Onunla birlikdə İsaqov Dilbazi də əsir götürülüb və bir neçə gün bir yerdə saxlanılıb. 5 gün sonra Zamini yoldaşlarından ayırıb, Feliks adlı bir zabitin evində işlədilmək üçün Xankəndinə aparıblar. Bundan sonra onun nə Dilbazidən, nə də başqa döyüşçülərdən xəbəri olmayıb.

## Isagov Dilbazi Dadash oglu

Isagov Dilbazi Dadash oglu was born in Murkhuz village of Sisiyan district of the Republic of Armenia in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Mingechevir city. Dilbazi took part in fights for Lachin and Kelbajar districts.

On the 2nd of April, 1993 he was taken prisoner near Chaykand village of Kelbajar district.

According to the information of his father Isagov Dadash Hazi oglu (he lives in Mingechevir city, J.Aliyev Street, 18, app.41), Dilbazi with the commander of troop and 7 fighters was surrounded and taken prisoner on the 2nd of April, 1992. That information was given by his front-line comrades.

In August of 1993, Isagov Dadash's brother – Guliyev Salman Hazi oglu found out by the assistance of Armenian who lived in Moscow that Dilbazi was alive and kept as a prisoner with 7-8 young men, 30 women and men in Jomerdli village of Sisiyan district. Armenians forced them for agricultural work and at night they were kept in hen-coop.

According to the information of former prisoner of war Melikov Zamin Atash oglu who lived in Gulgezli village of Barda district, on the 2nd of April, 1993, together with 5 military men he was surrounded and taken prisoner, then he was sent to the military staff in Drambon village of Aghdara district and put to tortures by Armenians. Isagov Dilbazi was kept with him for several days. 5 days later Zamin was separated from friends and taken to work at the house of Armenian whose name was Felix in Khankandi. After that he had no information concerning Dilbazi and other fighters.



**İsayev Bəxtiyar Səfər oğlu**

1974-cü ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 10 aprel 1994-cü ildə Tərtər rayonunun Talış kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Kəlbəcər rayon sakini, Bakı şəhəri, «Motodrom» massivi, ev 8-də məskunlaşmış İsayev Səfər Əli oğlu ərizəsində yazıb ki, oğlunun döyüş yoldaşları Bəxtiyarın Talış kəndində əsir götürüldüyünü deyiblər. Cəbhə xətti boyunca hər iki tərəfin nümayəndələrinin görüşü zamanı Albert Voskanyan və Armais Saakyan İsayev Bəxtiyarın əsir götürüldüyünü, Xankəndi şəhərində Samvel adlı ermənінin evində saxlandığını deyib. Sonradan ermənilər radioəlaqə yaradaraq Samvelin çağırış parolunun «Subay» olduğunu, Xankəndində İsayevlə birlikdə saxlanılan daha 36 azərbaycanlı əsirin itkin düşmüş, jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişdirmək istədiklərini bildiriblər.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsi, «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun verdiyi məlumata görə əsir və girovları dəyişmək məqsədilə keçirilən növbəti görüş zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyan ona Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahısını təqdim edib və həmin şəxslərin yalnız Arkadi Ayriyanla dəyişdirə biləcəyini qeyd edib. Həmin siyahıda İsayev Bəxtiyarın da adı olub, onun Xankəndi şəhərində saxlandığı göstərilib.

**Isayev Bakhtiyar Safar oglu**

Isayev Bakhtiyar Safar oglu was born in Kelbajar district of Azerbaijan Republic in 1974. He took part in fights for Garabagh. On the 10th of April, 1994 during the fight for Talish village of Terter district Isayev Bakhtiyar was taken prisoner by Armenians.

His father Isayev Safar Ali oglu who lived in Kelbajar district (at present he lives in Baku, Motodrom massif, 8) wrote a statement that Bakhtiyar's front-line comrades said he was taken prisoner in Talish village. During the meeting with both representatives Albert Voskanyan and Armais Saakyan said that Bakhtiyar was taken prisoner and kept in Samvel's house in Khankandi. Then Armenians connected by radio communication, Samvel's password was «bachelor», 36 Azerbaijani prisoners with Isayev Bahtiyar were taken prisoners and they could change them for a killer of journalist Salatin Asgarova Arkadi Ayriyan whose nick name was «Napoleon».

According to the words of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (he lives in sanatorium «Zugulba» in Baku, Buzovna Settlement), during meeting with the representative of Armenian side Albert Voskanyan gave him a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC and they could change them only for Arkadi Ayriyan. There was the name of Isayev Bakhtiyar in that list. It was shown that he was kept in Khankandi town.



**İsayev**
**Əsgər**
**İsmayıl oğlu**

1974-cü ildə Ermənistanda anadan olub. Azərbaycan Respublikası Qazax rayonunun Pirli kəndində yaşayıb. Əsgər 31 dekabr 1992-ci ildə Qazax rayonu ərazisində ermənilər tərəfindən əsir götürülüb.

Anası-Qazax rayonu Pirli kənd sakini İsayeva Laçın Emin qızının dediyinə görə, ermənilər tərəfindən əsir götürülmüş kiçik oğlu Əsgər Ermənistanın Şəmşəddin rayonuna aparılıb və donuzçuluq fermasında təsərrüfat işinə cəlb edilib. Sonradan bir qolu şikəst olduğu üçün işləməyib. Bu məlumatı onlara Robert adlı erməni əsiri verib.

Girov götürülmüş Məmmədov Məmməd Qərib oğlunun qardaşı- Bakı şəhəri, Naxçıvani küçəsi, ev 38, mənzil 127-də yaşayan Məmmədov Binnət Qərib oğlunun izahatında yazılıb ki, Sadaxlı kənd sakini Bediyev Akif adlı şəxs Ermənistanın Noyemberyan rayonu Ləmbəli kənd sakini Samvel Qaqo oğlu ilə əlaqə saxlayaraq, guya qardaşı Cahangir və həmkəndlisi Məmmədi görüşdürəcəkmiş. Əvvəllər Binnətlə eyni kənddə yaşamış Qarik adlı erməni Məmmədi Əsgər və Samvellə birlikdə gördüyünü deyib. Sonradan məlum olub ki, onlar ermənilər tərəfindən aldadılaraq 31 dekabr 1992-ci ildə girov götürülüb, Ləmbəli kəndində yerləşən hərbi hissədə saxlanılıblar.

**Isayev**
**Asgar**
**Ismayil oglu**

Isayev Asgar Ismayil oglu was born in in Armenia and lived in Pirli village of Gazakh district of Azerbaijan Republic in 1974. Asgar was taken hostage in Gazakh district by Armenians. On the 31 st of December, 1992.

According to the words of his mother Isayeva Lachin Emin gizi who lived in Pirli village of Gazakh district, his younger son was taken hostage, sent to Shamsaddin district and forced for agricultural work in pig farm. Then his work. That information was given by an Armenian prisoner whose name was Robert.

The brother of hostage Mammadov Mammad Garib oglu - Mammadov Binnat Garib oglu (he lives in Baku, Nakhchivani Street, 38, app.127) wrote a statement that Bediyev Akif who lived in Sadakhli village connected with Samvel Gago who lived in Lembeli village of Noyemberyan district of Armenia and as if he would meet Asgar his brother Jahangir and villager Mammad. Garik who lived in the same village with Binnat said that he saw Mammad and Asgar together with Samvel. Later it was informed that they were deceived by Armenians and taken prisoners on the 31st December, 1992. They were kept in a military unit of Lembeli village.



**İsayev Cahangir İsmayıl oğlu**

1997-cü ildə Ermənistanda anadan olub. Azərbaycan Respublikası Qazax rayonunun Pirli kəndində yaşayıb. Hərbi xidmətə çağırılıb, sonradan əsir götürülən qardaşı Əsgərin axtarışı ilə bağlı yaxın qohumu Məmmədov Məmməd Qərib oğlu ilə 7 noyabr 1993-cü ildə Ermənistan Respublikası ilə həmsərhəd olan Gürcüstan Respublikası Marneuli rayonunun Sadaxlı kəndinə gedib, ermənilər tərəfindən aldadılaraq girov götürülüb.

Həyat yoldaşı-Bakı şəhəri, K.Marks prospekti, ev 28a, mənzil 42-də yaşayan Nəcəfova Sürəyya Məhəmməd qızının məlumatına görə, Cahangir yaxın qohumu Məmmədov Məmməd Qərib oğlu ilə 7 noyabr 1993-cü ildə əvvəlcə Gürcüstan Respublikasının Marneuli rayonunun Sadaxlı kəndinə gedib, oradan isə aldadılaraq Ermənistan Respublikasının Noyemberyan rayonunun Ləmbəli kəndinə aparılaraq girov götürülüb.

Bakı şəhəri, Naxçıvani küçəsi, ev 38, mənzil 127-də yaşayan Məmmədov Binnət Qərib oğlu ərizəsində göstərib ki, Məmməd qohumları Cahangirin erməni əsirliyində olan qardaşı Əsgəri azad etmək məqsədilə onunla birlikdə Noyemberyan rayonu Ləmbəli kənd sakini Mamulyan Samvel Qareginoviçlə görüşmək üçün Marneuli rayonunun Sadaxlı kəndinə gedib. Samvel onları aldadaraq Əsgərlə görüşdürəcəyini vəd edib, özü ilə Ləmbəli kəndinə aparıb.

Bunu ona Binnətin tanışı- Ptqavan kənd sakini, milliyyətcə erməni olan Qarik Haykazoviç deyib. Qarik onların bir yerdə Ləmbəliyə tərəf getdiklərini görüb. Sonradan nə Məmməd, nə də Cahangir geri qayıtmayıb.

**Isayev Jahangir Ismayil oglu**

Isayev Jhangir Ismayil oglu was born in Armenia and lived in Pirli village of Gazakh district of Azerbaijan Republic in 1967. He was called up for military service, then he searched for his brother who was taken prisoner. On the 7th of November, 1993 Jahangir with his relative Mammadov Mammad Garib oglu went to the boundary with Sadakhli village of Marneuli district of Georgia, Armenians deceived them and took as hostages.

According to the information of his wife Najafova Sureyya Mahammad gizi (she lives in Baku, K.Marks avenue, 28A, app.42), Jahangir with his close relative Mammadov Mammad Garib oglu went to Sadakhli village of Marneuli district of Georgia and then they were deceived and taken hostages in Lembeli village of Noyemberyan district on the 7th of November, 1993.

Mammadov Binnet Garib oglu (he lives in Baku, Nakhchivani Street, 38, app.127) wrote a statement that his brother Mammad with Jahangir went to Sadakhli village of Marneuli district of Georgia to release his brother Asgar and met Mamulyan Samvel Gareginovich who lived in Lembeli village of Noyemberyan district. Samvel promised to meet Asgar but they were deceived and took them to Lembeli village.

That information was given by Binnat's familiar Garrik Haykazovich who lived in Ptgavan village whose nationality was Armenian. Garrik saw them going to Lembeli. Then neither Mammad nor Jahangir returned back.



### İsayev İsa Vahid oğlu

1974-cü ildə Azərbaycan Respublikası Zəngilan rayonunun Keçikli kəndində anadan olub. 1993-cü ildə Zəngilan rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 23 avqust 1993-cü ildə Cəbrayıl rayonu ermənilər tərəfindən işğal olunan gün 11 əsgərlə birlikdə əsir götürülüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu Ağdam rayonunun Qərvənd kəndində erməni tərəfin nümayəndəsi Albert Voskanyanla görüşən zaman İsayev İsanın sağ olduğunu və Xocavənd rayonunun Hadrut kəndində saxlandığını öyrənib.

### Isayev Isa Vahid oglu

Isayev Isa Vahid oglu was born in Kechikli village of Zangilan district of Azerbaijan Republic in 1974. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Zangilan district. On the 23rd of August, 1993 during occupation of Jabrayil district by Armenians Isayev Isa with 11 soldiers was taken prisoner.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Khojavand district) found out during the meeting with the representative of Armenian side Albert Voskanyan in Garvand village of Aghdam district, Isayev Isa was alive and kept in Hadrud village of Khojavand district.



### İsayev Məmmədrəsul Əlisgəndər oğlu

1963-cü ildə Azərbaycan Respublikası Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olub. 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün Nəbilər kəndində əsir götürülüb.

Hərbi əsir Alimov Vladislav Vladimiroviçin atası- Bakı şəhəri, Serebrovski qəsəbəsi, Pesçanaya küçəsi, ev 5, mənzil 17-də yaşayan Alimov Vladimir Sergeyeviç

### Isayev Mammadrasul Alisgender oglu

Isayev Mammadrasul Aliisgender oglu was born in Ashagi Kungut village of Shaki district of Azerbaijan Republic in 1963. In 1992 he voluntarily was sent to the front. On the 8th of May, 1992 during occupation of Shusha town by Armenians Mammadrasul was taken prisoner in Nabiler village.

When the father of prisoner of war Alimov Vladislav Vladimirovich – Alimov Vladimir Sergeyevich (he lives in Baku, Serebrovski

oğlunun axtarışı ilə bağlı dəfələrlə Ermənistan və Gürcüstanda erməni tərəfin nümayəndələri ilə görüşüb. Ona təqdim olunan azərbaycanlı əsir və girovların siyahısında İsayev Məmmədrəsulun da adı olub.

Qazax rayonu Kəmərli kənd sakini Orucov İbrahim Əjdər oğlunun ərizəsindən məlum olub ki, 1992-ci ildə Qazax rayonunun Kəmərli kəndi ilə Noyemberyan rayonunun Dovex kəndi sərhədində kənd təsərrüfatı işlərinin aparılmasının təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar erməni tərəfinin nümayəndələri ilə keçirilmiş görüş zamanı Ermənistan Respublikasının Dövlət Təhlükəsizik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Alik Sarumyan ona İsayev Məmmədrəsulun sağ olduğunu və həmin rayonda saxlandığını deyib.

settlement, Peschanaya Street, 5, app.17) searched for his son, he met with Armenian representatives in Georgia and got a list of Azerbaijani prisoners and hostages. There was the name of Isayev Mammadrasul in that list.

According to the statement of Orujov Ibrahim Ajdar oglu who lived in Kamarli village of Gazakh district, during the meeting regarding providing security for agricultural work on the border of Kamarli village of Gazakh district with Dovekh village of Noyemberyan district of Armenia, the head of Noyemberyan district department of Armenian Committee of State Security Alik Sarumyan said that Isayev Mammadrasul was alive and kept in the same district in 1992.

## İsayev Şamil İsa oğlu



1974-cü ildə Azərbaycan Respublikası Balakən rayonunun Şərif kəndində anadan olub. 1993-cü ilin yanvar ayında Balakən Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 5 fevral 1993-cü ildə Ağdərə rayonunun Çldıran kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Balakən rayonu Şərif kənd sakini, «İmam Şamil» adına Respublika Avar Cəmiyyətinin sədri İsayev Məhəmməd Ömər oğlunun verdiyi məlumata görə, İsayev Şamil Ağdərə rayonunun Çldıran kəndində ermənilər tərəfindən əsir götürülüb və Şuşa şəhərində saxlanılıb.

## Isayev Shamil Isa oglu

Isayev Shamil Isa oglu was born in Sharif village of Balakan district of Azerbaijan Republic in 1974. In January of 1993 he was called up for military service by Military Registration and Enlistment Office of Balakan district. On the 5th of February, 1993 during the fight for Chldiran village of Aghdara district Isayev Shamil was taken prisoner by Armenians.

According to the information of the chairman of Society of Avar Republic named after «Imam Shamil» Isayev Mahammad Omar oglu who lived in Sharif village of Balakan district, Isayev Shamil was taken prisoner by Armenians in Chldiran village of Aghdara district and kept in Shusha town.



## İsgəndərov Mirzə Xəlil oğlu

1972-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Alxaslı kəndində anadan olub. 18 aprel 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndində gedən döyüş zamanı yaralanıb və əsir götürülüb.

Atası-Laçın rayon sakini, Ağcabədi rayonu ərazisində, qış yataqlarında məskunlaşmış İsgəndərov Xəlil Mirzə oğlu izahatında yazıb ki, oğlunun axtarışı zamanı dəfələrlə döyüş xəttində ermənilərlə görüşlərdə iştirak edib. 14 may 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndində keçirilən növbəti görüş zamanı qarşı tərəfin nümayəndəsi Alxan adlı hərbçi Mirzənin şəklini gördükdə, onu tanıyıb. Onun Xankəndi şəhərində yerləşən qospitalda müalicə olunduğunu da qeyd edib. İkinci görüş zamanı erməni tərəfi təmsil edən Arşavir Mirzəni azad etmək üçün milliyyətcə erməni olan əsir tapıb, gətirməyi təklif edib. Onlar əsir tapa bilmədiklərinə görə, oğlunu azad etmək mümkün olmayıb. Üçüncü görüşdə Artur adlı tağım komandiri Mirzənin sağ dizindən yaralı vəziyyətdə əsir götürüldüyünü, 3 ay qospitalda müalicə olunduqdan sonra sağaldığını bildirib. Lakin sonradan oğlunun taleyi haqqında heç bir məlumat öyrənə bilməyib.

## Isgandarov Mirza Khalil oglu

Isgandarov Mirza Khalil oglu was born in Alhasli village of Lachin district of Azerbaijan Republic in 1972. On the 18th of April, 1994 during the fight for Gulluje village of Agham district he was wounded and taken prisoner.

His father Isgandarov Khalil Mirza oglu who lived in Lachin district (at present he lives in shelter on the territory of Aghjabadi district) wrote a statement while searching for his son, he took part in meeting organized by Armenians for many times. On the 14th of May, 1994 during the meeting in Garvand village of Aghdam district representative of opposite side Alkhan saw Mirza's picture and recognized him. He noted that Mirza received treatment in hospital in Khankandi. During the second meeting representative of Armenian side Arshavil offered to release Mirza for an Armenian prisoner. It was impossible to return him because they couldn't find Armenian prisoner. During the third meeting commander of troop Artur informed that Mirza was wounded in right knee, taken prisoner, received treatment in hospital and 3 months later he was alive. But then there is no information concerning him.



### İsmayılov Cəfər Gülməmməd oğlu

1924-cü ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Böyük İstisu kəndində anadan olub. 2 aprel 1992-ci ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman kürəkəni Məmmədov Cəlal Əli oğlu ilə mal-qaralarını Zallar kəndi yaxınlığında Meydançayı keçirərkən erməni silahlıları tərəfindən girov götürülüb. Ermənilər onları yenidən işğal olunmuş Kəlbəcərə qaytarıb, mal-qaralarını əllərindən alıblar.

Bu məlumatı qızı-Kəlbəcər rayon sakini, Tərtər rayonunun Seyidimli kəndində məskunlaşmış Məmmədova Sürəyya Cəfər qızı verib.

Kürəkəni-Kələbəcər rayonu Hopurlu kənd sakini, Tərtər rayonunun Seyidimli kəndində məskunlaşmış Məmmədov Cəlal Əli oğlunun verdiyi məlumata görə, 2 aprel 1992-ci ildə qayınatası İsmayılov Cəfərlə Zallar kəndinin yaxınlığında Meydançayı keçərkən ermənilərlə rastlaşıblar. Ermənilər onları girov götürüb, mal-qaralarını əllərindən alıb, özlərini isə ayrı-ayrı maşınlara mindirib, yenidən işğal olunmuş Kəlbəcərə qaytarıblar. Həmin vaxtdan Cəlal bir daha qaynatasını görməyib. Ermənilər Kəlbəcər rayonunu işğal etdikləri üçün bayram ediblər. Sərxoş vəziyyətdə azərbaycanlı əsir və girovları vəhşicəsinə döyüb, onlara ağır işgəncələr veriblər. Sərxoş olduqlarından qapını bağlamağı belə unudublar. Qapının açıq olduğunu görən Cəlal fürsətdən istifadə edib, oradan qaçıb. Aprel ayının axırlarında Gəncəyə çatıb.

### Ismayilov Jafar Gulmammad oglu

Ismayilov Jafar Gulmammad oglu was born in Boyuk Istisu village of Kelbajar district of Azerbaijan Republic in 1924. On the 2nd of April, 1992 during Kelbajar's occupation by Armenians Jafar with son-in-law Mammadov Jalal Ali oglu grazed the cattle in Meydanchay near Zallar village and Armenians took them as hostages. Armenians returned them to occupied Kelbajar and took their cattle.

That information was given by his daughter Mammadova Suraya Jafar gizi who lived in Kelbajar district (now she lives in Seyidimli village of Terter district).

According to the information of his son-in-law Mammadov Jalal Ali oglu who lived in Hopurlu village of Kelbajar district (now he lives in Seyidimli village of Terter district), when he with father-in-law Ismayilov Jafar left the territory, they met Armenians near Meydanchay of Zollar district on the 2nd of April, 1992. Armenians took them as hostages, took cattle, got them on the different car and returned them to Kelbajar. Jalal hasn't seen father-in-law any more since that time. Armenians celebrated Kelbajar's occupation. They drunk much, then Azerbaijani prisoners were beaten and put to tortures. They forgot to close the door. Jalal took opportunity that the door was opened and he could run away. He was at Ganja at the end of April.



**İsmayılov Eldəniz Lətif oğlu**

1961-ci ildə Azərbaycan Respublikası Şəmkir rayonunun Təzəkənd kəndində anadan olub. 1993-cü ilin yanvar ayında Şəmkir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 6 fevral 1993-cü ildə leytenant İsmayılov Eldəniz Ağdərə rayonunun Marquşevan kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun bacısı-Hüseynova Tamara Saleh qızının axtarışı zamanı Tbilisi şəhərində Qaqikdən (Yerevan şəhəri, tel: 63-60-70) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında İsmayılov Eldəniz Lətif oğlunun da adı olub. Onun Xankəndi şəhərində saxlandığı göstərilib.

**Ismayilov Eldaniz Latif oglu**

Ismayilov Eldaniz Latif oglu was born in Tazakand village of Shamkir district of Azerbaijan Republic in 1961. In January of 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Shamkir district. On the 6th of February, 1993 during the fight for Margushevan village of Aghdara district lieutenant Ismayilov Eldaniz was taken prisoner by Armenians.

While Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searching for sister Huseynova Tamara Saleh gizi, he got a list of Azerbaijani prisoners of war and hostages from Gagik (Yerevan phone: 63-60-70) in Tbilisi. There is the name of Ismayilov Eldaniz Latif oglu in the list.



**İsmayılov Elşad Paşa oğlu**

1962-ci ildə Azərbaycan Respublikası Biləsuvar şəhərində anadan olub. 1992-ci il iyun ayında Bakı şəhəri, Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 28 iyun 1992-ci ildə Xocavənd rayonunun Qırmızı Bazar kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Tovuz rayonu Əsrik-Çırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Komi-

**Ismayilov Elshad Pasha oglu**

Ismayilov Elshad Pasha oglu was born in Bilasuvar town of Azerbaijan Republic in 1962. In June of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Bilasuvar district. On the 28th of June, 1992 during the fight for Girmizi Bazar village of Khojavand district Elshad was taken prisoner by Armenians.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district and

təsinin nümayəndəsi Alaverdiyan Samirdən (Yerevan şəhəri-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22, tel:48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısında İsmayılov Elşadın Yerevan şəhərindəki mərkəzi həbsxanada saxlandığı göstərilib.

searched for his sister – Huseynova Tamara got a list of Azerbaijanis kept by Armenian side from representative of ICRC Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shenqavit Street, 35, app.22, phone: 48-67-93). There was the name of Ismayilov Elshad. It was shown that he was kept in a central prison in Yerevan.

## İsmayılov İlqar Məmmədağa oğlu



1962-ci ildə Bakı şəhərində anadan olub. 9 iyul 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. 2 aprel 1992-ci ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan gün həmin rayonun Nadirxanlı kəndində əsir götürülüb və Xankəndi şəhərində saxlanılıb.

Bacısı-Bakı şəhəri, Atatürk prospekti, ev 35, mənzil 7-də yaşayan İsmayılova Əzizə Məmmədağa qızı ərizəsində yazıb ki, qardaşı əsir götürüldükdən bir neçə gün sonra qarşı tərəfdən onlara zəng vuraraq İlqarı dəyişmək üçün itkin düşmüş 19 erməninin adı olan siyahı verib, onlar tapılmayacağı təqdirdə hər hansı əsir götürülmüş erməni hərbçisi ilə də dəyişməyin mümkünlüyünü bildiriblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Qaramanlı kənd sakinləri, Sumqayıt şəhəri, 13-cü mikrorayon, ev 25, mənzil 20-də məskunlaşmış Babayeva Şahsənəm İsa qızı və onun qızı Məmmədova Arzu Umud qızının dediyinə görə, 1994-cü il sentyabr ayının əvvəllərində ermənilər onları dəyişmək üçün Xankəndi şəhərinə gətiriblər. Orada 5 azərbaycanlı əsirlə rastlaşıblar. Əsirlərdən biri onlara yaxınlaşaraq Murovdağ uğrunda döyüşdə əsir götürüldüyünü, 5 aydan artıq Xankəndində saxlandığını, Bakı şəhər sakini İsmayılov İlqar

## Ismayilov Ilgar Mammadaga oglu

Ismayilov Ilgar Mammadaga oglu was born in Baku in 1962. On the 9th of July, 1992 he voluntarily went to the front. On the 2nd of April, 1992 during the day of Kelbajar's occupation by Armenians Ilgar was taken prisoner and kept in Nadirkhanli village of Khankandi.

His sister Ismayilova Aziza Mammadaga gizi (Baku, Ataturk Avenue 35, app.7) wrote a statement, when her brother was taken prisoner, some days later Armenian rang them up, gave a list of 19 missed Armenians and they could change him for them. They informed if missed Armenians weren't found, it would be impossible to release Ilgar.

According to the words of Babayeva Shahsanam Isa gizi and her daughter Mammadova Arzu Umud gizi who lived in Garamanli village of Gubadli district (at present he lives in Sumgayit, 13th microdistrict, app. 25/20), Armenians took them to Khankandi for change in September of 1994. They met 5 Azerbaijani prisoners there. One of prisoners came up to them and said that he was taken prisoner, kept in Khankandi for 5 months, his name was Ismayilov Ilgar Mammadaga oglu, he was hidden from ICRC and asked to pass

Məmmədağa oğlu olduğunu, Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədildiyini bildirib və ailəsinə xəbər çatdırmağı xahiş edib. Onlar 2 saat İlqarla bir yerdə olublar.

that information to his family. They were together with Ilgar for 2 hours. When they were released, there was no information concerning him.



## İsmayılov İsmayıl Barat oğlu

1968-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində anadan olub. 1990-cı ildən Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşı olub. 25 oktyabr 1993-cü ildə Cəbrayıl rayonunun Dərzili kəndi istiqamətində gedən döyüşdə çavuş İsmayılov İsmayıl Zəngilan Polis Şöbəsinin 6 polis əməkdaşı:

Bəşirov Fazil Arif oğlu (çavuş), Quliyev Aqil Mehrəli oğlu (çavuş), Quliyev İlham İmamqulu oğlu (çavuş), İsmayılov Möhlət Bəhmən oğlu (çavuş), Nərimanov Elşad Əvəz oğlu (bölmə komandiri, baş çavuş), Paşayev Sabir Əziz oğlu (sahə müvəkkili, leytenant), ilə birlikdə əsir götürülüb.

Bu faktı onların qohumları - Paşayev Əziz Şükür oğlu, Məmmədov Fəxrəddin Məhəmməd oğlu, Cəfərova Qızılgül İmamqulu qızı, Nərimanov Vidadi Əvəz oğlu da təsdiq ediblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu bildirib ki, Qafan Rayon Polis Şöbəsində saxlanılan zaman həmin idarənin rəisi Eduard Varseqyan Zəngilan Rayon Polis Şöbəsinin əsir götürülmüş 7 əməkdaşını ona göstərərək həmin şəxsləri tanıyıb-tanımadığını soruşub.

## Ismayilov Ismayil Barat oglu

Ismayilov Ismayil Barat oglu was born in Yukhari Yemezli village of Zangilan district of Azerbaijan Republic in 1968. In 1990 he worked at Police Department of Zangilan district. On the 25th of October, 1993 in direction of Derzili village of Jabrayil district (the boundary of Zangilan district) sergeant Ismayilov Ismayil with 6 policemen from Police Department of Zangilan: Bashirov Fazil Arif oglu (sergeant), Guliyev Agil Mehreli oglu (sergeant), Guliyev Ilham Imamgulu oglu (sergeant), Ismayilov Mohlet Bahman oglu (sergeant), Narimanov Elshad Avaz oglu (commander of troop, senior sergeant), Pashayev Sabir Aziz oglu (lieutenant) were taken prisoners during the fight for Derzili village of Jabrayil district.

That fact was confirmed by his relatives: Pashayev Aziz Shukur oglu, Mammadov Fahraddin Mahammad oglu, Jafarova Gizilgul Imamgulu gizi, Narimanov Vidadi Avaz oglu.

When Yusifov Farhad Umud oglu who lived Hamzali village of Gubadli district, returned from Armenian captivity and kept in Police Department of Gafan district, the head of department Edik showed 7 prisoners working at Zangilan Police Department and asked if he recognized them.



**İsmayılov Mayıl Kazım oğlu**

1934-cü ildə Azərbaycan Respublikasının Ağdam rayonunda anadan olub. 23 iyul 1993-cü ildə Ağdam şəhəri ermənilər tərəfindən işğal olunan gün oğlu İsmayılov Mübariz, bacısı oğlu Əzizov Məhərrəm İsmayıl oğlu və həmyerliləri Əliyev Qiyas Adil oğlu ilə Məmmədov Knyaz Qasım oğlunun idarə etdiyi şəxsi «Qaz-24» markalı avtomaşında Ağdam rayonunun Qərvənd kəndindən Ağdam şəhərinə gediblər. Həmin gün ermənilər tərəfindən girov götürülüblər.

Oğlu-Ağdam şəhər sakini, Ağcabədi rayonunda məskunlaşmış İsmayılov Cəmil Mayıl oğlunun dediyinə görə, atası İsmayılov Mayıl və qardaşı İsmayılov Mübariz, bibisi oğlu Əzizov Məhərrəm və həmyerliləri Əliyev Qiyas Məmmədov Knyazın idarə etdiyi «Qaz-24»markalı avtomaşında ailələrini Qərvənd kəndində yerləşdirib qayıdan zaman yolda ermənilər tərəfindən girov götürülüblər.

Bu faktı Əzizov Məhərrəmin həyat yoldaşı-Ağdam rayon sakini, Bərdə rayonunun Qaradəmirçi kəndində məskunlaşmış Əzizova Ceyran İnqilab qızı və ermənilər tərəfindən girov götürülmüş Əliyev Rəsulun qardaşı-Bakı şəhəri, Lökbatan qəsəbəsi, 1594-cü keçid, ev 5, mənzil 32-də yaşayan Əliyev Rəsul Adil oğlu da öz izahatlarında təsdiq ediblər.

**Ismayilov Mayil Kazim oglu**

Ismayilov Mayil Kazim oglu was born in Aghdam district of Azerbaijan Republic in 1934. On the 23rd of July, 1993 his son Ismayilov Mubariz Mayil oglu, sister's son Azizov Maharram Ismayil oglu and villager Aliyev Giyas Adil oglu with Mammadov Knyaz Gasim oglu by car «QAZ-24» went to Aghdam town from Garvand village of Aghdam district during the day of Aghdam's occupation. That day Aghdam was captured by Armenians and they were taken hostages on the way.

According the words of Ismayilov Jamil Mayil oglu who lived in Aghdam town (at present he lives in Aghjabadi district), his father Ismayilov Mayil, brother Ismayilov Mubariz, aunt's son Azizov Maharram and villager Aliyev Giyas with Mammadov Knyaz by car «QAZ-24» went to Garvand village, stayed family there and when they returned, Armenians took them as hostages.

That fact was confirmed by the wife of Azizov Maharram – Azizova Jeyran Ingilab gizi who lived in Aghdam district (now she lives in Garademirchi village of Barda district) and by the brother of hostage Aliyev Giyas – Aliyev Rasul Adil oglu (he lives in Baku, Lokbatan settlement, 1594 quarter, app.5/32).



**İsmayılov Məhəmməd Səfər oğlu**

1969-cu ildə Azərbaycan Respublikası Ağcabədi şəhərində anadan olub. Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşı Məhəmməd 15 dekabr 1991-ci ildə Əsgəran rayonunun Cəmilli kəndini ermənilərdən müdafiə edən zaman əsir götürülüb.

Atası-Ağcabədi rayonu Ü.Hacıbəyov küçəsi, 8-ci döngə, ev 179-da yaşayan İsmayılov Səfər Məhəmməd oğlunun dediyinə görə, 1992-ci ilin aprel ayında o zamankı baş prokuror Murad Babayev və həmin idarənin istintaq şöbəsini rəisi Adil Ağayev işğal olunmuş Dağlıq Qarabağdaki separatçı rejimin daxili işlər naziri Armen İsaqulovun təqdim etdiyi, Əsgəran Rayon Polis Şöbəsinin əməkdaşı, milliyyətcə erməni olan Qəriblə dəyişmək istədikləri 15 azərbaycanlı polis işçisi və hərbi qulluqçusunun siyahısını Səfərə veriblər. Siyahıda İsmayılov Məhəmmədin də adı olub.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən (Yerevan tel:63-63-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında İsmayılov Məhəmmədin Xankəndi şəhərində saxlandığı göstərilib.

**Ismayilov Mahammad Safar oglu**

Ismayilov Mahammad Safar oglu was born in Agjabadi town of Azerbaijan Republic in 1969. On the 10th of December, 1991 Mahammad with policemen who worked at Police Department of Agjabadi district was taken prisoner when they defended Jamilli village of Asgaran district.

According to the words of his father Ismayilov Safar Mahammad oglu (he lives in Agjabadi district, U.Hajibeyov Street, 8, app.179) former Procurator–general Murad Babayev and the head of Investigatory Department Adil Agayev got a list of 15 Azerbaijani policemen and military men from the minister of Internal Affairs of Upper Garabagh of separatist regime Armen Isagulov in April, 1992. There was the name of Ismayilov Mahammad in the list.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian Gagik (Yerevan phone: 63-63-70). There was the name of Ismayilov Mahammad in the list. It was shown that he was kept in Khankandi.



**İsmayılov Möhlət Bəhmən oğlu**

1968-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonunun Gilətağ kəndində anadan olub. 25 oktyabr 1993-cü ildə Cəbrayıl rayonu Dərzili kəndi istiqamətində gedən döyüşdə çavuş İsmayılov Möhlət Zəngilan Rayon Polis Şöbəsinin 6 polis əməkdaşı: Bəşirov Fazil Arif oğlu (çavuş), Quliyev Aqil Mehrəli oğlu (çavuş), Quliyev İlham İmamqulu oğlu (çavuş), İsmayılov İsmayıl Barat oğlu (çavuş), Nərimanov Elşad Əvəz oğlu (bölmə komandiri, baş çavuş), Paşayev Sabir Əziz oğlu (sahə müvəkkili, leytenant) ilə birlikdə əsir götürülüb.

Bu faktı onların qohumları - Paşayev Əziz Şükür oğlu, Məmmədov Fəxrəddin Məhəmməd oğlu, Cəfərova Qızılgül İmamqulu qızı, Nərimanov Vidadi Əvəz oğlu da təsdiq ediblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu bildirib ki, Qafan Rayon Polis Şöbəsində saxlanılan zaman həmin idarənin rəisi Eduard Varseqyan Zəngilan Rayon Polis Şöbəsinin əsir götürülmüş 7 əməkdaşını göstərərək onları tanıyıb-tanımadığını soruşub.

**Ismayilov Mohlet Bahman oglu**

Ismayilov Mohlet Bahman oglu was born in Aghdam town of Azerbaijan Republic in 1961. On the 23th of July, 1993, during the fight in Darzili village of Jabrayil dictrict, sergeant Ismayilov Mohlet and 6 policemen from Police department of Zangilan dictrict: Bashirov Fazil Arif oglu (sergeant), Guliyev Agil Mehrali oglu (sergeant), Guliyev Ilham Imamgulu oglu (sergeant), Ismayilov Ismayil Barat oglu (sergeant), Narimanov Elshad Avaz oglu (the commandes of sub-unit, senior sergeant), Pashayev Sabir Aziz oglu (lientenant) were taken prisoners.

That fact was confirmed by Pashayev Aziz Shukur oglu, Mammadov Fakhraddin Mahammad oglu, Jafarova Gizilgul Imamgulu gizi, Narimanov Vidadi Avaz oglu.

Yusifov Farhad Umud oglu who returned from Armenian captivity and lived in Hamzali village of Gubadli dictrict was kept in Police department of Gafan dictrict. The head of that department Eduard Varsegyan showed him 7 policemen from Police department of Zangilan dictrict who were taken prisoners and asked if he knew them.



**İsmayılov Mübariz Mayıl oğlu**

1961-ci ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. 23 iyul 1993-cü ildə Ağdam şəhəri ermənilər tərəfindən işğal olunan gün atası İsmayılov Mayıl, bibisi oğlu Əzizov Məhərrəm İsmayıl oğlu və həmyerlisi Əliyev Qiyas Adil oğlu ilə Məmmədov Knyaz Qasım oğlunun idarə etdiyi şəxsi «Qaz-24» markalı avtomaşında Ağdam rayonunun Qərvənd kəndindən Ağdam şəhərinə gediblər. Həmin gün Ağdam rayonunu işğal edən ermənilər tərəfindən girov götürülüblər.

Qardaşı-Ağdam şəhər sakini, Ağcabədi rayonunda məskunlaşmış İsmayılov Cəmil Mayıl oğlunun dediyinə görə, atası-İsmayılov Mayıl və qardaşı İsmayılov Mübariz, bibisi oğlu Əzizov Məhərrəm və həmyerliləri Əliyev Qiyas Məmmədov Knyazın idarə etdiyi «Qaz-24» markalı avtomaşında ailələrini Qərvənd kəndində yerləşdirib, qayıdan zaman yolda ermənilər tərəfindən girov götürülüblər.

Bu faktı Əzizov Məhərrəmin həyat yoldaşı-Ağdam rayon sakini, hazırda Bərdə rayonunun Qaradəmirçi kəndində məskunlaşmış Əzizova Ceyran İnqilab qızı və ermənilər tərəfindən girov götürülmüş Əliyev Qiyasın qardaşı-Bakı şəhəri, Lökbatan qəsəbəsi, 1594-cü keçid, ev 5, mənzil 32-də yaşayan Əliyev Rəsul Adil oğlu da öz izahatlarında təsdiq ediblər.

**Ismayilov Mubariz Mayil oglu.**

Ismayilov Mubariz Mayil oglu was born in in Aghdam town of Azerbaijan Republic in 1961. On the 23rd of July, 1993 during the day of Aghdam's occupation, his father Ismayilov Mayil, aunt's son Azizov Maharram Ismayil oglu and his villager Aliyev Giyas Adil oglu and Mammadov Knyaz Gasim oglu by his private car "QAZ-24" went to Aghdam town from Garvand village of Aghdam district. At the same day they were taken hostages by Armenians.

According to the words of his brother Ismayilov Jamil Mayil oglu who lived in Aghdam town (now he lives in Aghjabadi district), his father Ismayilov Mayil, his brother Ismayilov Mubariz, aunt's son Azizov Maharram Ismayil oglu, his villager Aliyev Giyas Adil oglu and Mammadov Knyaz Gasim oglu by his private car "QAZ-24" were taken hostages by Armenians.

That fact was confirmed by the wife of Azizov Maharram - Azizova Jeyran Ingilab gizi who lived in Aghdam district (at present she lives in Garadamirchi village of Barda district) and the brother of Aliyev Giyas who taken hostage by Armenians - Aliyev Rasul Adil oglu (he lives in Baku, Lokbatan settlement, 1594 quarter, app.5/92).



**İsmayılov Niyazi Şirin oğlu**

1955-ci ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. 23 iyul 1993-cü ildə Ağdam rayonuna ermənilərin hücumu zamanı qohumları İsmayılov Eldar Vaqif oğlu və Əliyev Kamil Sabir oğlu ilə «Qaz-24» markalı 96-89 AQD dövlət nömrə nişanlı avtomaşında girov götürülüb.

9, app.11) wrote a statement he took part in radio communication with Armenians as a translator because he was originally from Armenia. During the following talks, he asked about his relative Mehdiyev Tanriverdi from Jora who watched over Azerbaijani prisoners kept in Khankandi. Jora said that he watched over Tanriverdi and demanded 20000 dollars of USA for his release. It was impossible to release Tanriverdi because his family couldn’t collect money.



## Məhərov Məmmədağa Qurban oğlu

1971-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun Əhmədağalı kəndində anadan olub. 1994-cü ilin mart ayında könüllü olaraq özünümüdafiə batalyonunun tərkibində döyüşlərdə iştirak edib. 17 aprel 1994-cü ildə Ağdam rayonun Kəngərli kəndi yaxınlığında ermənilər tərəfindən əsir göturulub.

Bacısı - Bakı şəhəri, Gəncə prospekti, ev 115, mənzil 1-də yaşayan Namazova Sveta Qurban qızının dediyinə görə, qardaşı itkin düşəndən 6 ay sonra onun döyüş yoldaşları Məmmədağanın yaralanaraq kontuziya aldığını və əsir götürüldüyünü, 2 ay Xankəndində xəstəxanada saxlandıqdan sonra Albert adlı erməninin ixtiyarına verildiyini öyrəniblər.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonu Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində bildirib ki, Ağdam rayonunun Qərvənd kəndində erməni tərəfi ilə keçirilən görüş zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyan Məhərov Məmmədağanın Xankəndində saxlandığını bildirib.

## Maharov Mammadaga Gurban oglu

Maharov Mammadaga Gurban oglu was born in Ahmadagali village of Agdam district of Azerbaijan Republic in 1971. In March of 1994 he voluntarily joined the battalion of self-defense and took part in fights. On the 17th of April, 1994 during the fight in Kangarli village of Aghdam district Mammadaga was taken prisoner by Armenians.

According to the words of his sister Namazova Sveta Gurban gizi (she lives in Baku, Ganja avenue, 115, app. 1) after 6 months of her missed brother, his front-line comrades told her that Mammadaga was wounded, contused and taken prisoner. After being kept for 2 months in hospital in Khankandi, he was given to an Armenian called Albert.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) wrote a statement that during a meeting with Armenian side in Garavand village of Aghdam district, a representative of the opposite side Albert Voskanyan side had informed him that Maharov Mammadaga was kept in Khankandi.



**Məhərrəmov Bəxtiyar Əhməd oğlu**

1958-ci ildə anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 27 dekabr 1993-cü ildə Ağdam rayonunun Güllücə kəndi istiqamətində gedən döyüş zamanı əsir götürülüb.

Qohumu-Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Neftçilər küçəsi, ev 9B, mənzil 36-da yaşayan Əliyeva Səkinə Ağahüseyn qızının dediyinə görə, Bəxtiyarın axtarışı zamanı döyüş yoldaşları onun Güllücə kəndində əsir götürüldüyünü, Xankəndində şəxsi evdə saxlandığını bildiriblər.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, 2-ci Zabrat qəsəbəsi, İsti Şitillik Kombinatı, ev 22, mənzil 3-də yaşayan Əsgərov Hidayət Ağahüseyn oğlunun verdiyi məlumata görə, 1994-cü ildə Xankəndi şəhərində saxlanılan vaxt Bəxtiyar da onunla birlikdə olub. Ermənilər ona da digər əsirlər kimi ağır işgəncələr veriblər. Əsirlikdən azad olunandan sonra bir daha onu görməyib.

**Maharramov Bakhtiyar Ahmed oglu**

Maharramov Bakhtiyar Ahmed oglu was born in 1958. He took part in fights for Garabagh. On the 27th of December, 1993 during the fight in direction of Gulluje village of Aghdam district Bakhtiyar was taken prisoner by Armenians.

According to the words of his relative Aliyeva Sakina Agahuseyn gizi (she lives in Baku, Bakikhanov settlement, Neftichiler Street, 9B, app.36), while searching for Bakhtiyar, his front-line comrade said that he was taken prisoner in Gulluje village and kept in a private house in Khankandi.

According to the information of Asgarov Hidayat Agahuseyn oglu who returned from Armenian captivity (he lives in Baku, 2nd Zabrat,app.22/3), when he was kept in Khankandi in 1994, Bakhtiyar was with him. Armenians put him to torture as other prisoner. When he was released, he didn't see Bakhtiyar any more.



**Məhərrəmov İlqar Nurəddin oğlu**

1960-cı ildə Azərbaycan Respublikası Goranboy rayonunun Səfikürd kəndində anadan olub. 1992-ci ildən doğma torpaqların müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. Baş çavuş Məhərrəmov İlqar Murovdağın ətəyində

**Maharramov Ilgar Nureddin oglu**

Maharramov Ilgar Nureddin oglu was born in Safikurd village of Goranboy district of Azerbaijan Republic in 1960. In 1992 he took part in fights for defense of native lands. Senior sergeant Maharramov Ilgar with representative of Zar

yerləşən Meydançayı keçərkən Kəlbəcər Rayon İcra Hakimiyyətinin Zar kəndi üzrə nümayəndəsi Bahadur Kamalovla yaralı döyüşçü Kərimov Şahini xilas etməyə çalışıb. Ermənilər onları mühasirəyə alıb və əsir götürüb.

Döyüş yoldaşı-Mingəçevir rayonunun «Xəyal» kooperativində məskunlaşmış, hərbi hissədə motoatıcı tağım komandiri vəzifəsində qulluq etmiş Məhərrəmov Nizami Məmməd oğlu izahatında yazıb ki, 5 aprel 1993-cü ildə Murovdağın ətəyində Meydançayda mühasirəyə düşüb, çox sayda itki veriblər. Nizami bir neçə döyüş yoldaşı ilə 7 nəfərin, o cümlədən İlqarın, Kəlbəcər Rayon İcra Hakimiyyətinin Zar kəndi üzrə nümayəndəsi Kamalov Bahadurun və yaralı Kərimov Şahinin əsir götürülüdüyünün şahidi olub.

Kamalov Bahadurun həyat yoldaşı-Kəlbəcər rayonu Zar kənd sakini, Bərdə rayonunun Yenidaşkənd kəndində məskunlaşmış Kamalova Zeynəb Musa qızının verdiyi məlumata görə, ermənilər yaşadıqları kəndi işğal edən zaman rayon icra hakimiyyətinin mümayəndəsi işləyən Bahadur ərazidən qocaları və kimsəsizləri çıxarıb. Baş çavuş İlqar Məhərrəmovla birlikdə yaralı hərbçi Şahin Kərimova köməyə gedib və ermənilər tərəfindən əsir götürülüb.

Əsir Kərimov Şahin Heydər oğlunun atası-Mingəçevir şəhəri, M.S.Ordubadi küçəsi, ev 12-də yaşayan Kərimov Heydər Abduləli oğlunun məlumatında deyilib ki, yaralı oğluna köməyə gəlmiş baş savuş Məhərrəmov İlqar və Kamalov Bahadur ermənilər tərəfindən mühasirəyə alınaraq əsir götürülüblər.

village of Kelbajar district. Bahadur Kamalov helped people to leave occupied territory in Meydanchay in front of Murovdagh, they tried to help wounded Karimov Shahin, and Armenians surrounded them and took as prisoners at that moment.

His front-line comrade Maharramov Nizami Mammad oglu who was the commander of moto-shooting troop (he lives in «Khayal» cooperative of Mingechevir district) wrote a statement that on the 5th of April, 1993 he was surrounded in Meydanchay in front of Murovdagh, they lost many soldiers. Nizami witnessed that 7 fighters including Ilgar, representative of Executive Power of Zar village of Kelbajar district Kamalov Bahadur and wounded Karimov Shahin were taken prisoners.

According to the information of Kamalov Bahadur's wife Kamalova Zeynab Musa gizi who lived in Zar village of Kelbajar district (at present she lives in Yenidashkand village of Barda district), when Armenians captured their village, representative of district of executive power Bahadur helped old men to leave the territory. Bahadur with senior sergeant Maharramov Ilgar went to help wounded military man Karimov Shahin and at that time Armenians took them as prisoners.

The father of prisoner of war Karimov Shahin Heydar oglu – Karimov Heydar Abdulali oglu (he lives in Mingechevir, M.S.Ordubadi Street,12) said that senior sergeant Maharramov Ilgar and Kamalov Bahadur went to help his wounded son, they were surrounded and taken prisoners by Armenians.



**Məhərrəmov Mirzə Bayram oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Sarıyataq kəndində anadan olub. 1992-ci ilin dekabr ayında Qubadlı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 13 fevral 1993-cü ildə Ağdərə rayonunun Drambon kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Bakı şəhəri, Babək küçəsi, ev 8, mənzil 3-də yaşayan Məhərrəmov Tahir Bayram oğlunun dediyinə görə, Mirzə əsir götürüldükdən bir qədər sonra Qubadlı rayonu ilə Ermənistanın Gorus rayonu arasında yerləşən ərazidə hər iki tərəfin nümayəndələri girov və meyitləri dəyişən zaman Gorus Rayon Polis Şöbəsinin rəisi onun sağ olduğunu bildirib. Ermənilər tərəfindən əsir götürülmüş Məhərrəmov Mirzə Gorus Rayon Polis Şöbəsində saxlanılıb. Sonradan Qubadlı rayonu ermənilər tərəfindən işğal olunduğu üçün qarşı tərəflə əlaqə kəsilib.

**Maharramov Mirza Bayram oglu**

Maharramov Mirza Bayram oglu was born in Sariyatag village of Gubadli district of Azerbaijan Republic in 1974. In December of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Gubadli district. On the 13th of February, 1993 during the fight in Drambon village of Aghdara district Mirza was taken prisoner by Armenians.

According to the words of his brother Maharramov Tahir Bayram oglu (he lives in Baku, Babek Street, 8, app.3), Mirza was taken prisoner, later when both of representatives searched for hostages and corpses on the territory between Gubadli and Police Department of Gorus district, the head of Police Department informed that Mirza was alive. He was kept in Police Department of Gorus district. Then Gubadli district was captured by Armenians and the connection was interrupted. It was impossible to release Mirza.



**Məhərrəmov Şükür Osman oğlu**

1969-cu ildə Azərbaycan Respublikası Füzuli rayonunun Araz Yağlıvənd kəndində anadan olub. 1989-cu ildə Sovet Ordusu sıralarından tərxis edilib. 1991-ci idə Bakı şəhərinin Binəqədi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam döyüşlərin-

**Maharramov Shukur Osman oglu**

Maharramov Shukur Osman oglu was born in Araz Yaglivand village of Fuzuli district of Azerbaijan Republic in 1969. In 1989 he was mobilized from Soviet Army. In 1991 Shukur was called up for military service by the Military Registration and Enlistment Office of

də iştirak edib. 22 mart 1993-cü ildə Sarıcalılar kəndində gedən döyüşdə əsir götürülüb, Xankəndi şəhərinə aparılıb.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Əlixanbəyli kənd sakini, Bərdə rayonundakı 5 saylı sovxozun ərazisində məskunlaşmış Əliyev Əhliman Həsən oğlu ərizəsində yazıb ki, 1993-cü ildə Xankəndi şəhərində Məhərrəmov Şükürlə birlikdə saxlanılıb. Əhliman dəyişildiyi zaman Şükür orada qalıb.

Binagadi district and took part in fights for Aghdam. On the 22nd of March, 1993 during the fight in Sarijalilar village and taken to Khankandi Shukur was taken prisoner by Armenians.

Aliyev Ahliman Hasan oglu who lived in Alikhanbeyli village of Fuzuli district and returned from Armenian captivity (he lives in coolective farm № 5 in Barda district) wrote a statement he was kept in Khankandi with Maharramov Shukur in 1993. Ahliman was changed and Shukur stayed there.

## Məhərrəmova Muhəstə Rüstəm qızı



1906-cı ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 18 may 1992-ci ildə doğma kəndləri ermənilər tərəfindən işğal olunan zaman oğlanları Məmmədov Qurban Qaraxan oğlu (1924), Məmmədov Nəriman Qaraxan oğlu (sonradan dəyişdirilərək girovluqdan azad olub), gəlinləri Məmmədova Nərgiz Bayram qızı (1930), Məmmədova Ceyran Soltan qızı (1934) ilə birlikdə girov götürülüb, Ermənistan Respublikası Gorus Rayon Polis Şöbəsinə aparılıb. Ermənilər onları həmin rayonun Kərəvüş kəndindəki maldarlıq fermasında təsərrüfat işlərinə cəlb ediblər.

Bu məlumatı nəvəsi-Laçın rayonu Minkənd kənd sakini Məmmədova Gülnaz Qurban qızı verib.

Həmin faktı Məmmədova Ceyranın qardaşı-Ceyranbatan qəsəbəsi, Nizami küçəsi, ev 4, mənzil 47-də yaşayan İsgəndərov Fərman Soltan oğlu da təsdiq edib. O, Qubadlı Rayon Polis Şöbəsində işlədiyi vaxt bacısının qaynanası, yataq xəstəsi Məhərrəmova Muhəstənin oğlanları və gə-

## Maharramova Muhasta Rustam gizi

Maharramova Muhasta Rustam gizi was born in Minkand village of Lachin district of Azerbaijan Republic in 1906. On the 18th of May, 1992 during occupation of Minkand village, her sons: Mammadov Gurban Garakhan oglu (year of birth: 1924), Mammadov Nariman Garakhan oglu (then he was released), daugthers-in-law: Mammadova Nargiz Bayram gizi (year of birth: 1930) and Mammadova Jeyran Soltan gizi (year of birth: 1934) were taken hostages and taken to Police Department of Gorus district. Then Armenians took them to the stock-breeding farm in Karavush village and forced for agricultural work.

That information was given by her grandmother Mammadova Gulnaz Gurban gizi who lived in Minkand village of Aghdam district.

That fact was confirmed by the brother of Mammadova Jeyran – Isgandarov Farman Soltan oglu (he lives in Baku, Jeyranbatan settlement, Nizami Street, 4, app.47). According to his statements, his sister's mother-in-law Maharramova Muhasta who paralysed and lied in the bed with sons and

linləri ilə girov götürüldüyünü Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoyluntsdan öyrənib.

daughters-in-law were taken hostages. He found out that information from head of Police Department of Gorus district Mikhail Hoylunts.



**Mehrəliyev Saməddin Surxay oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Yevlax rayonunun Malbinəsi kəndində anadan olub. 8 noyabr 1992-ci ildə Yevlax Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonu uğrunda döyüşlərə göndərilib. 16 noyabr 1992-ci ildə Ağdərə rayonunun Qozlu (Vaqauz) kəndində gedən döyüş zamanı yaralanıb. Yaralı vəziyyətdə Qızılqaya meşəsində qalıb. Ermənilər tərəfindən əsir götürülüb, Xankəndi şəhərində şəxsi evdə saxlanılıb.

Bu məlumatı qardaşı-Yevlax rayonu Malbinəsi kənd sakini Mehrəliyev Nurəddin Surxay oğlu onun döyüş yoldaşlarından və əsirlikdən qayıtmış Şəki rayon sakinindən öyrənib.

**Mehraliyev Samaddin Surkhay oglu**

Mehraliyev Samaddin Surkhay oglu was born in Malbinesi village of Yevlakh district in 1970. On the 8th of November, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Yevlakh district. Samaddin was sent to fight for Aghdara district. On the 16th of November, 1992 during the fight in Vagauz village of Aghdara district he was wounded. Wounded Samaddin was taken prisoner and kept in Khankandi.

His brother Mehraliyev Nureddin Surkhay oglu who lived in Malbinesi village of Yevlakh district got that information from his front-line comrades and a person who returned from captivity and lived in Shaki.



**Məlikov Natiq Siyavuş oğlu**

1962-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Nadirxanlı kəndində anadan olub. Ermənilərin Qarabağa təcavüzü başlayan gündən piyadaların döyüş maşınının sürüsücü kimi yaşadıqları ərazinin müdafiə-

**Malikov Natig Siyavush oglu**

Malikov Natig Siyavush oglu was born in Nadirkhanli village of Kelbajar district of Azerbaijan Republic in 1962. When Armenians began aggression, he took part in fights and organized the defense of their village as a driver of

si uğrunda döyüşlərdə iştirak edib. 28 mart 1993-cü ildə ermənilərin Kəlbəcərə hücumu zamanı Bağlıpəyə kəndində son mərmisi qurtarana qədər döyüşüb, əsir düşməmək üçün əl qumbarası ilə özünü partlatmaq istəyib. Lakin ermənilər buna imkan verməyiblər.

Bu məlumatı erməni əsirliyindən qayıtmış Kəlbəcər rayonu Kilsəli kənd sakini, hazırda Bərdə rayonunun Həsənqaya kəndində məskunlaşmış Quliyev Bəxtiyar Məhəmməd oğlu verib. O, Xankəndi şəhərində saxlanılarkən Natiqin özünü öldürməyə cəhd etdiyini, lakin ona maneçilik törətdiklərini, sonradan itkin düşmüş qohumu ilə dəyişmək məqsədilə tabor komandirlərindən birinin evində saxlandığını erməni hərbçilərindən öyrənib.

Tovuz rayonu Əsrik-Çırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Cəmiyyətinin nümayəndəsi Alaverdiyan Samirdən (Yerevan şəhəri-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22, tel: 48-67-93) aldığı və işğal olunmuş Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Ağayan Elmiranın təsdiq etdiyi azərbaycanlı hərbi əsir və girovların siyahısında Məlikov Natiqin də adı olub. Onun Xankəndi şəhərində saxlandığı göstərilib.

armoured infantry machine. On the 28th of March, 1993 when Armenians began to attack Kelbajar, he fought till the bullets were over at the fight in Bagilpaya village. When Natig was taken prisoner, he wanted to blow up himself with hand grenade. But Armenians didn't give him an opportunity.

That information was given by Guliyev Bakhtiyar Mahammad oglu who returned from Armenian captivity and lived in Kilseli village of Kelbajar district (at present he lives in Hasangaya village of Barda district). According to his words, when he was kept in Khankandi, he found out from an Armenian military man that Natig wanted to commit suicide but Armenians hindered him. Then he was kept in the house of commander of battalion in order to change him for missed relative.

While Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searching for his sister Huseynova Tamara, he got a list of Azerbaijani prisoners of war and hostages kept by Armenians from representative of CRC Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-98) in Tbilisi. Chief of staff of Shusha regiment Agayan Elmira confirmed that list. There was the name of Malikov Natig in that list. It was shown that he was kept in Khankandi.

## Məmişov Şahin Talış oğlu



1959-cu ildə Azərbaycan Respublikası Xocalı şəhərində doğulub. Xocalı ərazi özünümüdafiə taboru yaradılan gündən onun döyüşçüsü olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı birləşmələri tərəfindən işğal olunan gün əhali canını qurtarmaq üçün

## Mamishov Shahin Talish oglu

Mamishov Shahin Talish oglu was born in Khojali town of Azerbaijan Republic in 1959. He fought in self-defense battalion on the territory of Khojali. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed

qarlı meşələrə qaçıb. Çaşqınlıq içində olan 180-200 nəfər Əsgəranın Dəhraz kəndini Ağdamın Gülablı kəndi bilib, həmin istiqamətə üz tutaraq mühasirəyə düşüblər. O zaman Şahin də əhali ilə birlikdə olub. Ermənilər onları Dəhraz kəndindəki maldarlıq fermasında 2 gün saxladıqdan sonra əsirlərin arasından Məmişov Şahin də daxil olmaqla 13 nəfər gənci seçib naməlum istiqamətə aparıblar.

Erməni əsirliyində olan Usubov Zakir, Usubov Elşad və Usubov Əliyarın atası-girovluqdan qayıtmış Usubov Kamran Hüseyn oğlunun dediyinə görə, Əsgəran rayonunun Dəhraz kəndində maldarlıq fermasında saxlanılan zaman ermənilər onun 3 oğlu və Şahin də daxil olmaqla 13 sağlam gənci naməlum istiqamətə aparıblar.

Bu faktı erməni girovluğundan qayıtmış Xocalı sakinləri – əsir götürülmüş Həsənov Rövşən Qaçay oğlunun anası Həsənova Rəfiqə Məmi qızı, Hüseynov Kamil Dadaş oğlu, Xudayarov Rövşən Adil oğlu, Xudayarov Vəfadar Səlim oğlu və başqaları da təsdiq ediblər.

Əsir götürülmüş Xocalı şəhər sakini Qarayev Usubəli Süleyman oğlunun atası-girovluqdan qayıtmış, Naftalan şəhərindəki «Şirvan» sanatoriyasında məskunlaşan Qarayev Süleyman Salman oğlu izahatında yazıb ki, ermənilər 13 nəfər gənci naməlum istiqamətə aparıblar. Qarayev Süleyman azad olunandan sonra Ağdam taborunun komandiri Allahverdi Bağırov ona, həmin 13 gəncin Xankəndi həbsxanasında saxlandığını bildirib. Bağırov Xankəndi daxili işlər idarəsinin rəisi Armen İsaqulovla danışıqlar aparıb, həmin əsirləri dəyişmək ərəfəsində şəhid olduğundan, onların qaytarılması baş tutmayıb. İsaqulov həmin əsirləri Yerevana göndərib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Samirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi ev 35, mənzil 22; tel: 48-67-93) aldığı Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovların siyahısında Məmişov Şahinin də adı olub.

forces, people went to snow forest. They had stayed at snow forest for 3 days and 180-200 men went to Asgaran instead of Gulabli village of Aghdam and they got surrounding of Armenians. At that time Shahin was with people. Armenians took them to the stock-breeding farm, kept them for 2 days, then separated 13 young men including Mamishov Shahin and took to unknown direction.

According to the words of the father of Usubov Zakir, Elshad and Aliyar - Usubov Kamran Huseyn oglu who returned from captivity, when he was kept in the stock-breeding farm in Dehraz village of Asgeran district, Armenians separated 13 young men including his 3 sons and Shahin, took them to unknown direction.

That fact was confirmed by the prisoners who lived in Khojali and returned from Armenian captivity: the mother of prisoner of war Hasanov Rovshan Gachay oglu – Hasanova Rafiga Mami gizi, Huseynov Kamil Dadash oglu, Khudayarov Rovshah Adil oglu, Khudayarov Vafadar Salim oglu and others.

The father of prisoner of war Garayev Usubali Suleyman oglu – Garayev Suleyman Salman oglu who lived in Khojali and returned from Armenian captivity (he lives in sanatorium «Shirvan» in Naftalan), wrote a statement that Armenians took 13 young men including his son and Shahin to unknown direction. When Garayev Suleyman was released, the commander of Aghdam battalion Allahverdi Bagirov (then he died) said that 70 Azerbaijani prisoners including those young men were kept in the building of Department of Khankandi of Internal Affairs. Bagirov conducted negotiations with head of department of Khankandi of Internal Affairs Armen Isagulov, Bagirov died as a hero and it was impossible to return them Isagulov sent those prisoners to Yerevan prison.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners of war and hostages from Armenian Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-93) in Tbilisi. There was the name of Mamishov Shahin in that

was kept in Armenia.



**Məmmədov Adil Məhəmməd oğlu**

1968-ci ildə Azərbaycan Respublikası Ağdaş rayonunun Aşağı Nemətabad kəndində anadan olub. 22 mart 1992-ci ildə könüllü olaraq Ağdaş Rayon Hərbi Komissarlığına müraciət edib. Ramiz Qənbərovun təşkil etdiyi könüllülər taborunun tərkibində döyüşüb. 8 may 1992-ci ildə Şuşanın işğalı zamanı əsir götürülüb.

Atası-Ağdaş rayonu Nemətabad kənd sakini Məmmədov Məhəmməd Adil oğlunun verdiyi məlumata görə, Adilin axtarışı ilə əlaqədar görüşdüyü döyüş yoldaşları onun əsir götürüldüyünü, Şuşa həbsxanasında saxlandığını bildiriblər. Onlar həmin məlumatı ermənilərdən radioəlaqə vasitəsilə öyrəniblər.

**Mammadov Adil Mahammad oglu**

Mammadov Adil Mahammad oglu was born in Ashagi Neymatabad village of Aghdash district of Azerbaijan Republic in 1968. On the 22nd of March, 1992 he wanted to take part in fights for Garabagh and voluntarily appealed to the Military Registration and Enlistment Office of Agdash district. Adil fought in batallion of voluntaries organized by Ramiz Ganbarov. On the 8th of May, 1992 he was taken prisoner during the day of Shusha's occupation.

According to the information of his father Mammadov Mahammad Adil oglu who lived in Neymatabad village of Agdash district, while searching for his son his front-line comrades informed that he was taken prisoner and kept in Shusha prison. They found out that information from Armenians by radio communication.



**Məmmədov Ağahəsən Firudin oğlu**

1957-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində anadan olub. Ehtiyatda olan zabit Məmmədov Ağahəsən 1993-cü ilin oktyabr ayında Səbail Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam rayonunda yerləşən hərbi hissədə tank bölüyünün komandiri vəzifəsində xidmət edib.

31 dekabr 1993-cü ildə Ağdam rayonu-

**Mammadov Agahasan Firudin oglu**

Mammadov Agahasan Firudin oglu was born in Baku in 1957. In October of 1993 officer in reserve Mammadov Agahasan was called up for military service by the Military Registration and Enlistment Office of Sabail district and served as a commander of tank sub-unit in Aghdara district.

On the 31st of December, 1993 during

nun Salahlı kəndində gedən qızğın döyüş zamanı tankın heyət üzvləri Ələsgərov Nahid Azay oğlu (Quba), İbrahimov İlham Abdulla oğlu (Lerik) və Gimadiyev İldar Nailoviçlə (Bakı) birlikdə ermənilər tərəfindən əsir götürülüb.

5 yanvar 1994-cü ildən 8 may 1995-ci ilə qədər erməni əsirliyində olmuş, I qrup əlil, Nəsimi rayonu A. Səhhət küçəsi, ev 57 ünvanda yaşayan Hüseynov Cavid Ağa oğlu izahatında yazıb ki, erməni əsirliyində olduğu müddətdə, 1994-cü ilin yay aylarında işğal olunmuş Ağdam rayonunda yerləşən daş karxanasına gətirilib, ağır fiziki işə cəlb olunan vaxt keçmiş döyüş yoldaşları Məmmədov Ağahəsən Firudin oğlu, Ələsgərov Nahid Azay oğlu, İbrahimov İlham Abdulla oğlu və Gimadiyev İldar Nailoviçi orada görüb. Onlar Cavidə Xocavənd rayonunda əsir saxlandıqlarını və Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədildiklərini deyiblər. Bu onların sonuncu görüşü olub.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin 1994-cü ildə verdiyi məlumata görə, Məmmədov Ağahəsəni həmin ilin sentyabr ayında işğal olunmuş Ağdam rayonunda yerləşən daş karxanasında işlədilən görüblər.

the fight in Salakhli village of Aghdara district, the members of tank crew: Alasgarov Nahid Azay oglu (Guba), Ibrahimov Ilham Abdulla oglu (Lerik) and Gimidiyev Ildar Nailovich (Baku) were taken prisoners together by Armenians.

Huseynov Javid Aga oglu, invalid of first group who was at Armenina captivity from the 5th of January, 1994 to 8th of May, 1995 (he lives in Nasimi district, A.Sahet Street, 52) wrote a statement when he was kept in Armenian captivity, he was taken to quarry in occupied Aghdam in summer of 1994, forced for heavy labour and saw there his former front-line comrades: Mammadov Agahasan Firudin oglu, Alasgarov Nahid Azay oglu, Ibrahimov Ilham Abdulla oglu and Gimadiyev Ildar Nailovich. They kept Javad as a prisoner in Khojavand district and hid him from ICRC. It was their last meeting. He didn't see tankmen who were taken prisoners any more.

According to the information of ICRC from 1994, Mammadov Agahasan was seen in occupied Aghdam district and he was forced to work in the quarky there in September of 1994.

## Məmmədov Akif İbrahim oğlu



1959-cu ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Qaraimanlı kəndində anadan olub. Qubadlı rayonunun müdafiəsində iştirak edib. Hərbi hissənin sürücüsü Məmmədov Akif 16 avqust 1993-cü ildə 2 döyüş yoldaşı ilə Qubadlı rayonunun Başarat kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Erməni girovluğundan qayıtmış Füzuli

## Mammadov Akif Ibrahim oglu

Mammadov Akif Ibrahim oglu was born in Garaimanli village of Gubadli district of Azerbaijan Republic in 1959. He took part in defense and fights for Gubadli district. On the 16th of August, 1993 during the fight in Basharat village of Gubadli district a driver of military unit Mammadov Akif with 2 front-line comrades was taken prisoner by Armenians.

According to the words of Aliyev Ahliman

rayonu Qaraxanbəyli kənd sakini, Biləsuvar rayonu ərazisindəki 3 saylı Çadır şəhərciyində məskunlaşmış Əliyev Əhliman Həsən oğlunun (1932) və Əliyev Qəhrəman Həsən oğlunun (1934) dediyinə görə, 1993-cü ildə ermənilər tərəfindən girov götürülüb, Xankəndi şəhərinə aparılıblar. 1994-cü ildə Xankəndi şəhərindəki müvəqqəti saxlama təcridxanasında Məmmədov Akif də onlarla olub. Girovluqdan azad olunandan sonra Akifin həyat yoldaşı onun şəklini göstərdikdə dərhal tanıyıblar.

Erməni girovluğundan azad edilmiş Qubadlı sakini Quliyev Həmzə Allahverdi oğlu (1913) Akifin 1993-cü ildə Xankəndi şəhərində saxlandığını bildirib.

Hərbi əsir Rəsulov Rafiq Nüsrəddin oğlunun atası-Zərdab rayonu Çallı kənd sakini Rəsulov Nüsrəddin Gülməmməd oğlunun verdiyi məlumata görə, 16 avqust 1993-cü ildə ermənilər Gorus rayonundan Qubadlının Başarat kəndinə hücum ediblər. Qarayamanlı kənd sakini Məmmədov Akif adlı sürücü, Rafiq və Namiq maşınla döyüşçülərə kömək gətirmək məqsədi ilə yola çıxdıqda ermənilər tərəfindən atəşə tutulub və hər üçü əsir götürülüb. Bu xəbəri ermənilər radioəlaqə vasitəsilə bildiriblər. Qarşı tərəf sürücünün yaralı olduğunu, onların hər üçünün Gorus rayonunda zirzəmidə saxlandığını bildirib.

Hasan oglu (year of birth: 1932) and Aliyev Gahraman Hasan oglu (year of birth: 1934) who returned from Armenian captivity and lived in Garakhanbeyli village of Fuzuli district (they live Bilasuvar district, camp town №3), they were taken hostages by Armenians and kept in Khankandi in 1993. In 1994 they with Mammadov Akif were in Khankandi isolation where they were kept. When they were released from Armenian captivity, Akif's wife showed them his picture and they recognized him.

Guliyev Hamza Allahverdi oglu (year of birth: 1913) who released from Armenian captivity and lived in Gubadli district informed that Akif was kept in Khankandi in 1993.

The father of prisoner of war Rasulov Rafig Nusraddin oglu – Rasulov Nusraddin Gulmammad oglu who lived in Challi village of Zardab district informed that Armenians attacked Basharat village of Gubadli district from Gorus district on the 16th of August, 1993. The driver whose name was Akif from Garayamanli village of Gubadli district with Rafig an Namig went by the car to help fighters. Armenians fired upon them and they were taken prisoners. Armenians informed about that by radio communication. They said that driver was wounded and they were kept in a cellar in Gorus district.

## Məmmədov Aydın Qurban oğlu



1967-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə döyüş yoldaşı-Zeynalov Eldar Aslan oğlu ilə Xocalı şəhərinin Qaladərəsi məhəlləsində yerləşən orta postda növbə çəkən vaxt əsir

## Mammadov Aydin Gurban oglu

Mammadov Aydin Gurban oglu was born in Khojali town of Azerbaijan Republic in 1967. On the 26th of February, 1992 when Armenian armed forces attacked Khojali, Aydin with front-line comrade Zeynalov Eldar Aslan oglu was on

götürülüb. Ermənilər onu Dağlıq Qarabağda saxlayıblar.

Döyüş yoldaşı-Oğuz rayonunun Çalud-1 qəsəbəsində yaşayan Orucov Şakir Musa oğlunun dediyinə görə, təxminən 22.30 radələrində ermənilərin hücumları başlayan vaxt Zeynalov Eldar Məmmədov Aydınla tank əleyhinə qumbara gətirmək üçün gediblər. Onlar gedən kimi ermənilərin hücumları güclənib. Döyüşçülər arasında pərakəndəlik yaranıb, hərə bir tərəfə dağılıb. Uzaqdan Aydının ayağından yaralanmış vəziyyətdə artezian quyusunun yanında qaldığını görüb. Həmin vaxt bir neçə erməni Aydına yaxınlaşaraq onu sürüyə-sürüyə aparıb. Şakir tək olduğu üçün ona kömək edə bilməyib.

Xocalı sakini, hazırda Bakı şəhəri Nizami rayonu Rüstəmov küçəsi, ev 3, mənzil 26-da yaşayan sabiq bölük komandiri Hüseynov Rac Mürşüd oğlunun verdiyi məlumata görə, 26 fevral 1992-ci ildə tabeçiliyində ki 50 döyüşçüdən biri də Aydın Məmmədov olub. Təxminən saat 22.30 radələrində Aydın və Eldar icazə alaraq tank əleyhinə qumbara gətirmək üçün gedib. Bir daha görüşməyiblər.

Qohumu-Xocalı sakini Vəliyev Xəlil Şahmar oğlu izahatında yazıb ki, 26 fevral 1992-ci ildə Aydın döyüş yoldaşı Eldarla tank əleyhinə qumbara götürmək üçün gedib. Qumbaranı götürəndən sonra Eldarla geriyə qayıdıblar.

Döyüş yoldaşı-əslən Ermənistanın Əzizbəyov rayonundan olan, Oğuz şəhəri, Nizami küçəsi, ev 4-də məskunlaşmış Xəlilov Xasay Rəhman oğlunun dediyinə görə, 26 fevral 1992-ci ildə saat 22.30 radələrində ermənilər qəflətən hücuma keçən zaman istirahət saatı olduğu üçün postda olmayıb. Atəş səsləri eşidən kimi tez posta qaçıb. Postun yaxınlığında ermənilərin bir nəfər azərbaycanlı əsgəri döyə-döyə sürüdüklərinin şahidi olub. Diqqətlə baxanda həmin əsgərin Məmmədov Aydın olduğunu görüb.

point duty in Gala darasi of Khojali and they were taken prisoners. Armenians kept them in Upper Garabagh.

According to the words of his front-line comrade Orujov Shakir Musa oglu (he lives in Oguz district Jalud-1 settlement), when Armenians began to attack, Aydin with Zeynalov Eldar went to bring a grenade at 22:30. They went and Armenians began to attack. There was a panic between fighters and they ran away in different sides. Shakir saw wounded Aydin near a draw-well. At that moment several Armenians came up to Aydin and took him. Shakir was alone and couldn't help him.

According to the information of Huseynov Raj Murshu oglu who lived in Khojali (now he lives in Baku, Rustamov Street, 3, app.26), he was the commander of sub-unit on the 26th of February, 1992. Raj was the commander of 50 fighters including Mammadov Aydin. Aydin with Zeynalov Eldar asked for permission to go and bring a grenade at 22:30. When they went, Armenians began to attack.

His relative – Valiyev Khalil Shahmar oglu who lived in Khojali wrote a statement that on the 26th of February, 1992 Aydin with front-line comrade Eldar went away from point duty to bring a grenade. They brought it and returned the same place. He said: «If I don't blow up the tank, I won't come back»

According to the words of his front-line comrade Khalilov Khasay Rahman oglu who livedin Azizbeyov District of Armenia (at present he lives in Oguz town, Nizami Street, 4), when Armenians attacked suddenly on the 26th of February, 1992 he wasn't at his point duty because it was a rest time. He heard a skirmish and ran to the point. Khasay witnessed that an Azerbaijani was beaten and taken prisoner by Armenians. When he watched attentively he saw that soldier was Mammadov Aydin.



**Məmmədov Azər Vahid oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Əli Bayramlı şəhərində anadan olub. Azərin görmə qabiliyyəti zəif olduğundan (-5) hərbi xidmətə çağırılmayıb. 16 iyun 1993-cü ildə könüllü olaraq Milli Orduya yazılıb, Ağdam uğrunda döyüşlərdə iştirak edib. 19 iyun 1993-cü ildə Ağdam rayonunun Maqsudlu kəndində gedən döyüş zamanı əsir götürülüb.

Anası-Əli Bayramlı şəhəri, Neftçilər küçəsi, ev 3, mənzil 47-də yaşayan Məmmədova Ceyran Nuhbala qızı izahatında yazıb ki, oğlunun axtarışı onun qulluq etdiyi hərbi hissədə tağım komandiri Bəxtiyar Orucov yaralı vəziyyətdə döyüş meydanında qalmış Azəri xilas etmək üçün geri qayıtdığını, lakin bunun mümkün olmadığını deyib.

Əslən Əli Bayramlı şəhərindən olan Fəxrəddin adlı döyüşçü ona Azərin Şuşa şəhərində əsir saxlandığını bildirib. Bu söhbətdən bir neçə gün sonra Fəxrəddin minalanmış əraziyə düşüb, kontuziya aldığından onunla daha ətraflı danışmaq mümkün olmayıb.

Həmyerlisi və döyüş yoldaşı Səmədov Taleh Şahbaba oğlunun atası - Əli Bayramlı şəhəri, Vidadi küçəsi, 22 saylı evdə yaşayan Səmədov Şahbabanın verdiyi məlumata görə, Azərlə oğlu dost olduqları üçün birlikdə Ağdama yola düşüb, son döyüşdə də birlikdə olublar. Döyüş yoldaşları onların ermənilər tərəfindən əsir götürüldüklərini və Şuşa şəhərində saxlandıqlarını deyiblər.

**Mammadov Azer Vahid oglu**

Mammadov Azer Vahid oglu was born in Ali-Bayramli town of Azerbaijan Republic in 1973. Azer's sight was very weak and he wasn't called up for military service. In spite of that he voluntarily joined the National Army on the 16th of June, 1993 and took part in fights for Aghdam. On the 19th of June, 1993 during the fight in Magsudlu village of Aghdam district Azer was taken prisoner.

His mother Mammadova Jeyran Nuhbala gizi (she lives in Ali-Bayramli, Neftchiler Street, 3, app.47) wrote a statement while searching for her son, his commander of troop Bakhtiyar Orujov said that wounded Azer stayed at the battle field, he returned to take him out but he couldn't.

A fighter from Ali-Bayramli Fakhraddin informed that Azer was kept as a prisoner in Shusha. Several days later Fakhraddin got contusion. Then it was impossible to talk to him in details.

The father of villager and front-line comrade Samadov Taleh Shahbala oglu – Samadov Shahbala (he lives in Ali-Bayramli, Vidadi Street 22) informed that his son was Azer's friend and they went to Aghdam. They were together at the last fight. Their front-line comrades said that they were taken prisoners by Armenians and kept in Shusha.

## Məmmədov Azər Vaqif oğlu

1971-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan zaman ailə üzvləri ilə birlikdə girov götürülüb.

Xalası-Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 24, mənzil 1-də yaşayan Məmmədova Əsli İbrahim qızının verdiyi məlumata görə, həmin gün bacısı Məmmədova Afilə İbrahim qızı, onun həyat yoldaşı Məmmədov Vaqif Şükür oğlu, oğlanları Azər, Ceyhun və Niyaməddinlə ərazini tərk edən zaman Əsgəran rayonu qarşısındakı meşədə ermənilər Vaqifi öldürüb, qalan ailə üzvlərini girov götürüblər.

1994-cü ildə Neft Akademiyasında işləyən Hamlet müəllim erməni əsirliyində olan oğlu Vüqardın məktub alıb. Vüqar Xocalı şəhərindən olan Məmmədov Azər Vaqif oğlunun da onunla saxlandığını yazıb.

Bakı şəhəri, General Şıxlinski küçəsi 1, ev 54, mənzil 10-da yaşayan hərbi əsir Bədəlov Vüqar Hamlet oğlunun atası -Bədəlov Hamlet Cəmil oğlunun Gürcüstan Respublikasının Sadaxlı kəndində Karo adlı ermənidən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Ceyhun Vaqif oğlunun da adı olub. Həmin əsirlər Ermənistanın Spitak şəhərində, hərbi şəhərcikdə, 306-cı məhəllə, ev 1, mənzil 19-da, Karonun tanışı Dadamyan Suren Arturoviçin evində saxlanılıblar.

## Mammadov Azer Vagif oglu

Mammadov Azer Vagif oglu was born in Khojali of Azerbaijan Republic in 1971. On the 26th of February, 1992 during Khojali's occupation by Armenian armed forces Azer with his family was taken hostage.

According to the information of his aunt Mammadova Asli Ibrahim gizi (she lives in Baku, Narimanov district, Garabagh Street, 24, app.1), his sister Mammadova Afila Ibrahim gizi, her husband Mammadov Vagif Shukur oglu and 3 sons: Mammadov Azer Vagif oglu, Mammadov Jeyhun Vagif oglu and Mammadov Nizamaddin Vagif oglu left the territory together during the day of Khojali's occupation. When they ran to the forest in Asgaran district, Armenian killed Jeyhun's father – Vagif but the other members of family were taken hostages.

In 1994 a Hamlet who worked at Oil Academy got a letter from his son Vugar who kept in Armenian captivity. He wrote that he was kept with Mammadov Azer Vagif oglu who was from Khojali.

The father of prisoner of war Badalov Vugar Hamlet oglu – Badalov Hamlet Jamil oglu (he lives in Baku, General Shikhlinskiy Street, 1, app.54/16) got a list of Azerbaijani prisoners and hostages from Armenian Karo in Sadakhli village of Georgia. There was the name of Mammadov Azer in the list. Those prisoners were kept in the house of Karo's familiar Dadamyan Suren Arturovich, military town in Spitak of Armenia (military town, 306 quarter, app.1/19).



**Məmmədov Babək Fərman oğlu**

1974-cü ildə anadan olub. 8 noyabr 1992-ci ildə Kəlbəcər Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdərə rayonunun müdafiəsinə göndərilib. 7 noyabr 1994-cü ildə Kəlbəcər rayonunun Cəmilli kəndi uğrunda döyüşdə Alışov Feyruz Bəyiş oğlu (tabor komandiri), Hümbətov Xalid Əli oğlu (taborun qərargah rəisi), Mehdiyev Mirzəli Yəhya oğlu (taqım komandiri), Məmmədov Babək Fərman oğlu (rabitəçi), Səlimov Elxan Səlim oğlu (sıravi), Əliyev Ədalət Qara oğlu (sıravi) əsir götürülüb.

Qardaşı - Kəlbəcər rayonu Cəmilli kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki südçülük-tərəvəzçilik sovxozunda məskunlaşmış Məmmədov İlqar Fərman oğluna Elçin Məmmədov adlı bir şəxs Babəkin Faiq, Xalid və Feyruzla birlikdə gecə vaxtı, soyuq, qarlı havada yoxa çıxdığını deyib.

Erməni əsirliyində olan baş leytetant Alışov Feyruz Bəyiş oğlunun qardaşı - Gəncə şəhəri, Gülüstan qəsəbəsi, ev 5, mənzil 25-də yaşayan Rüstəmov Xəlil Bəyiş oğlunun verdiyi izahatda 8 noyabr 1992-ci ildə Cəmilli kəndində qardaşının və 5 döyüş yoldaşının, həmçinin Məmmədəv Babəkin ermənilər tərəfindən əsir götürüldüyü göstərilib. 1999-cu ildə Feyruzun Moskvada yaşayan Arzu adlı qohumu, orada ticarətlə məşğul olan ermənidən Babəkgilin 1997-ci ilə qədər Yerevanda saxlandıqlarını, sonra Şuşa həbsxanasına göndərildiklərini bildirib.

**Mammadov Babek Farman oglu**

Mammadov Babek Farman oglu was born in 1974. On the 8th of November, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Kelbajar district and sent to the defense of Aghdara district. On the 7th of November, 1994 during the fight for Jamilli village of Kelbajar district

Alishov Feyruz Beyish oglu (the commander of battalion), Humbatov Khalid Ali oglu (the chief of staff of battalion), Mehdiyev Mirzali Yahya oglu (the commander of troop), Mammadov Babek Farman oglu (the signaller), Salimov Elkhan Salim oglu (common), Aliyev Adalat Gara oglu (common) were taken prisoners together.

His brother Mammadov Ilgar Farman oglu who lived in Jamilli village of Kelbajar district (he lives in milk-vegetable farm in Buzovna settlement of Baku) was told by Elchin Mammadov that Babek, Nuriyev Faig, Khalid and Feyruz disappeared in cold snowy night.

According to a statement of Rustamov Khalil Bayish oglu (who lives in Ganja, Gulustan settlement, 5/25), the brother of senior lieutenant Alishov Feyruz Bayish oglu who was in captivity, his brother and 5 his front-line comrades including Mammadov Babek were taken prisoners by Armenians. In 1999 a relative of Feyruz called Arzu who lived in Moscow found out from an Armenian businessman there that Babek and others were kept in Yerevan till 1997 and then sent to prison in Shusha.



**Məmmədov Babək Qələndər oğlu**

1970-ci ildə Azərbaycan Respublikasının Goranboy rayonunda anadan olub. 1992-ci ildə hərbi xidmətə çağırılıb. 17 noyabr 1992-ci ildə Ağdərə rayonunun Vəng kəndi uğrunda döyüşdə itkin düşüb.

Qardaşı - Goranboy şəhəri, Zərdabi küçəsi, ev 1-də yaşayan Məmmədov Bəhruz Qələndər oğlunun məlumatına görə, Babəkin qulluq etdiyi batalyon Ağdərə rayonunun Vəng kəndinə göndərilib. 17 noyabr 1992-ci ildə onunla birlikdə daha 10 əsgər mühasirəyə alınıb. 20 dəqiqə çəkən atışmadan sonra batalyon üzvləri köməyə gəldikdə, 11 əsgərin nə ölüsünü, nə də özlərini tapa bilməyiblər. Bu məlumatı Bəhruza Babəkin döyüş yoldaşı, əslən Naftalan şəhərindən olan Əliyev Rövşən Salman oğlu verib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Babəkin Ermənistanın Spitak şəhərində yerləşən 42411 saylı həbsxanada saxlandığı göstərilib.

**Mammadov Babek Galandar oglu**

Mammadov Babek Galandar oglu was born in Goranboy district of Azerbaijan Republic in 1970. He was called up for military service in 1992. On the 17th of November, 1992 during the foght for Vang village of Aghdara district Babek was missed.

According to the information of his brother Mammadov Bahruz Galandar oglu (he lives in Goranboy town, Zardabi Street, 1), Babek's battalion was sent to Vang village of Aghdara district. On the 17th of November, 1992 he and another 10 soldiers were encircled. After 20 minute skirmish other battalion came to help soldiers but they could find neither dead nor alive of 11 soldiers. That information was given to Bahruz by Babak's front-line comrade Aliyev Rovshan Salman oglu who lived in Naftalan town.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners from Armenian Allaverdyan Shamir in Tbilisi. There was the name of Babek was in the list. It was shown that he was being kept in prison № 42411 of Spitak town of Armenia.



**Məmmədov Bayram Ağaəli oğlu**

1960-cı ildə Azərbaycan Respublikası Şəki rayonunun Baş Göynük kəndində anadan olub. 1992-ci ilin iyun ayında səfərbərliyə çağırılıb. Füzuli rayonunda yerləşən hərbi hissənin komandiri olub. Leytenant Bayram Məmmədov Füzuli rayonunun Qacar kəndində gedən döyüşdə əsir götürülüb.

Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Bayram Ağaəli oğlunun da adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Mammadov Bayram Agali oglu**

Mammadov Bayram Agali oglu was born in Bash Goynuk village of Shaki district of Azerbaijan Republic in 1960. He was called for mobolozation in June of 1992. Bayram was a commander of a military unit in Fuzuli district. On the 11th of July, 1993 during the fight in Gachar village of Fuzuli district he was taken prisoner.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village got a list of Azerbaijani prisoners and hostages from Alaverdian Shamir in Tbilisi. There was the name of Mammadov Bayram in the list. It was shown that he was kept in Upper Garabagh.



**Məmmədov Bəyəndik Qəhrəman oğlu**

1959-cu ildə anadan olub. 2 iyul 1993-cu ildə Füzuli rayonunun Gorazallı kəndi ermənilər tərəfindən işğal olunan gün girov götürülüb.

Onun girov götürüldüyünü qohumları - Bakı şəhəri, Varovski qəsəbəsi, Koroğlu küçəsi, ev 59-da yaşayan Zamanova İmperial Eyyub qızı və Bakı şəhəri, Bayıl qəsəbəsinin 2-ci Buxta döngəsində yaşayan Quliyev Marks Eyniş oğlu da təsdiq edib.

2 iyul 1993-cü ildə Füzuli rayonunun Gorazıllı kəndindən girov götürülən 21 nəfərin siyahısında Məmmədov Bəyəndiyin də adı olub.

**Mammadov Bayandik Gahraman oglu**

Mammadov Bayandik Gahraman oglu was born in 1959. On the 2nd of July, 1993 during occupation of Gorazalli village of Fuzuli district he was taken prisoner.

The fact that he was taken prisoner was confirmed by his relatives Zamanova Imperial Eyyub gizi (she lives in Baku, Vorovski settlement, Koroglu street, 59) and Guliyev Marx Eynish oglu (he lives in Baku, Bayil settlement, 2nd Bukhta cross).

There was the name of Mammadov Bayandik Gahraman oglu in list of 21 men who taken hostages in Gorazilli village of Fuzuli district on the 2nd of July, 1993.



**Məmmədov
Cavanşir
Heydər oğlu**

1969- cu ildə Azərbaycan Respublikası Göyçay rayonunun Alpoud kəndində anadan olub. 1992-ci ilin iyul ayında Göyçay Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 31 avqust 1992-ci ildə Gədəbəy rayonunda yerləşən Sarıyel yüksəkliyi uğrunda döyüşdə əsir götürülüb.

Qardaşı - Göyçay rayonu Alpoud kənd sakini Məmmədov Ələsgər Heydər oğlunun verdiyi məlumata görə, Cavanşirin axtarışı ilə məşğul olan zaman döyüş yoldaşları onun Sarıyel yüksəkliyi uğrunda döyüşdə yaralı vəziyyətdə əsir götürüldüyünü söyləyiblər.

Cavanşirin bölük komandiri və həmyerlisi İsayev Yaşar Zakir oğlu izahatında onun 11 nəfər əsgərlə birlikdə əsir götürüldüyünü və Ermənistanda saxlandığını qeyd edib.

**Mammadov
Javanshir
Heydar oglu**

Mammadov Javanshir Heydar oglu was born in Alpoud village of Goychay district of Azerbaijan Republic in 1969. In July of 1992 he was called up by the Military Registration and Enlistment Office of Goychay district. During the fight for Sariyel height in Gadabay district Javanshir was taken prisoner.

According to the information of his brother Mammadov Alasgar Heydar oglu who lived in Alpoud village of Goychay, when he searched for his brother his front-line comrades told him that Javanshir was wounded and taken prisoner at the fight for Sariyel height.

Javanshir's commander and fellow-villager Isayev Yashar Zakir oglu wrote a statement that he and another 11 soldiers were taken prisoner and kept in Armenia.

**Məmmədov
Ceyhun
Vaqif oğlu**

1974-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevvral 1992-ci ildə Xocalı şəhəri erməni-rus silahlı birləşmələri tərəfindən işğal olunan zaman ailə üzvləri ilə girov götürülüb.

Xalası - Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 24, mənzil 1-də yaşayan Məmmədova Əsli İbrahim qızının verdiyi

**Mammadov
Jeyhun
Vagif oglu**

Mammadov Jeyhun Vagif oglu was born in Khojali town of Azerbaijan Republic in 1974. During occupation of Khojali town by Armenian armed forces he was taken prisoner together with members of his family on the 26th of February, 1992.

According to the information of his aunt Mammadova Asli Ibrahim gizi (she lives in

məlumatda bildirilib ki, faciə günü bacısı Afilə, onun həyat yoldaşı Məmmədov Vaqif Şükür oğlu, oğlanları Məmmədov Azər Vaqif oğlu, Məmmədov Ceyhun Vaqif oğlu və Məmmədov Niyaməddin Vaqif oğlu ərazini tərk edən zaman Əsgəran rayonunun qarşısındakı meşədə ermənilər Vaqifi öldürüb, qalan ailə üzvlərini isə əsir götürüblər.

Xocalı sakini Əzimov Aydın Abbasqulu oğlunun verdiyi məlumata görə, Xocalının işğalı günü şəhəri tərk edən sakinlər vahimə içində Ağdama tərəf üz tutublar. Yolda onun anasını, qardaşını və bacısını öldürüblər. Meşədə Aydınla atası Abbasqulu Afiləni oğlanları ilə birlikdə görüblər. Məmmədovlar meşədə gecələmək istədiklərini deyiblər. Aydınla atası onları fikirlərindən daşındıra bilməyiblər. Onlar meşədə qalıblar. Aydıngil isə səhərə qədər yol gedərək Ağdama çatıblar. Sonradan onlar nə Afiləni, nə də onun oğlanlarını bir daha görməyiblər.

1994-cü ildə Neft Akademiyasında işləyən Hamlet müəllim erməni əsirliyində olan oğlu Vüqardın məktub alıb. Vüqar Xocalı şəhərindən olan Məmmədov Ceyhun Vaqif oğlunun da onunla saxlandığını yazıb.

Bakı şəhəri, General Şıxlinski küçəsi, ev 54, mənzil 10-da yaşayan hərbi əsir Bədəlov Vüqar Hamlet oğlunun atası Bədəlov Hamlet Cəmil oğlu Gürcüstan Respublikasının Sadaxlı kəndində Karo adlı ermənidən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Ceyhun Vaqif oğlunun da adı olub. Həmin əsirlər Ermənistanın Spitak şəhərində, hərbi şəhərcikdə, 306- cı məhəllə, ev 1, mənzil 19-da, Karonun tanışı Dadamyan Suren Arturoviçin evində saxlanılıblar.

According to the information of his relative Abbasov Ilgar Afsus oglu who lived in Khalgaragashli village of Neftchala district, while serving in army in 1996 on the territory of Sadarak district of the Nakhchivan Autonomous Republic on the border between Azerbaijan and Armenia, he was able to connect by radio communication with Armenian Asif who in origin was from Sumgayit and learned from him that Yusif after being captured he was taken to Yerevan and worked there on cement works near the road to airport.

**Məmmədov Zaur Nəsir oğlu**



1975-ci ildə Bakı şəhərində anadan olub. 1994-cü ildə könüllü olaraq ordu sıralarına yazılıb. «Əzizbəyov» batalyonunun tərkibində Ağdam rayonu uğrunda döyüşdə iştirak edib. 20 aprel 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndində gedən döyüşdə itkin düşüb.

Türkan qəsəbəsi, Gənclər küçəsi, 11 saylı evdə yaşayan Zaurun anası Məmmədova Nənəxanım Hacıbaba qızı ərizəsində 1996-cı il sentyabr ayının 2-də Qızıl Aypara Cəmiyyətindən oğlunun erməni tərəfində əsir götürüldüyünü öyrəndiklərini yazıb.

**Mammadov Zaur Nasir oglu**

Mammadov Zaur Nasir oglu was born in Baku in 1975. In 1994 he voluntarily joined the army. Zaur took part in the fight for Aghdam allotted to "Azizbeyov" battalion. On the 20th of April, 1994 during the fight for Garvand village of Agdam district he was missed.

Zaur's mother Mammadova Nanakhanim Hajibaba gizi (she lives in Turkan settlement, Ganjlar Street, 11) wrote a statement that she found out from Society of Red Crescent on the 2nd September, 1996 that her son was taken prisoner by Armenians.

His father Mammadov Nasir Firdovsi oglu

Atası - Məmmədov Nəsir Firdovsi oğlunun (1996-cı ildə vəfat edib) verdiyi məlumata görə, əsirlikdən qayıtmış Quliyev Pənah Zakir oğlu Zauru Şuşa həbsxanasında saxlanılan zaman görüb.

(died in 1996) informed that Guliyev Panah Zakir oglu who returned from captivity said that he saw Zaur in Shusha prison while being there.



## Məmmədov Zaur Qəyyum oğlu

1975-ci ildə Azərbaycan Respublikası Tərtər rayonunun Leninabad kəndində anadan olub. Torpaqların müdafiəsində iştirak edib. 4 fevral 1992-ci ildə 5 döyüş yoldaşı ilə Ağdərə rayonu Madagiz kəndində gedən döyüşdən qayıtmayıb.

Qardaşı - Tərtər rayonu Leninabad kənd sakini Məmmədov Natiq Qəyyum oğlu məlumatında bildirib ki, 1994-cü ilin avqust-sentyabr aylarında Sarıcallı kənd sakini traktorçu Famil bir zabitdən Zaur haqqında məlumat öyrəndiyini deyib. Həmin zabitin dediyinə görə, erməni hərbçiləri döyüş xəttində qarşı tərəfdən qışqıraraq tərtərli Məmmədov Zaur Qəyyum oğlunun Gürcüstanla Ermənistan arasındakı sərhəd rayonunda saxlandığını deyiblər.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsi «Zuğulba» sanatoriyasında məskunlaşan, 1994-cü ildə əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Abdullayev Tofiq İsmayıl oğlu hərbi əsirlərin işi ilə əlaqədar komissiyanın sədri Albert Voskanyandan Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş 37 azərbaycanlı əsirin siyahısını əldə edib. Həmin siyahıda Zaurun da adı olub və onun Şuşa şəhərində yerləşən erməni alayında saxlandığı göstərilib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyiblər. Dəyişmə baş tutma-

## Mammadov Zaur Gayyum oglu

Mammadov Zaur Gayyum oglu was born in Leninabad village of Terter district of Azerbaijan Republic in 1975. He took part in defense of native land. On the 4th of February, 1992 he didn't return with other 5 soldiers from the fight near Madagiz village of Aghdara district.

According to the information of his brother Mammadov Natig Gayyum oglu who lived in Leninabad village of Terter district, a tractor driver Famil from Sarijalli village told him that he found out from an officer some information concerning Zaur in Agust-September of 1994. According to the words of that officer Armenians cried on the front line and said that Mammadov Zaur Gayyum oglu was in a boundary district between Armenia and Georgia.

Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (he lives in "Zugulba" sanatorium in Buzovna settlement Baku) and engaged in change of prisoners and hostages in 1994, a chairman of commission for prisoners-of-war Albert Voskanyan gave him a list of 37 Azerbaijani prisoners hidden from ICRC. There was the name of Zaur among those 37 prisoners. It was shown that he was kept in an Armenian regiment in Shusha. Armenians wanted to change those prisoners for Arkadiy Ayriyan (nickname "Napoleon") – the killer of Azerbaijani journalist Salatin Asgarova.

dığı üçün Məmmədov Zaurun sonrakı taleyi məlum olmayıb.

Zaur's further life is unknown, because the change didn't realize.



**Məmmədova Afilə İbrahim qızı**

1949-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün həyat yoldaşı - Məmmədov Vaqif, oğlanları Azər, Ceyhun və Niyaməddinlə birlikdə Ağdam istiqamətinə qaçarkən meşədə ermənilərin pusqusuna düşüblər. Ermənilər Afilənin həyat yoldaşını öldürüb, oğlanlarını isə özü ilə birlikdə girov götürüblər.

Xocalı sakini Əzimov Aydın Abbasqulu oğlunun verdiyi məlumata görə, həmin gün şəhəri tərk edən sakinlər vahimə içində Ağdama tərəf üz tutublar. Yolda onun anasını, qardaşını və bacısını öldürüblər. Meşədə Aydınla atası Abbasqulunu, oğlanları ilə Afiləni görüblər. Məmmədovlar meşədə gecələmək istədiklərini deyiblər. Aydınla atası onları fikirlərindən daşındıra bilməyiblər. Onlar meşədə qalıblar. Aydıngil isə səhərə qədər yol gedərək Ağdama çatıblar. Sonradan onlar nə Afiləni, nə də onun oğlanlarını bir daha görməyiblər.

Əldə olunan məlumatlara görə, ermənilər Məmmədovları girov götürüb, Ermənistana aparıblar.

**Mammadova Afila Ibrahim gizi**

Mammadova Afila Ibrahim gizi was born in Khojali town of Azerbaijan Republic in 1949. On the 26th of February, 1992 during occupation of Khojaly town she and her husband Mammadov Vagif Shukur oglu with 3 sons: Mammadov Azer Vagif oglu, Mammadov Jeyhun Vagif oglu, Mammadov Niyamaddin Vagif oglu ran towards Aghdam but they were ambushed by Armenians in the forest. Armenians killed her husband and took prisoner her and her sons.

According to information of Azimov Aydin Abbasgulu oglu who lived in Khojali, during occupation of town panic-stricken people tried to run towards Agdam. On the way Armenians killed his mother, brother and sister, he could run with father. In the forest he and his father Abbasgulu met Afila and her sons. The Mammadovs wanted to spend the night in the forest. Aydin and his father couldn't make them change their decision. They stayed in the forest but Aydin and his father walked till morning towards Agdam and could reach it. They haven't seen Afila and her sons any more since then.

According to the given information Armenians took the Mammadovs as hostages and sent to Armenia.



## Məmmədova Ceyran Soltan qızı

1934-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 17 may 1992-ci ildə Minkənd kəndi ermənilər tərəfindən işğal olunan gün ailə üzvləri və yaxın qohumları ilə girov götürülərək Ermənistanın Gorus rayonunun Qaraunc kəndinə aparılıb. Orada yerləşən maldarlıq fermasında saxlanılaraq təsərrüfat işlərinə cəlb edilib.

Bu məlumatı Məmmədova Ceyranın qardaşı - Bakı şəhəri, Ceyranbatan qəsəbəsi, Nizami küçəsi, ev 4, mənzil 47-də yaşayan İsgəndərov Fərman Soltan oğlu verib. Onun yazdığına görə, Məmmədovlar girov götürülən zaman Qubadlı Rayon Polis Şöbəsində işlədiyi üçün həmin məlumatı Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoyluntsdan öyrənib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyində Laçın rayonundan əsir və itkin düşmüş azərbaycanlıların siyahısında Məmmədova Ceyranın da adı var. Onun Ermənistanın Gorus rayonunda saxlandığı göstərilib.

## Mammadova Jeyran Soltan gizi

Mammadova Jeyran Soltan gizi was born in Minkand village of Lachin district of Azerbaijan in 1934. On the 17th of May, 1992 during occupation of Minkand village by Armenians she was taken prisoner with other members of her family and close relatives and was taken to Garaunj village of Gorus district of Armenia to a stock-breeding farm and was forced for agricultural work there.

That information was given by the brother of Mammadova Jeyran - Isgandarov Farman Soltan oglu (he lives in Baku, Jeyranbatan settlement, Nizmai Street, 4/47). He wrote that he could get that information from the head of Police Department of Gorus district Mikhail Khoyluntsd because the Mammadovs were taken prisoners in Gubadli district.

According to a list of prisoners and hostages in Lachin district given by the Ministry of Defense of Azerbaijan Republic Mammadova Jeyran's name was also in that list. It was shown that she was kept in Gorus district of Armenia.



### Məmmədova Lətifə İbad qızı

1958-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhərinin erməni-rus silahlı birləşmələri tərəfindən işğal olunduğu gün Məmmədova Lətifə İbad qızı ailə üzvləri- anası Məmmədova Səltənət Zülal qızı, oğlanları Əliyev Səbuhi Cahangir oğlu və Əliyev Səlim Cahangir oğlu, bacısı Məmmədova Şövkət İbad qızı, onun oğlu Cəfərov Samir Tacir oğlu ilə birlikdə girov götürülüb. Ermənilər onları Ağdərə rayonunun Vəng kəndinə aparıblar.

Bacısı - Xocalı şəhər sakini, Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Müəllimləri Təkmilləşdirmə İnstitutunun yataqxanasında məskunlaşmış Qəmbərova Adilə İbad qızı yazdığı izahatında göstərib ki, həmyerlisi Cavanşir Haqverdiyev adlı şəxs (Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki yataqxanada məskunlaşıb, bacısının adı Bəstidir) həmin gün onları ailəliklə meşədə ocaq ətrafında oturub qızınarkən görüb. Cavanşirin dediyinə görə, onlar meşədə olarkən ətrafda ermənilərin üstü çadırlı maşını dayanıbmış. Ermənilər qəribə səslər çıxarıb, azərbaycanlıların yaxınlıqda olduğunu bir-birinə bildiriblər. Cavanşirin qardaşı Şahin ona «Sən get, biz də yavaş-yavaş gəlirik» deyib. O, yoluna davam edib, bir müddət keçəndən sonra dayanıb, onları gözləyib. Nə Şahin, nə də Səltənət ailəsi ilə gəlib çıxmayıb. Sonradan heç kimin onların taleyindən xəbəri olmayıb.

«Beynəlxalq Amnistiya» Təşkilatının Avropa Üzrə Təhqiqatlar şöbəsinin müdiri Ann Burlinin 12 avqust 1993-cü ildə verdiyi məlumata əsasən, Məmmədova Şövkət və onun ailə üzvləri fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbçiləri tərəfindən girov götürülüb, Ağdərə rayonunun Vəng kəndində saxlanılıblar.

### Mammadova Latifa Ibad gizi

Mammadova Latifa Ibad gizi was born in Khojali town of Azerbaijan Republic in 1954. On the 26th of February, 1992, during Armenian occupation of Khojali town Mammadova Latifa Ibad gizi was taken prisoner together with other members of her family: her mother Mammadova Saltanat Zulal gizi, her sons: Aliyev Sabuhi Jahangir oglu, Aliyev Salim Jahangir oglu, her sister Mammadova Shovkat Ibad gizi, her sister’s son Jafarov Samir Tajir oglu. They were taken to Vang village.

According to a statement of her sister Gambarova Adila Ibad gizi who lived in Khojali town (She lives in the hostel of Teacher’s Institute in Narimanov district, Baku), her villager Javansgir Hagverdiyev (he lives in the hostel of Mardakan settlenunt, Baku, his sister’s name is Barti) saw them in the forest around the fire, while they were trying to get warm. According to Javanshir’s words Armenian were inside the car. They made different noise and informed each other that Azerbaijanis were next to them. Javanshir’s brother Shahin said him: “Go and he follow you quietly”. He continued his way. Then he stopped to wait for them. Neither Shahin nor the members of Aliyev Salim’s family came. There’s no information concerning them.

According to information of Director of European Investigations branch of «Amnesty International» Organization Ann Burlin given on 12th of August, 1993, Mammadova Latifa and members of her family were taken prisoner by Armenian soldiers at the night crom 25th to 26th of February and they were kept in Vang village of Aghdara district.



**Məmmədova
Nərgiz
Bayram qızı**

1927-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 17 may 1992-ci ildə Minkənd kəndi ermənilər tərəfindən işğal olunan gün ailə üzvləri və yaxın qohumları ilə girov götürülərək Ermənistanın Gorus rayonunun Qaraunc kəndinə aparılıb. Orada yerləşən maldarlıq fermasında saxlanılaraq təsərrüfat işlərinə cəlb edilib.

Bu məlumatı Məmmədova Nərgizin qohumu - Bakı şəhəri, Ceyranbatan qəsəbəsi, Nizami küçəsi, ev 4, mənzil 47-də yaşayan İsgəndərov Fərman Soltan oğlu Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoyluntsdan öyrənib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyində Laçın rayonundan olan əsir və itkin düşmüş azərbaycanlıların siyahısında Məmmədova Nərgizin Ermənistanın Gorus rayonunda saxlandığı göstərilib.

**Mammadova
Nargiz
Bayram gizi**

Mammadova Nargiz Bayram gizi was born in Minkand vilage of Lachin district of Azerbaijan Republic in 1927. On the 17th of May, 1992 during the day of Minkand village's occupation her members of family and close relatives were taken hostages and moved into Garaunj village of Gorus district of Armenia. She was kept in stock-breeding farm and forced for agricultural work there.

That information was given by her relative Isgandarov Farman Soltan oglu (he lives in Baku, Jeyranbatan settlement, Nizami Street, 4, app.47) from chief of Police Department of Gorus district, Mikhail Khoylunts.

There was the name of Nargiz in a list of Azerbaijani prisoners and missed persons in Lachin district which was given by Ministry of Defense of Azerbaijan Republic. It was shown that she was kept in Gorus district of Armenia.

**Məmmədova
Səltənət
Zülal qızı**

1931-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. Xocalı şəhərinin erməni-rus silahlı birləşmələri tərəfindən işğalı günü ailə üzvləri - qızı Məmmədova Şövkət İbad qızı, onun oğlu Cəfərov Samir Tacir oğlu, digər qızı Məmmədova Lətifə İbad qızı, onun oğlanları Əliyev Səbuhi Cahan-

**Mammadova
Saltanat
Zulal gizi**

Mammadova Saltanat Zulal gizi was born in Khojali town of Azerbaijan Republic in 1931. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces, the members of her family: her daughter Mammadova Shovkat Ibad gizi, her son Jafarov Samir Tajir oglu, another daughter Mamma-

gir oğlu və Əliyev Səlim Cahangir oğlu ilə girov götürülüb. Ermənilər onları Ağdərə rayonunun Vəng kəndinə aparıblar.

Qızı-Xocalı sakini, Bakı şəhərinin Nərimanov rayonundakı Müəllimləri Təkmilləşdirilmə İnistitutunun yataqxanasında məskunlaşmış Qəmbərova Adilə İbad qızı izahatında göstərib ki, Xocalı şəhər sakini Cavanşir Haqverdiyev (Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki yataqxanada məskunlaşıb, bacısının adı Bəstidir) onları ailəliklə meşədə ocaq ətrafında oturub qızınan görüb. Cavanşirin dediyinə görə, onlar meşədə gizlənən zaman ətrafda ermənilərin üstü çadırlı maşını dayanıbmış. Ermənilər qəribə səslər çıxarıb, azərbaycanlıların yaxınlıqda olduğunu bir-birlərinə bildiriblər. Cavanşirin qardaşı Şahin də onlarla birlikdə olub. Şahin ona «Sən get, biz də yavaş-yavaş gəlirik» deyib. O, yoluna davam edib, bir müddət keçəndən sonra dayanıb, qardaşını və Məmmədovları gözləyib. Nə Şahin, nə də Məmmədova Səltənət ailəsi ilə gəlib çıxmayıb.

«Beynəlxalq Amnistiya» Təşkilatı Avropa Üzrə Təhqiqatlar şöbəsinin müdiri Ann Burlinin 12 avqust 1993-cü ildə verdiyi məlumata görə, Məmmədova Səltənət və onun ailə üzvləri fevral ayının 25-dən 26-na keçən gecə girov götürülüb, Ağdərə rayonunun Vəng kəndində saxlanılıblar.

dova Latifa Ibad gizi and her sons: Aliyev Sabuhi Jahangir oglu, Aliyev Salim Jahangir oglu were taken hostages. Armenians took them to Vang village of Aghdara district.

Accroding to a statement of her daughter Gambarova Adilya Ibad gizi (she lives in the hostel of Teacher's Institute in Narimanov district of Baku) it was shown that a man whose name was Javanshir Hagverdiyev from Khojali town (now he lives in the hostel in Baku, Mardakan settlement; his sister's name is Basti) saw them round the fire in the forest. According to Javanshir's words, they were at the forest and a car with Armenians was there. Armenians made a strange noise and informed one another that Azertbaijanis were next to them. Javanshir's brother Shahin was with them. Shahin said him: «Go and we follow you». He continued his way and then he stopped and waited for his brother and the Mammadovs. Neither Shahin nor Mammadova Saltanat came up.

According to the given information from 12th of August, 1993 by Ann Burlin, the director of Department Europe Branch of Investigation «International Amnesty» organization, during Khojali's occupation Mammadova Saltanat and the members of her family were taken prisoners by Armenina military men at the night from 25th to 26th of February, 1992 and then they were kept in Vang village of Aghdara district.

### Məmmədova Şövkət İbad qızı



1963-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhərinin erməni silahlı birləşmələri tərəfindən işğal olunduğu gün anası Məmmədova Səltənət Zülal qızı, oğlu Cəfərov Sa-

### Mammadova Shovkat Ibad gizi

Mammadova Shovkat Ibad gizi was born in Khojali town of Azerbaijan Republic in 1963. On the 26th of February, 1992 during Armenian occupation of town of Khojali was taken prisoner together with other members

mir Tacir oğlu, bacısı Məmmədova Lətifə İbad qızı və onun oğlanları Əliyev Səbuhi və Əliyev Səlim ilə birlikdə girov götürülüb. Onları Ağdərə rayonunun Vəng kəndinə aparıblar.

Bacısı - Xocalı sakini, Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Müəllimləri Təkmilləşdirilmə İnistitutunun yataqxanasında məskunlaşmış Qəmbərova Adilə İbad qızı izahatında göstərib ki, Xocalı sakini Cavanşir Haqverdiyev (Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki yataqxanada məskunlaşıb, bacısının adı Bəstidir) həmin gün onları ailəliklə meşədə ocaq ətrafında oturub qızınarkən görüb. Cavanşirin dediyinə görə, onlar meşədə olarkən ətrafda ermənilərin üstü çadırlı maşını dayanıbmış. Ermənilər qəribə səslər çıxarıb, azərbaycanlıların yaxınlıqda olduğunu bir-birinə bildiriblər. Cavanşirin qardaşı Şahin ona «Sən get, biz də yavaş-yavaş gəlirik» deyib. O, yoluna davam edib, bir müddət keçəndən sonra dayanıb, onları gözləyib. Nə Şahin, nə də Səltənət ailəsi ilə gəlib çıxmayıb. Sonradan heç kimin onların taleyindən xəbəri olmayıb.

«Beynəlxalq Amnistiya» Təşkilatının Avropa Üzrə Təhqiqatlar şöbəsinin müdiri Ann Burlinin 12 avqust 1993-cü ildə verdiyi məlumata görə, Məmmədova Səltənət və onun ailə üzvləri fevral ayının 25-dən 26-na keçən gecə, Xocalının işğalı zamanı erməni hərbçiləri tərəfindən girov götürülüb, Ağdərə rayonunun Vəng kəndində saxlanılıblar.

of her family: her mother Mammadova Saltanat Zulal gizi, her son Jafarov Samir Tajir oglu, her sister Mammadova Latifa Ibad gizi, her sister's sons Aliyev Sabuhi, Aliyev Salim. They were taken to Vang village.

According to a statement of her sister Gambarova Adila Ibad gizi (she lives in the hostel of Teacher's Instity), Javanshir Hagverdiyev (he lives in the hostel of Mardakan settlement, Baku, his sister's name is Basti) who lived in Khojali saw them in the forest around the fire to get warm. According to Javanshir's words, Armenian were inside the car. They made different noise and informed each other that Azerbaijanis were next to them. Javanshir's brother Shahin said him: "Go and we follow you quietly". He continued his way. Then he stopped to wait for them. Neither Shahin nor the members of Aliyev Salim's family came. There's no information concerning them.

According to information of Director of European Investigations branch of «International Amnesty» Organization Ann Burlin given on the 12th of August, 1993 during occupation of Khojali at the night from 25th to 26th of February Mammadova Sovkat and members of her family were taken prisoners by Armenians soldiers and were kept in Vang village of Aghdara district.

**Məmmədova Şura Musa qızı**

1923-cü ildə ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Zar kəndində anadan olub. Yaşadıqları kənd ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Məmmədov Məmməd Abbas

**Mammadova Shura Musa gizi**

Mammadova Shura Musa gizi was born in Zar village of Kelbajar district of Azerbaijan Republic in 1923. During the day of Zar village's occupation by Armenians Shura with her husband Mammadov Mam-

oğlu (1917) ilə birlikdə girov götürülüb, Dağlıq Qarabağda saxlanılıb.

Erməni əsirliyindən qayıtmış Zar kənd sakinləri Məhərrəmov Hüsü və Sadıqov Məhəmməd Məmmədova Şuranın həyat yoldaşı ilə ermənilər tərəfindən girov götürüldüyünün şahidi olublar.

mad Abbas oglu (year of birth: 1917) was taken hostage and kept in Upper Garabagh.

Maharramov Husu and Sadigov Mahammad who returned from Armenian captivity and lived in Zar village witnessed that Mammadov Shahin with his wife was taken hostage by Armenians.



## Məmmədrəhimov Söhrab Məhəmmədiyyə oğlu

1971-ci ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Çarxana kəndində anadan olub. 1992-ci ildə hərbi xidmətə çağırılıb. Qubadlı rayonunda yerləşən hərbi hissədə xidmət edib. 17 aprel 1994-cü ildə Qubadlı rayonunun Başarat kəndi uğrunda döyüşdə yaralanaraq ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşı - Göyçay şəhəri, Atatürk küçəsi 32-də yaşayan Məmmədov Məmməd Ağahəsən oğlunun dediyinə görə, Söhrab 17 aprel 1994-cü ildə Başarat kəndində döyüş zamanı yaralanıb və əsir götürülüb.

Qubadlı rayonu Bəşarat kənd sakini, Sumqayıt şəhəri, 15-ci məhəllə, ev 3, mənzil 6-da yaşayan, Söhrabın döyüş yoldaşı Rüstəmov Zaman Sahib oğlunun məlumatında deyilib ki, erməni tərəfi ilə aparılan radiodanışıqlar zamanı onlar Söhrabın əsir götürüldüyünü öyrəniblər.

Zamanın həmkəndlisi, Bakı şəhəri, Xətai rayonundakı «Gənc mütəxəssislər» yataqxanasında məskunlaşan Rüstəmov Əşir Həmzə oğlu da bu faktı təsdiq edib.

## Mammadrahimov Sohrab Mahammadiyya oglu

Mammadrahimov Sohrab Mahammadiyya oglu was born in Charkhana village of Gabala district of Azerbaijan Republic in 1971. He was called up for military service in 1992. Sohrab served in a military unit in Gubadli district. He was wounded and taken prisoner by Armenians during the battle for Basharat village of Gubadli district.

According to the words of his front-line comrade Mammadov Mammad Agahasan oglu (he lives in Goychay, Ataturk street, 32), during the battle for Basharat village of Gubadli Sohrab was wounded and taken prisoner on the 17th of April, 1994.

According to another Sohrab's front-line comrade Rustamov Zaman Sahib oglu who lived in Basharat village of Gubadli district (he lives in Sumgayit, 15 quarter 3/6), they learned that Sohrab was taken prisoner from radio communication with Armenians side.

This fact was also confirmed by Sohrab's fellow-villager Rustamov Ashir Hamza oglu (he lives in "Genj mutakhassislar" hostel in Khatai district of Baku).



**Mərdanov Rövşən İsfəndiyar oğlu**

1973-cü ildə Şəmkir rayonunun Zəyəm kəndində anadan olub. 2 mart 1992-ci ildə Şəmkir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib. 2 avqust 1992-ci ildə döyüş zamanı əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Ucar şəhəri, 28 may küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məhəmmədəli oğlu ərizəsində yazıb ki, 1993-cü ilin mart ayında Şuşa şəhərində ermənilər tərəfindən ağır fiziki işə cəlb olunan zaman əhəng daşı və gips yığan əsirlərin arasında Mərdanov Rövşəni də görüb. Mayıl Rövşənin şəklini görən kimi tanıyıb. Ermənilər əsirlərə öz aralarında danışmağa, hətta adlarını belə soruşmağa imkan verməmişlər.

**Mardanov Rovshan Isfandiyar oglu**

Mardanov Rovshan Isfandiyar oglu was born in Zayam village of Shamkir district of Azerbaijan Republic in 1973. On the 2nd of March, 1992 he was called up for military service by Military Registration and Enlistment Office of Shamkir district. Rovshan took part in fights for Aghdara district allotted to Internal Forces. On the 2nd of August, 1992 during the fight for Aghdara district he was taken prisoner.

Mammadov Mayil Mahammadali oglu (he lives in Ujar town, 28 May Street, 7) who returned from Armenian captivity wrote a statement that in March of 1993, when he was forced for heavy labour in Shusha town, he saw Mardanov Rovshan between prisoners who gethered limestone and gypsum. When he released from captivity, Mardanov Isfandiyar showed him son's picture, he recognized him and said that his name was Rovshan. Armenians didn't allow prisoners talk and ask names.



**Məsimov Ziya Rəşad oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olub. 1992-ci ilin mart ayında Qarabağ uğrunda döyüşlərdə iştirak etmək üçün Şəki Rayon Hərbi Komissarlığına müraciət edib. 8 may 1992-ci ildə Şu-

**Masimov Ziya Rashad oglu**

Masimov Ziya Rashad oglu was born in Shaki town of Azerbaijan Republic in 1973. In March of 1992 he appealed to the Military Registration and Enlistment Office of Shaki district to take part in fights for Garabagh. On the 8th of May,

şa işğal olunan zaman əsir götürülüb.

Anası-Şəki şəhəri, M.Rəsulzadə küçəsi, dalan 17, ev 11-də yaşayan Məsimova Kişvər Həsən qızının verdiyi məlumata görə, Şuşa şəhəri uğrunda döyüşlərdə iştirak etmiş əslən şəkili olan şəxslərdən oğlunun əsir götürüldüyünü öyrənib.

Keçmiş əsir Alimov Vladislav Vladimiroviçin atası-Bakı şəhəri Pirallahı qəsəbəsi, Pesçanaya küçəsi, ev 5, mənzil 17-də yaşayan Alimov Vladimir Sergeyeviç oğlunun axtarışı zamanı (1992-ildə Vladislav azad olunub) Ermənistan və Gürcüstanda əldə etdiyi Dağlıq Qarabağ və Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirlərin siyahısında Məsimov Ziyanın da adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

1992 during the occupation of Shusha by Armenians Ziya was taken prisoner.

According to the information of his mother Masimova Kishvar Hasan gizi, she found out from fighter who was from Shaki and took part in fights for Shusha that her son was taken prisoner.

When the father of prisoner of war Alimov Vladislav Vladimirovich – Alimov Vladimir Sergeyevich (he lives in Baku, Pirallahi settlement, Peschanaya Street, 5, app.17) searched for his son (later Vladislav was released in 1992), in Georgia he got a list of Azerbaijani prisoners of war kept in Upper Garabagh. There was the name of Masimov Ziya in that list. It was shown that he was kept in Upper Garabagh.

### Mikayılov Şahin Kamil oğlu



1963-cü ildə Azərbaycan Respublikasının Dəvəçi rayonunda anadan olub. 1992-ci ilin əvvəllərində Oğuz rayonunda yaradılmış könüllülər batalyonu tərkibinə daxil olub və Qarabağın müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. 1992-ci il may ayının 7-dən 8-nə keçən gecə batalyon komandiri Tofiq Rzayevlə (Tofiq Oğuz) birlikdə itkin düşüb.

Bacısı - Oğuz şəhəri Xətai küçəsi, ev 11-də yaşayan Eyyubova Əsmər Murtuz qızının verdiyi məlumata görə, 1993-cü ilin iyun ayında əvvəllər Oğuz rayonunun Calud kəndində yaşamış Edik adlı erməni (Edik hazırda Rusiya Federasiyasının Vladimir şəhərində yaşayır) Mikayılov Şahinlə birlikdə daha iki oğuzlunun Ermənistan Respublikasının Erebuni şəhərindəki həbsxanada saxlandığını deyib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sa-

### Mikayilov Shahin Kamil oglu

Mikayilov Shahin Kamil oglu was born in Davachi district of Azerbaijan Republic in 1963. In 1992 he joined the battalion of voluntaries in Oguz district and took part in fights for Garabagh. During the night from 8th to 9th of May, 1992 Shahin with commander of battalion Tofig Rzayev (Tofig Oguz) was missed.

According to the information of his sister Eyyubova Esmer Murtuz gizi (she lives in Oguz district, Khatai Street, 11), Armenian Edik who lived in Jalud village of Oguz district (at present he lives in RF, Vladimir city) said that Mikayilov Shahin and 2 men from Oguz were kept in prison in Erebuni town of Armenia at the beginning of June, 1993.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district

kini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə görüşü zamanı Valentina Davidyandan aldığı azərbaycanlı əsir və girovların siyahısında Mikayılov Şahinin də adı olub.

during the meeting in Tbilisi, the representatives of Armenian ICRC gave him a list of Azerbaijani prisoners and hostages. There was the name of Mikayilov Shahin in that list.

**Mikayılov Vüqar İbrahim oğlu**



1974-cü ildə Azərbaycan Respublikasının Göyçay rayonunda anadan olub. Füzuli döyüşlərində polis batalyonunun tərkibində iştirak edib. 28 yanvar 1993-cü ildə həmin rayon uğrunda döyüşdə əsir götürülüb.

Azərbaycan Respublikası Qazax Rayon İcra Hakimiyyətinin Kəmərli kənd üzrə nümayəndəsi Məmmədov Ələddin Mahmud oğlunun verdiyi məlumatda deyilib ki, 1993-1994-cü illərdə kənd təsərrüfatı işlərinin aparılması ilə əlaqədar olaraq yerli əhalinin təhlükəsizliyini təmin etmək üçün hər iki tərəfin nümayəndələrinin keçirdikləri görüşlər zamanı Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları Aleksandr Sarumyan və Vladimir Ayrapetyandan alınmış azərbaycanlı əsir və girovların siyahısında Mikayılov Vüqar İbrahim oğlunun da adı olub. Onun Xankəndində saxlandığı göstərilib.

Erməni əsirliyindən qayıtmış Ucar şəhəri, 28 may küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlunun dediyinə görə, Şuşa şəhərində əhəng zavodunda işlədilən zaman orada bir neçə dəfə Vüqarla rastlaşıb.

**Mikayilov Vugar Ibrahim oglu**

Mikayilov Vugar Ibrahim oglu was born in Goychay district of Azerbaijan Republic in 1974. He took part in fights for Fuzuli district allotted to police battalion. On the 28th of January, 1993 during the fight for the same district Vugar was taken prisoner.

During the meeting which was held in order to provide security for local residents regarding agricultural work on the border of Gazakh district with Noyemberyan district of Armenia, the officials of Armenia Secret Intelligence Service Alexander Sarumyan and Vladimir Ayropetyan gave the representative of Kamarli village of Executive Power of Gazakh district Mammadov Aladdin Mahmud oglu a list of Azerbaijani prisoners and hostages. There was the name of Mikayilov Vugar in that list. It was shown that he was kept in Khankandi.

According to the words of Mammadov Mayil Mahammadali oglu (he lives in Ujar town, 28 May Street, 7) who returned from Armenian captivity, when he worked at limestone plant in Shusha town, he met Vugar.



**Mirəliyev Arif İsmixan oğlu**

1971-ci ildə Azərbaycan Respublikası Balakən rayonunun Qazma kəndində anadan olub. Hərbi vertolyotun heyət üzvü kimi Qubadlı uğrunda döyüşlərdə iştirak edib. Sonuncu dəfə 31 avqust 1993-cü ildə döyüşə gedib, lakin geriyə dönməyib. Deyilənə görə, onların vertolyotu ermənilər tərəfindən vurulub.

Qardaşı - Mirzəliyev Kamal İsmixan oğlu da həmin hərbi hissədə xidmət etdiyi üçün 13 gün qardaşını axtarsa da, heç bir soraq ala bilməyib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu əsir və girovların dəyişdirilməsi zamanı Mirzəliyev Arifin və bütün vertolyot heyətinin əsir götürüldüyünü, Şuşa şəhərində saxlandığını öyrənib.

**Miraliyev Arif Ismikhan oglu**

Miraliyev Arif Ismikhan oglu was born in Gazma village of Balakan district of Azerbaijan Republic in 1971. He took part as a member of crew of military helicopter in fights for Gubadli district. Last time Arif went to fight on the 31st of August, 1993, but he didn’t return. According to the words, Armenians fired upon their helicopter.

His brother Mirzaliyev Kamal Ismikhan oglu served in the same military unit and he was engaged in search for his brother for 13 days but didn’t get any information.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners and hostages, found out by radio communication Mirzaliyev Arif and all the members of crew of helicopter were taken prisoners and kept in Shusha town.



**Mirzəyev Azad Ələddin oğlu**

1975-ci ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Xənəyə kəndində anadan olub. 1993-cü ilin noyabr ayında İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Qusar taborunun tərkibində Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak

**Mirzeyev Azad Aladdin oglu**

Mirzeyev Azad Aladdin oglu was born in Khanaya village of Ismayilli district of Azerbaijan Republic in 1975. In November of 1993 he was called up for military service by Ismayilli district the Military Registration and Enlistment Office. Azad took part in fights for Fuzuli dis-

edib. 12 fevral 1994-cü ildə Füzuli rayonunun Cocuq Mərcanlı kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb. Dağlıq Qarabağda saxlanılıb.

Bu məlumatı anası-İsmayıllı rayonu Xənəyə kənd sakini Mirzəyeva Məğrubə Talıb qızı komandiri olmuş Həsənov Əziz Həsən oğlundan öyrənib.

**Mirzəyev Hidayət Əziz oğlu**



1943-cü ildə Ermənistan Respublikası Ararat rayonunun Şiddi kəndində anadan olub. Sonradan Azərbaycan Respublikası İsmayıllı rayonunun Ruşan kəndinə köçüb. 1991-ci ildə 1973-cü il təvəllüdlü oğlu Mirzəyev Elmirlə birlikdə Qarabağ torpaqlarını erməni işğalçılarından müdafiə etmək üçün Ağdam rayonuna yollanıb. Əvvəlcə Yaqub Rzayevin (Qatır Məmmədin), sonradan isə Rasim Əkbərovun batalyonunda döyüşüblər. 5 mart 1993-cü ildə Hidayət Mirzəyev Sərsəng su anbarı ətrafında səngər qazan vaxt ermənilər qəfildən hücum edib. Döyüş zamanı o, ağır yaralanıb. Yaralı vəziyyətdə əsir götürülüb, Dağlıq Qarabağda saxlanılıb. Bu məlumatı oğlu-İsmayıllı rayonunun Ruşan kəndində yaşayan Mirzəyev Elmir Hidayət oğlu verib.

Döyüş yoldaşı və həmyerlisi-İsmayıllı rayonu Ruşan kənd sakini Həsənov Vüqar Hidayət oğlunun dediyinə görə, 5 mart 1993-cü ildə Sərsəng su anbarı uğrunda döyüşdə Hidayət yaralanıb. Vüqar ona kömək etmək istədikdə 4 yerdən güllə yarası alıb. Döyüşçülər köməkləşib onu döyüş meydanından çıxarıblar. Elə həmin vaxt ermənilər ərazini işğal edib, çox sayda hərb-

trict allotted to Gusar battalion. On the 12th of February, 1994 during the fight in Jojug Marjanli village of Fuzuli district he was taken prisoner by Armenians and kept in Upper Garabagh.

His mother Mirzeyeva Magruba Talib gizi who lived in Khanaya village of Ismayilli district got that information from his commander Hasanov Aziz Hasan oglu.

**Mirzeyev Hidayat Aziz oglu**

Mirzeyev Hidayat Aziz oglu was born in Shiddi village of Ararat district of Armenia in 1943. Then he moved into Rushan village of Ismayilli district of Azerbaijan Republic. Hidayat with his son Mirzeyev Elmir (year of birth: 1973) was sent to Aghdam district to defend Garabagh's lands from Armenian occupants. They fought at Yagub Rzayev's (Gatir Mammad) battalion and then at Rasim Akbarov's battalion in 1991. On the 5th of March, 1993 Hidayat Mirzeyev dug the trenches near Sarsang water barn and Armenians attacked him suddenly. At the fight he was wounded seriously. Wounded Hidayat was taken prisoner and kept in Upper Garabagh. That information was given by his son Mirzeyev Elmir who lived in Rushan village of Ismayilli district.

According to the words of his front-line comrade and villager Hasanov Vugar Hidayat oglu who lived in Rushan village of Ismayilli district, during the fight near Sarsang water barn Hidayat was wounded on the 5th of March, 1993. Vugar wanted to help him but he got 4 bullets wound. The fighters helped and could take out him from battle field. At that time Armenians captured

çi, o cümlədən, yaralı Mirzəyev Hidayət də əsir götürülüb. Vüqarın qeyd etdiyinə görə, döyüşçülər onu sürüyüb aparan zaman Hidayət sağ olub. Onun sonrakı taleyi haqqında heç bir məlumat öyrənə bilməyib.

the territory and took many prisoners including Hidayat. According to Vugar's words, when the fighters took him out, Hidayat was alive. He couldn't get any information concerning his further life.



**Mizyak Aleksandr Anatolyeviç**

1970-ci ildə Ukrayna Respublikasının Xarkov şəhərində anadan olub. Xarkov şəhəri, Pobeda meydanı, ev 67, mənzil 440-da yaşayıb. Zaporojes şəhərində yerləşən Hərbi Təyyarəçilik Məktəbini bitirib. Sovet Ordusu sıralarında Azərbaycanda xidmət keçib. 31 avqust 1993-cü ildə onun da ekipaj üzvü olduğu təyyarə Qubadlı rayonu ərazisində vurulub. Heyət üzvü Polovinko Ruslan Aleksandroviçlə birlikdə paraşütlə yerə enəndə ermənilər tərəfindən əsir götürülüb və Xankəndi Təhlükəsizlik İdarəsinin İstintaq Təcridxanasında saxlanılıb.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Ələt qəsəbəsi, 1587-ci keçid, ev 2, mənzil 7-də yaşayan Sadığov Səfər Məhərrəm oğlunun verdiyi məlumata görə, 1993-cü ildə Xankəndi Təhlükəsizlik İdarəsinin İstintaq Təcridxanasında hərbi təyyarəçilər Mizyak Aleksandr Anatolyeviç və Polovenko Ruslan Aleksandroviç onunla qonşu kamerada saxlanılıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki, qarşı tərəflə aparılan radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Albert Voskanyandan Mizyak Aleksandrın əsir alınıb, Xankəndi şəhərində saxlandığını öyrənib.

Erməni əsirliyindən qayıtmış Məmmə-

**Mizyak Alexander Anatolyevich**

Mizyak Alexander Anatolyevich was born in Kharkov city of Ukraine in 1970. He lived in Kharkov city, Pobeda Square 67, app.440. Alexander graduated from Military Pilot School in Zaporojez city. When he served in ranks of Soviet Army he was sent to Azerbaijan. On the 31st of August, 1993 his plain was shoot down on the territory of Gubadli district. Alexander with another pilot Ruslan Alexandrovich landed by parachutes, Armenians took them as prisoners and kept in Investigatory Isolation of Khankandi Security Department.

According to the information of Sadikhov Safar Maharram oglu who returned from Armenian captivity (now he lives in Baku, Alyat settlement, 1587 quarter, app.2/7), military pilots: Mizyak Alexander Anatolyevich and Ruslan Alexanderovich were kept in neighbouring cell of Investigatory Isolation of Khankandi Security Department in 1993.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district) wrote a statement that during radio communication with Armenians, Armenian policeman Albert Voskanyan informed that Mizyak Alexander Anatolyevich was taken as prisoner and kept in Khankandi.

According to the words of Mammadov

dov Mayıl Məmmədəli oğlunun dediyinə görə, 1992-ci ilin sonunda Xankəndi həbsxanasında Məcidov Zakir Nüsrət oğlu ilə Polovinko Ruslan Aleksandroviçi görüb. Ermənilər onları 3-cü mərtəbədə yerləşən kamerada saxlayıblar.

Mayil Mammadali oglu who returned from Armenian captivity (now he lives in Ujar town, 28 may Street, app.7), Majidov Zakir Nusrat oglu saw Polovinko Ruslan Alexanderovich in Khankandi prison at the end of 1992. Armenians kept them in cell on the 3rd floor.



**Muradov Mahir Şirxan oğlu**

1970-ci ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olub. 5 oktyabr 1992-ci ildə Gəncə şəhər Kəpəz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Tank taborunun tərkibində Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. 24 iyul 1993-cü ildə Ağdam ermənilər tərəfindən işğal olunan zaman tank sürücüsü Muradov Mahir döyüş yoldaşı Xəlilov Natiqi xilas edərkən əsir götürülüb və Şuşa şəhərində saxlanılıb.

Atası-Gəncə şəhəri, Dədə Qorqud küçəsi, ev 34A, mənzil 18-də yaşayan Muradov Şirxan Şadman oğlunun verdiyi məlumata görə, döyüş yoldaşlarından Mahirin, Xəlilov Natiqin, onun atası Xəlilov Vaqif İsmayıl oğlu, əmisi Xəlilov Vahid İsmayıl oğlu, Ağayev Mehdi Ağamir oğlu ilə birlikdə Məmmədov Kamil Kamal oğlunun idarə etdiyi şəxsi «VAZ-2103» markalı 52-19 AQP dövlət nömrə nişanlı ağ rəngli avtomaşında əsir götürüldüklərini öyrənib. Ermənilər oğlunu azad etmək üçün əsir götürülmüş erməni tələb ediblər. Natiqin qohumları əsir düşmüş erməni tapdıqda qarşı tərəf həmin adamın Qarabağ ermənisi olduğunu bəhanə gətirərək Yerevan ermənisi istəyib. Qarşı tərəfin nümayəndələri sonradan Şirxandan 40 milyon rus rublu tələb

**Muradov Mahir Shirkhan oglu**

Muradov Mahir Shirkhan oglu was born in Ganja city of Azerbaijan Republic. On the 5th of October, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ismayilli district. Mahir took part in fights for Aghdam district allotted to tank battalion. On the 24th of July, 1993 during the occupation of tank battalion the driver of tank Muradov Mahir helped his front-line comrade Khalilov Natig and then he was taken prisoner and kept in Shusha town.

According to the information of his father Muradov Shirkhan Shadman oglu (he lives in Ganja city, Dede Gorgud Street, 34A, app.18), while searching for Mahir his front-line comrades he found out that Khalilov Natig's relatives: his father Khalilov Vagif Ismayil oglu, uncle Khalilov Vahid Ismayil oglu, Agayev Mehdi Agamir and Mammadov Kamil Kamal oglu by a white car «VAZ-2103» (public plate-number 52-19 AQP) were taken prisoners. Armenians connected with them and demanded an Armenian prisoner to release. Natig's relatives found Armenian prisoner but the opposite side said that prisoner was from Garabagh but they wanted prisoner from Yerevan. The representative of Armenian side demanded 40 million Russian rubles. But they could find 3

ediblər. Onlar yalnız 3 milyon publ düzəldə biliblər. Ermənilər həmin məbləğlə razılaşmayaraq Mahiri azad etməyiblər.

Xəlilov Natiqin anası-Bərdə şəhəri, Şərq küçəsi 4-də yaşayan Xəlilova Elza Kamal qızı ərizəsində yazıb ki, 23 iyul 1993-cü ildə həyat yoldaşı Xəlilov Vaqif İsmayıl oğlu, oğlu Xəlilov Natiq Vaqif oğlu, qaynı Xəlilov Vahid İsmayıl oğlu, qohumu Ağayev Mehdi və Muradov Mahir ermənilər tərəfindən girov götürülüb, Xankəndi şəhərinə aparılıblar. Milliyyətcə erməni olan, itkin düşmüş Qaroyan Arşavir Behbudoviçin valideynləri onlara zəng vuraraq yaxınlarını qaytarmaq üçün onların oğlanlarını tapmağı tələb ediblər. Qaroyan tapılmadığı üçün onları azad etmək mümkün olmayıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Tağıyev Məmməd Qaçay oğlunun dediyinə əsasən, 1995-ci ildə radiodanışıqlar zamanı erməni polis əməkdaşı Abodan Muradov Mahirin Xəlilov Natiq Vaqif oğlu, Xəlilov Vaqif İsmayıl oğlu, Xəlilov Vahid İsmayıl oğlu, Ağayev Mehdi Ağamir oğlu və Məmmədov Kamil Kamal oğlu ilə əsir götürülüb, Şuşa şəhərində saxlandığını öyrənib.

million. Armenians denied and didn't release Mahir.

Khalilov Natig's mother Khalilova Elza Kamal gizi (she lives in Barda, Sharg Street, 4) wrote a statement that her husband Khalilov Vagif Ismayil oglu, her son Khalilov Natig Vagif oglu, brother-in-law Khalilov Vahid Ismayil oglu, relative Agayev Mehdi and Muradov Mahir were taken hostages on the 23rd of July, 1993 and then they were taken to Khankandi town. The parents of missed Armenian Garoyan Arshavir Behbudovich called them and demanded to find their son. They will return their son. It was impossible to release him because Garoyan wasn't found.

According to the words of Tagiyev Mammad Gachay oglu who lived Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners and hostages, he found out by radio communication from Armenian policeman Abo that Muradov Mahir, Khalilov Natig Vagif oglu, Khalilov Vagif Ismayil oglu, Khalilov Vahid Ismayil oglu, Agayev Mehdi Agamir oglu and Mammadov Kamil Kamal oglu were taken prisoners and kept in Shusha town.

## Mursaquliyev Əlfəddin Xamməd oğlu



1964-cü ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. 1991-ci ildə Sumqayıt Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Füzuli, Ağdərə və Ağdam rayonları uğrunda dö-

## Mursaguliyev Alfaddin Khammad oglu

Mursaguliyev Alfaddin Khammad oglu was born in Gusarchay village of Khachmaz district of Azerbaijan Republic in 1964. In 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town. Alfaddin took part in fights for Fuzuli, Aghdara

yüşlərdə iştirak edib. 16 iyun 1993-cü ildə gizir Mursaquliyev Əlfəddin Ağdamın Əlimədətli kəndində gedən döyüşdə mühasirəyə düşüb, əsir götürülərək Xankəndi şəhərinə aparılıb.

Atası-Xaçmaz rayonu Qusarçay kənd sakini Mursaquliyev Xamməd Bayramşah oğlunun verdiyi məlumata görə, oğlunun qulluq etdiyi hərbi hissədən mayor Zülfüqarov ermənilərlə apardığı radioəlaqə vasitəsilə Əlfəddinin əsir götürülüb, Xankəndi şəhərində saxlandığını öyrənib. Sonradan onun haqqında heç bir məlumat əldə olunmayıb.

and Aghdam district allotted to Internal Forces. On the 16th of June, 1993 during the fight in Alimadatli village of Aghdam district ensign Mursaguliyev Alfaddin was surrounded. He was taken prisoner and sent to Khankandi town.

According to the information of his father Mursaguliyev Khammad Bayramshah oglu who lived in Gusarchay village of Khachmaz district, major Zulfugarov from military unit where Alfaddin served connected with Armenians by radio communication and found out that his son was taken prisoner and kept in Khankandi. There is no information concerning further life of Khudayar.

## Musayev Amil Ədil oğlu



1960-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. 21 aprel 1994-cü ildə Bakı şəhəri, Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Bərdə taborunun tərkibində Tərtər uğrunda gedən döyüşlərdə iştirak edib. 30 aprel 1994-cü ildə Tərtər rayonunun Marquşevan kəndində gedən döyüşdə ayağından yaralanıb, səngərdə yardım gözləyən vaxt rus hərbçiləri ona yaxınlaşıb, bir neçə meyit və yaralı ilə birlikdə zirehli döyüş maşınının üstünə atıb, döyüş meydanından uzaqlaşıblar.

Bu məlumatı döyüş yoldaşı-Qarabağ müharibəsi əlili, Bakı şəhəri, Mərdəkan qəsəbəsində yerləşən «Gənclik» düşərgəsində məskunlaşmış Hacıyev Kamil Hacı oğlu verib. Kamilin dediyinə görə, o, rus hərbçilərinin Amili əsir götürdüklərinin şəxsən şahidi olub.

## Musayev Amil Adil oglu

Musayev Amil Adil oglu was born in Boyul Bahmanli village of Aghdam district of Azerbaijan Republic in 1960. On the 21st of April, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Sabunchu district of Baku. Amil took part in fights for Terter allotted to Barda battalion. On the 30th of April, 1994 during the fight in Margushevan village of Terter district he was seriously wounded. He hid in the trench and waited for the help. At that moment Russian soldiers came up there. They took corpses and the wounded and got them on armoured infantry machine and went far away from battle field.

That information was given by his front-line comrade, invalid of Garabagh war Hajiyev Kamil Haji oglu (now he lives inthe pioneer camp «Ganjlik» in Mardakan settlement of Baku). According to Kamil’s words, Amil was taken prisoner by Russian military men.



### Musayev Cavanşir Aydın oğlu

1975-ci ildə anadan olub. 27 aprel 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində 5 döyüş yoldaşı ilə birlikdə Vasovlar Mehman Sultanhəmid oğlunun idarə etdiyi «ZİL-131» markalı avtomaşında ermənilər tərəfindən əsir götürülüb.

Mehmanın dayısı-Balakən şəhəri, Nərimanov küçəsi, ev 39-da yaşayan Əliyev Nəsrəddin Hücran oğlunun dediyinə görə, bacısı oğlu idarə etdiyi avtomaşında ön cəbhədə yerləşən əsgərlərə ərzaq apardığı vaxt Ağdamın Qərvənd kəndində döyüş yoldaşları Cəfərov Şakir Əli oğlu (Cəlilabad), Seyidmansurov Azad Təbabə oğlu (Bakı), Abbasov Natiq Xanbala oğlu (Xızı), Ələkbərov Rövşən Faiq oğlu (Gəncə), Vasovlar Mehman Sultanhəmid oğlu (Balakən) ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb. Həmin vaxt Cavanşirgil silahsız olublar. Nəsrəddin Mehmanın axtarışı ilə məşğul olan zaman hərbçilərin ermənilərlə apardıqları radiodanışıqlarda dəfələrlə şəxsən iştirak edib və onun Əsgəran şəhərində oğlu itkin düşmüş varlı bir erməni ailəsində saxlandığını öyrənib. Ermənilər onu itkin düşmüş oğlanları ilə dəyişmək istəyiblər. Nəsrəddingil axtarış nəticəsində həmin erməninin öldüyünü öyrəniblər. Elə bu səbəbdən Mehmanı azad etmək mümkün olmayıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, hərbi əsir və girovların dəyişdirilməsi ilə məşğul olan zaman erməni polis əməkdaşı Albert Voskanyan Musayev Cavanşirin sağ olduğunu və Əsgəran rayonunda şəxsi evdə saxlandığını deyib.

### Musayev Javanshir Aydin oglu

Musayev Javanshir Aydin oglu was born in 1975. On the 27th April, 1994 5 fighters with Vasovlar Mehman Sultanahmed oglu who drove car “ZIL-131” was taken prisoner by Armenians in direction of Garvand village of Aghdam district.

According to the words of Mehman’s uncle Aliyev Nesreddin Hujran oglu (now he lives in Balakan district, Narimanov street, 39), his sister’s son with 5 front-line comrades was without weapon and went by his car to Garvand village of Aghdam district and brought products for soldiers, they: Jafarov Shakir Ali oglu (Jalilabad), Seyidmansurov Azad Tababa oglu (Baku), Abbasov Namig Khanbala oglu (Khizi), Alakbarov Rovshan Faig oglu (Ganja), Vasovlar Mehman Sultanahmed oglu were taken prisoners by Armenians. While searching for Mehman, he found out by radio communication from Armenian military men that he was kept in the family of rich Armenian whose son was missed. Armenians wanted to change Mehman for his missed son. Nasraddin found out that Armenian died. It was impossible to release Mehman for that reason.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives Machgara village of Beylagan district) wrote a statement that when he was engaged in change of prisoners of war and hostages, Armenian policeman Albert Voskanyan said that Musayev Javanshir was alive and kept in a private house of Asgeran district.



**Musayev Mayıl Musa oğlu**

1954-cü ildə anadan olub. 1992-ci ildə «Azərbaycan Qarabağı» könüllü müdafiə taborunun tərkibinə yazılıb. Laçının müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. 14 may 1992-ci ildə Laçın rayonunun Cağazur kəndi yaxınlığında Zeynalov Xəqani Xankişi oğlu və Hüseynov Əjdər Məhi oğlu ilə birlikdə əsir götürülüb.

Azərbacan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini (vaxtilə təhlükəsizlik orqanlarında işləyib) Mirzəyev Rafael Xalid oğlunun 1993-cü ildə cəbhə xəttində ermənilərlə keçirilən görüş zamanı qarşı tərəfdən aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Musayev Mayılın Ermənistanda saxlandığı göstərilib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Komitəsinin nümayəndəsi Alaverdiyan Şamirdən (Yerevan şəhəri-74, Nijnıy Şenqavit küçəsi ev 35, mənzil 22, tel:48-67-93) aldığı qarşı tərəfdə saxlanılan azərbaycanlıların siyahısında Musayev Mayılın da adı olub. Onun Ermənistanda saxlandığı göstərilib. Siyahini işğal olunmuş Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Elmira Ağayan təsdiq edib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin təqdim etdiyi arayışda Musayev Mayılın əsir götürülüb, Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

Həyat yoldaşı-Bakı şəhəri, 7-ci mikrorayon, 3123-cü məhəllə, ev 5, mənzil 23-də yaşayan Musayeva Kamilə Kamal qızının verdiyi məlumata görə, 25 mart 1993-cü ildə Ermənistanın Gorus rayonu Karind-

**Musayav Mayil Musa oglu**

Musayav Mayil Musa oglu was born in 1954. He entered the battalion of defense of voluntaries «Garabagh of Azerbaijan» in 1992. Mayil took part in fights for the defense of Lachin district. On the 14th of May, 1992 during the fight in Jagazur village of Lachin district Musayev Mayil with Zeynalov Khagani Khankishi oglu and Huseynov Ajdar Mehi oglu was taken prisoner.

In 1993 during the meeting at front line with Azeerbaijani and Armenian representatives, the chairman deputy of Custom Committee of Azerbaijan Republic Mirzeyev Rafael Khalid oglu (before he worked at security services) got a list of Azerbaijani prisoners and hostages from them. There was the name of Musayev Mayil Musa oglu in that list. It was shown that he was kept in Armenia.

When the brother of Huseynova Tamara Saleh gizi taken as a hostage by Armenians - Huseynov Akif Saleh oglu searched for his sister, he got a list of Azerbaijani prisoners and hostages from Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street 35, app. 22, phon: 48-67-93) in Tbilisi. There was the name of Musayav Mayil in the list. It was shown that he was kept in Armenia. That list was confirmed by troop of chief of staff Agayan Elmira in occupied Khankandi.

According to the report of Azerbaijan National Committee of Helsenki Civil Assembly, Musayav Mayil was taken prisoner and kept in Spitak of Armenia.

According to the information of his wife Musayeva Kamila Kamal gizi (she lives in Baku, 7th microdistrict, 3123 guarter, app.5/23), a former Armenian prisoner (he didn’t say name because of safety) who lived

zor kənd sakini, əsir götürülüb, sonradan azad olunmuş, milliyyətcə erməni olan bir nəfər şəxs (təhlükəsizliyini təmin etmək üçün adını gizli saxlayıb) onlara Mayılın Gorus rayonunun Teğ kəndində şəxsi evdə saxlandığını bildirib.

## Musayev Rahim Malik oğlu



1975-ci ildə Azərbaycan Respublikası Astara rayonunun Rüdəkənar kəndində anadan olub. 7 yanvar 1994-cü ildə Astara Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq Füzuli rayonuna, 25 aprel 1994-cü ildə Tərtər rayonuna göndərilib. Səhəri gün, yəni aprel ayının 26-da həmin rayonun Seysulan kəndində gedən ağır döyüş zamanı Rahim 2-ci piyada taborunun döyüşçüləri ilə ermənilər tərəfindən mühasirəyə alınaraq əsir götürülüb.

Bu məlumatı onun atası-Astara rayonu Rüdəkənar kənd sakini Musayev Malik İbrahim oğluna Rahimin tabor komandiri Rövşən Əkbərov və briqada komandiri Nəcməddin Sadıqov verib. Musayev Malik oğlunun axtarışı ilə məşğul olan zaman son döyüşdə onun 60 azərbaycanlı ilə birlikdə əsir götürüldüyünü öyrənib. Ermənilər yaralı əsirləri Şuşaya, sağlamları isə naməlum istiqamətə aparıblar. Rahim də yaralı olduğu üçün Şuşa şəhərinə gətirilib.

Həmin döyüşdə həmyerlisi olan 2 döyüş yoldaşı Abdullayev Çingiz Məmməd oğlu və Əhmədov Qılman Rəzzaq oğlu da əsir götürülüb. Əhmədov Qılmanın atası-Astara rayonu Artupa kənd sakini Əhmədov İsi Rəzzaq oğlunun dediyinə görə, İran İslam Respublikasında yaşayan Əmir İbrahimi Məhəmməd Əhməd oğlu erməni əsirliyindən qayıdandan sonra oğlu Qılma-

in Karindzor village of Gorus district of Armenia and released said that Mayil was taken prisoner and kept in a private house of Tug village of Gorus district on the 25th of March, 1993.

## Musayev Rahim Malik oglu

Musayev Rahim Malik oglu was born in Rudakanar village of Astara district of Azerbaijan Republic in 1975. On the 7th of January, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Astara district and then he was sent to Fuzuli district. On the 25th of April, 1994 Rahim was sent to Terter district. The next morning during the fight in Seysulan village of the same district Rahim (he served in the 2nd foot battalion was surrounded and taken prisoner by Armenians.

His father Musayev Malik Ibrahim oglu who lived in Rudakanar village of Astara district got that information from the commander of battalion Rovshan Akbarov and the commander of brigade Nejmeddin Sadigov. When Musayev Malik searched for his son, he found out that Rahim with 60 Azerbaijanis was taken prisoner at last fight. Armenians took the wounded to Shusha town but those who were alive to unknown direction. Rahim was wounded and taken to Shusha.

His villagers and front-line comrades: Abdullayev Chingiz Mammad oglu and Ahmedov Gilman Razzag oglu were taken prisoners with him. According to the words of Gilman's father Ahmedov Isi Razzag oglu who lived in Artupa village of Astara district, the former prisoner Amir Ibrahimi Mahammadali Ahmed oglu (at present he lives in Islamic Republic of Iran) who returned from

nın şəklini gördükdə onu tanıyıb və Xankəndi şəhər xəstəxanasında onunla saxlanılan azərbaycanlı əsirlərdən olduğunu bildirib.

Armenian captivity, saw Gilman's picture and recognized him. He informed that he was kept with other Azerbaijani prisoners in Khankandi town hospital.



**Musayev Xudaverən Hüseyn oğlu**

1969-cu ildə anadan olub. 3 dekabr 1992-ci ildə Qaradağ Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 24 dekabr 1992-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən döyüş zamanı 36 döyüş yoldaşı ilə birlikdə mühasirəyə alınaraq əsir götürülüb.

Bu məlumatı qardaşı-Bakı şəhəri, Qızıldaş qəsəbəsində yaşayan Musayev Balakişi Hüseyn oğlu Xudaverənin axtarışı ilə məşğul olan zaman onun döyüş yoldaşlarından öyrənib.

Xudaverənin sabiq tabor komandiri, Bakı şəhəri, Zığ şossesi, ev 49, mənzil 6-da yaşayan Cəbrayılov Xaqani Sərdar oğlu izahatında yazıb ki, Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən, onun rəhbərlik etdiyi döyüşdə 36 nəfər əsir götürülüb. 1993-cü il yanvar ayının 1-də ermənilər əlaqə yaradaraq əsir götürdükləri əsgərlərdən 13 nəfərinin, o cümlədən Musayev Xudaverənin də adı olan siyahini onlara veriblər.

Əsir Osmanov Əkrəm Məmmədşah oğlunun qardaşı-İsmayıllı rayonu Yuxarıbaş kənd sakini Osmanov Vaqif Məmmədşah oğlunun verdiyi məlumata görə, ermənilərin azərbaycanlı hərbçilərlə apardıqları radiodanışıqlarda atası və qardaşı ilə birlikdə o da iştirak edib. Qarşı tərəf əsir götürdüyü və Ermənistanın Gorus rayonunda saxladığı 13 azərbaycanlı hərbçinin hər bi-

**Musayev Khudaveran Huseyn oglu**

Musayev Khudaveran Huseyn oglu was born in 1969. On the 3rd of December, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Garabagh district. On the 24th of December, 1992 during the fight in Hayarak village of Zangilan district, Khudaveran with 36 front-line comrades was surrounded and then they were taken prisoners by Armenians.

His brother Musayev Balakishi Huseyn oglu (he lives in Baku, Gizildash settlement) got that information from his front-line comrades while searching for Khudaveran.

Khudaveran's former commander of battalion Jabrayilov Khagani Sardar oglu wrote a statement that during the fight in Hayarak village of Zangilan district under his command 36 men were taken prisoners. On the 1st of January, 1993 Armenians connected and gave a list of 13 prisoners including Musayev Khudaveran.

According to the information of brother of prisoner of war Osmanov Akram Mammadshah oglu – Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district, his father and brother took part in radio communication with Armenians. Armenians demanded 10 t of petrol for each of 13 prisoners kept in Gorus district of Armenia.

ri üçün 10 ton benzin tələb edib. Ermənilərin tələbi yerinə yetirilmədiyi üçün hərbçilərin qaytarılması da baş tutmayıb. Onların sonrakı taleyi məlum deyil.

Armenians' demands weren't realized and that's why the further lives of Musayev Khudaveran and other 12 prisoners were unknown.



## Müseyibov (Əbdülrəhmanov) İmamverdi Kamran oğlu

1967-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Bülövlük kəndində anadan olub. 19 aprel 1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman atası Əbdülrəhmanov Kamran Müseyib oğlu, Laçın rayonu Pircahan kənd sakinləri Həsənquliyev İman Mehdiqulu oğlu (1967) və Həsənquliyev Vüqar Mehdiqulu oğlu (1974) ilə birlikdə mühasirədə qalaraq girov götürülüb.

Qardaşı-Laçın rayonu Bülövlük kənd sakini, Bakı şəhəri, Xətai rayonu, Əbilov qəsəbəsi, ev 10, mənzil 8-də yaşayan Müseyibov Müseyib Kamran oğlunun dediyinə görə, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman atası və qardaşı Pircahan kənd sakinləri Həsənquliyev qardaşları ilə birlikdə mühasirəyə düşüb. Atası ayağından yaralandığı üçün onlar mühasirədən çıxa bilməyiblər.

Bu məlumatı ona atası və qardaşı ilə birlikdə mühasirəyə düşərək, sonradan xilas olmuş Kəlbəcərin Xallanlı, Başlıbel kənd sakinləri və Pircahan kənd sakini Şakir adlı şəxs verib.

Girov götürülmüş Həsənquliyevlərin qardaşı-Bakı şəhəri, Naximov küçəsi, ev 43, mənzil 21-də yaşayan Həsənquliyev Etibar Mehdiqulu oğlu ərizəsində yazıb ki, Kəlbəcər rayonu işğal olunanda qardaşları, Bülövlük kənd sakinləri Əbdülrəhmanov Kamran Müseyib oğlu və onun oğlu İmam-

## Museyibov (Abdulrahmanov) Imamverdi Kamran oglu

Museyibov (Abdulrahmanov) Imamverdi Kamran oglu was born in Bulovluk village of Lachin district of Azerbaijan Republic in 1967. On the 19th of April, 1993 during the occupation of Kelbajar district by Armenians, his father Abdulrahmanov Kamran Museyib oglu, Hasanguliyev Iman Mehdigulu oglu (year of birth: 1967) and Hasanguliyev Vugar Mehdigulu oglu (year of birth: 1974) who lived in Pirjahan village of Lachin district were surrounded and taken hostages.

According to the words of his brother Museyibov Museyib Kamran oglu who lived in Bulovluk village of Lachin district (at present he lives in Baku, Khatai district, Abilov settlement, 10, app.8), during the occupation of Kelbajar district his father, brother and the Hasanguliyevs who lived in Pirjahan village of Lachin district were surrounded. His father was wounded in leg and couldn't break out of encirclement.

That information was given by Shakir who lived in Pirjahan village of Lachin district. He was with his father and brother but he could break out of encirclement.

The brother of hostages of the Hasanguliyevs-Hasanguliyev Etibar Mehdigulu oglu (he lives in Baku, Nakhimov Street, 43, app.21) wrote a statement that during the occupation of Kelbajar district, the Hasanguliyevs, Abdulrahmanov Kamran Museyib oglu and his son Imamverdi who lived in Bu-

verdi ilə birlikdə ermənilər tərəfindən girov götürülüblər.

Laçın rayonu Alıqulu kənd sakini, Bakı şəhəri, Binəqədi şosesi, ev 2-də yaşayan İsmayılov Şakir Əkbər oğlunun verdiyi məlumata görə, Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunanda 19 nəfər həmyerlisi ilə birlikdə Laçın rayonunun Daşbulaq kəndində Əbdülrəhmanov Kamran və onun oğlu ilə görüşüb. Kamran ayağından yaralandığı üçün həmin kənddə kahalardan birində yerləşdirilib. Aprel ayının 21-də görüşməyi razılaşdıraraq onlardan ayrılıb. Ayın 28-də Daşbulaq kəndinə qayıtdıqda, artıq həmin yer ermənilər tərəfindən işğal olunub. Sonra Müseyibgil haqqında məlumat öyrənə bilməyib.

lovluk village were taken hostages by Armenians.

According to the information of Ismayilov Shakir Akbar oglu who lived in Aligulu village of Lachin district (now he lives Baku, Binagadi highway, 2), during the occupation of Kelbajar district 19 villagers met Abdulrahmanov Kamran Museyib oglu and his son in Dashbulag village of Lachin district. Kamran was wounded in leg and sent to one of caves at same village. On the 21st of April he separated from them and decided to meet. On the 28th of April when he returned Dashbulag village, Armenians captured it. He couldn't get any information concerning Museyib and others.

## Mustafayev Elxan Sadıq oğlu



1970-ci ildə Azərbaycan Respublikası Qax rayonunun Baydarlı kəndində anadan olub. 6 iyun 1992-ci ildə Qax Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq Ağdam rayonuna göndərilib. Şirin Mirzəyevin komandir olduğu taborda döyüşüb. Tank heyətinin komandiri Elxan Ağdam rayonunun Sırxavənd kəndində gedən döyüş zamanı Şahmalıyev Şahid Zəkəriyyə oğlu və Harunov Xəlil Həzrət oğlu ilə ermənilər tərəfindən əsir götürülüb, Dağlıq Qarabağda saxlanılıb.

Qardaşı-Mingəçevir şəhəri, Cəmil Əliyev küçəsi, ev 13, mənzil 18-də yaşayan Mustafayev Allahverdi Sadıq oğlunun dediyinə görə, ermənilər Elxanla birlikdə tank heyətinin digər 2 üzvü Şahidlə Xəlilin əsir götürüldüyünü onların qulluq etdiyi hərbi hissəyə 15 gün sonra bildiriblər. 17 okt-

## Mustafayev Elkhan Sadig oglu

Mustafayev Elkhan Sadig oglu was born in Baydarli village of Gakh district of Azerbaijan Republic in 1970. On the 6th of June, 1992 Elkhan was called up for military service by Military Registration and Enlistment Office of and then he was sent to Aghdam district. He fought in battalion under Shirin Mirzyeyev's command. During the fight in Sirkhavand village the commander of tank crew Mustafayev Elkhan with Shahmaliyev Shahid Zakariyya oglu and Harunov Khalil Hazrat oglu was taken prisoner and kept in Upper Garabagh.

According to the words of his brother Mustafayev Allahverdi Sadig oglu (he lives in Mingechevir city, Jamil Aliyev Street, 13, app.18), Armenians took Elkhan with 2 members of tank crew: Shahid and Khalil, and then after 15 days they connected with the military unit where they served and informed

yabr 1992-ci ildə saat 19.00-da Rusiya Televiziyasının «Vesti» proqramı ilə yayımlanmış verilişdə Dağlıq Qarabağda saxlanılan azərbaycanlı hərbi əsirləri göstəriblər. Həmin əsirlərin arasında Mustafayev Elxan da olub.

Şahmalıyev Şahidin atası-Qax şəhəri M.Məmmədəliyev küçəsi, ev 38-də yaşayan Şahmalıyev Zəkəriyyə Rəhim oğlunun dediyinə görə, oğlunun axtarışı zamanı Ağdam rayonundan olan Akif adlı döyüşçü ona tankın heyət üzvləri ilə Şahidin 3 işğal olunmuş Azərbaycan kəndini ermənilərdən azad edib, qayıdan zaman mühasirəyə alınaraq əsir götürüldüyünü bildirib.

about it. It was broadcasted Azerbaijani prisoners kept in Upper Garabagh by program «Vesti» Russian TV at 19 o'clock on the 17th of October, 1992. Mustafayev Elkhan was between the prisoners.

The father of Shahmaliyev Shahid – Shahmaliyev Zakariyya Rahim oglu (he lives in Gakh district, M.Mammadaliyv Street, 38) said that when he searched for his son, a fighter whose name was Akif informed Shahid with 4 members of tank crew released occupied Azerbaijani village from Armenians but they returned and Armeninas surrounded and took them as prisoners.

## Mustafayev Malik İslam oğlu



1959-cu ildə Bakı şəhərində anadan olub. 6 yanvar 1992-ci ildə Suraxanı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonuna göndərilib. 16 fevral 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində gedən döyüşdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Qax rayonu Zəyəm kənd sakini Nadirov Bayram Cahangir oğlunun dediyinə görə, Maliklə Ağdam rayonunun Şahbulaq taborunda birlikdə döyüşüblər. Xocavənd rayonunun Qaradağlı kəndinin müdafiəsini də bir yerdə təşkil ediblər. 14 fevral 1992-ci ildə ermənilər onları hər tərəfdən mühasirəyə alıb, əsgərlər az qüvvə ilə sursatları qurtarana qədər vuruşublar. 2 gün sonra, fevral ayının 16-da ermənilər mühasirə halqasını sıxlaşdırıb, sağ qalan döyüşçüləri, o cümlədən, Maliklə Bayramı da əsir götürüblər. Əvvəlcə o, Maliklə eyni maşında olub. Bir qədər gedəndən sonra Maliki başqa maşı-

## Mustafayev Malik Islam oglu

Mustafayev Malik Islam oglu was born in Baku in 1959. On the 6th of January, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Surakhani district. Malik was sent to Aghdam district. On the 16th of February, 1992 during the fight in Garadaghli village of Khojavand district he was taken prisoner.

According to the words of Nadirov Bayram Jahangir who returned from Armenian captivity and lived in Zayam village of Gakh district, he with Malik fought in Shakhbulag battalion of Aghdam district. They organized the defense of Garadaghli village of Khojavand district together. On the 14th of February, 1992 Armenians surrounded them but soldiers fought till the bullets were over. 2 days later, on the 16th of February, they couldn't break out of encirclement and Armenians took all the alive fighters including Malik and Bayram as prisoners. Armenians took them to the car. At first he was

na mindirib, naməlum istiqamətə aparıblar. O, bir daha Maliki görməyib.

with Malik at the same car. Later Malik was moved into another car and taken to unknown direction. He didn't see Malik any more.



**Mustafayev Məhəmməd Mollamustafa oğlu**

1914-cü ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Yusifbəyli kəndində anadan olub. 30 avqust 1993-cü ildə ermənilər Qubadlı rayonunun Yusifbəyli kəndini işğal edən zaman ailə üzvlərinə bağda gizlənməyi məsləhət görüb. Özü isə I qrup əlil, yataq xəstəsi olduğu üçün evdə qalıb. Ailə üzvləri onun məsləhəti ilə bağda gizləniblər. Bir neçə saat sonra ermənilər kəndi qarət edib çıxdıqda Məhəmmədə baş çəkməyə qayıtdıqları vaxt onu orada görməyiblər.

Bu məlumatı onun oğlu-Qubadlı rayonu Yusifbəyli kənd sakini Mustafayev Zülfüqar Məhəmməd oğlu və qızı-Bakı şəhəri, Binəqədi rayonu ərazisindəki Bakı Baş Tikinti İdarəsinin 17 saylı yataqxanasında məskunlaşmış Mustafayeva Ziyafət Məhəmməd qızı verib.

**Mustafayev Mahammad Mollamustafa oglu**

Mustafayev Mahammad Mollamustafa oglu was born in Yusifbeyli village of Gubadli district of Azerbaijan Republic in 1914. On the 30th of August, 1993 during the occupation of Yusifbeyli village of Gubadli district, he advised the members of family to hide in the garden. But he was the invalid of 1st group and stayed in bed at the house. According to his advice the members of his family hid in the garden. Several hours later Armenians entered the village. When they left, the house they didn't see Mahammad there.

That information was given by his son Mustafayev Zulfugar Mahammad oglu who lived in Yusifbeyli village of Gubadli district and daughter Mustafayeva Ziyafat Mahammad gizi (now she lives in the hostel № 17 of Baku Head Constructive Department).



**Mustafayev Novruz Əli oğlu**

1940-cı ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Xanlıq kəndində anadan olub. 29 avqust 1993-cü ildə Xanlıq kəndi ermənilər tərəfindən işğal olunan gün şəxsi «Jiquli» markalı avtomaşını ilə öz həyətinə girən zaman ermənilər tərəfindən girov götürülüb.

Bu məlumatı onun həmkəndlisi, Sumqayıt şəhəri, 9-cu mikrorayon, ev 30A, mənzil 6-da məskunlaşmış Heydərov Aqil Mustafa oğlu verib. Aqilin dediyinə görə, Novruza işarə ilə ermənilərin qonşu həyətdə olduğunu bildirsə də, o, başa düşmədiyindən maşını həyətə sürüb. Ermənilərin Novruzu girov götürdüklərinin şahidi olub.

**Mustafayev Novruz Ali oglu**

Mustafayev Novruz Ali oglu was born in Khanlig village of Gubadli district of Azerbaijan Republic in 1940. On the 29th of August, 1993 during the day of Khanlig village's occupation by Armenians Novrus was taken hostage by his private car «Jiguli» when he entered the yard.

That information was given by his villager Heydarov Agil Mustafa oglu (at present he lives in Sumgayit, 9th microdistrict, 30A app.6). According to Agil's words, he made him a sign that Armenians were at his yard. But he didn't understand him. He entered the yard by the car. Agil witnessed Armenians took him as hostage.



**Mustafayev Rasim Rəmzi oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Şəki rayonunun Aşağı Layeqı kəndində anadan olub. 17 iyun 1992-ci ildə Şəki Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdam rayonuna göndərilib. 26 iyun 1993-cü ildə Ağdam rayonunun Xramort kəndində gedən döyüşdə 13 döyüşçü ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb. Sonradan onlardan üçünün meyidi tapılıb, Rasim də daxil olmaqla on nəfərin taleyi məlum olmayıb.

Şəki rayonu Aşağı Layeqı kənd sakin-

**Mustafayev Rasim Ramzi oglu**

Mustafayev Rasim Ramzi oglu was born in Ashagi Layegi village of Shaki district of Azerbaijan Republic in 1974. On the 17th of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shaki district and then he was sent to Aghdam district. On the 26th of June, 1993 during the fight in Khramort village of Aghdam district Rasim with 13 fighters was taken prisoner. Then three corpses of fighters were found. The lives of 10 men including Rasim are unknown.

ləri-Mustafayev Rauf Rəmzi oğlu və Mustafayev Nəbi Rəmzi oğlunun verdiyi məlumata görə, qardaşlarının axtarışı ilə məşğul olan zaman döyüş yoldaşları onlara cəbhə xəttində ermənilərin Rasimi əsir götürüb, Xocavənd rayonunda saxladıqlarını bildiriblər.

According to the information of Mustafayev Rauf Ramzi oglu and Mustafayev Nabi Ramzi oglu who lived in Ashagi Layegi village of Shaki district, when they searched for their brothers, front-line comrades informed that Rasim was taken prisoner on the front line and Armenians kept them in Khojavand district.

## Mustafayev Vüqar Tapdıq oğlu



1974-cü ildə Azərbaycan Respublikası Şəki rayonunun Orta Zəyzid kəndində anadan olub. 1992-ci ildə Şəki Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Tərtər və Ağdərə rayonları uğrunda döyüşlərdə iştirak edib. 10 yanvar 1994-cü ildə Ağdərə rayonunun Akop Komari kəndində gedən döyüş zamanı əsir götürülüb, həmin rayonun Dovşanlı (Araçadzor) kəndində şəxsi evdə saxlanılıb. Bu məlumatı atası-Şəki rayonu Orta Zəyzid kənd sakini Mustafayev Tapdıq Məsim oğlu Vüqarın axtarışı zamanı onun döyüş yoldaşlarından öyrənib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki, 1994-cü ildə qarşı tərəflə aparılan radiodanışıqlarda erməni polis əməkdaşı Abodan Vüqarın əsir götürülüb, Şuşa şəhərində şəxsi evdə saxlandığını öyrənib. Onu hər hansı bir erməni əsiri ilə dəyişmək istəyiblər. Ailəsi erməni əsiri tapa bilmədiyi üçün Vüqarı azad etmək mümkün olmayıb.

Ağdərə rayonu Sırxavənd kənd sakini, Bərdə rayonunun Divanlı kəndində məskunlaşmış Əliyev Sevindik Həbib oğlunun dediyinə görə, itkin düşmüş oğlunun axtarışı ilə məşğul olan zaman dəfələrlə erməni-

## Mustafayev Vugar Tapdig oglu

Mustafayev Vugar Tapdig oglu was born in Orta Zeyzid village of Shaki district of Azerbaijan Republic in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shaki district. Vugar took part in fights for Terter and Aghdara districts. On the 10th of January, 1994 during the fight in Akop Komari village of Aghdara district Mustafayev Vugar was taken prisoner and kept in a private house of Dovshanli (Arachadzor) village of the same district.

His father Mustafayev Tapdig Masim oglu who lived in Orta Zeyzid village of Shaki district got that information from his front-line comrades while searching for Vugar.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgar village of Beylagan district) wrote a statement that he found out from Armenian policeman Abo by radio communication that Vugar was taken prisoner and kept in a private house of Shusha town in 1994. The opposite side wanted to change him for any Armenian prisoner. It was impossible to release Vugar because his family couldn't find Armenian prisoner.

lərlə cəbhə xəttində görüşüb. Həmin görüşlərin birində, Ağdərə rayonunun 3 saylı sovxozunun ərazisində, kanalın üstündə aparılan danışıqlarda Kiran kənd sakini, milliyyətcə erməni olan keçmiş tanışı briqadir Muşeğin oğlu, qarşı tərəfdə rabitə bölüyünün komandiri vəzifəsində xidmət edən Serjik Minasyandan Şəki rayonu Orta Zəyzid kənd sakini Mustafayev Vüqar Tapdıq oğlunun Dovşanlı (Araçadzor) kəndində əsir saxlanılıb, təsərrüfat işinə cəlb edildiyini öyrənib.

According to the words of Aliyev Sevindik Habib oglu who lived in Sirkhavand village of Aghdara district (now he lives in Divanli village of Barda district), when he searched for his missed son, he met Armenians on the front line. At one of meetings, exactly during conversation on the territory of collective farm № 3 of Aghdara district, it's known that Mustafayev Vugar Tapdig oglu who lived in Orta Zeyzid village of Shaki district was kept as a prisoner in Dovshanli (Arachadzor) village and he was forced for agricultural work.

**Mustafayev Xudayar Umbay oğlu**



1964-cü ildə Azərbaycan Respublikası Kürdəmir rayonunun Xəlicə kəndində anadan olub. Neft Akademiyasının son kurs tələbəsi Xudayar 13 dekabr 1993-cü ildə könüllü olaraq cəbhəyə gedib, Ağdam rayonu uğrunda döyüşlərdə iştirak edib. 28 dekabr 1993-cü ildə Ağdam rayonunun Paprəvənd kəndində gedən döyüş zamanı ermənilər tərəfindən yaralı vəziyyətdə əsir götürülüb. Ermənistanın Noyemberyan rayonunda saxlanılıb.

Qardaşları - Sabirabad şəhəri, E. Qənbərov küçəsi, ev 82-də yaşayan Mustafayev Təyyar Umbay oğlu və Bakı şəhəri, Babək prospekti 82-də yerləşən 2 saylı yataqxananın 321-ci otağında yaşayan Mustafayev Yadigar Umbay oğlu bildiriblər ki, 23 dekabr 1994-cü ildə onların Xəlicə kəndindəki evlərinə 2 nəfər Gürcüstan vətəndaşı gələrək Xudayarın Ermənistanın Noyemberyan rayonunda şəxsi evdə əsir saxlandığını deyiblər. Bundan sonra onlar Gürcüstan Respublikasının Marneuli rayonunun Sadaxlı kəndinə gedib, Çaylı oğlu

**Mustafayev Khudayar Umbay oglu**

Mustafayev Khudayar Umbay oglu was born in Khalije village of Kurdamir district of Azerbaijan Republic in 1964. Khudayar who was the last-year student of Oil Academy voluntarily went to the front and took part in fights for Aghdam district on the 13th of December, 1993. On the 28th of December, 1993 during the fight in Papravand village of Aghdam district wounded Khudayar was taken prisoner by Armenians. He was kept in Noyemberyan district of Armenia.

His brothers: Mustafayev Tayyar Umbay oglu (he lives in Sabirabad town, E.Ganbarov Street, 82) and Mustafayev Yadigar Umbay oglu (he lives in the hostel № 2, room 321 in Baku, Babak Avenue, 82) informed that 2 citizens of Georgia went to their place in Khalija village and said that Khudayar was kept in a private house in Noyemberyan district of Armenia on the 23rd of December, 1993. Then they went to Sadakhli village of Marneuli district of Georgia and met Chayli oglu Hasan. Hasan took them to his

Həsənlə görüşüblər. Həsən onları Xudayardan xəbər gətirmək üçün erməni tanışlarının yanına aparıb. Qarşı tərəfin nümayəndələri qardaşlardan 400 min rus rublu tələb edib. Bir həftədən sonra ataları Mustafayev Umbay həmin məbləği ermənilərə verən zaman ona Xudayarın pasportunu göstəriblər. Ermənilər onu azad etmək üçün Azərbaycan tərəfində əsir saxlanılan Kolya Çolakoviç Kazaryanı tapmağı tələb ediblər. Onların dediklərinə görə, Xudayar Noyemberyan rayonunda, Kolyagilin ailəsində saxlanılıb. Kazaryan tapılmadığı üçün onu qaytarmaq mümkün olmayıb.

Armenian familiar who would inform about Khuadayar. The representatives of opposite side demanded 400000 Russian rubles. A week later his father Mustafayev Umbay gave that money to Armenians and they gave him Khudayar's passport. Armenians demanded to find Kolya Cholakovich Kazaryan who kept by Azerbeijanis and then they would release him. According to the words of Armenians, Khudayar was kept in Kolya's family in Noyemberyan district. It was impossible to release Khudayar because they couldn't find Kolya.



## Mustafayev Zaur Əhmədağa oğlu

1975-ci ildə Azərbaycan Respublikası Ucar rayonunun Yuxarı Şilyan kəndində anadan olub. 9 yanvar 1994-cü ildə Ucar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 10 may 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Bu məlumatı atası-Ucar rayonu Yuxarı Şilyan kənd sakini Mustafayev Əhmədağa Muxtar oğlu Zaurun döyüş yoldaşlarından öyrənib.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Sahil qəsəbəsi sakini Şükürov Ağasəf Əlihəsən oğlu və Sumqayıt şəhəri, 13-cü mikrorayon, ev 46, mənzil 14-də yaşayan Məmmədov Qadir İmanqulu oğlu 1994-cü ildə Şuşa həbsxanasında Mustafayev Zaurla saxlandıqlarını bildiriblər.

## Mustafayev Zaur Ahmedaga oglu

Mustafayev Zaur Ahmedaga oglu was born in Yukhari Shilyan village of Ujar district of Azerbaijan Republic in 1975. On the 9th of January, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Ujar district. On the 10th of May, 1994 during the fight for Murovdag height of Kelbajar district Zaur was taken prisoner by Armenians.

His father Mustafayev Ahmedaga Mukhtar oglu who lived in Yukhari Shilyan village of Ujar district got that information from Zaur's front-line comrades.

Shukurov Agasaf Alihasan oglu (he lives in Baku, Sahil settlement) and Mammadov Gadir Imangulu oglu (he lives in Sumgayit town, 13th microdistrict, 46, app.14) who returned from Armenian captivity informed that they with Mustafayev Zaur were kept in Shusha prison in 1994.



## Mütəllibov Afər Zakir oğlu

1969-cu ildə Azərbaycan Respublikasının Zaqatala şəhərində anadan olub. 1992-ci ildə könüllü olaraq Qarabağ uğrunda döyüşlərə yollanıb. Şuşanın müdafiəsini təşkil edən Ramiz Qənbərovun taborunun üzvü olub. 8 may 1992-ci ildə Daşaltı kəndindəki yanacaqdolurma məntəqəsinin yanında gedən döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Bu məlumatı qardaşı-Zaqatala şəhəri, Azadlıq küçəsi, ev 53-də yaşayan Mütəllibov Azər Zakir oğlu Afərin axtarışı zamanı onun döyüş yoldaşlarından öyrənib. Masallı rayon sakini Əli adlı (soyadını və ünvanını unudub) döyüşçü Afərin ayağından yaralanaraq əsir götürülməsinin şahidi olduğunu deyib.

Anası-Zaqatala şəhəri, Azadlıq küçəsi, ev 53-də yaşayan Mütəllibova Fatma Paşa qızı izahatında yazıb ki, 1994-cü ildə Rusiya televiziyasının «Vesti» proqramında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) nümayəndəsi Rafaellinin Ermənistana səfəri haqqında hazırlanmış verilişdə orada saxlanılan azərbaycanlı əsirlərin sırasında Afəri də göstəriblər. Sonradan onun haqqında heç bir məlumat əldə olunmayıb.

## Mutalibov Afar Zakir oglu

Mutalibov Afar Zakir oglu was born in Zagatala of Azerbaijan Republic in 1969. In 1992 he voluntarily was sent to fight for Garabagh. Afar was the member of Ramiz Ganbarov's battalion who organized the defense of Shusha. On the 8th of May, 1992 Afar was wounded and taken prisoner during Shusha's occupation by Armenians near petrol servicing in Dashalti village.

His brother Mutalibov Azer Zakir oglu (he lives in Zagatala district, Azadlig Street, 53) got that information from his front-line comrades while searching for Afar. Fighter whose name was Ali from Masalli district (he forgot his surname and address) witnessed that Afar was wounded in leg and taken prisoner.

His mother Mutalibova Fatma Pasha gizi (she lives in Zagtala district, Azadlig Street, 53) wrote a statement that the representative of OSCE prepared the program about Rafael's trip in Armenia and it was broadcasted Azerbaijani prisoners who were kept there by Russian TV, «Vesti». There was Afar among those prisoners. Later there's no information concerning him.



### Mütəllimov Barat Gülağa oğlu

1966-cı ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Ağahəsənli kəndində anadan olub. 1992-ci ilin dekabr ayında Əli Bayramlı şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Qubadlı, sonra Zəngilan uğrunda döyüşlərə göndərilib. 24 dekabr 1992-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Baratın sabiq tabor komandiri-Bakı şəhəri, Zığ şosesi, ev 49, mənzil 6-da yaşayan Cəbrayılov Xaqani Sərdar oğlu izahatında yazıb ki, Yuxarı Yeməzli kəndində gedən, onun rəhbərlik etdiyi döyüşdə 36 hərbçi əsir götürülüb. 1993-cü il yanvar ayının 1-də ermənilər əlaqə yaradaraq əsir götürdükləri əsgərlərdən 13 nəfərinin, o cümlədən Mütəllimov Baratın da adı olan siyahını onlara veriblər.

Əsir Osmanov Əkrəm Məmmədşah oğlunun qardaşı-İsmayıllı rayonu Yuxarıbaş kənd sakini Osmanov Vaqif Məmmədşah oğlunun verdiyi məlumata görə, ermənilərin azərbaycanlı hərbçilərlə apardıqları radiodanışıqlarda atası və qardaşı ilə birlikdə o da iştirak edib. Qarşı tərəf əsir götürdüyü və Ermənistanın Gorus rayonunda saxladığı 13 azərbaycanlı hərbçinin hər biri üçün 10 ton benzin tələb edib. Ermənilərin tələbləri yerinə yetirilmədiyi üçün Mütəllimov Baratla birlikdə əsir götürülmüş 12 hərbçinin sonrakı taleyi məlum olmayıb.

### Mutallimov Barat Gulaga oglu

Mutallimov Barat Gulaga oglu was born in Agahasanli village of Sabirabad district of Azerbaijan Republic in 1966. In December of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ali-Bayramli town and was sent to Gubadli district. Then Barat was sent to fight for Zangilan district from his military unit. On the 24th of December, 1992 during the fight in Zangilan district wounded Barat was taken prisoner by Armenians.

Former Barat's commander of battalion Jabrayilov Khagani Sardar oglu (he lives in Baku, Zig highway, 49, app.6) wrote a statement that during the fight in Hayarak village of Zangilan district 36 fighters were taken prisoners. On the 1st of January, 1993 Armenians connected and gave them a list of 13 prisoners including Mutallimov Barat.

The brother of prisoner of war Osmanov Akram Mammadshah oglu – Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district informed that his father, brother and he with Azerbaijani military men took part in radio communication with Armenians. Armenians demanded 10 t petrol for each 13 Azerbaijani military men kept in Gorus district of Armenia. There was no information concerning Mutallimov Barat with 12 prisoners because Armenians' demands weren't realized.



**Muxtarov Telman Əlisahib oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Hacıqabul rayonunun Nəvahi kəndində anadan olub. 1992-ci ilin iyun ayında Əli Bayramlı Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Füzuli rayonuna göndərilib. Orada gedən döyüş zamanı yaralanıb, müalicə olunduqdan sonra yenidən cəbhəyə yollanıb. 1993-cü il fevral ayında Ağdərə rayonunun Canyataq kəndində gedən döyüş zamanı əsir götürülüb.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış, Abdullayev Tofiq İsmayıl oğlu bildirib ki, 1994-cü ildə əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyandan Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahısını əldə edib. Həmin siyahıda Muxtarov Telmanın da adı olub. Onun Xankəndində saxlandığı göstərilib. Siyahını Şuşa şəhərindəki erməni alayının qəqargah rəisi Armais Saakyan təsdiq edib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyiblər. Ayriyan həbsxanada öldüyü üçün dəyişmə baş tutmayıb.

Həmin siyahını əsir İsayev Bəxtiyarın atası-Bakı şəhəri, Motodrom massivi 8-də yaşayan İsayev Səfər Əli oğlu, əsir Ağalarov Yaşarın atası-Goranboy rayonu Xanqərvənd kənd sakini Musa Ağalarov və əsir Hümbətov Xalidin atası-Kəlbəcər rayonu Halçalı kənd sakini Əli Hümbətov da əldə edib.

**Mukhtarov Telman Alisahib oglu**

Mukhtarov Telman Alisahib oglu was born in Navahi village of Hajigabul village, of Azerbaijan Republic in 1974. In June of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ali-Bayramli town. Telman was sent to Fuzuli district allotted to Internal Forces. He was wounded during the fight and then he was given treatment. Then he again was sent to the front. In February of 1993 Telman was taken prisoner during the fight in Janyatag village of Aghdara district.

Abdullayev Tofig Ismayil oglu who lived in Dashalti village of Asgaran district (he lives in sanatorium «Zugulba» in Baku, Buzovna settlement), informed that when he was engaged in change of prisoners and hostages in 1994, the representative of opposite side Albert Voskanyan gave him a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC. There was the name of Mukhtarov Telman in the list. That list was confirmed by Armais Saakyan chief of staff of Armenian regiment in Shusha. Armenians wanted to change him for a killer of journalist Salatin Asgarova – Arkadi Ayriyan whose nick name was «Napoleon». Ayriyan died at the prison and the change wasn't realized.

The father of prisoner of war Isayev Bakhtiyar Safar oglu – Isayev Safar Ali oglu (he lives in Baku, Motodrom massif, 8), the father of prisoner of war Agalarov Yashar Musa oglu – Agalarov Musa who lived in Khangarvand village of Goranboy district and the father of prisoner of war Humbatov Khalid Ali oglu – Humbatov Ali who lived in Halchali village of Kelbajar district got that list.



**Nağıyev Zahid Baxış oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qaradağlı kəndində anadan olub. 16 iyun 1993-cü ildə Ağdam Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 17 aprel 1994-cü ildə Ağdam rayonunun Cəvahirli kəndində gedən döyüşdə ağır yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən azad olunmuş Saatlı rayonu Qıraqlı kənd sakini Alşanov Elməddin Orucəli oğlunun verdiyi izahata görə, 18 aprel 1994-cü ildə Ağdamın Cəvahirli kəndində gedən döyüşdə 7 döyüşçü, o cümlədən, onunla eyni tağımda qulluq etmiş Nağıyev Zahid Baxış oğlu da ağır yaralı vəziyyətdə mühasirəyə düşərək rus hərbçiləri tərəfindən əsir götürülüb, ermənilərə təhvil verilib. Elməddini 55-60 yaşlarında, əvvəllər Bakı şəhərində Pedaqoji Universitetdə müəllim işləmiş bir nəfər erməni, əsir götürülmüş Qaryan soyadlı qohumu ilə dəyişmək məqsədilə pulla rus hərbçilərindən alıb. Elməddin evinə aparmamışdan əvvəl ermənilər Zahidgilin maşına mindirilib, naməlum istiqamətə aparıldığının şahidi olub. O, bir daha Zahidi görməyib. Zahid ağır yaralandığı üçün ermənilər onu Xankəndi, yüngül yaralıları isə Ağdam qospitalına aparıblar.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin təqdim etdiyi qarşı tərəfdə saxlanılan azərbaycanlı əsirlərin siyahısında Ağdamın Cəvahirli kəndində əsir götürülmüş Nağıyev Zahidin də adı olub.

**Nagiyev Zahid Bakhish oglu**

Nagiyev Zahid Bakhish oglu was born in Garadaghli village of Aghdam district of Azerbaijan Republic in 1975. On the 16th of June, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Aghdam district. On the 17th of April, 1994 during the fight in Javahirli village of Aghdam district wounded Zahid was taken prisoner.

According to a statement of Alshanov Elmaddin Orujali oglu who released from Armenian captivity and lived in Giragli village of Saatli district, 7 fighters including wounded Nagiyev Zahid from the same troop were surrounded and taken prisoners by Russian soldiers and they were handed over Armenians during the fight in Javahirli village of Aghdam on the 18th of April, 1994. Elmaddin was bought for money from Russians in order to change for the relative of Garayan, prisoner who was 55-60 years old, a teacher at Pedagogical University in Baku. Elmaddin witnessed that Zahid and others got on the car and went to unknown direction. He didn't see Zahid any more. Zahid was seriously wounded and Armenians took him to Khankandi but those who wounded not seriously, they were sent to Aghdam hospital.

According to the list of Azerbaijani prisoners represented by ICRC there was the name of Nagiyev Zahid in the list who taken prisoner in Javahirli village of Aghdam district.



**Namazov Elçin Mahmud oğlu**

1962-ci ildə Azərbaycan Respublikasının Şamaxı şəhərində anadan olub. Baş leytenant Namazov Elçin 14 sentyabr 1992-ci ildə Abşeron Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdamın müdafiəsini təşkil edən Yaqub Rzayevin (Qatır Məmmədin) batalyonunda tank heyətinin komandiri vəzifəsində xidmət edib. 30 oktyabr 1992-ci ildə Ağdam rayonunun Fərrux yüksəkliyi istiqamətində gedən döyüşdən geri qayıtmayıb.

Döyüş yoldaşı - Ağcabədi rayonunun Şənlik kəndində anadan olmuş, 1-ci qrup Qarabağ müharibəsi əlili Məmmədov Elman Nuruş oğlunun verdiyi məlumata görə, onlar Ağdam rayonunun Xoramurd, Yeddi xırman və Şelli kəndləri istiqamətində döyüşlərdə birgə iştirak ediblər. 30 oktyabr 1992-ci ildə Ağdamın Fərrux yüksəkliyi uğrunda döyüşdən tank heyətinin komandiri Namazov Elçin və nişançı İsmayılov Tahir geri dönməyiblər. Hərbçilər bir neçə gün sonra ermənilərlə radioəlaqə yaradaraq Artur adlı şəxsdən Elçin və Tahirin onların nəzarəti altında saxlandığını, azad edilmələri üçün 2.000 ABŞ dolları və 3 ton yanacaq tələb olunduğunu öyrəniblər. Qarşı tərəfin tələbi yerinə yetirilmədiyi üçün döyüşçülər azad olunmayıblar.

Atası - Şamaxı rayonu, 20 yanvar küçəsi, 13/14 saylı evdə yaşayan Namazov Mahmud Mirzəli oğlunun ərizəsində göstərilib ki, o, 1997-ci ildə Gürcüstandakı 27001 saylı hərbi hissənin rabitəçisi milliyyətcə erməni Venera adlı qadın vasitəsilə Xankəndində komendantlıqda işləyən qohumundan Namazov Elçinin sağ olduğunu və Ağdamda, hərbi əsirlərlə birlikdə keç-

**Namazov Elchin Mahmud oglu**

Namazov Elchin Mahmud oglu was born in Shamakhi town of Azerbaijan Republic in 1962. On the 14th of September, 1992 senior lieutenant Namazov Elchin was called up for military sevice by the Military Registration and Enlistment Office of Apsheron district. He served as a commander of tank battalion organized by Yagub Rzayev (Gatir Mammad) for Aghdam's defense. On the 30th of October, 1992 Elchin didn't return from fight in direction of Farrukh height of Aghdam district.

According to the information of Elchin's front-line comrade, invalid of 1st group Garabagh War Mammadov Elman Nurush oglu who was born in Shenlik village of Aghjabedi district, they took part together in fights for Khoramurd, Yeddi Khirman and Shelli villages of Aghdam district. On the 30th of October, 1992, during the fight for Farruh height of Aghdam district, the commander of tank battalion Namazov Elchin and Ismayilov Tahir didn't return. Several days later military men connected by radio communication and Armenian Artur said that Elchin and Tahir were supervised by them and demanded for their release 2.000 USA dollars and 3 t of fuel. It was impossible to release the fighters because their demands didn't realize.

His father Namazov Mahmud Mirzali oglu (he lives in Shamahi district, 20 January Street, app.13/14) wrote a statement that, during search for his son they found out from Armenian woman Venera who worked as a signaler in military unit № 27.001 in Georgia found out from her relative who worked at commandant's office that Namazov Elchin

miş rabitəçi Mixail Mkrtıçyanın nəzarəti altında saxlandığını öyrənib.

was alive and kept in occupied Aghdam between prisoners who supervised by former signaler Misha Mkrtichyan.



**Namazov Mübariz Güloğlan oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Qazaxlar kəndində anadan olub. 1991-ci ildə Füzuli Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, 6 ay sovet ordusunda qulluq etdikdən sonra geri qayıdıb. Hərbi xidmətini Füzuli rayonunda, doğma torpaqları erməni işğalçılarından qorumaqla davam etdirib. Döyüşlərdən birində ağır yaralanıb, müalicə olunduqdan sonra yenə də hərbi hissəyə qayıdıb.

1992-cü il oktyabr ayının 23-də Füzuli rayonunun Araz çayı boyu kəndləri işğal olunanda hərbçilərin müşayiəti ilə mülki əhali İran İslam Respublikasına keçən zaman Mübariz itkin düşüb.

1995-ci ildə Füzuli rayonunun Alxanlı kəndində qulluq edən zabit Rəhmanla erməni tərəfindən özünü Süleyman kimi təqdim edən şəxs radioəlaqə yaradaraq onun əlində Mübariz də daxil olmaqla 10 azərbaycanlı əsirin olduğunu bildirib. Süleyman Mübarizin əvvəl Zəngilanda saxlandığını, sonra Füzuliyə gətirildiyini qeyd edib. Lakin sonradan onun haqqında heç bir məlumat almaq mümkün olmayıb.

**Namazov Mubariz Guloglan oglu**

Namazov Mubariz Guloglan oglu was born in Gazakhlar village of Fuzuli district of Azerbaijan Republic in 1973. In 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Fuzuli district. Mubariz has served in ranks of Soviet Army for 6 months. Then he came back. He continued his service to defend Fuzuli district from Armenian occupants. Mubariz was wounded, then he treated at the hospital and returned the military unit.

On the 23rd of October, 1992 during the occupation of villages situated along the Araz river of Fuzuli district people passed through Islamic Republic of Iran accompnying by the military men, Mubariz was missed at that moment.

In 1995 an officer who served in Alkhanli village of Fuzuli district with Rahman connected with man who represented himself as Suleyman by radio communication and informed that 10 Azerbaijani prisoners including Mubariz were kept by him. Suleyman noted that Mubariz was kept in Zangilan and then he was taken to Fuzuli district. It was impossible to find out any information concerning Mubariz.



## Nəbiyev Cəlal Ənvər oğlu

1973-cü ildə Azərbaycan Respublikası Quba rayonunun Qaraçay kəndində anadan olub. 1992-ci ilin may ayında Quba Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Çavuş Nəbiyev Cəlal Tərtər rayonunda xidmət edib. 24 aprel 1994-cü Tərtər rayonunun Cəmilli kəndi ilə Ağdərə rayonunun Talış kəndi arasındakı ərazidə döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Atası-Quba rayonu Qaraçay kənd sakini Nəbiyev Ənvər Əsgər oğlu ərizəsində yazıb ki, oğlunun axtarışı zamanı Cəlalın xidmət etdiyi hərbi hissənin briqada komandiri Tofiq Məmmədov Cəlalla birlikdə Ağsu rayon sakini Talıbov Rüfət Dadaş oğlunun da əsir götürüldüyünü qeyd edib. Talıbov Rüfətin atası Dadaş Nəbiyev Ənvərə Şuşa polis alayında xidmət edən kapitan Yaşarın (soyadını unudub) ona ermənilərin hər iki döyüşçünü Talış kəndinin yaxınlığındakı üzümlükdə əsir götürüb, Xankəndi şəhərinə apardıqları barədə dediyini bildirib. Nəbiyev Ənvər radioəlaqə yaradaraq qarşı tərəfdə xidmət edən hərbçilərlə danışıb. Onlardan Cəlalla Rüfətin əsir götürülüb, Xankəndinə aparıldığını öyrənib.

## Nabiyev Jalal Anvar oglu

Nabiyev Jalal Anvar oglu was born in Garachay village of Guba district of Azerbaijan Republic in 1973. In May of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Guba district. Sergeant Nabiyev Jalal served in Terter district. On the 24th of April, 1994 during the fight between Talish village of Aghdara district and Jamilli village of Terter istrict, he was taken prisoner by Armenians.

His father Nabiye Anvar Asgar oglu who lived in Garachay village of Guba district wrote a statement that when he searched for his son, the commander of brigade from Jalal's military unit Mammadov Tofig informed that after the fight there was neither corpse nor the wounded on the territory. The commander of brigade noted that Jalal with Talibov Rufat Dadash oglu who lived in Agsu district was taken prisoner. Rufat Talibov's father – Dadash informed that the member of Shusha police regiment captain Yashar (he forgot his surname) said that both of fighters' were taken prisoners near vineyard in Talish village and sent to Khankandi. While searching for Nabiyev Anvar, he connected by radio communication and talked to military men. He found out from them that Jalal and Rufat were taken prisoners and sent to Khankandi.



**Nəbiyev
Məcid
Nurməhəmməd oğlu**

1971-ci ildə Azərbaycan Respublikasının MİngəçevIr şəhərində anadan olub. 1991-ci ildə könüllü olaraq Mingəçevir şəhər Hərbi Komissarlığına müraciət edib. Gəncə hərbi polis dəstəsinin tərkibində Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Bölmə komandiri baş çavuş Məcid Nəbiyev 9 fevral 1993-cü ildə Ağdərə rayonunun Mehmanə kəndində gedən döyüşdə 5 döyüşçü ilə əsir götürülüb, Yerevan şəhərinə aparılıb.

Qardaşı-Mingəçevir şəhəri, 20 Yanvar küçəsi ev 166, mənzil 25-də yaşayan Nəbiyev Dilqəm Nurməhəmməd oğlunun dediyinə görə, 1997-ci ildə ona Beynəlxalq Qırmızı Xaç Komitəsinın Bakı şəhərində yerləşən nümayəndəliyində Rafiq Əsgərovun iştirakı ilə Ermənistanın «Əsgər Anaları» Assosasiyası tərəfindən göndərilmiş, Gəncə Hərbi Polisi tərəfindən verilmiş vəsiqənin surəti təqdim edilib.

Tovuz rayonu Əsrik-Çırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Cəmiyyətinin nümayəndəsi Alaverdiyan Şamirdən (Yerevan şəhəri-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22, tel:48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısında Nəbiyev Məcidin də adı olub. Onun Yerevan şəhərində yerləşən mərkəzi həbsxanada saxlandığı göstərilib.

**Nabiyev
Majid
Nurmahammad oglu**

Nabiyev Majid Nurmahammad oglu was born in 1971. In 1991 he voluntarily appealed to the Military Registration and Enlistment Office of Mingechevir city. Majid took part in fights for Garabagh allotted to Ganja military police detachment. The commander of subdivision senior sergeant Nabiyev Majid with 5 fighters was taken prisoner by Armenians during the fight in Mehmane village of Aghdara district on the 9th of February, 1993. Then he was sent to Yerevan.

According to the words of his brother Nabiyev Dilgam Nurmahammad oglu (he lives in Mingechevir, 20 January, 166, app.25), Rafig Asgarov got Majid's copy of identy card given by Ganja Military Police and the representative of ICRC gave it to him by Armenian Association of «Soldiers' mothers».

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister – Huseynova Tamara, he got a list of Azerbaijani prisoners of war and hostages from the representative of Armenian CRC Alaverdiyan Shamir (Yerevan-74, Nijni Shengavit Street, 35, app.22, phone: 63-60-70) in Tbilisi. There was the name of Nabiyev Majid in the list. It was shown that he was kept in a central prison in Yerevan.



## Nəcəfov Camal Rzaqulu oğlu

1969-cu ildə Azərbaycan Respublikası Neftçala rayonunun Aşağı Surra kəndində anadan olub. 1993-cü ildə Neftçala Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonu ərazisində gedən döyüşlərə göndərilib. 7 mart 1993-cü ildə Ağdərə rayonunun Qlobus yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı- Neftçala rayonu Aşağı Surra kənd sakini Nəcəfov Vaqif Rzaqulu oğlu ərizəsində yazıb ki, Camalın axtarışı zamanı qulluq etdiyi hərbi hissədən onun Qlobus yüksəkliyi uğrunda döyüşdə yaralandığını, əsgərlərin dağınıq şəkildə geri çəkildiyi üçün işğal olunmuş əraziyə qayıdıb, onu xilas edə bilmədiklərini deyiblər.

Əsir Atamoğlanov Əbülfət Sabir oğlunun qardaşı-Salyan rayonu Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlunun verdiyi məlumata görə, 1996-cı ildə qardaşının axtarışı zamanı Gürcüstan Respublikası ərazisində Ermənistan Respublikasının Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqo adlı şəxslə görüşüb. Qaqo ona qarşı tərəfdə saxlanılan, Nəcəfov Camal Rzaqulu oğlunun da adı daxil olan 14 azərbaycanlı hərbi əsirin siyahısını verib. Həmin əsirlər bir müddət Ermənistanın Kirovakan şəhərində, sonra Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin Yerevan şəhərində yerləşən İstintaq Təcridxanasında saxlanılıblar.

Bu məlumatı Qaqoya yaxın qohumu, Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsi Noyembryan rayon şöbəsinin rəisi Alik Sarumyan verib.

## Najafov Jamal Rzagulu oglu

Najafov Jamal Rzagulu oglu was born in Ashagi Surra village of Neftchala district of Azerbaijan Republic in 1969. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Neftchala district. Then Jamal was sent to fight in Aghdara district. On the 7th of March, 1993 during the fight for Globus height of Aghdara district he was taken prisoner by Armenians.

His brother Najafov Vagif Rzagulu oglu who lived in Ashagi Surra village of Neftchala district wrote a statement that while searching for Jamal, it was found out from the military unit that during the fight for Globus height he was wounded and returned to the occupied territory. It was impossible to help him.

The brother of prisoner of war Atomoglanov Abulfat Sabir oglu – Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengli village of Salyan district informed that while searching for his brother, he met Gago on the territory of Georgia who lived in Lembeli village of Noyemberyan district of Armenia in 1996. Gago gave him a list of 14 Azerbaijani prisoners of war including Najafov Jamal Rzagulu oglu. Those prisoners were kept in Kirovokan of Armenia and in Investigatory Isolation in Armenian Committee of State Security in Yerevan. That information was given by Gago's relative Alik Sarumyan who was the chief of Noyemberyan district department Armenian Committee of State Security.



## Nəcəfov Elsevər Serbiya oğlu

1973-cü ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Balyand kəndində anadan olub. 1991-ci ildə Cəbrayıl Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Sankt-Peterburq şəhərinə göndərilib. Həmin ilin noyabr ayında Cəbrayıl rayonuna qayıdıb, ərazi özünümüdafiə taborunun tərkibində döyüşüb. 28 iyun 1992-ci ildə Quşçular postunda növbə çəkən zaman ermənilər tərəfindən əsir götürülüb, Şuşa şəhərinə aparılıb.

Anası-Cəbrayıl rayonu Balyand kənd sakini Xanməmmədova Simuzər Qədir qızının verdiyi məlumata görə, oğlunun axtarışı zamanı öyrənib ki, Elsevər Quşçular postunda növbə çəkən zaman ermənilər Sur kəndi ilə Hadrut rayonunu birləşdirən Ağ yol deyilən əraziyə hücum ediblər. Elsevər də həmin döyüşdə iştirak edib. 2 gün sonra 30 iyun 1992-ci ildə qarşı tərəf radioəlaqə yaradaraq Sur kənd sakini, girov götürülmüş, 50-55 yaşlarında olan milliyyətcə erməni qadını və həmin kənddə gedən döyüşdə öldürülmüş 5 erməni hərbçisinin meyidini Elsevərlə dəyişməyə razılıq veriblər. Dəyişmə zamanı ermənilər verdikləri sözə əməl etməyiblər. Aldıqları qadının və 4 meyidin (onlardan ikisi zənci olub) yerinə şəhid olmuş 5 nəfər azərbaycanlı hərbçinin meyidini qaytarıblar.

## Najafov Elsavar Serbiya oglu

Najafov Elsavar Serbiya oglu was born in Balyand village of Jabrayil district of Azerbaijan Republic in 1973. In 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Jabrayil district. Elsavar was sent to Sankt-Peterburg to serve in ranks of Soviet Army. In November he returned Jabrayil district to continue his military service in Motherland. On the 28th of June, 1992 during his duty in Gushchular point of the same district, Najafov Elsavar was taken prisoner by Armenians and then he was taken to Shusha town.

According to the information of his mother Khanmammadova Simuzar Gadir gizi who lived in Balyand village of Jabrayil district during the search, she found out that Elsavar was in Gushchular point. Armenians attacked the territory called White Way in Sur village of Hadrud district. Elsavar took part in the same fight. 2 days later, on the 30th of June, 1992 the opposite side connected by radio communication and informed to the self-defense battalion in Jabrayil district that they were agreed to change Elsavar for 50-55 years old Armenian woman from Sur village who taken hostage and corpses of 5 Armenian military men. During the change Armenians didn't keep the promise. They took that woman from Sur village and 4 corpses (both of them were Negro) and returned only 5 corpses of Azerbaijani military men.



**Nəcəfov Əsgər Azad oğlu**

1938-ci ildə Azərbaycan Respublikası Şuşa rayonunun Kosalar kəndində anadan olub, sonradan Ağdam rayonunun Sarıcallar kəndinə köçüb. 23 iyul 1993-cü ildə qohumu Rzayev Balış Nəbi oğlu ilə birlikdə girov götürülüb. Əvvəlcə işğal olunmuş Ağdamda saxlanılıb, sonradan Xankəndi şəhərinə aparılıb.

Erməni əsirliyindən azad edilmiş qohumu-Ağdam rayonu Sarıcallı kənd sakini, Bərdə rayonunda yerləşən Türk Qızılay çadır şəhərciyində məskunlaşmış Rzayev Balış Nəbi oğlunun verdiyi məlumata görə, kəndləri işğal olunan gün ermənilər onu Əsgərlə birlikdə girov götürüb, Ağdama aparıblar. Əsgəri milliyyətcə rus olan bir şəxslə Xankəndi şəhərinə göndəriblər. Bir neçə gün sonra onun saxlandığı hərbi şəhərciyə 2 azərbaycanlı əsir: Mahmudov Möhlət və Göyçay sakini Əliyev Mansuru gətiriblər. Onlar Balışa bir gün əvvəl ermənilərin Əsgəri möhkəm döydüklərini və öndə yerləşən qızıl dişlərini adi kəlbətinlə çıxartdıqlarını deyiblər. O, 4 ay sonra Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən azad olunub və bir daha Əsgəri görməyib.

Həyat yoldaşı-Bakı şəhəri, Nizami rayonu 8-ci Kilometr qəsəbəsi, Çernışevski küçəsi 47, mənzil 14-də məskunlaşmış Mahmudova Gülsarə İdayət qızı izahatında yazıb ki, əmisi də Əsgərlə birlikdə Xankəndi şəhərində əsir saxlanılan vaxt Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə ona məktub göndərib. Əmisi cavab məktubunda 3 gün Əsgərlə birlikdə saxlandığını, sonra Albert Voskanyanın Əsgəri əvvəllər tanıdığı üçün onu digər əsirlərdən ayırıb, naməlum istiqamətə apardığını yazıb.

**Najafov Asgar Azad oglu**

Najafov Asgar Azad oglu was born in Kosalar village of Shusha district of Azerbaijan Republic in 1938. Then he moved into Sarijallar village of Aghdam district. On the 23rd of July, 1993 during the day of Aghdam's occupation Asgar with relative Rzayev Balish Nabi oglu was taken hostage by Armenians. At first he was kept in Aghdam, then in Khankandi.

According to the information of his relative Rzayev Balish Nabi oglu who returned from Armenian captivity and lived in Sarijalli village of Aghdam district (he lives in Turk Gizilay camp town in Barda district), during the day of Aghdam's occupation by Armenians he with Asgar was taken hostage and sent to Aghdam. The next morning Asgar with a Russian soldier has sent to Khankandi. Several days later 2 Azerbaijani prisoners: Mahmudov Mohlat and Aliyev Mansur who lived in Goychay district were taken to the same military town. They said to Balish that Asgar was beaten by Armenians and then they took out his gold teeth by pliers. 4 months later Balish who released by assistance of ICRC didn't see Asgar any more.

His wife Mammadova Gulsara (she lives in Baku, Nizami district, 8 km settlement, Cherneshevski Street, 47, app.14) wrote a statement that while Asgar with his uncle keeping as prisoners in Khankandi, he wrote a letter by the assistance of ICRC. His uncle wrote that he was kept with Asgar for 3 days and then Albert Voskanyan separate Asgar because he recognized him and took with another prisoners to unknown direction.

Erməni əsirliyindən azad edilmiş Ağdam rayon sakini, Bərdə rayonu dəmiryol stansiyasında vaqonlarda yerləşən qaçqın şəhərciyində məskunlaşmış Abdullayev Ərşad Əvəz oğlu işğal olunmuş Ağdam şəhərində Nəcəfov Əsgərlə birlikdə saxlandığını qeyd edib. Sonradan ermənilər onu Xankəndi şəhərinə aparıblar.

Abdullayev Arshad Avaz oglu who released from Armenian captivity and lived in Aghdam district (he lives in town for refugees in Barda district) noted that he was kept with Najafov Asgar in occupied Aghdam. Then Armenians took him to Khankandi.



**Nəcəfov İbadət Nəcəf oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Laçın rayonunun Oğuldərə kəndində anadan olub. 1990-cı ildə Laçın Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Laçın rayonunda yerləşən özünümüdafiə alayının tərkibində döyüşüb. 17 sentyabr 1992-ci ildə Sarıbaba yüksəkliyi uğrunda döyüş zamanı ayağının bud nahiyəsindən ağır yaralanıb və əsir götürülüb.

Döyüş yoldaşı-Laçın rayon sakini, hazirda Bakı şəhəri, Bakıxanov qəsəbəsi, 40/85-ci məhəllə, ev1, mənzil 12-də məskunlaşmış Xıdırov Sabir Cəfər oğlunun dediyinə görə, Nəcəfov İbadət Sarıbaba yüksəkliyi uğrunda döyüşdə ağır yaralanıb, döyüş yoldaşı onu boşalmış Xırmanlar kəndindəki evlərdən birində yerləşdirib. Tələsik gələrək Sabirgilə ona kömək etməyi bildirib. Sabir bir neçə döyüşçü ilə birlikdə İbadəti gətirməyə gedərkən həmin evə çatanda artıq ermənilərin İbadəti apardıqlarının şahidi olub. Ermənilər sayca çox olduğundan İbadəti xilas etmək üçün onların göstərdikləri cəhdlər boşa çıxıb, onu azad etmək mümkün olmayıb. Hərbçilərlə radioəlaqə yaradan ermənilər İbadəti azad etmək üçün pul tələb ediblər. Tezliklə həmin ərazi işğal edildiyindən qarşı tərəflə əlaqə kəsilib.

**Najafov Ibadat Najaf oglu**

Najafov Ibadat Najaf oglu was born in Oguldara village of Lachin district of Azerbaijan Republic in 1972. In 1990 he was called up for military service by the Military Registration and Enlistment Office of Lachin district. Ibadat fought in Lachin district allotted to self-defense regiment. On the 17th of September, 1992 during the fight for Saribaba height in Lachin district he was wounded in leg and taken prisoner.

According to the words of front-line comrade Khidirov Sabir Jafar oglu who lived in Lachin district (at present he lives in Baku, Bakikhanov settlement, 40/85 quarter, app.1/12), Najafov Ibadat was wounded during the fight for Saribaba height. His front-line comrades took him to a house in Khirmanlar village. He also informed that asked Sabir and others to help him. Sabir with other fighters went to take Ibadat but they witnessed that Armenians took him as a prisoner. It was impossible to release Ibadat because Armenians were too much. Military men connected with Armenians by radio communication. They demanded money to release him. Then it was impossible to connect with opposite side because the territory was occupied rapidly.



**Nəcəfov
Natiq
Yunis oğlu**

1974-cü ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olub. 1993-cü ildə Bərdə Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam uğrunda döyüşlərdə iştirak edib. 13 aprel 1994-cü ildə Ağdam rayonunun Şotlanlı kəndində, su kanalının yanında gedən döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Qardaşı-Bərdə şəhəri, S. Vurğun küçəsi, 11-ci döngə, ev 15-də yaşayan Nəcəfov Namiq Yunis oğlunun məlumatında deyilib ki, Natiq itkin düşəndən sonra onun komandiri olmuş Nəsirov Səmədlə görüşüb. Nəsirov bildirib ki, 13 aprel 1994-cü ildə Şotlanlı kəndində ağır döyüş gedən vaxt əsgərlərimizin geri çəkilməsinə baxmayaraq, Natiq döyüşü davam etdirib, sonda meydanda tək qalıb. Komandir uzaqdan partlayış baş verdiyini, onun yaralandığını görüb. Ermənilər mövqeləri tutduqları üçün hərbçilər yaralı Natiqi xilas edə bilməyib, o, işğal olunmuş ərazidə qalıb, əsir götürülüb.

Qardaşının dediyinə görə, Ağdamın Güllücə kəndində əsirlərin dəyişdirilməsi ilə əlaqədar hər iki tərəfin nümayəndələrinin keçirdikləri görüş zamanı Natiqin əsir götürüldüyünü, Xankəndi şəhərində saxlandığını öyrənib.

**Najafov
Natig
Yunis oglu**

Najafov Natig Yunis oglu was born in Barda town of Azerbaijan Republic in 1974. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Barda district. Natig took part in fights for Aghdam. On the 13th of April, 1994 during the fight near water channel in Shotlanli village of Aghdam district, wounded Natig was taken prisoner by Armenians.

According to the information of his brother Najafov Namig Yunis oglu (he lives in Barda, S.Vurgun Street, 11 quarter, app.15), while searching for missed Natig, he met the commander Nasirov Samad. He said that during the fight in Shotlanli village our soldiers came back but Natig continued to fight and then he stayed alone on the 13th of April, 1994. The commander saw from a long distance that Natig was wounded. It was impossible to help Natig because Armenians took up the position. Natig stayed at the occupied territory and then he was taken prisoner.

According to his brother's words, during the meeting regarding change of prisoners in Gulluje village of Aghdam district it was found out that Natig was taken prisoner and kept in Khankandi.



## Nəcəfov Seyfəddin Eldar oğlu

1966-cı ildə Azərbaycan Respublikası Beyləqan rayonunun Aşqalar kəndində anadan olub. Könüllü olaraq Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 24 iyul 1993-cü ildə Ağdam rayonunun Sarıcallı kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülərək Xankəndi şəhərindəki hərbi hissələrdən birində saxlanılıb.

Döyüş yoldaşı-Beyləqan rayonu Eyvazalılar kənd sakini Tapdıqov İsmi Kamal oğlu izahatında yazıb ki, Seyfəddin itkin düşəndən sonra 1994-cü ilin aprel ayında qardaşı və atasının iştirakı ilə qarşı tərəflə radioəlaqə yaradıb. Rabitəçi Artur Seyfəddinin əsir götürüldüyünü və Xankəndinə aparıldığını deyib. İsmi Arturun verdiyi məlumatı dəqiqləşdirmək üçün növbəti dəfə yenə əlaqə yaradıb. Bu dəfə Vartan adlı rabitəçi də məlumatı təsdiqləyib. Qarşı tərəf onu azad etmək üçün əsir götürülmüş hər hansı Qarabağ ermənisi tələb edib. Seyfəddinin ailəsi qarşı tərəfin tələbini yerinə yetirə bilmədiyi üçün onu azad etmək mümkün olmayıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun verdiyi məlumata görə, 1993-cü ildə qarşı tərəflə aparılan radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Abo Nəcəfov Seyfəddinin Xankəndi şəhərindəki hərbi hissələrdən birində saxlandığını bildirib.

## Najafov Seyfaddin Eldar oglu

Najafov Seyfaddin Eldar oglu was born in Ashgalar village of Beylagan district of Azerbaijan Republic in 1966. He voluntarily took part in fights for Garabagh. On the 24th of July, 1993 during the fight in Sarijalli village of Aghdam district Seyfaddin was taken prisoner by Armenians and kept in one of military units in Khankandi.

His front-line comrade Tapdigov Ismi Kamal oglu who lived in Eyvazalilar village of Beylagan district wrote a statement, when Seyfaddin was missed his brother and father connected with Armenian side by radio communication in April of 1994. Signaler Artur said Seyfaddin was taken prisoner and sent to Khankandi. Ismi wanted to make Artur's information more exact and then he again connected. A signaler whose name was Vartan confirmed that information. The opposite side demanded any Armenian prisoner from Garabagh to release him. It was impossible to release him because Seyfaddin's family couldn't realize Armenians' demands.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district), during radio communication Armenian policeman Abo said him that Najafov Seyfaddin was kept in a miliatry unit in Khankandi.



## Nəcəfov Şiraslan Məmiş oğlu

1952-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. Tofiq Hüseynovun könüllülər taborunun tərkibində döyüşüb.

Oğlu-Gəncə şəhərində yerləşən Kənd Təsərrüfatı Texnikumunun yataqxanasında məskunlaşmış Nəcəfov Fazilin dediyinə görə, 26 fevral 1992-ci ildə şəhərin ətrafında növbə çəkənlərin sırasında olub. Ailə üzvləri qonşularla birlikdə onların evlərinin zirzəmisində gizləniblər. Gecə saat 1 radələrində 20 nəfər Ağdam istiqamətinə üz tutub, səhərə yaxın oraya çatıb. Atası isə şəhərin müdafiəçiləri ilə Xocalıda, mühasirədə qalıb. Həmin gündən Fazil bir daha atasını görməyib. 1992-ci ilin aprel ayında erməni girovluğundan qayıtmış Şuşanın Malıbəyli kənd sakini Qədim kişi Şiraslanın Xənəzək kəndində Vahan adlı ermənininin evində əsir saxlandığını, bənna kimi inşaat işlərinə cəlb edildiyini deyib.

Erməni əsirliyindən azad olunmuş Məmmədov Mayıl Məmmədəli oğlu 1993-cü ildə Xankəndi şəhərində əsirlikdə olan zaman tikintidə işlədilən, axşamlar isə onlarla birlikdə həbsxanada saxlanılan 14 nəfər Xocalı sakini arasında Nəcəfov Şiraslanın da olduğunu qeyd edib. 1993-cü ilin yanvarında Mayılı Hadrut rayonunun Tuğ kəndinə aparıb, aprel ayının 4-də yenidən Xankəndi həbsxanasına qaytarıblar. Qayıdandan sonra xocalıları orada görməyib.

## Najafov Shiraslan Mamish oglu

Najafov Shiraslan Mamish oglu was born in Khojali town of Azerbaijan Republic in 1952. He fought allotted to Tofig Huseynov who organized the battalion of voluntaries and defended Khojali from Armenian occupants.

According to the words of his son Najafov Fazil Shiraslan oglu (he lives in the hostel of Agricultiral Secondary School in Ganja) during the day of Khojali's occupation by Armenian armed forces on the 26th of February, 1992 he was with others on point duty. His members of family with neighbours hid in their cellar. 20 men went to Aghdam at 1 o'clock. They reached Aghdam in the morning. But his father with defenders was surrounded in Khojali. Fazil hasn't seen his father any more since that day. In April of 1992 Gadim kishi who returned from Armenian captivity and lived in Malibeyli village of Shusha said that Shiraslan was kept as a prisoner in the house of Vahan in Khanazak village and he was forced for constructive work (Shiraslan was a good builder).

According to the information of Mammadov Mayil Mammadali oglu who released from Armenian captivity (he lives in Ujar town, 28th of May Street, app.7), when he was in Armenian captivity in 1993 and worked at the construction, 14 residents of Khojali including Najafov Shiraslan were kept in Khankandi prison in the evening. In January of 1993 Mayil was taken to Tug village of Hadrud district and then he was returned Khankandi prison on the 4th of April. When he returned he didn't see residents of Khojali there any more.



## Nəcəfova Gülarə İsmayıl qızı

1936-cı ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Qazanzəmi kəndində anadan olub. 24 avqust 1993-cü ildə yaşadıqları Qazanzəmi kəndi ermənilər tərəfindən işğal olunduğu üçün həyat yoldaşı Hacıyev Məhəmmədəli Adil oğlu ilə Qubadlı rayonunun Çaytumas kəndinə gəlib. 30 avqust 1992-ci ildə hər ikisi həmin kənddə girov götürülüblər.

Bu məlumatı qızı-Cəbrayıl rayonu Qazanzəmi kənd sakini, hazırda Sumqayıt şəhəri, 11-ci mikrorayon, ev 2, mənzil 51-də yaşayan Hacıyeva Adilə Məhəmmədəli qızı verib.

Erməni əsirliyindən azad olunmuş, Sumqayıt şəhəri, 42-ci məhəllə, ev 7, mənzil 47-də yaşayan Quliyev Elmar Zahid oğlunun dediyinə görə, 1993-cü ilin mart ayından noyabr ayına kimi Şuşa həbsxanasında Cəbrayıl sakini Hacıyev Məhəmmədəli Adil oğlu ilə birlikdə olub. Onun həyat yoldaşı Nəcəfova Gülarə İsmayıl qızı isə Xankəndi uşaq bağçasında saxanılıb.

Erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, Xətai rayonu, R.Məmmədov küçəsi, ev 10, mənzil 43-də yaşayan Əliyev Famil Heydərəli oğlu Xankəndi həbsxanasında Nəcəfova Gülarə İsmayıl qızını və onun həyat yoldaşı Hacıyev Məhəmmədəlini gördüyünü yazıb.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Cəbrayıl rayon bölməsinin məlumatına görə, 1993-cü ildə erməni tərəfin nümayəndəsi Edik (Yerevan tel:24-77-17; 24-74-14) adlı şəxs radioəlaqə vasitəsilə Dağlıq Qarabağın Hadrut şəhərində saxlanılan 19 azərbaycanlı əsirin siyahısını verib. Əsirlərin 14 nəfəri sonradan dəyişdirilib. Qalan 5 nəfərdən biri Gülarə Nəcəfovadır.

## Najafova Gulara Ismayil gizi

Najafova Gulara Ismayil gizi was born in Gazanzami village of Jabrayil district of Azerbaijan Republic in 1936. On the 24th of August, 1993 during the occupation of their village Gazanzami by Armenians, Gulara with her husband Hajiyev Mahammadali Adil oglu went to Chaytumash village of Gubadli district. On the 30th of August, 1992 during the occupation of the same village by Armenians they were taken hostages.

That information was taken by her daughter Hajiyeva Adila Mahammadali gizi who lived in Gazanzami village of Jabrayil district (at present she lives in Sumgayit town, 11th microdistrict, 2, app.51).

According to the information of Guliyev Elmar Zahid oglu who released from Armenian captivity (now he lives in Sumgayit town, 42 quarter, app.7/47), he with Hajiyev Mahammadali Adil oglu from Jabrayil district was in Shusha prison from March to November of 1993. But his wife Najafova Gulara Ismayil gizi was kept in Khankandi kindergarten.

Aliyev Famil Heydarali oglu who returned from Armenian captivity (he lives in Baku, Khatai district, R.Mammadov Street, 10, app.43) wrote that Najafova Gulara Ismayil gizi and her husband Hajiyev Mahammadali Adil oglu were kept in Khankandi prison as hostages.

According to the information of Jabrayil district Department of Ministry of National Security Shirinov, the representative of Armenian side Edik (Yerevan tel: 24-77-17, 24-74-14) gave him by radio communication a list of 19 Azerbaijani prisoners kept in Hadrud town of Upper Garabagh in 1993. 14 prisoners were changed but the lives of fifth were unknown. One of the rest of 5 men was Gulara Najafova.



**Nərimanov Elşad Əvəz oğlu**

1967-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonunda anadan olub. Polis nəfəri işləmiş Nərimanov Elşad 1992-ci ildən Zəngilan uğrunda döyüşlərdə iştirak edib. 25 oktyabr 1993-cü ildə Cəbrayıl rayonunun Dərzili kəndində gedən döyüşdən 6 polis əməkdaşı ilə birlikdə geri qayıtmayıb.

Erməni əsirliyindən qayıdan Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu 1993-cü ilin sonunda Nərimanov Elşadı 6 nəfər polis işçisi ilə birlikdə Qafan Rayon Polis Şöbəsində görüb.

Ermənilər tərəfindən əsir götürülmüş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşlarının qohumları - İsmayılov Bəhmən Əli oğlunun, Məmmədov Fəxrəddin Məhəmməd oğlunun, Cəfərova Qızılgül İmamqulu qızının, Paşayev Əziz Şükür oğlunun və Qocayev Barat İsmayıl oğlunun verdikləri izahatlarda göstərilib ki, erməni əsirliyindən qayıtmış Qubadlı rayon sakini Yusifov Fərhad Umud oğlunun onlara dediyinə görə, Qafan Rayon Polis Şöbəsinin rəisi Edik istintaq zamanı əsir götürülmüş 7 nəfər Zəngilan polis əməkdaşını göstərərək onlardan hansını tanıdığını soruşub. Həmin polis işçilərinin arasında Nərimanov Elşad da olub.

**Narimanov Elshad Avaz oglu**

Narimanov Elshad Avaz oglu was born in Zangilan district of Azerbaijan Republic in 1967. In 1992 policeman Narimanov Elshad took part in fights for Zangilan district. On the 25th of October, 1993, he with 6 policemen didn't return from fight for Derzili village of Jabrayil district.

In 1993 Yusifov Farhad Umud oglu who lived in Hamzali village of Gubadli district and returned from Armenian captivity, saw Narimanov Elshad and 6 policemen being kept in occupied Police Department of Gafan district.

According to a statement of relatives of policemen of Zangilan district Police Department (Ministry of Internal Affairs of Azerbaijan Republic) who were kept as prisoners by Armenians: Ismayilov Bahman Ali oglu, Mammadov Fakhraddin Mahammad oglu, Jafarova Gizilgul Imamqulu gizi, Pashayev Aziz Shukur oglu and Gojayev Barat Ismayil oglu, said that Yusifov Farhad Umud oglu who lived in Gubadli district and returned from Armenian captivity, that the head of Police department of Gafan district Edik showed 7 policemen from Zangilan district taken prisoners and asked if he recognized them. There was Narimanov Elshad among those policemen.



**Nəsibov Habil İbrahim oğlu**

1971-ci ildə anadan olub. Lənkəran batalyonu tərkibində Laçın rayonu uğrunda döyüşlərdə iştirak edib. 19 oktyabr 1992-ci ildə Laçın rayonunun Səfiyan kəndində gedən döyüşdən geri qayıtmayıb.

Atası - Naftalan şəhəri, İ. Həsənzadə küçəsi, ev 10, mənzil 22-də yaşayan Nəsibov İbrahim Nəsib oğlunun bildirdiyinə görə, oğlunun axtarışı ilə bağlı 1992-ci ilin noyabr ayında Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşı kapitan Mehdiyevlə görüşüb. Mehdiyev Ermənistanın Gorus Rayon Polis Şöbəsinin rəisi Ediklə əlaqə yaradaraq qarşı tərəfdə 30 azərbaycanlı əsirin saxlandığını öyrənib. Əsirlərin arasında Nəsibov Habil də olub. Həmin ildə Nəsibov İbrahimə Yerevan şəhərindən itkin düşmüş Qəribyan Robert Ambarsumoviçin qardaşı zəng vuraraq Habilin sağ olduğunu, 9 azərbaycanlı əsirlə birlikdə saxlandığını və onların Robertlə dəyişdirilə biləcəklərini deyib. Qəribyan tapılmadığı üçün dəyişmə baş tutmayıb.

Habilin döyüş yoldaşı - erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, 8-ci kilometr qəsəbəsi, B. Nuriyev küçəsi, ev 51, mənzil 60-da yaşayan Nəzərov Aqşin Nəcmi oğlu izahatında yazıb ki, onlar eyni vaxtda Laçın rayonunun Səfiyan kəndində mühasirəyə alınaraq əsir götürülüblər. Aqşin hələ əsirlikdə olarkən anası Latviyaya gedib, orada Azərbaycan cəmiyyətindən oğlunun və Habilin erməni tərəfində əsir saxlandığını öyrənib.

**Nasibov Habil Ibrahim oglu**

Nasibov Habil Ibrahim oglu was born in 1971. He took part in fights for Lachin district allotted to Lankaran battalion. On the 19th of October, 1992 Nasibov Habil didn’t return from fight for Safiyan village of Lachin district.

According to the information of his father Nasibov Ibrahim Nasib oglu (he lives in Naftalan town, I.Hasanzade Street, 10, app.22), when he searched for his son he met policeman of Police Department of Gubadli district captain Mehdiyev in November, 1992. Mehdiyev said that he connected with the head of Gorus district Police Department of Armenia and found out that 30 Azerbaijanis were taken prisoners by Armenians. Nasirov Habil was between those prisoners. The brother of missed Robert Ambarsumovich called Nasibov Ibrahim from Yerevan city and said that their son was alive, kept together with 9 Azerbaijani prisoners and could change them for Robert. Garibyan wasn’t found and the change didn’t realize.

Habil’s front-line comrade Nazarov Agshin Nejmi oglu (he lives in Baku, 8th km settlement, B.Nuriyev Street, 51, app.60) wrote a statement that at the same time they were surrounded in Safiyan village of Lachin district and taken prisoners. When Agshin was in captivity, his mother went to Latvia and found out from Azerbaijan society her son and Habil were taken prisoners by Armenians.



**Nəsirov Məmməd Məhəmməd oğlu**

1939-cu ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qalayçılar kəndində anadan olub. 16 iyun 1993-cü ildə yaşadıqları kənd ermənilər tərəfindən işğal olunan zaman girov götürülüb.

Əsir və girovların dəyişdirilməsində iştirak etmiş Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun məlumatına görə, erməni millətindən olan Abo adlı şəxs radioəlaqə vasitəsi ilə Nəsirov Məmmədin girov götürülərək Şuşa həbsxanasında saxlandığını öyrənib.

Ağdam özünümüdafiə batalyonunun sabiq komandiri, Bakı şəhəri, 2-ci mikrorayon, H. Əliyev küçəsi, ev 1, mənzil 43-də yaşayan Əliyev Ağalar Xasay oğlunun ərizəsində yazılıb ki, 1993-cü ildə cəbhə bölgəsində erməni tərəfin əsirlərlə iş üzrə nümayəndəsi Aleksandr Ağasaryan ona 72 azərbaycanlı əsir və girovun siyahısını verib. Həmin siyahıda Nəsirov Məmmədin Şuşa həbsxanasında saxlandığı göstərilib.

**Nasirov Mammad Mahammad oglu**

Nasirov Mammad Mahammad oglu was born in Galaychilar village of Aghdam district of Azerbaijan Republic in 1939. On the 16th of June, 1993, during occupation of their village by Armenians he was taken hostage.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) and engaged in change of prisoners and hostages, Armenian Abo informed by radio communication that Nasirov Mammad was taken hostage and kept in Shusha prison.

The former commander of Aghdam self-defense battalion Aliyev Agalar (he lives in Baku, 2nd microdistrict, H.Aliyev Street, 1, app.43) wrote a statement that Armenian representative of prisoners Alexander Agasaryan gave him a list of 72 Azerbaijani prisoners and hostages in 1993. There was the name of Nasirov Mammad in that list and it was shown that he was kept in Shusha prison.



**Nəsirov Ömər Malik oğlu**

1970-ci ildə Azərbaycan Respublikası Dəvəçi rayonunun Dağbilici kəndində anadan olub. 1993-cü ilin oktyabr ayında Bakı Ali Hərbi Ümumqoşun Komandirlər məktəbinin sonuncu kursun-

**Nasirov Omar Malik oglu**

Nasirov Omar Malik oglu was born in Dagbiliji village of Davachi district of Azerbaijan Republic in 1970. He joined the front in 1993 while he was on his last year of education in Baku Supreme Military Com-

da oxuyarkən cəbhəyə gedib. Ağdərə rayonunda yerləşən hərbi hissənin bölük komandiri vəzifəsində xidmət edib. 1994-cü il yanvar ayının 28-də həmin rayonun Devomarx kəndində gedən döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Cəlilabad rayonu Alar kənd sakini Hüseynov Əkbər Hüseyn oğlunun verdiyi məlumata görə, 1994-cü ildə Şuşa həbsxanasında Ömər və başqa bir zabitlə 5-6 gün birlikdə saxlanılıblar. Ermənilər hər iki zabiti Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədib, onlara işgəncələr verirmişlər. Sonradan hərbçiləri naməlum yerə aparıblar.

mon Forces Commanders' School. Omar served as a commander in a military unit in Aghdara district. On 28th of January, 1994 during the fight in Devomarkh village of Aghdara he was wounded and taken prisoner by Armenians.

According to the information of Huseynov Akbar Huseyn oglu who lived in Alar village of Jalilabad district and released from Armenian captivity, he was kept in Shusha prison with Omar and another officer for about 5-6 days in 1994. Armenians hid those officers from ICRC and put them to tortures. Afterwards they were taken to unknown direction.

## Nəsirova (Budko) Tatyana Dmitriyevna



1955-ci ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində anadan olub. 1974-cü ildə Azərbaycan Respublikasının Goranboy rayon sakini Nəsirov Ramiz Heydər oğlu ilə ailə qurub, Xocalı şəhərində yaşayıb. 26 fevral 1992-ci ildə ailə üzvləri ilə birlikdə ərazini tərk edib, 15-20 nəfərlə Ağdam-Gülablı istiqamətində hərəkət ediblər. Qarqar çayını keçib, 500 metrə qədər irəlilədikdən sonra Tatyananı görməyiblər.

Bu məlumatı həyat yoldaşı-Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, ev 21, mənzil 51-də məskunlaşmış Nəsirov Ramiz Heydər oğlu verib. Onun dediyinə görə, Tatyananı görmədikdə narahat olub, qardaşı Kamranla birlikdə geri qayıdıb, Xocalının kənarında gecələsə də, onu tapa bilməyib.

Qızı-Xocalı sakini, Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, ev 21, mənzil 51-də məskunlaşmış Nəsirova El-

## Nasirova (Budko) Tatyana Dmitriyevna

Nasirova (Budko) Tatyana Dmitriyevna was born in Sankt-Peterburg city of RF in 1955. In 1974 she married with Nasirov Ramiz Heydar oglu who lived in Goranboy district of Azerbaijan Republic and they lived in Khojali town. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces, she left the territory with the members of family and with a group of 15-20 men they went in direction of Aghdam-Gulabli. They passed through the Gargar river and then they didn't see Tatyana in a distance of 500 m.

That information was given by her husband Nasirov Ramiz Heydar oglu (he lives in Baku, Narimanov district, Hasanoglu Street, 21, app.51). According to his words, he was worry when he didn't see Tatyana. He returned back with his brother Kamran. They spent the night outskirts of the town, couldn't find her.

Her daughter Nasirova Elmira Ramiz gizi who lived in Khojali town (she lives in Baku,

mira Ramiz qızı izahatında yazıb ki, Xocalı şəhəri işğal olunan zaman o, atası ilə, anası isə babası Budko Dmitriy Nikolayeviçlə birlikdə vahiməyə düşmüş insan axını ilə hərəkət edib. Elmiragil çayı keçəndən bir qədər sonra anası ilə babasını görməyiblər. Bir müddət sonra arxadan gələn sakinlər ermənilərin Tatyananı atası ilə birlikdə girov götürdüklərini deyiblər.

Narimanov district, Hasanoglu Street, 21, app.51) wrote a statement that during the occupation of Khojali town, she with her mother, father and grandfather Budko Dmitriy Nikolayevich went with panic-stricken stream of people. Elmira and others passed through the river and then she saw neither her mother nor her grandfather. Later refugees coming behind said that Tatyana and her father were taken hostages.



**Nəzərov Fazil Qaraş oğlu**

1948-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Mərdanlı kəndində anadan olub. Həmin kənddə yerləşən məktəbdə direktor vəzifəsində işləyib.

30 avqust 1993-cü ildə Qubadlı rayonu ermənilər tərəfindən işğal olunan gün ailəsini köçürtmək üçün Beyləqan rayonuna gedib, 2 yük maşını ilə qayıdarkən yaşıl rəngli VAZ-21011 markalı 67-82 AQS dövlət nömrə nişanlı şəxsi avtomaşında yaşadığı kəndin girəcəyində girov götürülüb. Yük maşınlarının sürücüləri onun tutulduğunu görüb geri qayıtmağa imkan tapıblar.

Oğlu-Qubadlı rayonu Mərdanlı kənd sakini, Bakı şəhəri, Ş.Əzizbəyov küçəsi 203, mənzil 23-də məskunlaşmış Nəzərov Həsən Fazil oğlunun verdiyi məlumata görə, atası girov götürülüb, Xocavənd rayonuna aparılıb. Onun saxlandığı yerdə həmkəndliləri də olub. Həmkəndlisi Xavər adlı qadın ona ermənilərin Fazil müəllimi qırmızı rəngli «Jiquli» markalı avtomaşına mindirib naməlum istiqamətə apardıqlarını deyib.

Bacısının həyat yoldaşı-Bakı şəhəri, 7-ci mikrorayonda yerləşən Slavyan Univer-

**Nazarov Fazil Garash oglu**

Nazarov Fazil Garash oglu was born in Mardanli village of Gubadli district of Azerbaijan Republic in 1945. He was the director of the school in the same district.

On the 30th of August, 1993 during the day of Gubadli district's occupation by Armenians, Fazil went to Beylagan to remove his family and things. When he returned by his private green car «VAZ-21011» (public plate-number 67-82) and 2 trucks he was taken hostage on the territory of his village. The drivers of trucks saw Fazil. He was taken hostage but they could come back.

According to the information of his son Nazarov Hasan Fazil oglu who lived in Mardanli village of Gubadli district (at present he lives in Baku, Sh.Azizbeyov Street, 203, app.23), his father was taken hostage and sent to Khojavand district. His villagers were with him. His another other villager Khavar said that Fazil was gotten on the red car «Jiguli» and taken to unknown direction.

The husband of his sister Imanov Alkhan Mahammad oglu (he lives in the

sitetinin 4 saylı yataqxanasının 48-ci otağında məskunlaşmış İmanov Alxan Məhəmməd oğlu ərizəsində yazıb ki, 19 oktyabr 1993-cü ildə Fazil onlara zəng vuraraq onu, Yusifov Kərəm Hüseyn oğlu, Məmmədov Şəmil Süleyman oğlu, Məmmədova Biniş Rəsul qızı, Rüstəmov Bayram Hüseyn oğlu, Əliyev Mehman Vəliş oğlu ilə birlikdə Xocavənd rayonu ərazisində saxladıqlarını bildirib. Fazilin dediyinə görə, 18 oktyabrda Yerevan şəhərindən gəlib onları qeydiyyata götürüb, dövlət səviyyəsində dəyişmək istəyiblər. Ermənilər onu qarşı tərəfdə saxlanılan mayor rütbəli zabitlə dəyişməyi təklif edib. Bütün bu məlumatları o, telefonla verib.

Həmkəndlisi-Müşviqabad qəsəbəsində yerləşən hərbi şəhərcikdə məskunlaşmış Əhmədova Xavər Xanlar qızının dediyinə görə, o, şəxsi mal-qarasını gətirməyə gedən zaman ermənilər kəndi işğal edib. Qayıdanda kənddə heç kimi görməyib. Aşağı Mollu kəndinə çatanda Fazil müəllimlə rastlaşıb. Fazil onu şəxsi avtomaşında özü ilə Xanlıq kəndinə gətirib. Saqqallı erməni yaraqlıları onları tutub, kəndin yuxarı hissəsindəki xırmana gətiriblər. Xırmanda onlardan başqa da azərbaycanlı girovlar olub. Fazil onların Muradxanlı kənd sakinləri olduqlarını deyib. Həmin vaxt oraya qırmızı rəngli bir maşın yaxınlaşıb. Ermənilər Fazili maşına oturdaraq naməlum istiqamətə aparıblar. Atışma başlayıb. Xavər ayağından yaralanıb, huşunu itirib. Ayılanda yanında heç kimi görməyib. Xanlıq kəndi ilə aşağı gəlib, azərbaycanlı hərbçilərlə rastlaşıb.

Erməni əsirliyindən qaçmış Qubadlı rayonu Həmzəli kənd sakini Qaraşov Telman İsmayıl oğlu izahatında bildirib ki, yaşadıqları rayon işğal olunan gün girov götürülüb. Bir həftə Qubadlı rayonunun Şotlanlı kəndində, tövlədə Mərdanlı kənd sakini, məktəb direktoru Nəzərov Fazil və Çaytumas kənd sakini Rus Əhməd deyilən şəxslə birlikdə saxlanılıb. Həmin müddətdə ermənilər onları ac-susuz saxlayıb, gündə

hostel № 4, room 48 of Slavyan University in Baku, 7th microdistrict) wrote a statement that Fazil rang him up on the 19th October, 1993 and informed that Yusifov Karam Huseyn oglu, Mammadov Shamil Suleyman oglu, Mammadova Binish Rasul gizi, Rustamov Bayram Huseyn oglu, Aliyev Mehman Valish oglu were kept in Khojavand district. According to Fazil's words, they were registered officially in Yerevan on the 18th of October and Armenians wanted to change them. They wanted to change him for a major kept by Azerbaijanis. That information he gave by the phone.

According to the words of his villager Ahmedova Khavar Khanlar gizi (she lives in military town in Mushvigabad settlement), during the occupation of their village by Armenians she went to bring the cattle. When she returned, she saw nobody. Then Khavar reached Ashagi Mollu village, she met Fazil. Fazil with Khavar went to Khanlig village. Armenian took them to the upper side of the same village. There were Azerbaijani hostages. Fazil said that they were from Muradkhanli village. At that moment a red car was comming. Armenians got on the car Fazil and took to unknown direction. The skirmish has begun. Khavar was wounded in leg and lost her concession. When she woke up she saw nobody. Khavar went down of Khanlig village and met Azerbaijani military men. She didn't see Fazil any more.

Garashov Telman Ismayil oglu who run from Armenian captivity and lived in Hamzali village of Gubadli district wrote a statement that during the day of their district's occupation, he was taken hostage. He was kept in Shotlanli village of Gubadli district with the director of school Nazarov Fazil and Rus Ahmed from Chaytumas village for a week. Armenians kept them without food and water. They were beaten with hammer, stick and back side of

azı 3 dəfə dəyənək, ağac və avtomatın qundağı ilə döyüb, ağır işgəncələr veriblər. Sonuncu gün Fazillə Əhmədi huşlarını itirənə qədər döyüblər. Telmanı isə yüksək rütbəli, hərbçi erməni qadının göstərişi ilə döyüş zamanı həlak olmuş oğlunun qəbrinin üstündə başını kəsmək üçün mülki bir erməniyə veriblər. Elə həmin vaxt atılan qrad mərmisi oraya düşüb, qarışıqlıqdan istifadə edən Telman qaça bilib. Fazil müəllimlə Rus Əhməd isə ermənilərin əlində qalıblar.

Əmisi oğlu-Bakı şəhəri, Ş.Əzizbəyov küçəsi 203, mənzil 23-də məskunlaşmış Nəzərov Bayram Məhəmməd oğlu ərizəsində yazıb ki, 19 avqust 1994-cü ildə girovluqdan azad olmuş həmyerliləri ona Fazili Şuşa şəhərindəki erməni alayında gizli saxladıqlarını bildirib.

automat for 3 times and put them to tortures by Armenians. Last time Fazil and Ahmed were beaten till they lost the concessions. Telman had to be killed at the grave by the order of high ranked Armenian military woman whose son died at the fight. At that moment Telman could save himself and ran away. Rus Ahmed and Fazil stayed at Armenians.

His uncle's son Nazarov Bayram Mahammad oglu (he lives in Baku, Sh.Azizbeyov Street, 203, app.23) wrote a statement that his villagers who returned from Armenian captivity on the 19th of August, 1994 informed that Fazil was kept in Shusha regiment secretly.

## Nəzərov İsmayıl Məhyəddin oğlu



1950-ci ildə Azərbaycan Respublikası Ucar rayonu Qəzyan kəndində anadan olub. Baş leytenant Nəzərov İsmayıl Ucar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Füzuli rayonunda gedən döyüşlərdə iştirak edib. 2 oktyabr 1992-ci ildə Füzuli rayonunun Əmrallar kəndi uğrunda döyüşdə 2 döyüş yoldaşı ilə birlikdə əsir götürülüb.

Həyat yoldaşı-Ucar rayonu Gəraybəyli kənd sakini Nəzərova Bəyim Mirfazil qızı bildirib ki, İsmayılın axtarışı zamanı Əmrallar kənd sakinləri Nəzərov da daxil olmaqla 6 zabitin döyüşdüyü əraziyə erməni vertolyotunun endiyinin şahidi olduqlarını deyidlər. Onların bildirdiklərinə görə, ermənilər 3 döyüşçünü öldürüb, 3-nü isə əsir götürüblər. Həmin ərazidə qalan 3 meyit baş-

## Nazarov Ismayil Mehyaddin oglu

Nazarov Ismayil Mehyaddin oglu was born in Gazyan village of Ujar district of Azerbaijan Republic in 1950. Senior lieutenant Nazarov Ismayil was called up for military service by the Military Registration and Enlistment Office of Ujar district. Ismayil took part in fights in Fuzuli district. On the 2nd of October, 1992 during the fight for Amrallar village of Fuzuli district Ismayil with 2 frontline comrades was taken prisoner.

That information was given by his wife Nazarova Beyim Mirfazil gizi who lived in Garaybeyli village of Ujar district. When she searched for her husband, residents of Amrallar village said that 6 officers including Nazarov fought and Armenians landed by the helicopter at the territory.

qa şəxslərə aid olub. İsmayılı ermənilər digər döyüşçülərlə birlikdə əsir götürüblər.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlu bildirir ki, 1992-ci ildən 1993-cü ilə kimi əsir və girov götürülmüş vətəndaşların qeydiyyatı ilə məşğul olub. Ona verilən məlumata görə, İsmayıl əsir götürülüb və Xankəndi şəhərində saxlanılıb.

Armenians killed 3 fighters and others were taken prisoners. Ismayil's corpse wasn't found on the same territory.

According to the information of Eyvazov Firaddin Ali oglu who was the chief deputy of Executive Power of Fuzuli district during 1992-1993 (he lives in hostel № 4, room 205 of AMU in Baku), he was engaged in registration of prisoners and hostages from 1992 to 1993. Firaddin got information that Ismayil was taken prisoner and kept in Khankandi.

## Nəzərov Qəhrəman Tarverdi oğlu



1973-cü ildə Azərbaycan Respublikası Sumqayıt şəhərinin Corat qəsəbəsində anadan olub. 20 aprel 1993-cü ildə Sumqayıt Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Tərtər rayonuna göndərilib. 30 yanvar 1994-cü ildə Ağdərə rayonunun Gödəkburun kəndində gedən döyüşdə Əliyev Məstəli İxtiyar oğlu, Kərimov Rasim Qəzənfər oğlu, Nəzərov Zaur Salamat oğlu ilə birlikdə əsir götürülüb.

Atası-Corat qəsəbəsi, ev 413-də yaşayan Nəzərov Tarverdi Əhliman oğlunun, Əliyev Məstəlinin atası-Bakı şəhəri, Ağa Nemətulla küçəsi 69-da məskunlaşmış Zəngilan sakini Əliyev İxtiyar Fərrux oğlunun, Kərimov Rasimin atası-Nərimanov rayonu, Habil Mirzəyev küçəsi, dalan 3, ev 12-də yaşayan Kərimov Qəzənfər Şirməmməd oğlunun verdiyi məlumata görə, Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun erməni polisinin əməkdaşı Abodan aldığı siyahıda onların

## Nazarov Gahraman Tarverdi oglu

Nazarov Gahraman Tarverdi oglu was born in Jorat settlement of Sumgayit town of Azerbaijan Republic in 1973. On the 20th of April, 1993 he was called up for military service by Military Registration and Enlistment Office of Sumgayit town and then he was sent to Terter district. On the 30th of January, 1994 during the fight in Godekburun village of Aghdara district Aliyev Mastali Ikhtiyar oglu, Karimov Rasim Gazanfar oglu, Nazarov Zaur Salamat oglu, were taken prisoners together.

According to the information of his father Nazarov Tarverdi Ahliman oglu (he lives in Sumgayit, Jorat settlement, 413), the father of Aliyev Mastali Ikhtiyar oglu – Aliyev Ikhtiyar Farrukh oglu who lived in Zangilan district (now he lives in Baku, Aga Neymatulla Street, 69) and the father of Karimov Rasim Gazanfar oglu – Karimov Gazanfar Shirmammad oglu (he lives in Narimanov district, Habil Mirzeyev Street, quarter, 3, app.12), Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) got a list from Armenian

övladlarının Dağlıq Qarabağda saxlandığı göstərilib. Valideynlərdən övladlarını azad etmək üçün onların sayı qədər erməni əsiri tələb ediblər. Ermənilərin tələbini yerinə yetirmək mümkün olmayıb.

policeman Abo and it was shown that their children were kept in Upper Garabagh. Armenians demanded Armenian prisoners for each Azerbaijani prisoner from their parents to release their children. It was impossible to carry out Armenian's demands.



## Nəzərov Zaur Salamat oğlu

1975-ci ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 30 yanvar 1994-cü ildə Ağdərə rayonunun Gödəkburun kəndində gedən döyüşdə Əliyev Məstəli İxtiyar oğlu, Kərimov Rasim Qəzənfər oğlu, Nəzərov Qəhrəman Tarverdi oğlu ilə birlikdə əsir götürülüb.

Atası-Corat qəsəbəsi, ev 413-də yaşayan Nəzərov Tarverdi Əhliman oğlunun, Əliyev Məstəlinin atası-Bakı şəhəri, Ağa Nemətulla küçəsi 69-da məskunlaşmış Zəngilan sakini Əliyev İxtiyar Fərrux oğlunun, Kərimov Rasimin atası-Nərimanov rayonu Habil Mirzəyev küçəsi, dalan 3, ev 12-də yaşayan Kərimov Qəzənfər Şirməmməd oğlunun verdiyi məlumata görə, Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun erməni polisinin əməkdaşı Abodan aldığı siyahıda onların oğlanlarının Dağlıq Qarabağda saxlandığı göstərilib. Validenlərdən övladlarını azad etmək üçün onların sayı qədər erməni əsiri tələb ediblər. Azərbaycan tərəfdə erməni əsiri olmadığı üçün dəyişmə baş tutmayıb.

## Nazarov Zaur Salamat oglu

Nazarov Zaur Salamat oglu was born in 1975. He was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town. On the 30th of January, 1994 during the fight for Godekburun village of Aghdara district Aliyev Mastali Ikhtiyar oglu, Karimov Rasim Gazanfar oglu, Nazarov Gahraman Tarverdi oglu were taken prisoners.

According to the information of his father Nazarov Salamat (he lives in Sumgayit, 13th microdistrict, 5, app.32), the father of Nazarov Gahraman Tarverdi oglu - Nazarov Tarverdi Ahliman oglu (he lives in Sumgayit, Jorat settlement, 413), the father of Aliyev Mastali Ikhtiyar oglu – Aliyev Ikhtiyar Farrukh oglu who lived in Zangilan district (now he lives in Baku, Aga Neymatulla Street, 69) and the father of Karimov Rasim Gazanfar oglu – Karimov Gazanfar Shirmammad oglu (he lives in Narimanov district, Habil Mirzeyev Street, guarter, 3, app.12), Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district), got a list from Armenian policeman Abo and it was shown that their sons were kept in Upper Garabagh. Armenians demanded Armenian prisoners for each Azerbaijani prisoner from their parents to release them Azerbaijani side couldn't find Armenian prisoner and the change didn't realize.



**Niftəliyev**
**Əli**
**Rəhman oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Zəngilan rayonunun Mincivan kəndində anadan olub. Zəngilan uğrunda döyüşlərdə iştirak edib. 23 avqust 1993-cü ildə Cəbrayıl rayonunda gedən döyüş zamanı əsir götürülüb.

Anası - Zəngilan rayonu Mincivan kənd sakini, Bakı şəhəri, Azərbaycan Dövlət Neft Akademiyasının yataqxanasında məskunlaşmış Məmmədova Qəmər Cəfər qızının verdiyi məlumata görə, oğlu 23 avqust 1993-cü ildə Cəbrayıl şəhərində, komandiri Əliyev Valehin yanında budundan ağır yaralanıb və 10 nəfər zəngilanlı döyüşçü ilə birlikdə əsir götürülüb. Məmmədova Qəmər onu da qeyd edib ki, Əli xidmət etdiyi 1 il 3 ay ərzində 6 dəfə ağır döyüşdə iştirak edib, dəfələrlə yaralanıb, buna baxmayaraq yenidən cəbhəyə qayıdıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun 1993-cü ildə erməni polisinin əməkdaşı Albert Voskanyandan aldığı azərbaycanlı əsirlərin siyahısında Niftəliyev Əlinin də adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

**Niftaliyev**
**Ali**
**Rahman oglu**

Niftaliyev Ali Rahman oglu was born in Minjivan village of Zangilan district of Azerbaijan Republic in 1973. He took part in fights for Zangilan. On the 23rd of August, 1993 during the fight in Jabrayil district he was taken prisoner.

According to information of his mother Mammadova Gamar Jafar gizi who lived in Minjivan village of Zangilan district (she lives in the hostel of Azerbaijan State Oil Academy in Baku), he was wounded in his leg and taken prisoner by Armenians with other 10 soldiers and his commander Aliyev Valeh on the on 23rd of August, 1993. Mammadova Gamar said that Ali took part in several heavy battles and was wounded several times and in spite of that he returned to the front again.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) got a list of Azerbaijani prisoners and hostages from Armenian policeman Albert Voskanyan. There was the name of Niftaliyev Ali in the list. It was shown that he was kept in Upper Garabagh.



**Novruzov Eynur Çapay oğlu**

1970-ci ildə Zəngilan şəhərində anadan olub. 1993-cü ilin mart ayında könüllü olaraq orduya yazılıb. 23 avqust 1993-cü ildə Cəbrayıl rayonu işğal olunan gün 11 döyüşçü ilə birlikdə əsir götürülüb.

Atası- Zəngilan sakini, Sumqayıt şəhəri, 41-ci məhəllə, 61 saylı yataqxanada məskunlaşmış Novruzov Çapay Əmirxan oğlu Eynurun axtarışı ilə məşğul olan zaman oğlunun xidmət etdiyi hərbi hissənin komandiri və Zəngilan Rayon İcra Hakimiyyətinin sabiq başçısı İ.Hüseynov onun sağ olduğunu və Hadrut rayonunda saxlandığını bildirib.

Zəngilan Rayon İcra Hakimiyyətinin sabiq başçısı, Yeni Yasamal «AB» yaşayış massivi, ev 141, mənzil 27-də yaşayan Hüseynov İlham Cabbar oğlunun dediyinə görə, Cəbrayıl rayonu işğal olunan gün Novruzov Eynur yaralı vəziyyətdə əsir götürülüb.

**Novruzov Eynur Chapay oglu**

Novruzov Eynur Chapay oglu was born in Zangilan town in 1970. In March of 1993 he voluntarily joined the army. On the 23rd of August, 1993 during occupation of Jabrayil district Eynur with 11 fighters was taken prisoner.

When his father Novruzov Chapay Amirkhan oglu who lived in Zangilan (at present he lives in Sumgayit town, 41 quarter, hostel № 61) searched for Eynur, the commander of military unit where his son served and the head of Executive Power of Zangilan district I.Huseynov informed that he was alive and kept in Hadrud district.

According to the words of former head of Executive Power of Zangilan district Huseynov Ilham Jabbar oglu (he lives in Yeni Yasamal massif «AB», app.141/27) during the day of occupation of Jabrayil district wounded Eynur was taken prisoner.



**Novruzov Faiq Hüseyn oğlu**

1975-ci ildə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olub. 12 aprel 1993-cü ildə Ordubad şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Füzuli rayonuna gön-

**Novruzov Faig Huseyn oglu**

Novruzov Faig Huseyn oglu was born in Ordubad town of the Nakhchivan Autonomous Republic of Azerbaijan Republic in 1975. On 12th of April, 1993 he was called up for military service by the Military Registration and

dərilib. Füzuli döyüşlərində tank sürücüsü kimi xidmət edib. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Əbdürəhmanlı kəndi uğrunda döyüşdə idarə etdiyi T-72 markalı tank ermənilər tərəfindən vurulub, özü isə əsir götürülüb.

Atası - Ordubad şəhəri Rəfiyev küçəsi, ev 32, mənzil 33-də yaşayan Novruzov Hüseyn Cəmil oğlu ərizəsində yazıb ki, oğlunun axtarışı ilə məşğul olan zaman döyüş yoldaşları ona Faiqin 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Əbdürəhmanlı kəndində idarə etdiyi T-72 markalı tankda vurularaq əsir götürüldüyünü bildiriblər.

Enlistment Office of Ordubad town and sent to Fuzuli district. During fights for Fuzuli district he served as a tank driver. On the 26th of January, 1994 during the fight for Abdurahmanli village of Fuzuli district his tank (T-72) was destroyed and he was taken prisoner.

According to a statement of his father Novruzov Huseyn Camil oglu (he lives Ordubad town, Rafiyev Street, 32/33), when he searched for his son he was told by Faig's front-line comrades during the fight for Abdurahmanli village of Fuzuli district his tank (T-72) was destroyed and he was taken prisoner on the on the 26th of January, 1994.

## Novruzov Niyaz İlyas oğlu



1970- ci ildə Azərbaycan Respublikası Goranboy rayonunun Veysəlli kəndində anadan olub. 10 oktyabr 1992-ci ildə Goranboy Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə uğrunda döyüşlərdə iştirak edib. 17-dekabr 1992-ci ildə Ağdərə rayonunun Vəng kəndində gedən döyüş zamanı 11 hərbçi ilə birlikdə əsir götürülüb.

Qardaşı - Goranboy rayonu Veysəlli kənd sakini Novruzov Niyazi İlyas oğlu izahatında döyüş yoldaşlarının Niyazın ermənilər tərəfindən əsir götürüldüyünü söylədiklərini yazıb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində erməni milliyyətindən olan Alaverdiyan Şamirdən (Yerevan tel:48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısında Novruzov Niyazın Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

## Novruzov Niyaz Ilyas oglu

Novruzov Niyaz Ilyas oglu was born in Veysalli village of Goranboy district of Azerbaijan Republic in 1970. On the 10th of October, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Goranboy district. Niyaz took part in fights for Aghdara. On the 17th of December, 1992 during the fight for village of Vang of Agdara district, he was taken prisoner with another 11 soldiers.

His brother Novruzov Niyazi Ilyas oglu who lived in Veysalli village of Goranboy district wtote a statement he was told by Niyaz's front-line comrades that he was taken prisoner by Armenians.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian Alaverdiyan Shamir (telephone in Yerevan: 48 – 67 – 93) in Tbilisi. There was the name of Novrusov Niyaz in the list. It was shown that he was kept in Spitak of Armenia.



**Nuriyev Eldəniz Məmməd oğlu**

1960-cı ildə anadan olub. 2 iyun 1992-ci ildə Nərimanov Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Baş leytenant Nuriyev Eldəniz Füzuli rayonu uğrunda döyüşlərdə taqım komandiri vəzifəsində xidmət edib. 30 iyun 1992-ci ildə Füzuli rayonunun Gövşadlı kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə əsir götürülüb.

Atası - Bakı şəhəri, Ə.Vəliyev küçəsi, ev 7, mənzil 91-də yaşayan Nuriyev Məmməd Şirin oğlunun məlumatına əsasən, döyüş yoldaşları Eldənizin 30 iyun 1992-ci ildə Gövşadlı kəndi yaxınlığındakı şərabçılıq zavodunun qarşısında gedən döyüşdə yaralanaraq mühasirədən çıxa bilmədiyini deyiblər.

Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Firəddin Əli oğlunun təqdim etdiyi əsir və itkin düşmüş vətəndaşların siyahısında Eldənizin Xocavənd rayonunun Qırmızı Bazar kəndində saxlandığı göstərilib.

**Nuriyev Eldaniz Mammad oglu**

Nuriyev Eldaniz Mammad oglu was born in 1960. On the 2nd of June, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Narimanov district. Senior Lieutenant Nuriyev Eldaniz served as a commander of the regiment. On the 30th of June, 1992 he was wounded and taken prisoner at the fight for Govshadli village of Fuzuli district.

According to the information of his father Nuriyev Mammad Shirin oglu (he lives in Baku, A. Valiyev street, 7/91), his front-line comrades told him that during the fight near winery in Govshadli village Eldaniz was wounded and surrounded on the 30th of June, 1992.

Former head of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked in 1992-1993 (now he lives in the hostel № 4 of ATU, room № 205) got a list of Azerbaijani prisoners and missing persons. There was the name of Eldaniz in the list. It was shown that he was kept in Girmizi Bazar village of Khojavand district.



**Nuriyev Sabir Ziyadxan oğlu**

1972-ci ildə Azərbaycan Respublikası Şamaxı rayonunun Əngəxaran kəndində anadan olub. Bakı şəhəri, Suraxanı rayonu Hövsan qəsəbəsi, 12/13-cü məhəllə, ev 23, mənzil 51-də yaşayıb. 5 yan-

**Nuriyev Sabir Ziyadkhan oglu**

Nuriyev Sabir Ziyadkhan oglu was born in Angarkhan village of Shamakhi district of Azerbaijan Republic in 1972. He lived in Baku, Surakhani district, 12/13 quarter, 23/51. On the 5th of January, 1994 Sabir

var 1994- cü ildə əkiz qardaşı Sabirlə birlikdə könüllü olaraq Rayon Hərbi Komissarlığına müraciət edib. Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində yerləşən hərbi hissədə xidmət edib. 3 mart 1994- cü ildə postda durarkən əsir götürülüb.

Anası - Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, 12/13-cü məhəllə, ev 23, mənzil 51-də yaşayan Nuriyeva Xalidə Ağababa qızının dediyinə görə, döyüş yoldaşları əkiz qardaşların ermənilər tərəfindən əsir götürüldüyünü görüblər. 3 mart 1994-cü ildə qardaşlar səhər tezdən keşik çəkən zaman ermənilər qəflətən onların postuna hücum ediblər. Əsgərlər qaçmağa başlayanda Sabir Bakı şəhərində onların qonşuluğunda yaşayan Mehdiyev Elçin Tofiq oğlunun yaralandığını görüb və ona kömək etmək üçün geri qayıdıb. Həmin anda ermənilər Sabiri yaralayıb. Bunu görən Seymur da onlara kömək etmək üçün geri qayıdıb.

Döyüşdən bir neçə saat sonra hərbçilər əraziyə baxış keçirdikdə, orada heç kimi tapa bilməyiblər.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Qaraxanbəyli kənd sakini Quliyev Müşfiqin (vəfat edib) əsirlikdən göndərdiyi məktubda Xocavənd rayonunun Çartaz kəndində onunla birlikdə Bakı şəhərinin Hövsan qəsəbəsindən olan əkiz qardaşlar Seymur və Sabirin də saxlandığını qeyd edib. Müşfiqin yazdığına görə, Sabir yaralı olub. Bundan sonra onların taleyi haqqında heç bir məlumat əldə olunmayıb.

with twins brother Seymur voluntarily appealed to the Military Registration and Enlistment Office of Surakhani district. He served in a military unit in Ashaghi Seyidahmadli village of Fuzuli district. On the 3rd March, 1994 during his point duty he was taken prisoner.

According to the words of his mother Nuriyeva Khalida Agababa gizi (she lives in Baku, Surakhani district, 12/13 quarter, 23/51), their front-line comrades saw that Armenians took as prisoners her twins. On the 3rd of March, 1994 early in the morning the twins were on watch at the point, suddenly Armenians attacked them. Soldiers tried to run but one of them Mehdiyev Elchin Tofig oglu was wounded, twin brothers knew him from neighbourhood in Baku, and Sabir decided to go back to help him. Armenians wounded him too, after what Seymur also went back to his brother.

Few hours after the skirmish during observation of the territory soldiers haven't found anyone there.

Nuriyeva Khalida said Guliyev Mushvig who lived in Garakhanbayli village of Fuzuli and returned from Armenian captivity (he had already died) sent them a letter. He wrote that twin brothers from Hovsan settlement of Baku Seymur and Sabir are kept with him Chatraz village of Khojavand district. According to Mushfig's words, Sabir was wounded. Then he couldn't get any information concerning him.

## Nuriyev Sahil Sahib oğlu



1972-ci ildə Azərbaycan Respublikası Göyçay rayonunun Bəydövül kəndində anadan olub. 1992-ci ilin sentyabr ayında hərbi xidmətə çağırılıb. 21 oktyabr 1992-ci ildə Laçın rayonunun Çaldaş kən-

## Nuriyev Sahil Sahib oglu

Nuriyev Sahil Sahib oglu was born in Baydovul village of Goychay district of Azerbaijan Republic in 1972. He was called up for military service in September of 1992. On the 21st of October, 1992 during

dində gedən döyüşdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Məmmədov Mayıl Məmmədəli oğlunun izahatına görə, 1993-cü ildə Xankəndi yaxınlığındakı əhəng bişirilən sexdə Nuriyev Sahil də onun kimi ağır fiziki işlərə cəlb edilib. Əsirlikdən azad olunandan sonra atası Sahilin şəklini göstərdikdə, o, Mayıl Nuriyevi tanıyıb.

the fight in Chaldash village of Lachin district Sahib was taken prisoner.

According to a statement of Mammadov Mayil Mammadali oglu who released from Armenian captivity, he was shown Sahil's photo by his father and he recognized him and said that Sahil as him was forced for heavy labour in plants near Khankandi in 1993.

### Nuriyev Seymur Ziyadxan oğlu



1972-ci ildə Azərbaycan Respublikası Şamaxı rayonunun Əngəxaran kəndində anadan olub. Bakı şəhəri, Suraxanı rayonu Hövsan qəsəbəsi, 12/13-cü məhəllə, ev 23, mənzil 51-də yaşayıb. 5 yanvar 1994-cü ildə əkiz qardaşı Sabirlə birlikdə könüllü olaraq Suraxanı Rayon Hərbi Komissarlığına müraciət edib. Füzuli rayonuun Aşağı Seyidəhmədli kəndində yerləşən hərbi hissədə xidmət edib. 3 mart 1994-cü ildə postda durarkən əsir götürülüb.

Anası - Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi 12/13-cü məhəllə, ev 23, mənzil 51-də yaşayan Nuriyeva Xalidə Ağababa qızının dediyinə görə, döyüş yoldaşları əkiz qardaşların ermənilər tərəfindən əsir götürüldüyünü görüblər. 3 mart 1994-cü ildə qardaşlar səhər tezdən keşik çəkən zaman ermənilər qəflətən onların postuna hücum ediblər. Əsgərlər qaçmağa başlayanda qardaşı Sabir Bakı şəhərində onların qonşuluğunda yaşayan Mehdiyev Elçin Tofiq oğlunun yaralandığını görüb və ona kömək etmək üçün geri qayıdıb. Həmin anda ermənilər Sabiri yaralayıb. Bunu görən Seymur da onlara kömək etmək üçün geri qayıdıb.

### Nuriyev Seymur Ziyadkhan oglu

Nuriyev Seymur Ziyadkhan oglu was born in Angarkhan village of Shamakhi district of Azerbaijan Republic in 1972. He lived in Baku, Surakhani district, 12/13 quarter, 23/51. On the 5th of January, 1994 Seymur with twins brother Sabir voluntarily appealed to the Military Registration and Enlistment Office of Surakhani district. He served in a military unit in Ashaghi Seyidahmadli village of Fuzuli district. On the 3rd March, 1994 during his point duty he was taken prisoner.

According to the words of his mother Nuriyeva Khalida Agababa gizi (she lives in Baku, Surakhani district, 12/13 quarter, 23/51), their front-line comrades saw that Armenians took as prisoners her twins. On the 3rd of March, 1994 early in the morning the twins were on watch at the point, suddenly Armenians attacked them. Soldiers tried to run but one of them Mehdiyev Elchin Tofig oglu was wounded, twin brothers knew him from neighbourhood in Baku, and Sabir decided to go back to help him. Armenians wounded him too, after what Seymur also went back to his brother.

Döyüşdən bir neçə saat sonra hərbçilər əraziyə baxış keçirdikdə, orada heç kimi tapa bilməyiblər.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Qaraxanbəyli kənd sakini Quliyev Müşfiqin (vəfat edib) əsirlikdən göndərdiyi məktubda Xocavənd rayonunun Çartaz kəndində onunla birlikdə Bakı şəhərinin Hövsan qəsəbəsindən olan əkiz qardaşların: Seymur və Sabirin də saxlandığını qeyd edib. Müşfiqin yazdığına görə, Sabir yaralı olub. Bundan sonra onların taleyi haqqında heç bir məlumat əldə olunmayıb.

Few hours after the skirmish during observation of the territory soldiers haven't found anyone there.

Nuriyeva Khalida said Guliyev Mushvig who lived in Garakhanbayli village of Fuzuli and returned from Armenian captivity (he had already died) sent them a letter. He wrote that twin brothers from Hovsan settlement of Baku Seymur and Sabir are kept with him Chatraz village of Khojavand district. According to Mushfig's words, Sabir was wounded. Then he couldn't get any information concerning him.



## Nuriyev Telman Süleyman oğlu

1972-ci ildə Azərbaycan Respublikasının Dəvəçi şəhərində anadan olub. 7 fevral 1994-cü ildə Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 16 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə əsir götürülüb.

Atası - Dəvəçi rayonu Nizami küçəsi, ev 9-da yaşayan Nuriyev Süleyman Abbasəli oğlunun verdiyi məlumata görə, oğlu fevral ayının 15-dən 16-na keçən gecə Murovdağ uğrunda döyüşdə ayağından yaralanaraq əsir götürülüb.

Telmanın döyüş yoldaşı, Dəvəçi rayonu Xəlfələr kənd sakini Abdullayev Abdulla Sədrəddin oğlu izahatında yazıb ki, 1994-cü il fevral ayının 16-da Murovdağda gedən döyüşdə Telmanla birlikdə olub. Ermənilər pusqu qurub onları Azərbaycan dilində çağırıblar. Əsgərlər onlara yaxınlaşanda qəfildən atəş açıblar. Bu zaman Telman ağır yaralanıb. Abdulla yaralılara kömək gətirmək üçün Kəlbəcərin Güzgü deyilən məntəqəsinə gedib, geri qayıtmaq

## Nuriyev Telman Suleyman oglu

Nuriyev Telman Suleyman oglu was born in Davachi town of Azerbaijan Republic in 1972. On the 7th of February, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Davachi district. On the 16th of February, 1994 during the fight for Murovdag height of Kelbajar district Telman was taken prisoner.

According to the information of his father Nuriyev Suleyman Abbasali oglu (he lives in Davachi, Nizami street, 9), Telman was wounded in his leg and taken prisoner at night between 15th and 16th of February.

Telman's front-line comrade Abdullayev Abdulla Sadraddin oglu who lived in Khalaflar village of Davachi district wrote a statement that during the fight for Murovdag he was together with Telman on the 16th of February. Armenians made an ambush for them and called them on Azerbaijani language. When they came up to them, they opened fire and Telman was wounded. Abdulla left the place to call somebody for help

istədikdə ərazinin ermənilər tərəfindən tutulduğunu görüb.

Dəvəçi rayon sakini, Telmanın döyüş yoldaşı Xanəhmədov Tahir Ramazan oğlu izahatında bildirib ki, ermənilərin pusqusuna düşüblər. Döyüş zamanı Telman ayağından ağır yaralanıb.

Onlar dağın başında qarlı, çovğunlu havada yaralıları mühasirədən çıxara bilmədikləri üçün Abdulla kömək dalınca gedib, Tahir isə 2 yaralı döyüşçü ilə orada qalıb. Yaralılardan biri ölüb. Tahir Telmanı özü ilə apara bilməyib. Ermənilər onu əsir götürüblər.

from Guzgu settlement of Kelbajar but when he came back he found that they were taken prisoners by Armenians.

According to a statement of Telman's front-line comrade Khanmamedov Tahir Ramazan oglu who lived in Davachi district, they were surrounded by Armenians and during the battle Telman was wounded in leg.

They couldn't break out of encirclement because of snowstorm weather and they were at the top of the mountain, so Abdulla left to help and he stayed with 2 wounded soldiers. One of the wounded died. Tahir was unable to take Telman with him. Armenians took him as a prisoner.

## Nuriyev Zaur Bayram oğlu



1975-ci ildə Azərbaycan Respublikası Biləsuvar rayonunun Nərimankənd kəndində anadan olub. Qarabağ döyüşlərində iştirak edib. 26 aprel 1994-cü ildə Ağdam rayonunun Nəmirli kəndində gedən döyüşdə əsir götürülüb.

Atası – Biləsuvar rayonu Nərimankənd kənd sakini Nuriyev Bayram Atamoğlan oğlunun verdiyi məlumata görə, oğlu ilə birlikdə əsir götürülmüş döyüşçünün atası Gözəlov Xanış radioəlaqə vasitəsilə qarşı tərəflə danışmaq imkanı əldə edib, lakin öz oğlu ilə deyil, Nuriyev Zaurla danışa bilib. Zaur ona oğlunun sağ olduğunu deyib. Bu hadisə 1995-ci ildə Tərtər rayonu ərazisində baş verib.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlu izahatında yazıb ki, 1994-cü ildə erməni tərəfindən əsir-

## Nuriyev Zaur Bayram oglu

Nuriyev Zaur Bayram oglu was born in Narimankand village of Bilasuvar district of Azerbaijan Republic in 1975. On the 26th of April, 1994 during the fight for Namirli village of Aghdam district he was taken prisoner.

According to the information of his father Nuriyev Bayram Atamoglan oglu who lived in Narimank village of Bilasuvar district, the father of another soldier who was taken prisoner with Zaur, Gozalov Khanish had an opportunity to connect by radio communication with Armenians. He could speak with Nuriyev Zaur. Zaur said that his son was alive. That happened in Terter district in 1995.

Abdullayev Tofig Ismayil oglu who was engaged in change of prisoners and lived in Dashushen village of Asgaran district (now he lives in "Zugulba" sanatorium in Buzovna settlement) wrote a statement that a chairman of commission for change

lərin dəyişdirilməsi ilə məşğul olan komissiyanın sədri Albert Voskanyan ona Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş 37 azərbaycanlı əsir və girovun siyahısını verib. Qarşı tərəf onları yalnız jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişdirilə biləcəyini deyib. Həmin siyahıda Zaur Nuriyevin Əsgəran rayonunun Daşuşen kəndində yerləşən quşçuluq fermasında saxlandığı göstərilib.

of prisoners gave him a list of 37 Azerbaijani prisoners hidden from ICRC in 1994. There was Zaur's name in the list. It was shown that he was kept in a poultry farm in Asgaran. Armenians wanted to change those prisoners for Arkadiy Ayriyan (nickname "Napoleon") – the killer of Azerbaijani journalist Salatin Asgarova. It was shown that Zaur Nuriyev was kept in poultry farm in Dashushen village of Asgaran district.



## Ömərov Rasim Qədim oğlu

1971-ci ildə Azərbaycan Respublikası Kürdəmir rayonunun Şilyan kəndində anadan olub. Füzuli rayonu ərazisindəki döyüşlərdə iştirak edib. 12 yanvar 1994-cü ildə Füzuli rayonunun Şükürbəyli kəndində gedən döyüş zamanı əsir götürülüb.

Atası - Kürdəmir rayonu Şilyan kənd sakini Ömərov Qədim Məmmədrəhim oğlunun dediyinə görə, Bərdə rayon sakini, hazırda Ağcabədi rayonunun 13-cü sovxozunda yaşayan Məmməd adlı hərbçi 1997-ci ildə ermənilərlə radioəlaqə yaradaraq Rasim haqqında məlumat əldə edib. Qarşı tərəf onun sağ olduğunu və Füzuli rayonunun Qırmızı Bazar kəndində saxlandığını deyib. Sonradan onu Xankəndinə aparıblar.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, Ağdamın Qərvənd kəndində keçirilən danışıqlarda erməni nümayəndəsi Albert Ömərov Rasimin sağ olduğunu, Şuşa şəhərində saxlandığını bildirib.

## Omarov Rasim Gadim oglu

Omarov Rasim Gadim oglu was born in Shilyan village of Kurdamir district of Azerbaijan Republic in 1971. He took part in fights for the territory of Fuzulu district. On the 12th of January, 1994 during the fight for Shukurbeyli village of Fuzuli district Rasim was taken prisoner.

According to the words of his father Omarov Gadim Mammadrahim oglu who lived in Shilyan village of Kurdamir district, a military man whose name was Mammad and lived in Barda district (at present he lives in collective farm № 13 in Aghjabadi district) connected by radio communication with Armenians and got an information concerning Rasim. The opposite side said that Rasim was alive and kept in Girmizi Bazar village of Fuzuli district. Then he was taken to Khankandi.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Khojavand district) wrote a statement that during the talks with opposite side in Garvand village of Aghdam district, the representative of Armenians whose name was Albert said Omarov Rasim was alive and kept in Shusha town.



**Orucov Asif Qara oğlu**

1974-cü ildə anadan olub. Bakı Ali Hərbi Dənizçilik Məktəbinin müdavimi Orucov Asif 1992-ci ilin oktyabr ayında Nəsimi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib. 20 fevral 1993-cü ildə Ağdərə rayonunun Getavan kəndində gedən döyüşdə əsir götürülüb.

Hüseynov Akif Saleh oğlunun bacısının axtarışı ilə məşğul olan zaman Tbilisi şəhərində Qaqikdən (Yerevan telefonu: 63-60-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında Orucov Asifin də adı olub. Onun Ermənistanın Spitak rayonunda saxlandığı göstərilib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin 1992-1994-cü illərdə ermənilər tərəfindən əsir və girov götürülmüş azərbaycanlı vətəndaşların siyahısında Orucov Asif Qara oğlunun da adı olub. Asifin Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

**Orujov Asif Gara oglu**

Orujov Asif Gara oglu was born in 1974. The final-year student of Baku Supreme of Seafarer School Orujov Asif was called up for military service by the Military Registration and Enlistment Office of Nasimi district in October, 1992. He took part in fights for Aghdara district. On the 20th of February, 1993 during the fight for Getavan village of Aghdara district Asif was taken prisoner by Armenians.

During the search for his sister, Huseynov Akif Saleh oglu got a list of Azerbaijani prisoners and hostages from Gagik (Phone in Yerevan: 63-60-70) in Tbilisi and there was his name in that list. It was shown that he was kept in Spitak district of Armenia.

There was the name of Orujov Asif in a list of Azerbaijani prisoners and hostages who were taken by Armenians in 1992-1994 represented by Azerbaijan National Committee of Helsenki Civil Assembly. It was shown that Asif was kept in Spitak district of Armenia.



**Orucov Cavan Canan oğlu**

1976-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlı qüvvələri tərəfindən işğal olunan gün ailə üzvləri ilə birlikdə əsir götürü-

**Orujov Javan Janan oglu**

Orujov Javan Janan oglu was born in Khojali town of Azerbaijan Republic in 1976. On the 26th of February, 1992 during occupation of Khojali town by Armenian armed forces Javan with members of

lüb. Sonradan Cavandan başqa bütün ailə üzvləri azad edilib.

Atası - Xocalı şəhər sakini, Bakı şəhəri, Neapol küçəsi, ev 23, mənzil 123-də yaşayan Orucov Canan Allahverdi oğlunun verdiyi məlumata görə, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə yaşadıqları şəhər ermənilər tərəfindən işğal olunan zaman ailə üzvləri ilə Ağdam rayonu istiqamətinə üz tutublar. 3 gün ac-susuz meşədə qalıblar. Ermənilər onları mühasirəyə alaraq əsir götürüb. Həmin anda oğlu Cavan onlardan ayrı düşüb.

Cavanın həmyerlisi, onunla bir kamerada saxlanılmış, hazırda Gəncə şəhərində məskunlaşan Məmmədov İbrahim girov götürüldükdən bir neçə gün sonra bir erməninin Cavanı götürüb, harasa apardığını deyib. Sonradan Canan tanışları vasitəsi ilə Qarik adlı erməni polis əməkdaşının Cavanı Xankəndində yaşayan bir nəfər erməniyə verdiyini öyrənib.

Xocalı şəhər sakini, Mingəçevir şəhəri, M. Hüseyn küçəsi, ev 10, mənzil 18-də yaşayan, erməni əsirliyindən qayıtmış Eyvazov Əli Nəcəfəli oğlu ərizəsində göstərib ki, Xocalı işğal edildikdən sonra bir neçə həmyerlisi, həmçinin Orucov Cavanla birlikdə Əsgəran şəhər polis idarəsində saxlanılıblar. 1992-ci ilin mart ayında ermənilər Cavanı Xankəndinə aparıblar. Bir daha onu görməyib.

his family was taken prisoner. Later all the members of family except Javan were released.

According to the information of his father Orujov Janan Allahverdi oglu who lived in Khojali town (he lives in Baku, Neapol Street, 23, app.123) during the night from 25th to 26th of February, 1992, when Armenians captured their town, his family ran to Aghdam district. They stayed at the forest for 3 days without food and water. Armenians surrounded them and took as prisoners. At that moment his son Javan separated from them.

Janan's villager Mammadov Ibrahim (at present he lives in Ganja city) who was kept in the same cell with him said that after his captivity Javan was taken prisoner by Armenian and sent to somewhere. Then by the assistance of Janan's familiar, an Armenian policeman whose name was Garik, he found out that Javan was kept in Khankandi.

Eyvazov Ali Najafali oglu who lived in Khojali town (now he lives in Mingechevir city, M.Huseyn Street, 10, app.18) and returned from Armenian captivity wrote a statement that after occupation of Khojali together with some villagers including Orujov Javan, they were kept in police department of Asgaran district. In March of 1992, Armenians took Javan to Khankandi. He didn't see Javan any more.

### Orucov Famil Əli oğlu



1971-ci ildə Ermənistan Respublikasının Əzizbəyov (Dərələyəz) rayonunda anadan olub. Məlum hadisərlə əlaqədar ata-baba torpaqlarından qovulandan sonra Xocalı şəhərində məskunlaşıb-

### Orujov Famil Ali oglu

Orujov Famil Ali oglu was born in Azizbeyov (Daralayaz) district of Armenia in 1971. In 1988 because of known events they were expatriated from native land and moved into Khojali town

lar. Famil Xocalı Rayon Polis Şöbəsinin əməkdaşı olub. 25 fevral 1992-ci ildə erməni-rus hərbi birləşmələrinin Xocalıya hücumu zamanı Famil toxuculuq fabrikinin yanında yerləşən postda keşik çəkib. Qızğın atışmada yaralanıb. Ermənilər onu əsir götürüb, əvvəlcə işğal olunmuş Xocalıda, sonra Yerevanda saxlayıblar.

Atası-girovluqdan qayıtdıqdan sonra Mingəçevir şəhərindəki «Kür» avarçəkmə bazasında məskunlaşmış Orucov Əli Dadaş oğlunun dediyinə görə, Famil Milli Qəhrəman Tofiq Hüseynovun başçılığı ilə əhalininin Əsgəran tərəfdən müdafiəsini təşkil edib, onların sağ-salamat çıxarılmasına şərait yaradıb. Özü isə yaralanıb, əsir götürülüb, Yerevan şəhərinə aparılıb.

Ermənilərlə radioəlaqə zamanı qarşı tərəf Familin dəyişdirilməsi və ya azad olması işinin qondarma Dağlıq Qarabağ Respublikasının o zamankı prezidenti Robert Koçaryandan asılı olduğunu bildirib.

Girovluqdan qayıtdıqdan sonra Qobustan rayonunun Mərəzə kəndində məskunlaşmış Ermənistan qaçqını Məmmədova Narxanım Heydərəli qızı ərizəsində yazıb ki, Xocalının işğalı zamanı xalasının həyat yoldaşı Paşa ilə birlikdə qonşusu Famili də ağır yaralı vəziyyətdə görüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun verdiyi məlumata görə, qarşı tərəfdən danışıq aparan Berçikin oğlu Karen radioəlaqə vasitəsilə ona sabiq polis əməkdaşı Orucov Familin yaralı vəziyyətdə əsir götürüldüyünü və Yerevan şəhərində saxlandığını bildirib. Karenin dediyindən belə məlum olub ki, Famil polis işçisi olduğu üçün onun dəyişdirilməsi qondarma Dağlıq Qarabağ Respublikasının o zamankı rəhbərliyinin şəxsi göstərişi ola bilər.

Erməni əsirliyindən azad olduqdan sonra Göyçay rayonunda məskunlaşmış Xocalı sakini Hümbətov Cəlil Hümbət oğlu izahatında yazıb ki, 26 fevral 1992-ci ildə saat 22.00 radələrində onu 40 nəfərə ya-

of Azerbaijan Republic. Famil worked at Police Department of Khojali district. On the 25th of February, 1992 when Armenian armed forces attacked Khojali he was on point duty near the weaving mill. Famil was wounded. Armenians took him as a prisoner and kept in Khojali and then in Yerevan.

According to the words of his father Orujov Ali Dadash oglu who returned from Armenian captivity (he lives in «Kur» base in Mingechevir city), Famil organized the defense under Tofig Huseynov's command and could help people. Wounded Famil was taken prisoner and taken to Yerevan.

Armenians connected with opposite side and informed Famil's change and his release depended from the president of the Republic of Upper Garabagh Robert Kocheryan of that time.

Mammadova Narkhanim Heydarali oglu who returned from captivity, was born in Armenia and after known events in 1988 she moved into Khojali wrote a statement that during the occupation of Khojali, she saw her neighbour, the husband of Famil's aunt Pasha was wounded.

According to the information of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district), Berchik's son Karen connected by radio communication and informed that former policeman wounded Famil was taken prisoner and kept in Yerevan. According to Karen's words, Famil was policeman and that's why the leader of the Republic of Upper Garabagh was engaged in change himself. His further life is unknown.

Humbatov Jalil Humbat oglu who released from Armenian captivity and lived in Khojali town (he lives in Goychay district) wrote a statement that 40 men including him were taken to Polis department of Khojali town on the 26th of

xın sakin ilə birlikdə Xocalı şəhər polis şöbəsinə gətirib, qruplara bölərək ayrı-ayrı otaqlarda saxlayıblar. 6 gün sonra polis işçisi Orucov Famili bir neçə nəfərlə birlikdə qonşu meşədə əsir götürmüş, oraya gətirmişlər. 2 gün sonra Famili yenidən harasa, naməlum istiqamətə aparıblar. Bir daha onu görməyib.

February, 1992 at 10 o'clock. They shared them into groups and kept in separate rooms. 6 days later policeman with others was taken prisoner at the snow forest. 2 days later Famil was taken to unknown direction. Jalil hasn't seen him since that time any more.



**Orucov Kamran Niyətulla oğlu**

1974-cü ildə anadan olub. 14 iyul 1992-ci ildə hərbi xidmətə çağırılıb və Ağdam rayonunda gedən döyüşlərdə iştirak edib. 19 sentyabr 1992-ci ildə Ağdam rayonunun Fərrux yuksəkliyi uğrunda döyüşdə əsir götürülüb.

Atası - Quba rayonu Qonaqkənd kənd sakini Orucov Niyətulla Məhərrəm oğlunun dediyinə görə, batalyon komandiri Natiq Hüseynov və döyüş yoldaşları ona Kamranın son döyüşdən qayıtmadığını bildiriblər. Kamranın həmkəndlisi və cəbhə yoldaşı Əliyev Əlinin dediyinə görə, həmin döyüşdən sonra onu Məsudla bir yerdə sağ-salamat görüb.

Goranboy rayon sakini, erməni əsirliyində olan Ağalarov Yaşar Musa oğlunun atası - Ağalarov Musa ərizəsində qeyd edib ki, Şuşa şəhərində yerləşən erməni alayının rəisi Armaisin verdiyi Xankəndi və Şuşa alaylarında saxlanılan azəçrbaycanlı əsirlərin siyahısında onun oğlu ilə bərabər 36 nəfər hərbi əsirin, o cümlədən, Orucov Kamranın da adı olub. Erməni tərəfi onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı olmuş Arkadi Ayriyana dəyişmək istəyib.

Əsirlikdən qayıtmış Qurbanov İlham Orucov Kamranın fotoşəklini gördükdə

**Orujov Kamran Niyatulla oglu**

Orujov Kamran Niyatulla oglu was born in 1974. On the 14th of July, 1992 he was called up for military service and took part in fights for Aghdam district. On the 19th of September, 1992 during the fight for Farrukh height of Aghdam district Kamran was taken prisoner.

According to the words of his father Orujov Neyatulla Maharram oglu who lived in Gonagkand village of Guba district, the commander of battalion Natig Huseynov and his front-line comrades informed that he didn't return from the last fight. According to the words of Kamran's villager Aliyev Ali he saw him together with Masud and they were alive after that battle.

The farther of Agalarov Yashar Musa oglu who lived in Goranboy district and returned from Armenian captivity - Agalarov Musa noted that Armenian head of regiment in Shusha town Armayis gave a list of 36 Azerbaijani prisoners of war kept in Khankandi and Shusha regiment including Orujov Kamran. Armenians wanted to change them for a killer of journalist Salatin Asgarova - Arkadi Ayriyan.

Gurbanov Ilham Sabir oglu who returned from Armenian captivity saw Kamran's picture, recognized him and said that he was

onu tanıyıb, Şuşa avtobazasında təsərrüfat işlərinə cəlb edildiyini deyib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin verdiyi arayışda Orucov Kamranın 9 sentyabr 1992-ci ildə Ağdam rayonunun Fərrux yüksəkliyində əsir götürüldüyü bildirilib.

forced for agricultural work in Shusha motor-transport depot.

According to the report of Ministry of Defense of Azerbaijan Republic Orujov Kamran was taken prisoner in Farrukh height of Aghdam district on the 9th of September, 1992.

## Orucov Rizvan Qurban oğlu



1972-ci ildə anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 4 yanvar 1994-cü ildə Xocavənd rayonunun Qarakənd kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası - Ağcabədi rayonu Hacıbədəlli kənd sakini Orucov Qurban Rəsul oğlunun verdiyi məlumata görə, döyüş yoldaşları Rizvanın Xocavənd rayonunun Qarakənd kəndində əsir düşdüyünü deyiblər.

Ağcabədi rayonu Hacıbədəlli kənd sakini, hərbi əsir Orucov Sənanın atası və Rizvanın qohumu Orucov Yunis Cavo oğlunun ərizəsində göstərilib ki, 1994-cü ilin aprel ayında Xankəndi şəhərində yerləşən erməni alayının qəqargah rəisi Elmira Ağayana zəng vuraraq ondan öz oğlunun, Orucov Rizvanın və Hüseynov Namiq Fəxrəddin oğlunun Əsgəran rayonunda saxlandığını öyrənib.

## Orujov Rizvan Gurban oglu

Orujov Rizvan Gurban oglu was born in 1972. He took part in fights for Garabagh. On the 4th of January, 1994 during the fight for Garakand village of Khojavand district Rizvan was taken prisoner by Armenians.

According to the information of his father Orujov Gurban Rasul oglu who lived in Hajibadali village of Aghjabadi district, front-line comrades said that Rizvan was taken prisoner in Garakand village of Khojavand district.

The father of prisoner of war Orujov Sanan - Orujov Yunis Javo oglu who lived in Hajibadali village of Aghjabadi district, he was Rizvan’s relative, wrote a statement that the chief of staff of Armenian regiment Elmira Agayan rang him up and said his that son, Orujov Rizvan and Huseynov Namig Fakhraddin oglu were kept in Asgaran district in April of 1994.



**Orucov Sənan Yunis oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Ağcabədi rayonunun Hacıbədəlli kəndində anadan olub. 6 yanvar 1993-cü ildə Ağcabədi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 14 yanvar 1994-cü ildə Xocavənd rayonunun Qarakənd kəndində gedən döyüşdə ağır yaralanıb və əsir götürülüb.

Atası-Ağcabədi rayonu Hacıbədəlli kənd sakini Oruroc Yunis Cəvo oğlu izahatında yazıb ki, 1994-cü ilin aprel ayında Xankəndi şəhərində yerləşən erməni alayının gərarqah rəisi Ağayan Elmira ilə əlaqə saxlayarkən oğlunun, Hüseynov Namiqin və Orucov Rizvanın sağ olduğunu və Əsgəran rayonunda saxlandığını öyrənib.

Döyüş yoldaşı-Ağcabədi rayonu Sarvanlar kənd sakini İsmayılov Amil Həbib oğlunun verdiyi məlumata görə, 4 yanvar 1994-cü ildə Xocavənd rayonunun Qarakənd kəndində gedən döyüş zamanı Sənanın yaralandığının və ermənilərin onu əsir götürdüyünün şahidi olub. Özü ağır yaralı halda uzaqda olduğundan həmyerlisinə kömək edə bilməyib.

**Orujov Sanan Yunis oglu.**

Orujov Sanan Yunis oglu was born in Hajibadali village of Agjabadi district of Azerbaijan Republic in 1974. On the 6th of January, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Aghjabadi district. On the 14th of January, 1994 during the fight in Garakand village of Khojavand district wounded Sanan was taken prisoner.

His father Orujov Yunis Javo oglu who lived in Hajibadali village of Agjabadi district wrote a statement that he connected with chief of staff of Khankandi regiment Elmira Agayan (phone: 4-58-70) in April of 1994 and found out that his son, Huseynov Namig and Orujov Rizvan were alive and kept in Asgaran district.

According to the information of his frontline comrade Ismayilov Amil Habib oglu who lived in Sarvanlar village of Aghjabadi district during the fight in Garakand village of Khojavand district, wounded Sanan was taken prisoner by Armenians on the 4th of January, 1994. But Amil was wounded and couldn't help him.



## Osmanov Əkrəm Məmmədşah oğlu

1969-cu ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Mulux kəndində anadan olub. 1989-cu ildə sovet ordusunda 2 illik hərbi xidmətini başa vurduqdan sonra, 1 dekabr 1992-ci ildə torpaqlarımızın müdafiəsi üçün İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən yenidən hərbi xidmətə çağırılaraq Qubadlı rayonuna göndərilib. Həmin ayın 23-də Zəngilan rayonunda Yuxarı Yeməzli kəndi uğrunda döyüşdə iştirak edib. Ermənilər onu 12 döyüş yoldaşı ilə birlikdə əsir götürüb, Ermənistanın Gorus rayonunda saxlayıblar.

Qardaşı-İsmayıllı rayonu Yuxarıbaş kənd sakini Osmanov Vaqif Məmmədşah oğlunun verdiyi məlumata görə, ermənilərin azərbaycanlı hərbçilərlə apardıqları radiodanışıqlarda atası və qardaşı ilə birlikdə o da iştirak edib. Qarşı tərəf əsir götürdüyü və Ermənistanın Gorus rayonunda saxladığı 13 azərbaycanlı hərbçinin hər biri üçün 10 ton benzin tələb edib. Ermənilərin tələbləri yerinə yetirilmədiyi üçün Osmanov Əkrəmlə birlikdə əsir götürülmüş 12 hərbçini azad etmək mümkün olmayıb.

Əkrəmin sabiq tabor komandiri, Bakı şəhəri, Zığ şosesi, ev 49, mənzil 6-da yaşayan Cəbrayılov Xaqani Sərdar oğlu izahatında yazıb ki, Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən, onun rəhbərlik etdiyi döyüşdə 36 hərbçi əsgər əsir götürülüb. 1993-cü il yanvar ayının 1-də ermənilər əlaqə yaradaraq əsir götürdükləri əsgərlərdən 13 nəfərinin, o cümlədən, Osmanov Əkrəmin də adı olan siyahını onlara veriblər.

## Osmanov Akram Mammadshah oglu

Osmanov Akram Mammadshah oglu was born in Mulukh village of Ismayilli district of Azerbaijan Republic in 1969. In 1989 he continued his military service in ranks of Soviet Army and then he was called up for military service by the Military Registration and Enlistment Office of Ismayilli district to defend Garabagh's lands from Armenian occupants on the 1st of December, 1992. Akram was sent to Gubadli. On the 23rd of December, 1992 he was sent to Zangilan district and took part in fights for Yukhari Yemezli village. Armenians took him and 12 front-line comrades as prisoners and kept in Gorus district of Armenia.

According to the information of his brother Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district, his father and brother took part in radio communication with Armenians. Armenians demanded 10 t of petrol for each 13 Azerbaijani prisoners kept in Gorus district. Armenians' demands weren't realized and it was impossible to release Osmanov Akram and 12 military men.

Akram's former commander of battalion Jabrayilov Khagani Sardar oglu (he lives in Baku, Zig highway, 49, app.6) wrote a statement that during the fight in Yukhari Yemezli village of Zangilan district, 36 soldiers under his command were taken prisoners. On the 1st of January, 1993 Armenians connected and gave a list of 13 prisoners including Osmanov Akram.



## Osmanov Nadir Müsənnif oğlu

1970-ci ildə Azərbaycan Respublikası Balakən rayonunun Qazma kəndində anadan olub. 7 iyun 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. 16 iyun 1992-ci ildə Ağdam rayonunun Sırxavənd kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb. Əvvəlcə Xocavənd rayonunun Tuğ kəndində saxlanılıb, sonra isə Şuşa həbsxanasına göndərilib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin verdiyi məlumata görə, 16 və 26 iyun 1992-ci il tarixlərində onların nümayəndələri əsirlikdə saxlanılan Nadirlə görüşüb.

Qardaşı-Balakən rayonu Qazma kənd sakini Osmanov Şahruddin Müsənnif oğlu izahatında yazıb ki, 21 iyun 1992-ci ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi onlara Nadirdən məktub gətirib. Nadir məktubunda ermənilər tərəfindən əsir götürüldüyünü, Şuşa həbsxanasında saxlandığını bildirib, qardaşından onu tezliklə azad etməyi xahiş edib. Şahruddinin dediyinə görə, onlar 2 dəfə vasitəçilərin yardımı ilə Nadiri əsirlikdən azad etmək üçün ermənilərlə danışıqlar aparıblar. Qarşı tərəf onu yalnız jurnalist Salatın Əsgərovanı qətlə yetirmiş şəxslərdən biri ilə dəyişməyə razılıq verib. Həmin cinayətkarlar Azərbaycan Respublikasının hüquq mühafizə orqanları tərəfində saxlandıqları üçün dəyişmə baş tutmayıb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu 1992-ci ildə radiodanışıq zamanı Maksim adlı erməni polisindən Osmanov Nadirin Xocavənd rayonunun Tuğ kəndində saxlandığını və onu jurnalist Salatın Əsgəro-

## Osmanov Nadir Musannif oglu

Osmanov Nadir Musannif oglu was born in Gazma village of Balakan district of Azerbaijan Republic in 1970. On the 7th of June, 1992 he voluntarily was sent to fight for Garabagh. On the 16th of June, 1992 during the fight in Sirkhavand village of Aghdam district Nadir was taken prisoner by Armenians. At first he was kept in Tug village of Khojavand district and then he was sent to Shusha prison.

According to the information of ICRC, their representatives met prisoner Nadir on the 16th and 26th of June, 1992.

His brother Osmanov Shahruddin Musannif oglu who lived in Gazma village of Balakan district wrote a statement that the representative of ICRC gave them a letter from Nadir on the 21st of June, 1992. Nadir wrote that he was taken prisoner by Armenians and kept in Shusha prison. He asked his brother to release him. According to the words of Shahruddin, they tried to release Nadir by the assistance of middlemen for 2 times. The opposite side agreed to change him only for one of killers of journalist Salatin Asgarova. The change wasn't realized because those prisoners were kept by law enforcement of Azerbaijan Republic.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district) connected with Armenians by radio communication and found out from policeman Maxim that Nadir was kept in Tug village of Khojavand district and they could change him only for one of killers of journalist Salatin Asgarova.

vanın qatillərindən biri ilə dəyişdirmək istədiklərini öyrənib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında qarşı tərəflə aparılan radiodanışıqlar zamanı Abo vasitəsilə Nadirin Xocavənd rayonunun Tuğ kəndində saxlandığını və qarşı tərəfin onu yuxarıdakı şərtlə azad etmək fikri olduğunu qeyd edib.

Erməni əsirliyindən qayıtmış Bakı şəhəri, Nərimanov rayonunun ərazisində yerləşən Səttərxan adına zavodun laboratoriyasında məskunlaşmış Laçın rayon sakini Cəfərov Tahir Xanlar oğlunun verdiyi məlumata əsasən, ermənilər 1992-ci il iyul ayının 8-dən 11-ə qədər Balakən rayon sakini Osmanov Nadirlə birlikdə onu dəyişdirmək məqsədilə Şuşa həbsxanasından Xocavənd rayonunun Tuğ kəndinə gətiriblər. Lakin 12 iyul 1992-ci ildə onları «UAZ» markalı avtomaşına mindirib, təkrar Şuşa həbsxanasına qaytarıblar. Sonradan Tahir azad olunub, Nadirin taleyi isə məlum deyib.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (at present he lives in Machgara village of Beylagan district) wrote a statement that during radio communication with opposite side by the assistance of Abo it was found out that Nadir was kept in Tug village of Khojavand district and they would release him only for one of killers of journalist Salatin Asgarova.

According to the information of Jafarov Tahir Khanlar oglu who returned from Armenian captivity and lived in Lachin district (he lives in lab of plant named after Sattarkhan in Narimanov district, Baku), Armenians took him with Osmanov Nadir who lived in Balakan district from Shusha prison to Tug village of Khojavand district in order to change on the 8-11th of July, 1992. The change wasn't realized and that's why they returned them Shusha prison on the 12th of July, 1992. Then Tahir was released but Nadir's life was unknown.

**Osmanov Nurxuda Sədrəddin oğlu**



1972-ci ildə Azərbaycan Respublikası Balakən rayonunun Katex kəndində anadan olub. 8 yanvar 1993-cü ildə Zaqatala Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdərə rayonuna göndərilib. Həmin rayonun Vaqauz-Vəng kəndləri istiqamətində döyüşdə ayağından yaralanaraq əsir götürülüb.

Bu məlumatı atası-Balakən rayonu Katex kənd sakini Osmanov Sədrəddin Nurxuda oğlu onun xidmət etdiyi hərbi hissənin kadrlar şöbəsinin işçisindən öyrənib.

**Osmanov Nurkhuda Sadraddin oglu**

Osmanov Nurkhuda Sadraddin oglu was born in Katekh village of Balakan district of Azerbaijan Republic in 1972. On the 8th of January, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Zagatala district. Nurkhuda was sent to Aghdara district. He fought in Eyvaz Aliyev's battalion of militaty unit under Surat Huseynov's command. During the fight in direction of Vagauz-Vang villages he was wounded in leg and was taken prisoner.

His father Osmanov Sadraddin Nurkhuda

Həmkəndlisi və döyüş yoldaşı-Babayev Səfər Xəlilrəhman oğlu izahatında yazıb ki, komandirləri Nurxudagilin bölüyü ilə birlikdə nahar ediblər. Nahar qurtaran kimi onlar Vəng istiqamətinə gedərkən qəfil güclü atəşə məruz qalıblar. Nurxuda və onun əsgər yoldaşları mühasirəyə alınaraq, əsir götürülüblər. Onun əsir düşməsini atasına Səfər çatdırıb.

Tbilisi şəhərində Ermənistanın Qırmızı Xaç Cəmiyyətinin nümayəndəsi Alaverdiyan Şamirdən (Yerevan şəhəri-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22, tel:48-67-93) əldə olunmuş azərbaycanlı əsir və girovların siyahısında Osmanov Nurxudanın da adı olub. Onun Yerevan şəhərində yerləşən mərkəzi həbsxanada saxlandığı göstərilib.

oglu who lived in Katekh village of Balakan district got that information from the military unit where his son served.

His villager and front-line comrade Babayev Safar Khalilrahman oglu wrote a statement that his commander and Nurkhuda's commander joined and had dinner together. After dinner they went in direction of Vang village. Suddenly Armenians fired upon them. Nurhuda and his brother-soldiers were surrounded and taken prisoners. Safar said to his father that he was taken prisoner.

In Tbilisi representative of Armenian Society of Red Cross Alaverdiyan Shamir gave a list of Azarbaijani prisoners of war and hostages. There was the name of Osmanov Nurkhuda in that list. It was shown that he was kept in a central prison in Yerevan.

## Paşayev Ələddin Bəhlul oğlu



1961-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə hücuma məruz qalan Xocalı əhalisi qarlı meşələrə qaçıb. 180-200 nəfər Əsgəranın Dəhraz kəndini Ağdamın Gülablı kəndi bilib həmin istiqamətə üz tutarkən ermənilərin pusqusuna düşüblər. Ermənilər onları Dəhraz kəndindəki maldarlıq fermasında 2 gün saxladıqdan sonra əsirlərin arasından Paşayev Ələddin də daxil olmaqla 13 nəfər gənci seçib, naməlum istiqamətə aparıblar. Bu günə kimi həmin gənclərin taleyi haqqında heç bir məlumat əldə olunmayıb.

Erməni əsirliyində olan Usubov Zakir, Usubov Elşad və Usubov Əliyarın ataları Usubov Kamran Hüseyn oğlunun dediyinə

## Pashayev Aladdin Bahlul oglu

Pashayev Aladdin Bahlul oglu was born in Khojali town of Azerbaijan Republic in 1961. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces people went in direction of Aghdam to snow forest. 180-200 men went to Asgeran instead of Gulabli village of Aghdam and they got to surrounding of Armenians who made an ambush. Armenians took them to stock-breeding farm, kept them for 2 days, then separated 13 young men including Pashayev Aladdin and took to unknown direction. There is no information concerning them till the present time.

The father of the Usubovs – Usubov Kamran Huseyn oglu who returned from captivity informed when he was kept in the

görə, Əsgəran rayonunun Dəhraz kəndində maldarlıq fermasında saxlanılan zaman ermənilər onun 3 oğlu və Ələddin də daxil olmaqla 13 sağlam gənci seçib naməlum istiqamətə aparıblar.

Bu faktı erməni əsirliyindən qayıtmış Xocalı sakinləri Həsənova Rəfiqə Məmi qızı, Hüseynov Kamil Dadaş oğlu, Xudayarov Rövşən Adil oğlu, Xudayarov Vəfadar Səlim oğlu, İbrahimova Maarifə Hilal qızı, Bakı şəhərinin Ramana qəsəbəsində məskunlaşmış Vəliyev Şahmar Əliabbas oğlu və başqaları da təsdiq ediblər.

Əsir Qarayev Usubəlinin atası-girovluqdan qayıtdıqdan sonra Naftalan şəhərindəki «Şirvan» sanatoriyasında məskunlaşmış Qarayev Süleyman Salman oğlu izahatında yazıb ki, ermənilər oğlu və Ələddin də daxil olmaqla 13 nəfər gənci naməlum istiqamətə aparıblar. Qarayev Süleyman azad olunandan sonra Ağdam taborunun komandiri Allahverdi Bağırov (şəhid olub) ona həmin 13 gəncin Xankəndi həbsxanasında saxlandığını bildirib.

stock-breeding farm in Dehraz village of Asgaran district, Armenians separated 13 young men including his 3 sons and Aladdin, took them to unknown direction.

That fact was confirmed by the prisoners who lived in Khojali and returned from Armenian captivity: Hasanova Rafiga Mami gizi, Huseynov Kamil Dadash oglu, Khudayarov Rovshah Adil oglu, Khudayarov Vafadar Salim oglu, Ibrahimova Maarifa Hilal gizi, Valiyev Shahmar Aliaabas oglu (he lives in Baku, Romana settlement) and others.

The father of prisoner of war Garayev Usubali Suleyman oglu – Garayev Suleyman Salman oglu who lived in Khojali and returned from Armenian captivity (he lives in sanatorium «Shirvan» in Naftalan) wrote a statement that Armenians took 13 young men including his son and Aladdin to unknown direction. When Garayev Suleyman was released, the commander of Aghdam battalion Allahverdi Bagirov (then he died) said that 13 Azerbaijani young men were kept in Khankandi.

### Paşayev Müşfiq Teymur oğlu



1973-cü ildə anadan olub. 1991-ci ildə Gəncə şəhər Kəpəz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Daxili Qoşunların tərkibində Kəlbəcər və Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak edib. 17 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndində gedən döyüşdə əsir götürülüb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini (vaxtilə təhlükəsizlik orqanlarında işləyib) Mirzəyev Rafael Xalid oğlunun 1993-cü ildə keçirilən

### Pashayev Mushfig Teymur oglu

Pashayev Mushfig Teymur oglu was born in 1973. In 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Kapaz district of Ganja city. Mushfig took part in fights for Kelbajar and Aghdara districts allotted to Internal Forces. On the 17th of July, 1992 during the fight in Aterk village of Aghdara district he was taken prisoner by Armenians.

In 1993 during the meeting with Armenian and Azerbaijan representatives chairman deputy of Custom Committee of

görüş zamanı qarşı tərəfdən aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Paşayev Müşfiqin əvvəlcə Dağlıq Qarabağda, sonra isə Ermənistanda saxlandığı göstərilib.

Azerbaijan Republic Mirzeyev Rafael Khalid oglu got a list of Azerbaijani prisoners and hostages. There was the name of Pashayev Mushfig Teymur oglu in the list. It was shown that he was kept in Armenia.

**Paşayev Sabir Əziz oğlu**



1969-cu ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda anadan olub. Leytenant Paşayev Sabir Zəngilan Rayon Polis Şöbəsində sahə müvəkkili vəzifəsində işləyib. 25 oktyabr 1993-cü ildə Cəbrayıl rayonunun Dərzili kəndi istiqamətində (Zəngilan rayonu ilə həmsərhəd) gedən döyüşdə Zəngilan Rayon Polis Şöbəsinnin 6 polis əməkdaşı:

Bəşirov Fazil Arif oğlu (çavuş), Quliyev Aqil Mehrəli oğlu (çavuş), Quliyev İlham İmamqulu oğlu (çavuş), İsmayılov Möhlət Bəhmən oğlu (çavuş), İsmayılov İsmayıl Barat oğlu (çavuş), Nərimanov Elşad Əvəz oğlu (bölmə komandiri, baş çavuş) ilə birlikdə əsir götürülüb.

Bu faktı onların qohumları - Paşayev Əziz Şükür oğlu, Məmmədov Fəxrəddin Məhəmməd oğlu, Cəfərova Qızılgül İmamqulu qızı, Nərimanov Vidadi Əvəz oğlu da təsdiq ediblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu bildirib ki, Qafan Rayon Polis Şöbəsində saxlanılan zaman həmin idarənin rəisi Eduard Varseqyan Zəngilan Rayon Polis Şöbəsinin əsir götürülmüş 7 əməkdaşını göstərərək onları tanıyıb-tanımadığını soruşub.

**Pashayev Sabir Aziz oglu**

Pashayev Sabir Aziz oglu was born in Zangilan district of Azerbaijan Republic in 1969. Lieutenant Pashayev Sabir was a policeman at Police Department of Zangilan district. On the 25th of October, 1993 during the fight in direction of Darzili village of Jabrayil district 6 policemen from Police Department of Zangilan district: Bashirov Fazil Arif oglu (sergeant), Guliyev Ilham Imamgulu oglu (sergeant), Ismayilov Ismayil Barat oglu (sergeant), Ismayilov Mohlet Behman oglu (sergeant), Narimanov Elshad Avaz oglu (commander of sub-unit, senior sergeant), Guliyev Agil Mehreli oglu (sergeant) were taken prisoners during the fight for Darzili village of Jabrayil district.

That fact was confirmed by their relatives: Pashayev Aziz Shukur oglu, Mammadov Fakhraddin Mahammad oglu, Jafarova Gizilgul Imamgulu gizi and Narimanov Vidadi Avaz oglu.

Yusifov Farhad Umud oglu who lived in Hamzali village of Gubadli district and returned from Armenian captivity said that when he was kept in Police Department of Gafan district, head of that district Edik showed him 7 policemen and asked if he knew them.



**Polovinko Ruslan Aleksandroviç**

1969-cu ildə Ukrayna Respublikası Xarkov Vilayətinin Zmiyev şəhərində anadan olub. Zmiyev şəhəri, Krasnoarmeyskaya küçəsi, ev 77A-da yaşayıb. Sızran şəhərində yerləşən Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib. Sovet Ordusu sıralarında qulluq etdiyi vaxt Azərbaycan Respublikasının Naxçıvan Muxtar Vilayətinə göndərilib. Kapitan Məcidov Zakir Nüsrət oğlunun komandir olduğu vertolyotda atıcı olub. Onların təyyarəsi 31 avqust 1993-cü ildə Qubadlı rayonu ərazisində vurulub. Digər təyyarəçi Mizyak Aleksandr Anatolyeviçlə birlikdə paraşütlə yerə enərkən əsir götürülüb və Xankəndi Təhlükəsizlik İdarəsinin İstintaq Təcridxanasında saxlanılıb.

Erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, Ələt qəsəbəsi, 1587-ci keçid, ev 2, mənzil 7-də yaşayan Sadıxov Səfər Məhərrəm oğlunun verdiyi məlumata görə, 1993-cü ildə Xankəndi Təhlükəsizlik İdarəsinin İstintaq Təcridxanasında onunla qonşu kamerada hərbi təyyarəçilər Polovinko Ruslan Aleksandroviç və Mizyak Aleksandr Anatolyeviç də saxlanılıb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu izahatında yazıb ki, qarşı tərəflə aparılan radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Albert Voskanyandan Polovinko Ruslanın əsir alınıb, Xankəndi şəhərində saxlandığını öyrənib.

**Polovinko Ruslan Alexandrovich.**

Polovinko Ruslan Alexandrovich was born in Zmiyev city of Kharkov district of the Ukraine in 1969. He lived in Zmiyev city, Krasnoarmeyskaya Street, 77 A. Ruslan graduated from the Supreme Military School of Pilot in Sizran city. When Ruslan served in ranks of Soviet Army he was sent to the Nakhchivan Autonomous district of Azerbaijan Republic. Captain Majidov Zakir Nusrat oglu was his commander and he was a shooter in that helicopter. On the 31st of August, 1993 their plain was shoot down on the territory of Gubadli district. Ruslan with another pilot Mizyak Alexander Anatolyevich landed by parachutes, Armenians took them as prisoner and kept in Investigatory Isolation of Khankandi Security Department.

According to the information of Sadikhov Safar Maharram oglu who returned from Armenian captivity (now he lives in Baku, Alyat settlement, 1587 quarter, app.2/7), military pilots: Mizyak Alexander Anatolyevich and Ruslan Alexanderovich were kept in neighbouring cell of Investigatory Isolation of Khankandi Security Department in 1993.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) wrote a statement that during radio communication with Armenians, Armenian policeman Albert Voskanyan informed that Polovinko Ruslan was taken prisoner and kept in Khankandi.



**Qaraşov**
**İgid**
**Paşaxan oğlu**

1961-ci ildə Azərbaycan Respublikası Cəlilabad rayonunun Alışabad kəndində anadan olub. 15 iyun 1992-ci ildə Cəlilabad Rayon Hərbi Komissarlığı tərəfindən səfərbər olunub. Şirin Mirzəyevin başçılıq etdiyi taborun tərkibində Ağdam uğrunda döyüşlərdə iştirak edib. 12 iyun 1993-cü ildə Ağdam rayonunun Sırxavənd kəndi uğrunda gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Cəlilabad rayonu Alışabad kənd sakini Qaraşov Paşaxan Xosrov oğlunun dediyinə görə, oğlunun axtarışı ilə məşğul olan zaman Qazax rayonunun Ermənistanla həmsərhəd olan ərazisində hərbçilər ermənilərlə əlaqə yaradaraq ona İgidin əsir götürüldüyünü və Yerevan şəhərinin Sovetaşan qəsəbəsində yerləşən həbsxanada saxlandığını bildiriblər.

**Garashov**
**Igid**
**Pashakhan oglu**

Garashov Igid Pashakhan oglu was born in Alishabad village of Jalilabad district of Azerbaijan Republic in 1961. On the 15th of June, 1992, he was mobilized by the Military Registration and Enlistment Office of Jalilabad district. Igid took part in fights for Aghdam district in Shirin Mirzeyev's battalion. On the 12th of June, 1993 during the fight for Sirkhavand village of Aghdam district he was taken prisoner by Armenians.

According to the words of his father Garashov Pashakhan Khosrov oglu who lived in Alishabad village of Jalilabad district, when he searched for his son, military men connected with Armenians on the boundary territory of Gazakh district with Armenia and it was informed that Igid was taken prisoner and kept in prison Sovetashan settlement of Yerevan city.



**Qarayev**
**Bəbir**
**Baba oğlu**

1938-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun Bağbanlar kəndində anadan olub.

Qardaşı-Ağdam rayonu Gülablı kənd sakini, Bakı şəhəri, Yeni Günəşli qəsəbəsi, Samir Cəfərov küçəsi, ev 11, mənzil 13-də yaşayan Rüstəmov Sərxan Baba oğlunun məlumatına görə, Bəbir

**Garayev**
**Babir**
**Baba oglu**

Garayev Babir Baba oglu was born in Bagbanlar village of Aghdam district of Azerbaijan Republic in 1938.

According to the information of his brother Rustamov Serhan Baba oglu who lived in Gulabli village of Aghdam district (at present he lives in Baku, Yeni Guneshli settlement, Samir Jafarov Street 11, app.13), Babir

sağdır, ermənilər onu Ağdamda fiziki işlərə cəlb ediblər.

Qarayev Bəbirin Ağcabədi rayonunda yaşayan qardaşı-Rüstəmov Səfəralının qonşusu, Ə. Bünyadov küçəsi, ev 16-da yaşayan Bayramov Kərəm Balay oğlunun izahatına görə, traktoru təmir edən zaman ağsaqqal bir kişi ona yaxınlaşaraq Səfəralı adlı şəxsi tanıyıb-tanımadığını soruşub və deyib ki, onun qardaşı Ağdamın Gülablı kəndində gedən döyüşdə əsir götürülüb, hazırda Ermənistanda saxlanılır.

was alive, Armenians kept him as a prisoner in Aghdam and forced for heavy labour.

According to a statement of his brother's (Rustamov Safarali lives in Aghjabadi district) neighbour Bayramov Karam Balay oglu (he lives in Aghjabedi district, A.Bunyadov Street, 16), when he repaired tractor, an old man came up to him, asked if he knew Safarali and said during the fight for Gulabli village of Aghdam district, his brother was taken prisoner. At present he is kept in Armenia. But there is no information concerning further Babir's life.



**Qarayev Etibar Allahyar oğlu**

1964-cü ildə Azərbaycan Respublikasının Şəki rayonunda anadan olub. 1992-ci il mart ayının 29-da könüllü olaraq cəbhəyə yollanıb. 8 may 1992-ci ildə Şuşa şəhərinin ermənilər tərəfindən işğal olunduğu gün əsir götürülüb.

Bacısı-Şəki şəhəri, 25-ci rayon, M. Ə. Rəsulzadə küçəsi 56-da yaşayan Cəmilova Bahar Allahyar qızının məlumatına görə, döyüş yoldaşları onun Şuşanın işğalı günü əsir götürüldüyünü deyiblər.

Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının İdarə rəisi, general-leytenant Y. Aydəmirovun verdiyi məlumata görə, Qarayev Etibar Allahyar oğlu 8 may 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı itkin düşüb.

**Garayev Etibar Allahyar oglu**

Garayev Etibar Allahyar oglu was born in Shaki district of Azerbaijan Republic in 1964. On the 29th of March, 1992 he voluntarily was sent to fight for Garabagh. On the 8th of May, 1992 during the day of Shusha's occupation by Armenians Etibar was taken prisoner.

According to the information of his sister Jamilova Bahar Allahyar gizi (she lives in Sheki, 25th region, M.Rasulzadeh Street, 56), his front-line comrade said that during the day of Shusha's occupation Etibar was taken prisoner.

Chief of staff of Armed Forces of Azerbaijan Republic lieutenant-general Y.Aydamirov informed that during Shusha's occupation by Armenians Garayev Etibar was missed on the 8th of May, 1992.



**Qarayev**
**Ramiz**
**İbrahim oğlu**

1962- ci ildə Bakı şəhərində anadan olub. 31 iyul 1992-ci ildə Suraxanı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. «Suraxanı» batalyonunun tərkibində döyüşüb. 2 fevral 1992-ci ildə Xocavənd rayonunun Əmrallar kəndində gedən döyüşdə əsir götürülüb.

Həyat yoldaşı-Bülbülə qəsəbəsi, ev 26 «a» da yaşayan Qarayeva Fəxriyyə Adil qızının verdiyi məlumata görə, Füzuli rayonu Yağlıvənd kənd sakini Kazımov Əhəd Musa oğlu ermənilərin əsir Ramiz Qarayevi azərbaycanlılar tərəfindən girov götürülmüş Karina adlı qadınla dəyişmək istədiklərini bildirib. Ramizin valideynləri Karinanı tapıb, bir ay evlərində saxlayıblar, bir neçə dəfə dəyişməyə cəhd göstərsələr də, baş tutmayıb. Bir gün Karina evdən qaçıb, buna görə də erməni tərəfi Ramizi qaytarmayıb.

Qarayevin bacısının əri İntiqam Stavropolda yaşayan ermənilərdən onun Xocavənd rayonunun Müşkabad kəndində Aşot adlı erməninin evində saxlandığını öyrənib.

Erməni əsirliyindən qayıtmış, Ucar rayonu, 28 may küçəsi, ev 7-də yaşayan Məmmədov Mayıl Məmmədəli oğlunun verdiyi izahata əsasən, 1993-cü ilin əvvəllərində Şuşa həbsxanasında təsərrüfat işlərinə cəlb olunan zaman azərbaycanlı əsirlərin arasında Qarayev Ramizi də görüb.

**Garayev**
**Ramiz**
**Irahim oglu**

Garayev Ramiz Ibrahim oglu was born in Baku in 1962. On the 31st of July, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Surakhani district. Ramiz was allotted to «Surakhani» battalion. On the 2nd of February, 1992 during the fight in Emrallar village of Khojavand district he was taken prisoner.

According to the information of his wife Garayeva Fakhriya Adil gizi (she lives in Bulbule settlement, app.26 «a»), Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district informed that Armenians wanted to change Ramiz for a hostage whose name was Karina. The parents of Ramiz found Karina, kept her a month in the house. They tried to change her several times but change didn't realize. One day Karina ran away from their house and that's why Armenian side didn't return Ramiz.

His siter's husband Intigam found out from Armenians who lived in Stavropol that Ramiz was kept at the house of Ashot in Mushkabad village of Khojavand district.

According to a statement of Mammadov Mayil Mamadali oglu (he lives in Ujar district, 28th of May Street, app.7) who returned from Armenian captivity, he was forced for agricultural work in Shusha prison at the beginning of 1993. Mayil saw Garayev Ramiz there between Azerbaijani prisoners.



**Qarayev Usubəli Süleyman oğlu**

1961-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni-rus silahlı birləşmələri tərəfindən işğal olunan gün əhali canını qurtarmaq üçün qarlı meşələrə üz tutub, 3 gün orada qaldıqdan sonra Usubəligil 180-200 nəfərlik dəstə ilə Əsgəranın Dəhraz kəndini Ağdamın Gülablı kəndi bilib, həmin tərəfə gedərkən mühasirəyə düşüblər. Ermənilər onları 2 gün Dəhraz kəndindəki maldarlıq fermasında saxladıqdan sonra əsirlərin arasından Qarayev Usubəli də daxil olmaqla, 13 nəfər gənci seçib, naməlum istiqamətə aparıblar. Bu günə kimi həmin gənclərin taleyi haqqında heç bir məlumat əldə olunmayıb.

Atası-girovluqdan qayıtdıqdan sonra Naftalan şəhərindəki «Şirvan» sanatoriyasında məskunlaşmış Qarayev Süleyman Salman oğlu izahatında yazıb ki, ermənilər 13 nəfər gənci naməlum istiqamətə aparıblar. Qarayev Süleyman azad olunandan sonra Ağdam taborunun komandiri Allahverdi Bağırov həmin gənclərlə birlikdə 70 azərbaycanlı əsirin Xankəndi Daxili İşlər idarəsində saxlandığını deyib. Bağırov Xankəndi daxili işlər idarəsinin rəisi Armen İsaqulovla danışıqlar aparıb, həmin əsirləri dəyişmək ərəfəsində şəhid olduğundan onların qaytarılması baş tutmayıb. Əsirləri Yerevana göndəriblər.

Hərbi əsir Usubovların atası-girovluqdan qayıtmış Xocalı sakini Usubov Kamran Hüseyn oğlunun dediyinə görə, Əsgəran rayonunun Dəhraz kəndində, maldarlıq fermasında saxlanılan zaman ermənilər onun 3 oğlu və Usubəli də daxil olmaqla 13 sağlam gənci seçib, naməlum istiqamətə aparıblar.

**Garayev Usubali Suleyman oglu**

Garayev Usubali Suleyman oglu was born in Khojali town of Azerbaijan Republic in 1961. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces people went to of Aghdam's snow forest. They stayed at the snow forest for 3 days. Usubali and others with detachment of 180-200 men went to Asgaran instead of Gulabli village of Aghdam and Armenians surrounded them making an ambush. Armenians took them to the stock-breeding farm, kept them for 2 days, and then separated 13 young men including Garayev Usubali took to unknown direction. There is no information concerning them till the present time.

His father Garayev Suleyman Salman oglu who returned from captivity (he lives in «Shirvan» sanatorium in Naftalan town) wrote a statement that Armenians took 13 young men including his son to unknown direction. When Garayev Suleyman was released the commander of Aghdam battalion, Allahverdi Bagirov (then he died as a shehid) said that those young men with 70 Azerbaijani prisoners were kept in the building of Khankandi Department of Internal Affairs. Bagirov talked to the chief of Khankandi Department of Internal Affairs Armen Isagulov, he died as a shehid and that's why the change didn't realize. Isagulov sent to Yerevan Usubali and other prisoners.

The father of the Usubovs – Usubov Kamran Huseyn oglu who returned from captivity informed when he was kept in the stock-breeding farm in Dehraz village of Asgaran district, Armenians separated 13 young men including his 3 sons and Azad, took them to unknown direction.

Bu faktı erməni əsirliyindən qayıtmış Xocalı sakinləri hərbi əsir Həsənov Rövşən Qaçay oğlunun anası-Həsənova Rəfiqə Məmi qızı, Hüseynov Kamil Dadaş oğlu, Xudayarov Rövşən Adil oğlu, Xudayarov Vəfadar Səlim oğlu və başqaları da təsdiq ediblər.

That fact was confirmed by the prisoners who lived in Khojali and returned from Armenian captivity: the mother of prisoner of war Hasanov Rovshan Gachay oglu – Hasanova Rafiga Mami gizi, Huseynov Kamil Dadash oglu, Khudayarov Rovshah Adil oglu, Khudayarov Vafadar Salim oglu and others.



**Qasımov Babək Paşa oğlu**

1975-ci ildə Azərbaycan Respublikasının Ağcabədi rayonunun Təzəkənd kəndində anadan olub. Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. 16 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə yaralanaraq ermənilər tərəfindən əsir götürülüb.

Atası- Ağcabədi rayonunun Təzəkənd kənd sakini Qasımov Paşa İdris oğlu döyüş xəttinə qədər gedərək oğlunun axtarışı zamanı Qalustyan Robert Alekseyeviçə Babəkin şəklini göstərdikdə, qarşı tərəfin nümayəndəsi onu tanıyıb. Qalustyan Babəkin ayağından yaralandığını, Xankəndində yerləşən uşaq xəstəxanasında saxlandığını və itkin düşmüş qardaşı Razmiklə dəyişdirməyə razı olduğunu deyib. Razmiki tapmaq mümkün olmadığı üçün dəyişmə baş tutmayıb.

Əsgəran rayonunun Daşuşen kənd sakini, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlunun məlumatına görə, 1994-1995-ci illərdə əsir və girovların dəyişdirilməsi ilə məşğul olarkən erməni tərəfinin nümayəndəsi Albert Voskanyan ona Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahı-

**Gasimov Babek Pasha oglu**

Gasimov Babek Pasha oglu was born in Tazakand village of Aghjabedi district of Azerbaijan Republic in 1975. He took part in fights for Garabagh. On the 16th of February, 1994 during the fight for Murovdagh height of Kelbajar district wounded Babek was taken prisoner by Armenians.

When his father Gasimov Pasha Idris oglu who lived in Tazakand village of Aghjabedi district searched for Zahid, he showed Babek's picture to Galustyan Robert Alekseyevich, the representative of opposite side recognized him. Galustyan said that he was wounded in leg, kept in children hospital in Khankandi and they could change him for his missed brother Razmik. He couldn't find Razmik and the change didn't realize.

According to the information of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran village (he lives in sanatorium «Zugulba» in Baku, Buzovna Settlement), when he was engaged in change of prisoners and hostages in 1994-1995, the representative of Armenian side Albert Voskanyan gave him a list of 37 Azerbaijanis prisoners of war hidden from ICRC and wanted to change

sını verib və onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istədiklərini bildirib. Həmin siyahıda Qasımov Babəkin də adı olub, əsirlərin işğal olunmuş Şuşa şəhərində şəxsi evlərdə saxlandığı göstərilib. Siyahı Şuşada yerləşən erməni alayının rəisi Armais tərəfindən 1995-ci ildə tərtib olunub. Dəyişmə baş tutmayıb və Babəkin sonrakı taleyi məlum deyil.

them for a killer of journalist Salatin Asgarova Arkadi Ayriyan whose nick name was «Napoleon». There was the name of Gasimov Babek in that list. It was shown that prisoners were kept in private houses in Shusha. That list was confirmed by Armais, the chief of staff of Armenian regiment in Shusha in 1995. The change didn't realize and that's why the further Babek's life was unknown.



**Qasımov Əhməd İsrail oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olub. 1992-ci ilin mart ayında hərbi xidmətə çağırılıb. Ağdərə rayonunda döyüşlərdə iştirak edib. 18 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Vaqaus kəndi uğrunda döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Atası-Qasımov İsrail Qasım oğlunun Əhmədin döyüş yoldaşlarından aldığı məlumata görə Vaqauz kəndində gedən döyüş zamanı oğlu ayağından yaralandığı üçün geri çəkilə bilməyib. Ermənilər onu döyə-döyə «UAZ» markalı avtomaşına mindirib, Xankəndinə aparıblar.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun ərizəsində göstərilib ki, Ağdam rayonunun Mərzili kəndində ermənilərlə apardığı danışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyan Qasımov Əhmədin sağ olduğunu və Xankəndi şəhərində şəxsi evdə saxlandığını deyib. Onu dəyişmək üçün erməni əsiri tələb olunub. Erməni əsiri olmadığı üçün dəyişmə baş tutmayıb.

**Gasimov Ahmed Israil oglu**

Gasimov Ahmed Israil oglu was born in Barda town of Azerbaijan Republic in 1973. In March of 1992, he was called up for military service and took part in fights for Aghdara district. On the 18th of September, 1992 wounded Ahmed was taken prisoner in fight for Vagaus village of Aghdara district.

According to the information of his father Gasimov Israil Gasim oglu which he got from Ahmed's front-line comrades, during the fight for Vagauz village he was wounded in leg and couldn't return back. He was beaten by Armenians and taken to Khankandi by the car «UAZ».

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Khojavand district) and engaged in change of prisoners and hostages wrote a statement that during the talks with the representative of opposite side Albert Voskanyan in Marzili village of Aghdam district said that Gasimov Ahmed was alive and kept in a private house of Khankandi. They demanded to change him for an Armenian prisoner. At that time they couldn't find Armenian prisoner and the change didn't realize.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyətil başçısının müavini işləmiş, hazırda Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunda olan azərbaycanlı əsir və girovların siyahısında Qasımov Əhmədin Xankəndi şəhərində saxlandığı göstərilib.

According to the information of the former head of Executive Power of Fuzuli district Eyvazov Fireddin Ali oglu (he lives in the hostel № 4, room 205 of AMU in Baku) who worked in 1992-1993, he got a list of Azerbaijani prisoners and hostages and the name of Gasimov Ahmed was in that list. It was showed that he was kept in Khankandi town.

## Qasımov Mütalib Sevil oğlu



1967-ci ildə Ermənistan Respublikası Krasnoselski rayonunun Çaykənd kəndində anadan olub.

1988-ci ildə ermənilər tərəfindən ata-baba yurdlarından qovulub, Azərbaycan Respublikası Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşıb. 13 mart 1993-cü ildə Şəmkir Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq torpaqların müdafiəsinə göndərilib. 10 fevral 1994-cü ildə Kəlbəcər rayonunda gedən döyüş zamanı əsir götürülüb.

Həyat yoldaşı-Şəmkir rayonunun Kür qəsəbəsində yaşayan Abdullayeva Solmaz Çoban qızının verdiyi məlumata görə, 1994-cü ildə Ermənistanın İcevan şəhərində Ermənistan və Azərbaycan qadın təşkilatlarının keçirdikləri görüşdə Helsinki Vətəndaş Assambleyası Ermənistan Təşkilatı həmin təşkilatın Azərbaycan üzrə nümayəndəsinə Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovların siyahısini təqdim edib. Siyahıda Qasımov Mütalibin də adı olub. Helsinki Vətəndaş Assambleyası Azərbaycan Təşkilatının sədri Arzu Abdullayeva Mütalibin erməni nümayəndələrindən aldığı pasportunu onun valideynlərinə verib.

Sonra onun haqqında heç bir məlumat əldə olunmayıb.

## Gasimov Mutalib Sevil oglu

Gasimov Mutalib Sevil oglu was born in Chaykand village of Krasnoselski district of Republic of Armenia in 1967.

In 1988 Armenians expatriated them from native land then he moved to Kur settlement of Shamkir district into of Azerbaijan Republic. On the 13th of March, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Shamkir district. On the 10th of February, 1994 during the fight in Kelbajar district he was taken prisoner.

According to the information of his wife Abdullayeva Solmaz Choban gizi (she lives in Kur settlement, Shamkir district) during the meeting between Armenia and Azerbaijan Woman organizations in Ijevan town of Armenia, Armenian representative of Helsenki Civil Assembly presented a list of Azerbaijani prisoners and hostages kept in Armenia in 1994. There was the name of Gasimov Mutalib in that list. The chairman of Azerbaijan Organization of Helsenki Civil Assembly Arzu Abdullayeva got from Armenian representative his passport and gave it to his parents.

Later there is no information concerning Mutalib.



**Qasımov Natiq Səlim oğlu**

1971-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1991-ci ildə könüllü olaraq Ağdam rayonunda təşkil edilmiş «Qarabağ şahinləri» batalyonu tərkibində döyüşüb. 12 mart 1992-ci ildə Ağdam rayonunun Xramort kəndi istiqamətində gedən döyüşdə əsir götürülüb.

Natiq Xramort kəndi yaxınlığında yüksəklikdə yerləşən Alban kilsəsi uğrunda döyüş zamanı 6 döyüş yoldaşı həlak olduqdan sonra 5 gün ac-susuz orada qalıb. Gülləsi qurtardığından 6-cı gün Azərbaycan bayrağını başı üzərinə qaldıraraq təslim olub.

Natiqin ermənilər tərəfindən əsir götürüldüyü «Oqonyok» jurnalının 1992-ci il 14 və 15-ci nömrələrində çap olunmuş Konstantin Smirnovla Enriko Sarzinin «Strax» məqaləsində təsdiq olunub.

Qardaşı-Mincəçevir şəhəri, N. Nərimanov küçəsi, ev 13, mənzil 14-də yaşayan Səlimov Nofəl Səlim oğlunun verdiyi məlumata görə, qardaşının axtarışı ilə məşğul olan zaman Gürcüstan Respublikasının Marneuli şəhəri, Caparidze küçəsi, ev 47-də yaşayan Axundzadə İsmayılla görüşüb. İsmayıl



*Natiqin ermənilər tərəfindən əsir götürüldüyünü təsdiq edən fotofakt. «Oqonyok» jurnalı, 1992-ci il.*

*Photo which confirmed that Natig was taken prisoner by Armenians. The magazine "Ogonyok", 1992*

**Gasimov Natig Salim oglu**

Gasimov Natig Salim oglu was born in Kichik Garamurad village of Gedebey district of Azerbaijan Republic in 1971. In 1991 he fought allotted to «Garabagh's falcons» battalion organized in Aghdam district. On the 12th of March, 1992 during the fight in direction of Khramort village of Aghdam district Natig was taken prisoner.

Natig with 6 front-line comrades went to fight for the height of Alban church near Khramort village. His front-line comrades have died. Natig stayed without food and water for 5 days in the church and then Armenians took him as a prisoner with a flag of Azerbaijan in the hand.

Natig was taken prisoner by Armenians and that fact was confirmed by Konstantin Smirnov, article «Strakh» of magazine «Ogonyok» from 1992, number 14 and 15.

According to the information of his brother Salimov Nofel Salim oglu (he lives in Mingechevir city, N.Narimanov Street, 13, app.14), when he searched for his brother he met Ahumzade Ismayil who lived in Georgia, Marneul town, Japaridze Street 47. He said that Natig was alive and worked at chemistry

ona Natiqin sağ olduğunu və Ermənistanın Kirovakan şəhərində yerləşən kimya kombinatında işlədildiyini deyib.

Erməni əsirliyindən qayıtmış Xocalı şəhər sakini, Mingəçevir şəhərində yerləşən «Kür» avarçəkmə bazasında məskunlaşmış Cəfərov Cəfər Məhəmməd oğlunun bildirdiyinə görə, Xocalı şəhəri ermənilər tərəfindən işğal olunan gün onu tutub, Əsgəran Rayon Polis Şöbəsinin təcridxanasında saxlayıblar. Ermənilər onu bir neçə xarici jurnalistlə birlikdə zirehli döyüş maşınına oturdaraq azərbaycanlılara xəbərdarlıq etmək üçün Xramort kəndinə aparıblar. Cəfər orada yerləşən qədim kilsədə 5 gün tək qaldığından aclıq və susuzluqdan taqətdən düşmüş Natiqlə rastlaşıb. O, Cəfərə 6 döyüşçü ilə ora gəldiyini, yoldaşlarının ermənilər tərəfindən ödlürüldüyünü və Azərbaycan bayrağını tək qoyub getməyə haqqı olmadığını deyib. Qasımov Natiq bir əlində Azərbaycan bayrağı, o biri əlində isə avtomat ermənilər tərəfindən əsir götürülüb. Gördükləri mənzərədən təsirlənən xarici jurnalistlər bu məğrur döyüşçünün cəsurluğunu videokameraya çəkiblər. Təəssüflər olsun ki, Natiqin sonrakı taleyi haqqında heç bir məlumat əldə olunmayıb.

industrial complex in Kirovakan of Armenia.

According to the information of Jafarov Jafar Mahammad oglu who lived in Khojali town (he lives in base «Kur» in Mingechevir city) and returned from Armenian captivity, during occupation of Khojali Armenians took him and kept in the isolation of police department of Asgaran district. Armenians took him together with some foreign journalists to the armoured infantry machine in Khramort village to inform Azerbaijanis. When Jafar stayed alone at ancient church for 5 days without food and water he met Natig. He said to Jafar that he came there with 6 fighters, Armenians killed them and he couldn't leave and stay the flag of Azerbaijan alone. Gasimov Natig with the flag of Azerbaijan in one hand and a weapon in another was taken prisoner by Armenians. Foreign journalists took by video camera what they had seen. It's very pity that he didn't get any information concerning Natig.

## Qasımov Qurban Qını oğlu



1969-cu ildə Azərbaycan Respublikası Yevlax rayonunun Malbinəsi kəndində anadan olub. 8 noyabr 1992-ci ildə Yevlax Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 7 oktyabr 1992-ci ildə Ağdərə rayonunun Vəng kəndi uğrunda döyüşdə əsir götürülüb.

Atası-Yevlax rayonu Malbinəsi kənd sa-

## Gasimov Gurban Gini oglu

Gasimov Gurban Gini oglu was born in Malbinesi village of Yevlakh district of Azerbaijan Republic in 1969. On the 8th of November, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Yevlakh district. On the 7th of October, 1992 during the fight for Vang village of Aghdara district Gurban was taken prisoner.

kini Qasımov Qını Knyaz oğlunun verdiyi məlumata görə, 1993-cü ilin oktyabr ayında «Azadlıq» radiostansiyasının hazırladığı verilişlərin birində Xankəndində erməni əsirliyində saxlanılan 79 azərbaycanlının siyahısında Qasımov Qurbanın da adı çəkilib.

Yevlax Rayon İcra Hakimiyyəti başçısının vəzifəsini icra edən V.Məmmədovun 1 iyul 1993-cü ildə təqdim etdiyi arayışda Qasımov Qurbanın əsir götürülüb, Xankəndi şəhərində saxlandığı göstərilib.

According to the information of his father Gasimov Gini Knyaz oglu who lived in Malbinesi village of Yevlakh district, radiostation «Azadlig» prepared program where there was the name of Gasimov Gurban in a list of 79 Azerbaijani prisoners kept in Armenian captivity in Khankandi in October of 1993.

According to V.Mammadov's report from the 1st of July, 1993 who carried out duty of head Executive Power of Yevlakh district it was showed that Gasimov Gurban was taken prisoner and kept in Khankandi.

**Qasımov Ruslan Arif oğlu**



1975-ci ildə anadan olub. 15 may 1993-cü ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 7 mart 1994-cü ildə Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi uğrunda döyüşdə itkin düşüb.

Anası- Bakı şəhəri, Əhmədli qəsəbəsi, Mehmandarov küçəsi 72, mənzil 89-da yaşayan Qasımova Anna Leonidovnanın verdiyi məlumata görə, oğlu yaralı vəziyyətdə əsir götürülüb və1994-cü ilin mart ayından dekabr ayına qədər işğal olunmuş Xocavənd şəhərindəki qospitalda müalicə olunub. Bu xəbəri Qasımova Annaya həyat yoldaşı - Qasımov Arif Musa oğlu deyib. Ruslanın atası dəfələrlə oğlunun döyüşdüyü yerlərdə olub, lakin onun yaralı vəziyyətdə əsir götürüldüyündən başqa bir şey öyrənə bilməyib və oğul həsrəti ilə dünyasını dəyişib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqiklə görüşü zamanı əldə etdiyi azərbaycanlı əsir və girovların siyahısında Qasımov

**Gasimov Ruslan Arif oglu**

Gasimov Ruslan Arif oglu was born in 1975. On the 15th of May he was called up for military service by the Military Registration and Enlistment Office of Khatai district. On the 7th of March, 1994 during the fight for Ashagi Seyidahmedli village of Fuzuli district Ruslan was missed.

According to his mother's information Gasimova Anna Leonidovna (she lives in Baku, Ahmedli settlement, Mehmandarov Street 72, app. 89), her wounded son was taken prisoner and received treatment in hospital on the territory of occupied Khojavand by Armenians from March to December, 1994. That information was given by her husband Gasimov Arif Musa oglu. Ruslan's father was at the place where he fought but Gasimov Arif had no information except that wounded Ruslan was taken prisoner. His father died in dream to see him.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district met Armenian whose name was Gagik in Tbilisi and got a list of Azerbaijani prisoners and hostages. There was the name of Gasimov

Ruslanın 10724 saylı Yerevan mərkəzi həbsxanasında saxlandığı göstərilib. Erməni tərəfi faktı inkar etdiyi üçün Ruslanın sonrakı taleyi bəlli deyil.

Ruslan in the list. It was shown that he was kept in Yerevan central prison № 10724. Armenian side denied that fact and that's why Ruslan's further life was unknown.



**Qasımov Səfər Salman oğlu**

1948-ci ildə Azərbaycan Respublikası Füzuli rayonunun Şükürbəyli kəndində anadan olub. Kolxozda sürücü işləyib. 17 may 1992-ci ildə idarə etdiyi «QAZ-53» markalı 96-08 AQO dövlət nömrə nişanlı yük maşını ilə kolxoz rəhbərliyi tərəfindən Laçın rayonuna, işğala məruz qalmış sakinlərə kömək məqsədilə göndərilib və bir daha geri qayıtmayıb.

Qardaşı-Biləsuvar rayonunun 3 saylı çadır şəhərciyində məskunlaşmış Qasımov Bəxtiyar Salman oğlunun verdiyi məlumata görə, 18 may 1992- ildə Səfər erməni hərbçiləri tərəfindən girov götürülüb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, hazırda Bakı şəhəri, Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunun təqdim etdiyi əsir və girov götürülmüş vətəndaşların siyahısında Qasımov Səfərin də adı olub. Onun Ermənistanda saxlandığı göstərilib.

**Gasimov Safar Salman oglu**

Gasimov Safar Salman oglu was born in Shukurbeyli village of Fuzuli district of Azerbaijan Republic in 1948. He worked at collective farm as a driver in Shukurbeyli village. On the 17th of May, 1992 Gasimov Safar was sent by the leader of collective farm to help residents and carried their things by car «QAZ-53» (public plate-number was 96-08 AQO) and didn't return back any more.

According to the information of his brother Gasimov Bakhtiyar Salman oglu (he lives in camp town № 3 of Bilasuvar district), Safar was taken hostage by Armenian armed forces on the 18th of May, 1992.

The head deputy of Executive Power of Fuzuli district who worked during 1992-1993 Eyvazov Fireddin Ali oglu (at present he lives in Baku, hostel № 4 of ATU, room № 205) represented a list of Azerbaijani prisoners and hostages. There was the name of Gasimov Safar in that list. It was shown that he was kept in Armenia.



## Qasımov Yusif Telman oğlu

1968-ci ildə Gəncə şəhərində anadan olub. 1990-cı ildə Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbini bitirib. Həmin ilin iyul ayında tağım komandiri leytenant Qasımov Yusif Ağdərə cəbhəsinə göndərilib. 19 iyul 1992-ci ildə Ağdərə rayonunun Aterk kəndində gedən döyüş zamanı əsir götürülüb.

Bacısı-Hüseynova Tamara Saleh qızının axtarışı ilə məşğul olan Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Ermənistan Qızıl Xaç Cəmiyyətinin əməkdaşlarından aldığı azərbaycanlı əsir və girovların siyahısında Qasımov Yusifin də adı olub.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin təqdim etdiyi 27 azərbaycanlı hərbi əsirin siyahısında da Qasımov Yusifin adı olub.

Qazax Rayon İcra Hakimiyyətinin Kəmərli kəndi üzrə nümayəndəsi Məmmədov Ələddin Mahmud oğlu, Qazax rayonu ilə Ermənistanın Noyemberyan rayonunun sərhədində kənd təsərrüfatı işlərində yerli əhalinin təhküsəzliyini təmin etmək məqsədi ilə 1993-1994-cü illərdə keçirilmiş görüşlərdə Ermənistan xüsusi xidmət orqanları əməkdaşları Aleksandr Sarumyan və Vladimir Ayrapetyanın təqdim etdiyi siyahıda Qasımov Yusifin Ermənistanda hərbi əsirlərin arasında saxlandığı göstərilib.

## Gasimov Yusif Telman oglu

Gasimov Yusif Telman oglu was born in Ganja in 1968. In 1990 he finished the Supreme Military General Forces Commander's School. In July of 1990 commander of troop lieutenant Gasimov Yusif was sent to fight for Aghdara district. On the 19th of July, 1992 during the fight for Aterk village of Aghdara district he was taken prisoner.

In Tbilisi Armenian representatives of Society of Red Cross gave a list of Azerbaijani prisoners and hostages kept in Garabagh to the brother of prisoner Huseynova Tamara Saleh gizi – Huseynov Akif Saleh oglu who lived in Asrik- Jirdakhan village of Tovuz district. There was the name of Gasimov Yusif in that list.

Azerbaijan National Committee of Helsenki Civil Assembly represented a list of 27 Azerbaijani prisoners of war kept in Armenia and there was the name of Gasimov Yusif in that list.

According to the information of former representative of Executive Power of Kamarli village of Gazakh district Mammadov Aladdin Mahmud oglu, during the meeting concerning agricultural work on the boundary with Gazakh and Noyemberyan district of Armenia which held in order to provide security for local residents, the officials of Armenia Secret Intelligence Service Alexander Sarumyan and Vladimir Ayropetyan gave him a list of Azerbaijani prisoners and hostages. There was the name of Gasimov Yusif in the list. It was shown that he was kept in Armenia.



**Qasımov Zahid Əsəd oğlu**

1964-cü ildə anadan olub. 1992-ci ilin aprel ayından Qarabağ uğrunda döyüşlərdə fəal iştirak edib. 22 mart 1994-cü ildə Füzuli rayonun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşdə mühasirəyə düşərək yaralı vəziyyətdə əsir götürülüb.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sabiq əməkdaşı, polis mayoru N. Şahmuradovun verdiyi məlumata, görə Qasımov Zahid Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda döyüşdə yaralanıb, polis çavuşu İmaməliyev Fariz onu xilas etmək istədikdə, hər ikisi ermənilər tərəfindən əsir götürülüb.

Əmisi oğlu- Göyçay şəhəri, M.Hüseynzadə küçəsi, ev 23-də yaşayan Qasımov Mirqasım İsa oğlu Zahidin döyüş yoldaşlarından onun 22 mart 1994-cü ildə əsir götürüldüyünü öyrənib.

Hərbi əsir İmaməliyev Fariz Fərhad oğlunun atası-Göyçay şəhər sakini İmaməliyev Fərhad Məmməd oğlunun bildirdiyinə görə, onun oğlu yaralı komandiri Qasımov Zahidi döyüş meydanından çıxarmaq istədikdə, hər ikisi ermənilər tərəfindən əsir götürülüb və Dağlıq Qarabağda saxlanılıb.

**Gasimov Zahid Asad oglu**

Gasimov Zahid Asad oglu was born in 1964. In April of 1992 he took active part in the fights for Garabagh. On the 22nd of March, 1994 during the fight in direction of Garakhanbeyli village of Fuzuli district wounded Zahid was surrounded and taken prisoner.

According to the information of former commander of Ministry of Internal Affairs of Azerbaijan Republic police major N.Shahmuradov, during the fight for Garakhanbeyli village of Fuzuli district, Zahid was wounded and police sergeant Imamaliyev Fariz wanted to save him, both of them were taken prisoner.

His cousin Gasimov Mirgasim Isa oglu (he lives in Goychay town, M.Huseynzade Street, 23) found out from Zahid’s front-line comrades that he was taken prisoner on the 22nd of March, 1994.

The father of prisoner of war Imamaliyev Fariz Farhad oglu–Imamliyev Farhad Mammad oglu who lived in Goychay town informed that his wounded commander wanted to take off from the battle field but both of them were taken prisoner by Armenians and kept in Upper Garabagh.



## Qasımov Zahid Zəkər oğlu

1970-ci ildə Bakı şəhərində anadan olub. 15 may 1992-ci ildə könüllü olaraq Milli Orduya yazılıb. Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. 28 may 1992-ci ildə Füzuli rayonunun Qırmızı Bazar kəndində fermanın yaxınlığında gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Bu məlumatı Zahidin anası- Bakı şəhəri, Binə qəsəbəsi, Tağıbəyov küçəsi, 2-ci döngə, ev 2-də yaşayan Qasımova Balacaxanım Sabir qızı verib. O, 3 iyul 1992-ci ildə Rusiya televiziyasının «Vesti» proqramına baxarkən ermənilər tərəfindən Xocavənd şəhərində saxlanılan oğlu Zahid və daha 3 azərbaycanlı əsiri görüb.

Erməni əsirliyindən qayıdan Salehin qohumu, hazırda Bakı şəhəri, Ceyranbatan qəsəbəsindəki litseyin yataqxanasında məskunlaşmış Məmmədov Əlif Fərhad oğlunun verdiyi məlumata görə, Laçın rayonunun işğalı zamanı Şahverdiyev Salehlə birlikdə girov götütülərək Xankəndinə aparılıb. Sonradan Salehi dəyişdirmək adı ilə Xocavənd rayonuna göndəriblər. Əlif bir daha onu görməyib.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlu ərizəsində ermənilərlə radiodanışıqlar zamanı Şahverdiyev Salehin girov götürülərək Xocavənd şəhərində saxlandığı barədə öyrəndiyini yazıb.

**Shahverdiyev Saleh Karim oglu**

Shahverdiyev Saleh Karim oglu was born in Karimbeyli village of Fuzuli district of Azerbaijan Republic in 1961. On the 18th of May, 1992 Saleh with relatives was taken hostage by Armenians near Feteli peyesi village of Lachin district.

According to the information of Saleh's relative Mammadov Alif Farhad oglu who released from Armenian captivity (at present he lives in Baku, college hostel in Jeyranbatan settlement), during occupation of Lachin district by Armenians he was taken hostage with Saleh and sent to Khankandi. Then Saleh was sent Khojavand apparently to change. Alif didn't see him any more.

According to the information of former head deputy of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked during 1992-1993 (he lives in Baku, hostel № 4 of AMU, room № 205), Armenians connected by radio communication and he found out that Shahverdiyev Saleh was taken hostage and kept in Khojavand district.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun dediyinə görə, erməni polisinin əməkdaşı Albert Voskanyan Salehin Xocavənd şəhərində saxlandığını bildirib.

According to the words of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives Allahyarli village of Beylagan district), Armenian policeman whose name was Albert Vaskanyan informed that Saleh was kept in Khojavand.

**Şahverdiyev Vüqar Məmməd oğlu**



1973-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhərinin işğalı günü girov götürülüb.

Qardaşı - Naftalan rayonunun «Şirvan» sanatoriyasında məskunlaşmış Şahverdiyev Rövşən Məmməd oğlunun verdiyi məlumata görə, şəhəri tərk edərkən Naxçıvanik kəndi yaxınlığında Qaraqaya deyilən yerdə ermənilər onları atəşə tutub. Vüqar qolundan yaralanıb. Rövşən qardaşının bir neçə Xocalı sakini ilə girov götürüldüyünün şahidi olub.

Rövşənlə eyni sanatoriyada məskunlaşan, erməni əsirliyindən qayıtmış Əzizov Ramin İbrahim oğlunun dediyinə görə, ermənilər onları girov götürərək Əsgəran rayonunun polis şöbəsinə aparıblar. Orada qolundan yaralanmış Vüqarı görüb. Ramin onun köynəyini cıraraq yarasını sarıyıb. Səhəri günü onları ayrı-ayrı kameralara salıblar, bir daha Vüqarı görməyib.

**Shahverdiyev Vugar Mammad oglu**

Shahverdiyev Vugar Mammad oglu was born in Khojali town of Azerbaijan Republic in 1973. On the 26th of February, 1992 during the day of Khojali's occupation he was taken hostage by Armenian armed forces.

According to the information of his brother Shahverdiyev Rovshan Mammad oglu (he lives in «Shirvan» sanatorium in Naftalan), when they wanted to leave and ran away Armenians fired upon them near the place called Garagaya in Nakhchivanik village. At that moment Vugar was wounded in arm. Rovshan eye-witnessed his brother with several villagers of Khojali was taken hostage.

According to the words of Azizov Ramin Ibrahim oglu who returned from Armenian captivity (he lives in «Shirvan» sanatorium in Naftalan), Armenians took them as hostages and sent to Asgaran Police Department. He met there Vugar wounded in arm. Ramin tore his shirt and bandaged his wound. In the morning they separated him to another prison cell and he didn't see Vugar any more.



## Şəmiyev Etibar Fəyyaz oğlu

1959-cu ildə Azərbaycan Respublikası İmişli rayonun Qaradonlu kəndində anadan olub. 5 iyun 1992-ci ildə İmişli Rayon Hərbi Komissarlığı tərəfindən cəbhəyə göndərilib. 15 iyun 1992-ci ildə Ağdam rayonunun Sırxavənd kəndi uğrunda döyüşdə əsir götürülüb.

Anası - Şəmiyeva İnsaf Həsən qızının dediyinə görə, oğlunun axtarışı ilə məşğul olan zaman Ağdamın Qalayçılar kəndindən Fərman adlı şəxs ona Etibarın Ağdamın işğal olunmuş kəndlərindən birində saxlandığını deyib.

Azərbaycan Respublikası Qızıl Aypara Cəmiyyətinin təqdim etdiyi arayışda Şəmiyev Etibarın 1992-ci ilin iyun ayında əsir götürüldüyü və Ermənistanın Sovetaşan qəsəbəsində istintaq idarəsində saxlandığı göstərilib.

## Shamiyev Etibar Fayyaz oglu

Shamiyev Etibar Fayyaz oglu was born in Garadonlu village of Imishli district of Azerbaijan Republic in 1959. On the 5th of June, 1992 he was sent to the front by the Military Registration and Enlistment Office of Imishli district. On the 15th of June, 1992 during the fight for Sirkhavand village of Aghdam district, Etibar was taken prisoner by Armenians.

According to the words of his mother Shemiyeva Insaf Hasan gizi, when she searched for her son, Farman from Galaychilar village of Aghdam said that Etibar was kept in one of the captured villages.

According to the report of Society of Red Cresent of Azerbaijan Republic, Shamiyev Etibar was taken prisoner in June, 1992 and kept in Investigation Department of Sovetashan settlement of Armenia.



## Şirinov Əhməd Vaqif oğlu

1971-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Çaytumas kəndində anadan olub. Ermənilərin Qarabağa hücumları başlayan gündən özünümüdafiə batalyonunun tərkibində sərhəd kəndlərinin müdafiəsi uğrunda döyüşlərdə fəal iştirak edib. 1993-cü il avqust ayının sonlarında yaşadıqları Çaytumas kəndində nənəsi Şirinova Cahan İsmayıl qızı (1900) və onun bacısı Şü-

## Shirinov Ahmad Vagif oglu

Shirinov Ahmad Vagif oglu was born in Chaytumas village of Gubadli district of Azerbaijan Republic in 1971. When Armenians began to attack Garabagh, he took active part in fights for defense of boundary villages allotted to self-defense battalion. At the end of August, 1993 during the occupation of Gubadli district by Armenians, Ahmed with his grandmother Shirinova Jahan Ismayil gizi (year of birth:

kürova Xeyransa İsmayıl qızı (1914) ilə birlikdə girov götürülüb.

Bacısı-Bakı şəhəri, Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi, ev 30, mənzil 1-də yaşayan Mehdiyeva (Şirinova) Nəzakət Vaqif qızının dediyinə görə, qardaşı bir müddət atası ilə Rusiyada yaşadığı və sarışın olduğu üçün kənddə onu Rus Əhməd çağırıblar. Ona nənəsi Cahanın, atasının xalası Xeyransanın və Əhmədin ermənilər tərəfindən girov götürüldüyünü həmkəndlisi Telli deyib.

Ağayeva Əminə Əhmədin Həmzəli kənd sakini Qaraşov Telmanla birlikdə girovluqda olduğunu, qaçmağa cəhd etdiyini, lakin baş tutmadığını, ermənilər tərəfindən təkrar tutulub, «UAZ» markalı avtomaşına mindirilərək naməlum istiqamətə aparıldığını bildirib.

Erməni əsirliyindən qaçmış Qubadlı rayonu Həmzəli kənd sakini Qaraşov Telman İsmayıl oğlu izahatında yazıb ki, yaşadıqları rayon işğal olunan gün girov götürülüb. Bir həftə Qubadlı rayonunun Şotlanlı kəndində, tövlədə Çaytumas kənd sakini Rus Əhməd (Şirinov Əhməd) deyilən şəxslə və Mərdanlı kənd sakini məktəb direktoru Nəzərov Fazillə saxlanılıb. Həmin müddətdə ermənilər onları ac-susuz saxlayıb, gündə azı 3 dəfə dəyənək, ağac və avtomat qundağı ilə döyüb, ağır işgəncələr veriblər. Sonuncu gün Rus Əhmədlə Fazil müəllimi huşlarını itirənə qədər döyüblər. Telmanı isə yüksək rütbəli, hərbçi erməni qadının göstərişi ilə döyüş zamanı həlak olmuş oğlunun qəbrinin üstündə başını kəsmək üçün mülki bir erməniyə veriblər. Elə həmin vaxt atılan qrad mərmisi oraya düşüb, qarışıqlıqdan istifadə edən Telman qaça bilib. Rus Əhmədlə Fazil müəllim əsirlikdə qalıblar.

1900) who lived in Chaytumas village of Gubadli ditrict and her sister Shukurova Kheyransa Ismayil gizi (year of borth: 1914) was taken hostage.

According to the words of sister Mehdiyeva (Shirinova) Nazakat Vagif gizi (she lives in Baku, Bilajari settlement, Asaf Zeynalli Street, 30, app.1), he lived with father in Russia. Ahmed looked like as a Russian man and that's why everybody in the village called him Rus Ahmed. His villager Telli said that his grandmother Jahan, aunt of his father Kheyransa and Ahmed were taken hostages by Armenians.

Agayeva Amina informed that Garashov Telman who lived in Hamzali village was in Armenian captivity with Ahmed, they tried to run away but Armenians caught him and got on the car «UAZ» and took them to unknown direction.

Garashov Telman Ismayil oglu who returned from Armenian captivity and lived in Hamzali village of Gubadli district wrote a statement that during the day of their district's occupation he was taken hostage. He was kept in Shotlanli village of Gubadli district for a week and then he with Rus Ahmed (Shirinov Ahmed) who lived in Chaytumas village and the director of school Nazarov Fazil who lived in Mardanli village was kept together. Armenians kept them without food and water. They were beaten with a stick and back side of avtomat for 3 times and put them to tortures. At last day Rus Ahmed and Fazil were beaten till they lost cansciousness. Telman had to be killed at the grave by the order of high -rank Armenian military woman whose son died at the fight. At that moment Telman could save himself and ran away. Rus Ahmed and Fazil stayed at Armenian captivity.



**Şirinov İnqilab Şirin oğlu**

1958-ci ildə Azərbaycan Respublikasının Beyləqan şəhərində anadan olub. 1991-ci ilin əvvəllərində könüllü olaraq orduya yazılıb. Şuşa şəhərinin müdafiəsində iştirak edib. 8 may 1992-ci ildə Şuşa şəhərinin işğalı günü əsir götürülüb və Ermənistanın Spitak şəhərinə aparılıb.

Qardaşı - Beyləqan şəhər sakini Şirinov Rafiq Şirin oğlu bildirir ki, İnqilabla bir batalyonda döyüşmüş Beyləqan rayonu Xalac kənd sakini Seyfəddin onun heyət üzvü olduğu piyadaların döyüş maşınının vurulduğunu görüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun məlumatına görə, radioəlaqə zamanı qarşı tərəfdən Karen adlı şəxs ona Şirinov İnqilabın sağ olduğunu və Ermənistanın Spitak şəhərində saxlandığını deyib.

**Shirinov Ingilab Shirin oglu**

Shirinov Ingilab Shirin oglu was born in Beylagan of Azerbaijan Republic in 1958.

At the beginning of 1991, he voluntarily joined the Army and took part in fights for Garabagh. Ingilab took part in defense of Shusha. On the 8th of May, 1992 during occupation of Shusha and sent to Spitak town of Armenia he was taken prisoner.

According to the information of his brother Shirinov Rafig Shirin oglu who lived in Beylagan town, Seyfeddin who fought with Ingilab at the same battalion and lived in Khalaj village of Beylagan district saw that Armenians fired upon their armoured infantry machine.

According to the information of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives in Allahyarli village of Beylagan district) Armenian whose name was Karen informed by radio communication that he was alive and kept in Spitak city of Yerevan.



**Şirinov Nazim Şirin oğlu**

1962-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub. 23 oktyabr 1993-cü ildə atası Şirinov Şirin Bilal oğlu, dayısı Hüseynov Cavanşir Ərşad oğlu, xalası Əli-

**Shirinov Nazim Shirin oglu**

Shirinov Nazim Shirin oglu was born in Doshulu village of Jabrayil district of Azerbaijan Republic in 1962. On the 23rd of October, 1993, Shirinov Nazim, his father Shirinov Shirin Bilal

yeva Nisə Xanlar qızı ilə birlikdə qardaşı Şirinov Tahir Şirin oğlunun idarə etdiyi «VAZ-21011» markalı S 18-87 JA dövlət nömrə nişanrlı qırmızı rəngli avtomaşında Füzuli rayonunun Kərimbəyli və Şükürbəyli kəndləri arasındakı ərazidə ermənilər tərəfindən əsir götürülüb və Dağlıq Qarabağın Xankəndi şəhərində saxlanılıblar.

Qardaşı - Cəbrayıl rayonu Doşulu kənd sakini Şirinov Bakir Şirin oğlunun verdiyi məlumata görə, atası, qardaşları, dayısı və xalası Füzuli rayonu ərazisində ermənilər tərəfindən tutularaq Arustamyan Yurikin evində girov saxlanılıblar.

Cəbrayıl rayonu Şahvəli kənd sakini Maqsudov Əhməd Abbas oğlu ərizəsində ermənilər tərəfindən Xankəndi uşaq xəstəxanasında 10 gün Şirinov Nazimlə birlikdə saxlandığını yazıb.

oglu, uncle Huseynov Javanshir Arshad oglu, aunt Aliyeva Nisa Khanlar gizi and brother Shirinov Tahir who drove a red car «VAZ-21011» (public plate-number S 18-87 JA) were taken prisoners on the territory between Kerimbeyli – Shukurbeyli villages of Fuzuli district and kept in Khankandi of Upper Garabagh.

According to the information of his brother Shirinov Bekir Shirin oglu who lived in Doshulu village of Jabrayil district, his father, brother, uncle and aunt were taken prisoners and kept in the house of Arutsunyan Yurik.

Magsudov Ahmed Abbas oglu who lived in Shahveli village of Jabrayil district confirmed the fact that with Shirinov Nazim they were kept in Khankandi children hospital for 10 days.

## Şirinov Şirin Bilal oğlu



1931-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub. 16 avqust 1993-cü ildə yaşadıqları kənd ermənilər tərəfindən işğal olunduğu üçün Cəbrayıl rayonunun Daşburun kəndinə köçüblər. 23 oktyabr 1993-cü ildə oğlanları Şirinov Nazim və Şirinov Tahir qohumu Hüyseynov Cavanşir Ərşad oğlu ilə qohumu Əliyeva Nisə Xanlar qızıgilə qonaq gəliblər. Qayıdanda Əliyeva Nisəni də Tahirin idarə etdiyi qırmızı rəngli «VAZ- 21011» markalı S 18-87 JA dövlət nömrə nişanlı avtomaşında şəhərə aparıblar. Füzuli rayonunun Kərimbəyli və Şükürbəyli kəndləri arasındakı yolda ermənilərlə rastlaşıb, girov götürülüblər.

Bu məlumatı Nisə Əliyevanın oğlu, Ba-

## Shirinov Shirin Bilal oglu

Shirinov Shirin Bilal oglu was born in Doshulu village of Jabrayil district of Azerbaijan Republic in 1931. On the 16th of August, 1993 their village was captured by Armenians and they had to move Dashburun village of Jabrayil district. On the 23rd of October, 1993 Bilal with sons: Shirinov Nazim and Tahir, Huseynov Javanshir Arshad oglu went to the house of relative Aliyeva Nisa Khanlar gizi. They with Aliyeva Nisa went to the town by Tahir's red car «VAZ-21011» (public-plate number S 18-87 JA). They met Armenians on the way between Karimbeyli and Shukurbeyli villages of Fuzuli district. Armenians took them as hostages.

That information was given by Aliyeva Nisa's son - Namazov Gurbat Aga oglu (he lives in Baku, Boyukshor settlement).

kı şəhəri, Böyükşor qəsəbəsində yaşayan Namazov Qürbət Ağa oğlu verib.

Şirinov Bakir Şirin oğlunun dediyinə görə, atası və dayısı Cavanşir, qardaşı Tahirin idarə etdiyi şəxsi «VAZ- 21011» markalı avtomaşında hərbi xidmətdə olan digər qardaşı Nazimlə Mərzili kəndində yaşayan qohumları Əliyeva Nisəgilə gəliblər. Qayıdanda Nisəni də özləri ilə götürüblər. Füzuli rayonunun Kərimbəyli və Şükürbəyli kəndləri arasındakı yolda girov götürülüblər.

Cəbhə xəttində ermənilərlə aparılan radiodanışıqlar zamanı qarşı tərəfdən onların Xankəndi şəhərində, Xocavənd rayon sakini Arustamyan Yurikin evində saxlandıqları bildirilib.

According to the words of Shirinov Bakir Shirin oglu, his father and uncle – Javanshir took by Tahir's private car «VAZ-21011» his other brother Nazim from the military unit and went to the house of their relative – Aliyeva Nisa who lived in Marzili village. When they returned, they took Nisa with them. They were taken prisoners by Armenians on the way between Karimbeyli and Shukurbeyli villages of Fuzuli district. It was informed by radio communication with Armenians that they were kept in the house of Arustamyan Yurik in Khankandi who was from Khojavand district.

## Şirinov Tahir Şirin oğlu



1959-cu ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub. 23 oktyabr 1993-cü ildə atası Şirinov Şirin Bilal oğlu, qardaşı Şirinov Nazim Şirin oğlu, dayısı Hüseynov Cavanşir Ərşad oğlu və xalası Əliyeva Nisə Xanlar qızı Tahirin idarə etdiyi «VAZ-21011» markalı S 18-87 JA dövlət nömrə nişanlı qırmızı rəngli avtomaşında Füzuli rayonunun Kərimbəyli və Şükürbəyli kəndləri arasındakı ərazidə ermənilər tərəfindən əsir götürülüb, Xankəndi şəhərinə aparılıblar.

Qardaşı - Cəbrayıl rayonu Doşulu kənd sakini Şirinov Bakir Şirin oğlunun verdiyi məlumata görə, atası, qardaşları, dayısı və xalası Füzuli rayonu ərazisində ermənilər tərəfindən tutularaq Arustamyan Yurikin evində girov saxlanılıblar.

Bu faktı Tahirin digər qardaşı - Cəbrayıl rayonu Doşulu kənd sakini Şirinov Şakir

## Shirinov Tahir Shirin oglu

Shirinov Tahir Shirin oglu was born in Doshulu village of Jabrayil district of Azerbaijan Republic in 1959. On the 23rd of October, 1993 his father Shirinov Shirin Bilal oglu, brother Shirinov Nazim Shirin oglu, uncle Huseynov Javanshir Arshad oglu, aunt Aliyeva Nisa Khanlar gizi and Shirinov Tahir who drove a red car «VAZ-21011» (public plate-number S 18-87 JA) were taken prisoners by Armenians on the territory between Karimbeyli – Shukurbeyli villages of Fuzuli district and kept in Khankandi of Upper Garabagh.

According to the information of his brother - Shirinov Bakir Shirin oglu who lived in Doshulu village of Jabrayil district, his father, brothers, uncle and aunt were taken prisoners and kept in the house of Arutsunyan Yurik.

That information was confirmed by Tahir's other brother Shirinov Shakir Shirin

Şirin oğlu, dayısı - Bakı şəhəri, Binəqədi rayonu Ç.İldırım küçəsi, ev 19-da yaşayan Hüseynov Akif Əmirəli oğlu, xalası oğlu - Bakı şəhəri, Nərimanov rayonu Böyük Şor qəsəbəsində yaşayan Namazov Qürbət Ağa oğlu da təsdiq edib.

Cəbrayıl rayonu Şahvəli kənd sakini Maqsudov Əhməd Abbas oğlu ərizəsində ermənilər tərəfindən Xankəndi uşaq xəstəxanasında 10 gün Şirinov Tahirlə birlikdə saxlandığını yazıb.

oglu who lived in Doshulu village of Jabrayil district, uncle Huseynov Akif Amirali oglu (now he lives in Baku, Binagadi district, Ch. Ildirim Street, 19) and aunt's son Namazov Gurbat Aga oglu (he lives in Baku, Narimanov district, Boyuk Shor settlement).

Magsudov Ahmed Abbas oglu who lived in Shahveli village of Jabrayil district confirmed the fact that with Shirinov Nazim they were kept in Khankandi children hospital for 10 days.

## Şirinov Vəli Asif oğlu



1972-ci ildə ildə anadan olub. 1990-cı ildə Sumqayıt şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 31 avqust 1993-cu ildə Qubadlı rayonunun Balasultanlı kəndində gedən döyüşdə əsir götürülüb.

Biləsuvar şəhəri 8 Mart küçəsi, ev 7-də yaşayan əsir və girovların dəyişdirilməsində iştirak etmiş Şirinov İbrahim Səftər oğlunun qarşı tərəfin nümayəndəsi Edik adlı şəxsdən aldığı məlumatdan Şirinov Vəlinin Hadrut şəhərində saxlandığı bəlli olub. Edik Yerevan şəhərində əlaqə telefonlarını da verib: 27-77-17; 24-74-14.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Cəbrayıl rayon şöbəsindən 9 oktyabr 1993-cü ildə təqdim edilən əsir götürülmüş Azərbaycan vətəndaşlarının siyahısında Şirinov Vəlinin də adı olub. Onun Hadrut şəhərində saxlandığı göstərilib.

## Shirinov Vali Asif oglu

Shirinov Vali Asif oglu was born in 1972. In 1990 he was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town. On the 31st of August, 1993 during the fight for Balasultanli village of Gubadli district Vali was taken prisoner.

Shirinov Ibrahim Safdar oglu (he lives in Bilasuvar town, 8th of March Street, app.7) took part in change of prisoners and hostages and got the information from Armenian representative whose name was Edik that Shirinov Vali was kept in Hadrud. Edik gave the contact phone: 27-77-17, 24-74-14.

On the 9th of October, 1993 Jabrayil district Department of Ministry of National Security of Azerbaijan Republic, presented a list of Azerbaijani citizens. There was the name of Shirinov Vali in that list. It was shown that he was kept in Hadrud.



**Şirinov Vüqar Fikrət oğlu**

1973-cü ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olub. 1993-cü ildə Bakı Ali Hərbi Ümumqoşun Komandirlər məktəbində oxuduğu zaman fevral ayının 13-də 60 müdavimlə birlikdə Ağdərə rayonuna göndərilib. 14 fevral 1993-cü ildə Ağdərə rayonunun Umudlu kəndində gedən döyüş zamanı 3 müdavim yoldaşı ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb.

Onunla birlikdə əsir götürülmüş müdavim Vadim Eyyubovun anası Tamara Eyyubovanın yazdığına görə, erməni əsirliyindən qayıtmış Mayıl Məmmədova oğlunun və Vüqarın şəklini göstərdikdə o, hər ikisini tanıyıb.

Hüseynov Akif Saleh oğlunun qarşı tərəfdən əldə etdiyi azərbaycanlı əsir və girovların siyahısında Şirinov Vüqar Fikrət oğlunun da adı olub, onun Spitak şəhərində yerləşən 42411 saylı həbsxanada saxlandığı göstərilib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun 1993-cü ildə erməni polisinin əməkdaşı Abodan aldığı məlumatda əslən Şəkidən olan Şirinov Vüqarın əsir götürüldüyü bildirilib.

**Shirinov Vugar Fikret oglu**

Shirinov Vugar Fikret oglu was born in Shaki town of Azerbaijan Republic in 1973. In 1993 when he studied at Baku Supreme Military Common Forces Commanders' School with 60 final-year students, they were sent to Aghdara district on the 13th of February. On the 23rd of February, 1993 during the fight in Umudlu village of Aghdara district Vugar with 3 final-year students was taken prisoner by Armenians.

The mother of prisoner Eyyubov Vadim - Tamara Eyyubova wrote a statement that Mayil Mammadov who lived in Goychay town and returned from Armenian captivity saw the picture of her son and Vugar. He recognized both of them.

Huseynov Akif Saleh oglu got from the opposite side a list of Azerbaijani prisoners and hostages. There was the name of Vugar in that list and it was shown that he was kept in prison № 42411 in Spitak city of Armenia.

According to the information of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district), Armenian policeman whose name was Abo Shirinov said Vugar who originally from Shaki was taken prisoner in 1993.



**Şirməmmədov Teymur Əliş oğlu**

1973-cü ildə Azərbaycan Respublikası İmişli rayonunun Murquzallı kəndində anadan olub. 29 aprel 1992-ci ildə İmişli Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Ağdərə rayonuna göndərilib. 5 avqust 1992-ci ildə Ağdərə rayonunun Levonarx kəndində gedən döyüş zamanı sol ayağından ağır yaralanıb və əsir götürülüb. Xankəndi şəhərində saxlanılıb.

«Komsomolskaya pravda» qəzetinin 25 avqust 1992-ci ildə dərc olunmuş 156-cı sayında K. Markaryan adlı müxbirin «Liniya fronta-u poroqa» adlı məqaləsində Şirməmmədovdan aldığı müsahibəsi dərc olunub. Həmin yazıda göstərilib ki, Teymur Ağdərə rayonunun Levonarx kəndində gedən döyüşdə ayağından yaralanıb, 5 gün huşsuz qaldıqdan sonra ermənilər onu əsir götürüb, «Təcili yardım» maşınında Xankəndi xəstəxanasına gətiriblər. Qanqrena başladığından erməni həkimlər ayağını dizə qədər kəsməli olublar. Sonrakı taleyi məlum deyil.

**Shirmammadov Teymur Alish oglu**

Shirmammadov Teymur Alish oglu was born in Murguzalli village of Imishli district of Azerbaijan Republic in 1973. On the 29th of April, 1992 he was called up for military service by Military Registration and Enlistment Office of Imishli district and sent to Aghdara district. On the 5th of August, 1992 Teymur was wounded in left leg and was taken prisoner during the fight in Levonarkh village of Aghdara district. He was kept in Khankandi.

On the 25th of August, 1992 it was printed Shirmammadov’s interview in newspaper «Komsomolskaya pravda» (issue № 156), the article «Liniya fronta u poroga» by journalist K.Markaryan. According to that article, Teymur was wounded in leg during the fight in Levonarkh village of Aghdara district. He lost his consciousness for 5 days and then Armenians took them as prisoner by «Ambulance» car to Khankandi hospital. The wound was very seriously and Armenian doctors had to cut his leg till knee. There’s no information concerning his further life.



**Şıxəliyev Elxan Şıxəli oğlu**

1972-ci ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Nanıc kəndində anadan olub. 1 dekabr 1992-ci ildə İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Zəngilan rayonuna göndərilib. 24 dekabr 1992-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən döyüşdə 36 əsgərlə birlikdə ermənilər tərəfindən mühasirəyə alınıb və əsir götürülüb. Ermənistanın Gorus rayonunda saxlanılıb.

Elxanın sabiq tabor komandiri, Bakı şəhəri, Zığ şosesi, ev 49, mənzil 6-da yaşayan Cəbrayılov Xaqani Sərdar oğlu izahatında yazıb ki, Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən, onun rəhbərlik etdiyi döyüşdə 36 nəfər əsgər əsir götürülüb. 1993-cü il yanvar ayının 1-də ermənilər əlaqə yaradaraq əsir götürdükləri əsgərlərdən 13 nəfərinin, o cümlədən, Şıxəliyev Elxanın da adı olan siyahini onlara veriblər.

Hərbi əsir Osmanov Əkrəm Məmmədşah oğlunun qardaşı-İsmayıllı rayonu Yuxarıbaş kənd sakini Osmanov Vaqif Məmmədşah oğlunun verdiyi məlumata görə, ermənilərin azərbaycanlı hərbçilərlə apardıqları radiodanışıqlarda atası və qardaşı ilə birlikdə o da iştirak edib. Qarşı tərəf əsir götürdüyü və Ermənistanın Gorus rayonunda saxladığı 13 azərbaycanlı hərbçinin hər birinə 10 ton benzin tələb edib. Ermənilərin tələbi yerinə yetirilə bilmədiyinə görə əsirlər qaytarılmayıb. Onların sonrakı taleyi məlum deyil.

**Shikhaliyev Elkhan Shikhali oglu**

Shikhaliyev Elkhan Shikhali oglu was born in Nanij village of Ismayilli district of Azerbaijan Republic in 1972. On the 1st of December, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Ismayilli district and sent to Zangilan district. On the 24th of December, 1992 Armenians surrounded Elkhan with 36 soldiers and took them as prisoners during the fight in Yukhari Yemezli village of Zangilan district. Elkhan was kept in Gorus district of Armenia.

Elkhan's former commander of battalion Jabrayilov Khagani Sardar oglu (he lives in Baku, Zigh highway, 49, app.6) wrote a statement that his 36 soldiers were taken prisoners during the fight in Yukhari Yemezli village of Zangilan district. On the 1st of January, 1993 he connected with Armenians by radio communication and got a list of 13 prisoners incuding Shikhaliyev Elkhan.

The brother of prisoner of war Osmanov Akram Mammadshah oglu – Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district informed that during radio communication with Armenians his father and brother took part. Armenians demanded 10 t petrol for each Azerbaijani military man kept in Gorus district of Armenia. Armenians' demands weren't realized and there was no information concerning Shikhaliyev Elkhan and 12 military men taken prisoners.



## Şıxıyev Yaşar Əhməd oğlu

1969-cu ildə Ermənistan Respublikası Qafan rayonunun Aşağı Gödəkli kəndində anadan olub. Ermənilər tərəfindən ata-baba torpaqlarından qovulandan sonra 1990-cı ilin qışında Zəngilan rayonunun Tağılı kəndində məskunlaşıb. Həmin ilin yayında Zəngilan Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Piyadaların döyüş maşınının sürücüsü kimi yaşadıqları rayonunun müdafiəsi uğrunda döyüşlərdə iştirak edib, 25 avqust 1993-cü ildə Cəbrayıl rayonunun Hovuslu kəndində piyadaların döyüş maşınının heyət üzvləri: Əsədov Əziz Məhəmməd oğlu, Camalov Kamal Nüsrət oğlu ilə birlikdə yaralı vəziyyətdə əsir götürülüb, Dağlıq Qarabağa aparılıb.

Bacısı-Zəngilan rayonu Tağılı kənd sakini Şıxıyeva Ülkər Əhməd qızı ərizəsində yazıb ki, ermənilər Cəbrayıl rayonunun Hovuslu kəndinə hücum edən zaman Yaşarın idarə etdiyi piyadaların döyüş maşını kənarda mövqe tutub. Ermənilərin bir tankını vurub, təkrar hücuma keçmək istədikdə mühasirəyə alınıb, vurularaq sıradan çıxarılıb, heyət üzvləri isə əsir götürülüb.

Erməni əsirliyindən azad edilmiş Zəngilan sakini, Bakı şəhəri, Bibiheybət qəsəbəsi 1 saylı Neftçıxarma idarəsinin 2 saylı briqadasının inzibati binasında məskunlaşmış Şahməmmədov Abbas Lətif oğlunun dediyinə görə, 1993-1996-cı illərdə Xankəndi şəhərində Əsədov Əzizlə birlikdə saxlanılıb. Bu məlumatı Abbasdan hərbi əsir Əsədov Əzizin qardaşı Zəngilan rayonu Ağbis kənd sakini Əsədov Əjdər Məhəmməd oğlu öyrənib.

## Shikhiyev Yashar Ahmed oglu

Shikhiyev Yashar Ahmad oglu was born in Ashagi Godekli village of Gafan district of Armenia in 1969. Armenians expatrieted them from native lands and then they were moved into Tagili village of Zangilan district in autumn of 1990. In summer of 1990 he was called up for military service by the Military Registration and Enlistment Office of Zangilan. The driver of armoured infantry machine Yashar took part in defense of their district and together with Asadov Aziz Mahammad oglu and Jamalov Kamal Nusrat oglu, he was wounded, taken prisoners and sent to Upper Garabagh on the 25th of August, 1993.

His sister Shikhiyeva Ulker Ahmad gizi who lived in Tagili village of Zangilan district wrote a statement that during attack of Hovuslu village of Jabrayil district Yashar by armoured infantry machine took up the position. Armenians fired upon a tank. They wanted to attack then surrounded it and took all the members of crew as prisoners.

According to the words of Shahmammadov Abbas Latif oglu who released from Armenian captivity and lived in Zangilan district (at present he lives in Baku, Bibi Heybat settlement, administrative building of 2nd brigade of Oil Department), he was kept in Khankandi with Asadov Aziz during 1993-1996.That information was found out by the brother of prisoner of war Asadov Aziz – Asadov Ajdar Mahammad oglu who lived in Agbish village of Zangilan district.



**Şükürov Elşad Camal oğlu**

1971-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Alıkeyxalı kəndində anadan olub. 1992-ci ildə Azərbaycan Bədən Tərbiyəsi Akademiyasını bitirib. Leytenant Şükürov Elşad Bakı şəhərində səfərbər olunaraq Qubadlı rayonuna göndərilib. 26 oktyabr 1992-ci ildə Laçın rayonunun Səfiyan kəndində gedən döyüş zamanı əsir götürülüb, Hadrut rayonunun Ağbulaq kəndinə aparılıb.

Atası-Cəbrayıl rayonu Alıkeyxalı kənd sakini, Bakı şəhərinin Şüvəlan qəsəbəsində məskunlaşmış Şükürov Camal Abbas oğlunun verdiyi məlumata görə, 1992-ci ilin axırlarında Füzuli rayonunun Gorazıllı kəndində yerləşən hərbi hissənin sürücüsü Sahib adlı şəxsdən Elşadın Hadrut rayonunda əsir saxlandığını öyrənib.

1995-ci ildə Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu Camalın qohumu Quliyev Təbriz Əhəd oğlu ilə Elşadın sağ olması və Xankəndində şəxsi evdə saxlanması haqqında xəbər göndərib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu izahatında yazıb ki, növbəti radiodanışıqlar zamanı erməni polisinin əməkdaşı Abodan Cəbrayıl rayon sakini Şükürov Elşadı Hadrutun Ağbulaq kəndində, öz yanında saxladığını öyrənib.

**Shukurov Elshad Jamal oglu**

Shukurov Elshad Jamal oglu was born in Alikeykhali village of Jabrayil district of Azerbaijan Republic in 1979. In 1992 he graduated from Azerbaijan Academy of Physical Training and got the rank of lieutenant. Then Elshad was mobilized in Baku and sent to Gubadli district. On the 26th of October, 1992 during the fight in Safiyan village of Lachin district Shukurov Elshad was taken prisoner and sent to Agbulag village of Hadrud district.

According to the information of his father Shukurov Jamal Abbas oglu who lived in Alikeykhali village of Jabrayil district (he lives in Shuvilan settlement of Baku), the driver Sahib from military unit in Gorazill village of Fuzuli district found out that Elshad was taken prisoner in Hadrud district at the end of 1992.

In 1995 Tagiyev Mammad Gachay oglu (he lives in Machgara village of Beylagan district) said to Jamal's relative Guliyev Tabriz Ahad oglu that Elshad was alive and kept in a private house of Khankandi.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives in Allahyarli village of Beylagan district) wrote a statement that Armenian policeman Abo informed by radio communication that Shukurov Elshad from Jabrayil district was kept in Agbulag village of Hadrud at his house.



**Şükürov**
**Maqsud**
**İmran oğlu**

1974-cü ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Qayalı kəndində anadan olub.

1992-ci ilin payızında Qubadlı Rayon Hərbi Komissarlığı tərəfindən hərdi xidmətə çağırılıb, yaşadıqları ərazini müdafiə edib. 31 mart 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı əsir götürülüb. Ermənistanın Gorus rayonunda saxlanılıb.

Bu məlumatı dayısı-Sumqayıt şəhəri, 9-cu mikrorayon ev 59, mənzil 1-də yaşayan Azadəliyev Savalan Baxşəli oğlu Qubadlı Rayon Polis Şöbəsinin rəsi Faiq Kərimovdan öyrənib. F.Kərimovun dediyinə görə, o, Gorus Rayon Polis Şöbəsinin əməkdaşları ilə əlaqə yaradaraq Şükürov Maqsudun əsir götürülərək orada saxlandığını öyrənib.

**Shukurov**
**Magsud**
**Imran oglu**

Shukurov Magsud Imran oglu was born in Gayali village of Gubadli district of Azerbaijan Republic in 1974. In autumn of 1992 he was called up for military service to defend his village. On the 31st of March, 1993 during the day of Kelbajar occupation by Armenians Magsud was taken prisoner. He was kept in Gorus district of Armenia.

That information was found out by uncle – Azadaliyev Savalan Bakhshali oglu (he lives in Sumgayit, 9th microdistrict, app.59/1) from the chief of Police Department of Gubadli district F.Karimov. According to Karimov's words, he connected with officers of Gorus district Police Department and found out that Shukurov Magsud was taken prisoner and kept there.



**Şükürov**
**Taleh**
**Xanəhməd oğlu**

1963-cü ildə Azərbaycan Respublikası Quba rayonunun I Nügədi kəndində anadan olub. 1992-ci ilin mart ayında könüllü olaraq cəbhəyə yollanıb. Laçın, Şuşa, Qazax, Ağdam rayonlarında gedən döyüşlərdə iştirak edib. Tağım komandiri Şükürov Taleh 28 dekabr 1993-cü ildə Ağdam rayonunun Mərzili kəndində gedən döyüş zamanı yaralı vəziyyətdə əsir götürülüb.

**Shukurov**
**Taleh**
**Khanahmed oglu**

Shukurov Taleh Khanahmed oglu was born in 1st Nugedi village of Guba district of Azerbaijan Republic in 1963. In March of 1992 he went to front voluntarily and took part in fights for Garabagh. Taleh took part in fights in Lachin, Shusha, Gazakh and Aghdam districts. The commander of troop Shukurov Taleh was wounded and taken prisoner during the fight in Marzili village of Aghdam dis-

Bu məlumatı döyüş yoldaşı-Ağdam rayonu Əlimədədli kənd sakini, Bərdə rayonundakı Ərəb-1 çadır şəhərciyində məskunlaşmış Baxşəliyev Fazil Nurqələm oğlu verib. Onun dediyinə görə, 1993-cü ildə Talehin xidmət etdiyi taborda siyasi məsələlər üzrə müavin olub. Həmin il dekabr ayının 28-də Ağdam rayonunun Mərzili kəndində gedən döyüşdə hava duman olduğundan irəlidə gedən 3 döyüşçü, o cümlədən Şükürov Taleh ermənilərin açdığı atəş nəticəsində yaralanıb əsir götürülüb.

Anası-Quba rayonu I Nüvədi kənd sakini Şükürova Gülayə Ağagül qızı izahatında yazıb ki, oğlunun axtarışı ilə məşğul olan vaxt döyüş yoldaşları qarşı tərəflə radioəlaqə yaradaraq Talehin əsir götürülüb, Şuşa şəhərində saxlandığını öyrəniblər.

trict on the 28th of December, 1993.

That information was given by front-line comrade Bakhshaliyev Fazil Nargalam oglu who lived in Alimadadi village of Aghdam district (he lives in camp town Arab-1 of Barda district). According to his words, Taleh was deputy for political issue of battalion where he served in 1993. On the 28th of December, 1993 the weather was foggy and 3 fighters including Shukurov Taleh was ahead and Armenians fired upon them during the fight in Marzili village of Aghdam district. He was taken prisoner with one fighter.

When his mother Shukurova Gulaya Asagul gizi (she lives in Guba district, 1st Nuvadi village) searched for her son, front-line comrades connected with Armenians by radio communication and informed that Taleh was taken prisoner and kept in Shusha.

## Tağıyev Eldəniz Bilal oğlu



1975-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Qarqalıq kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 5 yanvar 1994-cü ildə Füzuli rayonunun Aşağı Əbdürəhmanlı kəndində gedən döyüş zamanı əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Xaçmaz rayonu Sayad kənd sakini Həsənov Ələmşah Ənvər oğlunun məlumatında deyilib ki, əvvəlcə Şuşa şəhərində yerləşən xəstəxanada, sonra isə həbsxanada saxlanılan zaman Tağıyev Eldəniz də onunla birlikdə olub. Bir neçə vaxtdan sonra Eldənizi harasa aparıblar.

Saatlı rayonu Bəylər kənd sakini, Erməni əsirliyindən azad olunmuş Rzayev Zaur Vaqif oğlunun bildirdiyinə görə, 1994-

## Tagiyev Eldaniz Bilal oglu

Tagiyev Eldaniz Bilal oglu was born in Gargalig village of Hachmaz district in 1975. He took part in fights for Garabagh. On the 5th of January, 1994 during the fight for Ashagi Abdurahmanli village of Fuzuli district Eldaniz was taken prisoner by Armenians.

According to the information of Hasanov Alamshah Anvar oglu who lived in Sayad village of Khachmaz district and returned from Armenian captivity, at first he was kept in prison in Shusha and then he was in prison with Tagiyev Eldaniz. Later Eldaniz was taken somewhere.

According to the information of Beyler village of Saatli district, Rzayev Zaur Vagif oglu who returned from Armenian captivity, he was kept in Shusha prison with

cü ildə Şuşa həbsxanasında Eldənizlə birlikdə saxlanılıb. Ermənilər Tağıyevi Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədiblər.

Bakı şəhəri, R.Məmmədov küçəsi, ev10, mənzil 43-də yaşayan, erməni əsirliyindən qayıtmış Əliyev Famil Heydər oğlu və Bakı şəhəri, Sabunçu qəsəbəsi, Kalinin küçəsi, ev 6-da yaşayan erməni əsirliyindən qayıtmış Qafarov Rauf Şəmsəddin oğlu da Zaurun söylədiklərini təsdiq ediblər.

Bakı şəhəri, Motodrom massivi 8-də yaşayan İsayev Səfərin və Goranboy rayonu Xanqərvənd kənd sakini Ağalarov Musanın əldə etdiyi Şuşa həbsxanasında saxlanılan və Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahısında Eldəniz Tağıyevin də adı olub. Siyahını Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Elmira Ağayan təsdiq edib.

Eldaniz in 1994. Armenians hid Tagiyev from ICRC.

Aliyev Famil Heydar oglu (he lives in Baku, R.Mamemaov Street, 10, app.43) who returned from Armenian captivity and Jafarov Rauf Shamsaddin oglu (he lives in Baku, Sabunchu settlement, Kalinin Street, 6) who also returned from Armenian captivity confirmed that fact which was told by Rzayev Zaur.

In 1995 Isayev Safar (he lives in Baku, Motodrom massif, 8) and Aglarov Musa who lived in Khangarvand village of Goranboy district got a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC who was kept in Shusha prison and there was the name of Tagiyev Eldaniz in that list. The chief of staff of Armenian regiment in occupied Shusha Elmira Agayan confirmed that list.

## Tağıyev Elşən Qubad oğlu



1971-ci ildə Azərbaycan Respublikası Salyan rayonunun Seyidsadıxlı kəndində anadan olub. 27 dekabr 1993-cü ildə Salyan Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Füzuli döyüşlərində iştirak edib. 4 yanvar 1993-cü ildə Füzuli rayonunun Şükürbəyli kəndində gedən döyüşdə ayağından yaralanaraq əsir götürülüb.

Qardaşı - Salyan rayonu Seyidsadıxlı kənd sakini Tağıyev İntiqam Qubad oğlunun dediyinə görə, döyüş yoldaşları Elşənin 4 yanvar 1994-cü ildə ermənilər tərəfindən əsir götürüldüyünü bildiriblər.

Salyan rayonu Seyidsadıxlı kənd sakini, Elşənin döyüş yoldaşı və qohumu Tağı-

## Tagiyev Elshan Gubad oglu

Tagiyev Elshan Gubad oglu was born in Seyidsadikhli village of Salyan district of Azerbaijan Republic in 1971. On the 27th of December, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Salyan district. Tagiyev Elshan took part in fights for Fuzuli district. On the 4th of January, 1993 during the fight for Shukurbeyli village of Fuzuli district Elshan was wounded in leg and taken prisoner.

According to the words of his brother who lived in Seyidsadikhli village of Salyan district, Tagiyev Intigam Gubad oglu Elshan's front-line comrades informed that he was taken prisoner by Armenians on the 4th of January, 1994.

yev Qasım Mədət oğlu onun əsir götürüldüyünü təsdiqləyib.

Salyan rayonu Marışlı kənd sakini Cəbrayılov Rabil Ənnağı oğlunun bildirdiyinə görə, 20 sentyabr 1994-cü ildə Füzuli rayonunun Horadiz kəndində, Azərbaycan ordusunun ön mövqeyində yerləşdikləri zaman qarşı tərəfdə səngər qazanlardan biri Salyan rayonunun Seyidsadıxlı kəndindən olan Tağıyev Elşən Qubad oğlu olduğunu, ermənilər tərəfindən əsir götürülüb, Hadrut rayonunda saxlandığını deyib və bu xəbəri valideynlərinə çatdırmağı xahiş edib.

According to the information of Elshan's front-line comrade and relative Tagiyev Gasim Medet oglu who lived in Seyidsadikhli village of Salyan district, he confirmed Elshan was taken prisoner.

According to the information of Jabrayilov Rabil Annagi oglu who lived in Marishli village of Salyan district, Tagiyev Elshan Gubad oglu from Seyidsadihli village of Salyan district dug trenches for opposite side in Horadiz village of Fuzuli district where situated the front points of Azerbaijan Army on the 20th of September, 1994. Then he was taken prisoner, kept in Hadrud district and asked to tell that information his parents.

## Tahirov Hüseyn Zakir oğlu



1976-cı ildə Azərbaycan Respublikası Füzuli rayonunun Aşağı Veysəlli kəndində anadan olub. Özünümüdafiə dəstəsinin tərkibində Füzuli rayonunun erməni hücumlarından müdafiəsini təşkil edənlərdən biri olub. 1992-ci il fevral ayının 21-dən 22-ə keçən gecə əsir götürülüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun dediyinə görə, qarşı tərəf ona Hüseynin əsir götürüldüyü haqqında məlumat verib.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Firəddin Əli oğlu təqdim etdiyi arayışda ermənilərlə aparılan radiodanışıqlar zamanı Tahirov Hüseynin Xocavənd rayonunun Qırmızı Bazar kəndində saxlandığı barədə öyrəndiyini göstərib.

## Tahirov Huseyn Zakir oglu

Tahirov Huseyn Zakir oglu was born in Ashagi Veysalli village of Fuzuli district of Azerbaijan Republic in 1976. He was one of who organized the defense of Fuzuli district from Armenians' attack allotted to self-defense detachment. During the night, from the 21st to the 22nd of February, 1992, Tahirov Huseyn was taken prisoner by Armenians.

According to the words of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives in Allahyarli village of Beylagan district), the opposite side informed that Huseyn was taken prisoner.

According to the report of former head of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu (he lives in the hostel № 4, room 205 of AMU in Baku) who worked in 1992-1993, he found out by radio communication that Tahirov Huseyn was kept in Girmizi Bazar village of Khojavand district.



**Tahirov Seyfulla Beytulla oğlu**

1973-cü ildə Azərbaycan Respublikası Saatlı rayonunun Cəfərxan kəndində anadan olub. 1992-ci ilin mart ayında Saatlı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb, Füzuli rayonuna göndərilib. 31 avqust 1993-cü ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində gedən döyüşdə əsgərlər geri çəkilən zaman yaralı vəziyyətdə döyüş meydanında qalaraq əsir götürülüb.

Bu məlumatı atası-Saatlı rayonu Cəfərxan kənd sakini Tahirov Beytulla Mustafa oğlu Seyfullanın axtarışı zamanı onun döyüş yoldaşlarından öyrənib.

Döyüş yoldaşı-Sabirabad rayonu Yenikənd kənd sakini Əsədov Azad Əsəd oğlunun dediyinə görə, ermənilər Füzuli rayonunun Kürdmahmudlu kəndinə hücum edən zaman əsgərlər geri çəkilməyə məcbur olublar. Əsəd yaralı döyüşçü, Bakı şəhər sakini Ağamirzəyə yardım göstərib, onu həmin ərazidən çıxaran zaman Seyfullanın yaralandığının və əsgərlərlə birlikdə ermənilər tərəfindən əsir götürüldüyünün şahidi olub.

Kürsəngi kənd sakini Atamoğlanov Seyfulla Sabir oğlunun verdiyi məlumata görə, 1996-cı ildə qardaşının axtarışı zamanı Gürcüstan Respublikası ərazisində Ermənistan Respublikasının Noyemberyan rayonu Ləmbəli kənd sakini Qaqo ilə görüşüb. Qaqo ona qarşı tərəfdə saxlanılan, Tahirov Seyfulla Beytulla oğlunun da adı daxil olan 14 azərbaycanlı hərbi əsirin siyahısını verib. Həmin əsirlər bir müddət Ermənistanın Kirovakan şəhərində saxlanılıb, sonradan Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinın Yerevan şəhərində yerləşən istintaq təcridxanasına göndəriliblər. Bu məlumatı Qaqoya yaxın qohumu-

**Tahirov Seyfulla Beytulla oglu**

Tahirov Seyfulla Beytulla oglu was born in Jafarkhan village of Saatli district of Azerbaijan Republic in 1973. In March of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Saatli district and then he was sent to Fuzuli district. On the 31st of August, 1993 during the fight in Kurdmahmudlu village of Fuzuli district soldiers came back but he stayed there and Armenians took him as a prisoner.

His father Tahirov Beytulla Mustafa oglu who lived in Jafarkhan village of Saatli district got that information from his front-line comrades while searching for his son.

According to the words of his front-line comrade Asadov Azad Asad oglu who lived in Yenikand village of Sabirabad district, when Armenians attacked Kurdmahmudlu village of Fuzuli district soldiers had to come back because there were many losses. Azad helped wounded fighter Agamirza who was from Baku. At that moment he witnessed that Seyfulla was wounded and with 20 soldiers they were taken prisoners.

According to the information of Atamoglanov Seyfulla Sabir oglu who lived in Kursengi village, when he searched for his brother he met Gago who lived Lembeli village of Noyemberyan district of Armenia on the territory of Georgia in 1996. Gago gave him a list of 14 Azerbaijani prisoners of war. There was the name of Tahirov Seyfulla Beytulla oglu in the list. Those prisoners were kept in Kirovakan of Armenia and then they were sent to Investigatory Isolation of Armenian Committee of State Security in Yerevan. That information was given to Gago by his

Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi Noyembryan rayon şöbəsinin rəisi Alik Sarumyan verib.

relative Alik Sarumyan who was the chief of Noyemberyan district of Armenian Committee of State Security.



**Tahirov Zahir Əjdər oğlu**

